# İSLAMDA ŞİƏLİK

**ƏLLAMƏ SEYYİD MƏHƏMMƏD HÜSEYN TƏBATƏBAİ**




**Kitabın adı:...................İslamda şiəlik**
**Müəllif:...........Əllamə Seyyid Məhəmməd**
**.............................................Hüseyn Təbatəbai**
**Nəşr edən:..........Nur mədəniyyət mərkəzi**
**Tiraj:.........................................................3000**
**Çap tarixi:...............................................2002**

# Mündəricat


ALLAHIN ADI İLƏ ....................9
ÖN SÖZ ....................12
USTADIN TƏRCÜMEYİ-HALI ....................20
ƏLLAMƏ TƏBATƏBAİNİN ƏSƏRLƏRİ ....................24
MÜQƏDDİMƏ ....................27
ŞİƏLİYİN YARANMASI VƏ İNKİŞAF ETMƏSİ ....................31
ŞİƏLİYİN YARANMASI ....................33
AZLIQ TƏŞKİL EDƏN ŞİƏLƏRİN ÇOXLUQ TƏŞKİL EDƏN SÜNNÜLƏRDƏN AYRILMASI VƏ İXTİLAFIN YARANMA SƏBƏLƏRİ ....................36
İKİ MƏSƏLƏ: CANİŞİNLİK VƏ ELMİ MƏRCƏİYYƏT ....................39
SEÇKİ YOLU İLƏ OLAN XİLAFƏT MƏSƏLƏSİ VƏ ONUN ŞİƏLİK NƏZƏRİYYƏSİ İLƏ ZİDD OLMASI ....................42
XİLAFƏTİN ƏLİ (Ə)-A ÇATMASI VƏ ONUN SEÇDİYİ YOL ....................50
ŞİƏLƏRİN ƏLİ (Ə)-IN BEŞ İLLİK XİLAFƏT DÖVRÜNDƏ ƏLDƏ ETDİKLƏRİ NAİLİYYƏTLƏR ....................55
XİLAFƏTİN MÜAVİYƏNİN ƏLİNƏ KEÇMƏSİ VƏ ONUN PADŞAHLIQ VƏ VARİSLİK ÜSLUBUNA ÇEVRİLMƏSİ ....................58
ŞİƏLƏRİN ƏN AĞIR DÖVRANI ....................61
BƏNİ-ÜMƏYYƏ SƏLTƏNƏTİNİN MÖHKƏMLƏNMƏSİ ....................63
ŞİƏLƏR - İKİNCİ HİCRİ ƏSRİNDƏ ....................66
ŞİƏLƏR - ÜÇÜNCÜ HİCRİ ƏSRİNDƏ ....................69
ŞİƏLƏR - DÖRDÜNCÜ HİCRİ ƏSRİNDƏ ....................70
ŞİƏLƏR - DOQQUZUNCU HİCRİ ƏSRİNDƏ ....................71
ŞİƏLƏR - ON-ON BİRİNCİ HİCRİ ƏSRLƏRİNDƏ ....................73
ŞİƏLƏR - ON İKİ- ON DÖRDÜNCÜ ƏSRLƏRDƏ ....................74
ŞİƏLƏRİN FİRQƏLƏRƏ BÖLÜNMƏSİ ....................75
FİRQƏLƏRƏ PARÇALANMA VƏ BƏ`Zİ CƏRƏYANLARIN ARADAN GETMƏSİ ....................75
ZEYDİYYƏ ŞİƏLƏRİ ....................77
İSMAİLİYYƏ ŞİƏLƏRİ VƏ ONUN ŞÖ`BƏLƏRİ ....................78
NƏZARİYYƏ, MÜSTƏ`LİYYƏ, DƏRUZİYYƏ VƏ MUQNİƏ ....................82
ON İKİ İMAMÇI ŞİƏLƏR VƏ ONLARIN ZEYDİYYƏ VƏ İSMAİLİYYƏ İLƏ OLAN FƏRQLƏRİ ....................84

ON İKİ İMAMÇI ŞİƏLƏRİN QISA TARİXİ ....................................................86
İKİNCİ BÖLMƏ ....................................................................................................89
ŞİƏ MƏZHƏBİNİN TƏFƏKKÜR TƏRZİ ......................................................89
DİNİ TƏFƏKKÜRÜN MƏ`NASI ..........................................................................91
İSLAMDA MƏZHƏBİ TƏFƏKKÜRÜN ƏSAS MƏNBƏLƏRİ ..............91
QUR`ANIN DİNİ TƏFƏKKÜR ÜÇÜN GÖSTƏRDİYİ YOLLAR...........91
BU ÜÇ YOL ARASINDAKI FƏRQLƏR.........................................................95
BİRİNCİ YOL .......................................................................................................97
DİNİ ZAHİRLƏR VƏ ONLARIN QİSMLƏRİ ..............................................97
SƏHABƏLƏRİN HƏDİSLƏRİ ..........................................................................98
KİTAB VƏ SÜNNƏ BARƏSİNDƏ DİGƏR BİR BƏHS.............................99
QUR`ANIN ZAHİR VƏ BATİNİ .....................................................................101
QUR`ANDA TƏ`VİL (YOZUM) .....................................................................104
HƏDİS BARƏSİNDƏ YEKUN BƏHS..........................................................108
ŞİƏLƏRİN HƏDİSƏ ƏMƏLETMƏ ÜSLUBLARI ....................................110
İSLAMDA ÜMUMİ TƏ`LİM-TƏRBİYƏ .......................................................111
ŞİƏLİK VƏ NƏQLİ ELMLƏR .........................................................................113
İKİNCİ YOL: ƏQLİ BƏHSLƏR ......................................................................115
ŞİƏLƏRİN İSLAMİ KƏLAM VƏ FƏLSƏFƏ TƏFƏKKÜRÜNDƏ ÜSTÜNLÜKLƏRİ...............................................................................................116
ŞİƏLƏRİN FƏLSƏFƏ VƏ SAİR ƏQLİ ELMLƏRDƏ ARDICIL SƏ`YLƏRİ ...............................................................................................................119
NƏ ÜÇÜN FƏLSƏFƏ ŞİƏLƏRİN ARASINDA QALDI?.......................119
ŞİƏLƏRİN ELMİ ŞƏXSİYYƏTLƏRİNDƏN BİR NEÇƏ NÜMUNƏ ...120
ÜÇÜNCÜ YOL: KƏŞF .........................................................................................124
(Mə`nəvi müşahidə)...........................................................................................124
İSLAMDA İRFANIN MEYDANA GƏLMƏSİ ..........................................126
KİTAB VƏ SÜNNƏNİN NƏFS HAQDA MƏ`RİFƏT ƏLDƏ ETMƏYƏ DAİR GÖSTƏRİŞİ ...........................................................................................129
ÜÇÜNCÜ BÖLMƏ ..............................................................................................132
ON İKİ İMAMÇI ŞİƏLİK NÖQTEYİ-NƏZƏRİNDƏN İSLAMİ E`TİQADLAR...................................................................................................132
1. ALLAHŞÜNASLIQ .........................................................................................134
GERÇƏKLİKLƏRƏ VƏ VARLIQ ALƏMİNƏ NƏZƏR YETİRMƏK – ALLAHIN VARLIĞININ ZƏRURƏTİ .......................................................134
İNSAN VƏ DÜNYANIN RABİTƏSİ YOLU İLƏ BAŞQA BİR NƏZƏR ...........................................................................................................................135

ALLAHIN VAHİD OLMASI ........ 139
ZAT VƏ SİFƏT ........ 141
İLAHİ SİFƏTLƏRİN MƏ`NASI ........ 142
SİFƏTİN MƏ`NASI BARƏDƏ ƏLAVƏ İZAH ........ 143
FE`Lİ SİFƏTLƏR ........ 145
QƏZA VƏ QƏDƏR ........ 147
İNSAN VƏ İXTİYAR ........ 149
2. PEYĞƏMBƏRŞÜNASLIQ ........ 153
HƏDƏFƏ DOĞRU – ÜMUMİ HİDAYƏT ........ 153
XÜSUSİ HİDAYƏT ........ 155
ƏQL VƏ QANUN ........ 158
VƏHY ADLI SİRLİ BİR ŞÜUR ........ 159
PEYĞƏMBƏRLƏR – NÜBÜVVƏTİN İSMƏTİ ........ 160
PEYĞƏMBƏRLƏR VƏ ASİMANİ DİN ........ 162
PEYĞƏMBƏRLƏR, NÜBUVVƏT VƏ VƏHYİN HÖCCƏTİ ........ 164
İLAHİ PEYĞƏMBƏRLƏRİN SAYI ........ 167
ULUL-ƏZM VƏ ŞƏRİƏT SAHİBİ OLAN PEYĞƏMBƏRLƏR ........ 167
HƏZRƏT MƏHƏMMƏDİN (S) NÜBUVVƏTİ ........ 168
PEYĞƏMBƏRİ-ƏKRƏM (S) VƏ QUR`ANİ-KƏRİM ........ 174
3. MƏADŞÜNASLIQ ........ 179
İNSAN, RUH VƏ BƏDƏNDƏN TƏŞKİL OLUNMUŞDUR ........ 179
BAŞQALARININ NƏZƏRİNDƏN RUHUN HƏQİQƏTİ ........ 181
İSLAM NƏZƏRİNDƏN ÖLÜM ........ 182
BƏRZƏX ........ 183
QİYAMƏT GÜNÜ ........ 185
BAŞQA BİR İZAH ........ 188
YARADILIŞIN DAVAMI VƏ ARDICILLIĞI ........ 193
4. İMAMŞÜNASLIQ ........ 195
İMAMIN MƏ`NASI ........ 195
İMAMƏT, PEYĞƏMBƏRİN CANİŞİNLİYİ VƏ İSLAMİ HÖKUMƏT ........ 196
BU SÖZLƏRİN BİR DAHA QÜVVƏTLƏNDİRİLMƏSİ ........ 208
İLAHİ MAARİFİN İZAHINDA İMAMƏT ........ 210
NƏBİ İLƏ İMAM ARASINDAKI FƏRQ ........ 212
ƏMƏLLƏRİN BATİNİNDƏ İMAMƏT ........ 214
İSLAM İMAMLARI VƏ RƏHBƏRLƏRİ ........ 218
ON İKİ İMAMIN TƏRCÜMEYİ-HALI ........ 221

BİRİNCİ İMAM ..... 221
İKİNCİ İMAM ..... 227
ÜÇÜNCÜ İMAM ..... 230
İMAM SƏCCAD ..... 238
BEŞİNCİ İMAM ..... 240
ALTINCI İMAM ..... 241
YEDDİNCİ İMAM ..... 244
SƏKKİZİNCİ İMAM ..... 245
DOQQUZUNCU İMAM ..... 247
ONUNCU İMAM ..... 248
ON BİRİNCİ İMAM ..... 250
ON İKİNCİ İMAM ..... 253
XÜSUSİ NAİBLƏR ..... 253
HƏZRƏT MƏHDİNİN ZÜHURU BARƏDƏ XÜSUSİ BƏHS ..... 256
BİR NEÇƏ İRAD VƏ ONLARIN CAVABI ..... 257
YEKUN FƏSİL: ŞİƏLİYİN MƏ`NƏVİ ÇAĞIRIŞLARI ..... 259

# ALLAHIN ADI İLƏ

Allah-taala hər bir əsrdə bəşər övladını hidayət etmək üçün həzrət Adəm, Nuh, Musa, İsa (ə) və bu kimi digər böyük peyğəmbərlər göndərmiş, onlara ilahi qanunlar məcmuəsi olan səmavi kitablar nazil etmişdir. Nəhayət səma elçiləri silsiləsinin sonuncusu və ən əzəmətlisi olan İslam peyğəmbəri həzrət Məhəmmədi (s) peyğəmbərliyə seçmiş, sələf dinlərin təkmilləşdiricisi və əbədi mö`cüzəsi olan Qur`anı insanların yenilməz hidayət çırağı qərar vermişdir. Peyğəmbəri-Əkrəm 23 il ərzində müxtəlif əzab-əziyyətlərə dözərək Ərəbistan yarımadasında İslam məktəbinin bünövrəsini qoymuş, digər xalqları, o cümlədən dövrün məşhur imperatorları və dövlət başçılarını da bu müqəddəs dinə də`vət etmişdir. Beləliklə, Qur`an və İslam nuru o həzrətin vəsfolunmaz zəhmətləri sayəsində bütün dünyaya yayılmışdır.

İslamın zühur etdiyi ilk çağlardan başlayaraq, müasir dövrə qədər xüsusi mövqe və məqama malik olan, bu dinin danılmaz prinsipləri əsasında öz xüsusiyyətlərini müdafiə edən Şiəlik məktəbi yeganə yoldur ki, daim Peyğəmbər (s) və onun Əhli-beytinin (ə) məsləkini davam etdirmişdir. Bu yolun davamçıları bir an da olsun öz sələflərinin hədəf və məqsədlərindən uzaqlaşmamış, onların həqiqi ardıcılları olmuş, Qur`an və İslamın nurani hökmlərini Peyğəmbərin (s) özündən və onun pak Əhli-beytindən (ə) əxz edərək, yalnız onların sözlərini höccət hesab etmişlər.

Şükürlər olsun ki, dünyada baş verən bir sıra ictimaisiyasi dəyişikliklər nəticəsində din və məzhəblərin

dərindən araşdırılması mümkün olmuş, tarix boyu böyük qüdrətlərin himayədarlığı ilə dünyaya meydan oxuyan bə`zi əqidələrin araşdırılıb tənqid olunması və daim əsassız hücumlara mə`ruz qalıb sükut etmək məcburiyyətində qalan bə`zi e`tiqadi məktəblərin özünü müdafiə etməsi üçün zəmin yaranmışdır. Bu prosesdə Şiə məktəbi də aktual çıxış edərək əsrlər boyu son dərəcə qərəzçiliklə ona qarşı yağdırılan ittihamlara cavab verməyə başlamışdır; bu məktəb son dövrlərdə yenidən canlanmış, qüvvətlənmiş, şiə alimləri və mütəfəkkirləri yaranan bu fürsətlərdən lazımınca istifadə edərək, bəyan və qələmləri ilə şiəliyin həqiqi maarifinin yayılmasına çalışmışlar. Onlar bədxah və qərəzli şəxslərin namərdcəsinə vurduqları ittihamlara və anlaşılmaz nöqtələrə münasib cavablar verərək, düşmənlər tərəfindən şiə nəzəriyyəsinə qarşı irəli sürülən əsassız fikirləri elmi şəkildə rədd etmişlər.

İslam dünyasının ən görkəmli mütə-fəkkirlərindən biri mərhum Əllamə Təbatəbai Təbrizi öz mə`nalı ömründə bir çox qiymətli əsərlər yazıb-yaratmış, dünyada məşhur olan iste`dadlı alimlər yetişdirmiş və şiə dünyasına əvəzsiz xidmətlər etmişdir. Ustadın çox dəyərli və faydalı əsərlərindən biri də «İslamda şiəlik» kitabıdır ki, bu vaxta qədər bir çox dillərə tərcümə edilərək dəfələrlə çap olunmuşdur.

Bu kitab əsas e`tibarı ilə şiəliyin qərb ölkələrində tanıtdırılması üçün yazılmışdır; qərb alimlərinin şiəlik barədə yazdıqları tədqiqat əsərləri və kitablar orjinal mənbələrdən götürülmədiyi üçün bu məktəbin e`tiqadi əsasları ilə uyğun gəlmir. Çünki onların araşdırma aparıb

müraciət etdikləri mənbələr əhli-sünnət və ya ismailiyyə kimi qeyri-mö`təbər firqələrdən götürülmüşdür.

Qeyd etmək lazımdır ki, bu kitab ustadın şagirdlərindən biri tərəfindən ingilis dilinə tərcümə edilmiş və bir müddət Amerika universitetlərində tədris edilmişdir. Mərhum Əllamə Təbatəbai bu kitabda digər islami məzhəblərə son dərəcə ehtiramla yanaşaraq, şiəliyin əqidə prinsiplərini və əsalətini, onun yaranma səbəblərini bəyan etmişdir; onun əqidəsinə görə İslamda yeganə düzgün yol Əhli-beyt (ə) məktəbidir. Ustadın digər əsərləri ilə müqayisədə bu kitab nisbətən sadə dildə yazılmışdır. Təəssübkeşlikdən uzaq olan və şiəliyin həqiqi mövqeyini əks etdirən bu əsərin mütaliə olunmasını ümumoxucu kütləsi üçün faydalı hesab edirik. Sonda mehriban Rəbbimizdən ustadın ruhunun şad olmasını və əziz oxucuların yüksək müvəffəqiyyət əldə etməsini diləyirik!

# ÖN SÖZ

Əziz oxucular, qarşınızda olan bu kitab şiəliyin qərb ölkələrində tanıtdırılması məqsədilə yazılan müxtəsər bir əsərdir. Keçən əsrdə qərb alimləri İslamın müxtəlif sahələri, islam mədəniyyəti və məzhəbləri barədə geniş mütaliə və araşdırmalar aparmışlar. Lakin görülən tədbirlərin və yazılan əsərlərin əksəriyyətində son dərəcə təəssübkeşlik və qərəzçilik hissi müşahidə olunur, hər bir sahədə İslamın təhrif olunması istiqamətində məqsədyönlü işlərin aparıldığı nəzərə çarpır.

Avropalıların İslam dini barədə apardıqları tədqiqatların və istifadə etdikləri kitabların demək olar ki, hamısı əhli-sünnət mənbələridir. Onların əsərlərində rast gəldiyimiz Qur`an, hədis, Peyğəmbər sirəsi, fiqh və kəlam məfhumları da bütünlüklə sünni məzhəbinə aiddir. Hətta əhli-sünnət mənbələrindən gətirilən mə`lumatlar da əksər hallarda təhrif olunmuş və qərəzçiliklə yazılmışdır.

Avropa dillərində mövcud olan əsərlərdə şiəlik qeyri-mö`təbər bir firqə kimi tanıtdırılmış, bütün nəzərləri təhrif olunmuş şəkildə göstərilmiş, yaranma səbəbləri ictimai-siyasi çəkişmələrin nəticəsi kimi izah olunmuş və onun meydana gəlməsinin əsas amili olan dini köklərə çox az diqqət yetirilmişdir. Hətta şiəlik barəsində aparılan tədqiqatlarda İsmailiyyə firqəsinin onun əsas və özək hissəsini təşkil etdiyi iddia olunur. On iki imamçılıq əqidəsinə əsaslanan şiəliyə, hətta İsmailiyyə qədər də olsa, əhəmiyyət verilməmişdir!!

Bəlkə də qərb ölkələrinin şiəliyə qarşı tutduqları bu qeyri-obyektivliyin əsas səbəbi onların müsəlmanlarla

bağlı olan tarixi keçmişləridir. Qərb ölkələri bu vaxta qədər müsəlmanlarla iki dəfə birbaşa ünsiyyətdə olmuşlar; onlar birinci dəfə (İspaniyada) Andolosda ərəblərlə və ikinci dəfə isə Avropanın şərqində türklərlə qarşı-qarşıya gəlmişlər. Hər iki təmasda onların müşahidə etdiyi İslam sünnilik formasında olmuş və şiəliklə olan əlaqələr nisbətən sirli rabitələrlə məhdud-lanmışdır. Bəlkə də səlib yürüşləri zamanı onların rastlaşdıqları şiə məzhəbi yalnız Fələstində və İspaniyanın mərkəzində olan bə`zi İsmailiyyə hövzələri olmuşdur.

Qərb ölkələri yaxın keçmişə qədər heç vaxt şiə aləmi ilə, xüsusilə İran şiələri ilə təmasda olmamışlar və İran İslam mədəniyyəti ilə də ilk dəfə Hindistanda rastlaşmışlar.

Mümkündür ki, qərblilər İslamın əqli elmlərdə və bu kimi digər məsələlərdə güclü olan məzhəblərini üzə çıxarmamaq, bu dini bütövlükdə təhqir etmək məqsədi ilə bilərəkdən şiəliyə heç vaxt diqqət yetirməmişlər. Bir reallıq kimi onun yüz milyonlarla iranlı, ərəb, hindli, pakistanlı, azərbaycanlı və s. ardıcıllara malik olmasına göz yummuşlar... Bu məktəbin ardıcılları dünyanın bir çox ölkələrində də tanınmaz qalmışdır. Qərb ölkələrində keçən əsrin şiələri İslamı daim təhrif etməyə çalışan şərqşünasların təqdim etdiyi kimi qəbul olunmuşdur və hətta bə`ziləri bu məzhəbin son dövrlərdə İslam düşmənləri tərəfindən ixtira edildiyini də iddia etmişlər. Qeyd olunan bu məsələlərin həqiqətini yoxlamaq üçün şiəliklə əlaqədar, yaxud şiəliyə cüz`i işarələr edilmiş bir neçə məşhur kitabı nəzərdən keçirmək kifayət edər.

Əvvəldə qeyd olunduğu kimi, dünyanı idarə etmək istəyən və ya dünya xalqları üzərində nəzarəti gücləndirməyə çalışan böyük dövlətlər ayrı-ayrı ölkə xalqlarının e`tiqad bəslədiyi din və məzhəbləri, adət-ən`ənələri və ümumi psixologiyanı yenidən araşdırmaq zərurətində idilər. Bu siyasətin davamı olaraq, qərb ölkələrində, xüsusilə ingilisdilli ölkələrdə tədrici olaraq İslam və şiəlik barəsində bir sıra əsaslı tədqiqatlar və elmi axtarışlar hərəkatı başlanmışdı.

Böyük dünya müharibəsindən sonra Amerikada, daha sonra isə İngiltərədə belə bir məsələ qarşıya çıxmışdı ki, hər hansı bir din və ya məzhəb barədə o əqidənin ardıcılı olmayan və ya ona ürəkdən e`tiqad bəsləməyən şəxslərin apardığı araşdırmalar, mülahizələr və yazılan kitablar yetərli deyildir. Bu vaxta qədər hər hansı bir əqidə üçün əcnəbilərin yazdıqları əsərləri heç bir vəchlə əsaslı hesab etmək olmaz.

Qərb ölkələrində dinə qarşı aparılan uzun müddətli mübarizələr nəticəsində çox qorxunc bir mə`nəvi boşluq yarandığından Amerika və Avropa ölkələri çarə fikrinə düşmüş, həmin ölkələrdə dinlər barəsində əsaslı tədqiqat aparmaq məqsədilə müəyyən mərkəzlər tə`sis edilmişdi. Bu proseslərdə mümkün qədər hər bir dinin öz mənbələrindən və alimlərindən istifadə etməyə çalışır, məqsədə çatmaqda bu yolu daha məqsədəuyğun hesab edirdilər. Əlbəttə, belə bir cərəyanda İslam dini ümumi şəkildə və şiəlik xüsusi şəkildə diqqət mərkəzində idi və ümumi tədbirlər silsiləsindən istisna oluna bilməzdi.

Bu hərəkatda ilk addım atan şəxslərdən biri də professor Kenneth Morgan idi. Colgate unversitetinin

professoru, amerikalı alim Morgan ömrünün müəyyən bir hissəsini şərq ölkələrində keçirmiş, şərq dinlərinin tanınmış alim, ustad və şəxsiyyətləri ilə birbaşa əlaqə yarada bilmişdir.

İslam dünyasında əsas e᾽tibarı ilə «İslam sirati müstəqim» kitabının tərtibatçısı kimi məşhurlaşan bu alim[1] bir neçə il bundan qabaq Colgate unversitetində dünyanın məşhur dinlərinin nümayəndələrini bir yerə toplamaq məqsədi ilə bir mərkəz tə᾽sis etmişdi. Kenneth Morgan bu mərkəzdə geniş tədqiqat işləri aparmaq məqsədi ilə müxtəlif sahələr üzrə, alim və tələbələrdən təşkil olunmuş ayrı-ayrı qruplar yaratmış, onların işlərinə nəzarəti şəxsən öz öhdəsinə götürmüşdü. O, son dərəcə mühüm hesab edilən şərq dini mənbələrini çap etdirərək onları qərb xalqlarına təqdim etmiş, bununla da həmin dinlərin həqiqi mahiyyətini çatdırmağa çalışmışdır.

Mən həmin mərkəzlə ilk dəfə səkkiz il bundan qabaq yaxından tanış olmuşam. O zaman həmin mərkəzin elmi hey`əti şiəlik barəsində araşdırmalar aparmaq üçün mütəxəssis kadrların çatışmazlığından söhbət açdı və bu sahədə əsaslı tədbirlər görməyi məsləhət bildilər. Əlbəttə, professor Henri Korbəni Sorben unversitetində şiə təfəkkürünün tanıtdırılması sahəsində dəyərli xidmətlər göstərmişdir. Lakin əvvəla, onun əsərləri ümumi oxucu kütləsinin qavraya bilməyəcəyi bir yüksək səviyyədə və fransız dilində yazıl-mışdır. İkincisi isə bu əsər şiəliyin ümumi mahiyyətini deyil, onun irfan, hikmət və bu kimi

---

[1] Bu kitab müsəlman alimlərinin vasitə-silə yazıl-mışdır; ustad Mahmud Şəhabi də onun "şiəlik" fəslini qələmə almışdır.

xüsusi yönlərini aydınlaşdırır. İngilis dilində mövcud olan bir neçə kitab və risalələr də uzun illər boyu şiəliyə arxadan zərbə vurub onu tamamilə məhv etmək üçün çalışan xristian misiyonerlərinin əsərləridir.

Təsadüfən bir-iki il sonra 1964-cü ilin yayında professor Morgan İrana gəldi. Artıq o zaman, əziz ustadım Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbainin tələbəsi olmaq kimi böyük şərəfə nail olmuşdum. Həftədə bir neçə dəfə ustadın Dərəkədə yerləşən bağ evinə gedir və onun elm dəryasından öz məhdud isteʾdadım qədərində bəʾzi şeyləri əxz edirdim.

Bir gün cənab Morqanla birlikdə Əllamə Təbatəbainin hüzuruna getdik. Professor ilk anlardan ustadın məʾnəvi və ruhani şəxsiyyətinə məftun oldu və hiss etdi ki, elm və hikməti fikir və düşüncə mərhələsindən əməl mərhələsinə çatdırmış və öz elminin həqiqi mahiyyətinə varmış bir insanın hüzurundadır. O, Dərəkənin dar və torpaq yolları ilə geri qayıdarkən Əllamə Təbatəbainin qərb ölkələrində yaşayan insanlar üçün şiəlik barədə bir kitab yazmasını xahiş etdi. Bir müddətdən sonra əməli proqramlar hazırlandı. Ustad üç il ərzində iki dəyərli kitab yazdı ki, onlardan biri qarşınızda olan "İslamda şiəlik", digəri isə "Şiəlik nəzərindən Qur`an" adlı əsərlərdir. Bu iş doğrudan da İslam maarifinə yüksək bir xidmət oldu.

Mən bu kitabı ingilis dilinə tərcümə etdim və o, bir müddət Amerikanın ali məktəblərində tədris edildi. Bu praktiki mərhələ başa çatdıqdan və tələbələrin böyük islam aliminin qələmi ilə yazdığı mətləblərin necə düşünülməsi ilə əlaqədar aparılan tədqiqatın nticələri

mə`lum olduqdan sonra onun yekun çapı nəşr olunacaqdır.

Qur`an barəsində olan kitabın ikinci cildinin tərcüməsi də başlanmışdır. Dünyada şiəliyin tanıtdırılması məqsədi ilə yazılan üçüncü kitab da çapa hazırlanır; bu əsər şiə imamlarının kəlamlarından toplanmış və bu vaxta qədər sirli bir xəzinə kimi tanınmaz qalmış bir məcmuə olacaqdır.

Qeyd olunduğu kimi, "İslamda şiəlik" adlı kitab yeni məqsədlə yazılmış tədqiqat əsəridir. Bu kitabda əsas məqsəd şiəliyi tanıtdırmaq, İslam dünyasında şiəliyin ideoloji əsaslarını açıqlamaq, eləcə də bu məzhəb barədə ümumi və hərtərəfli mə`lumat əldə etmək istəyənlərə yardım etməkdir.

Müəllif bu kitabda əhli-sünnətə azacıq da olsa, hörmətsizlik göstərməmiş, eyni zamanda şiəliyin yaranma səbəblərini mö`təbər sənədlərlə bəyan edərək, onun İslamda köklü bir məzhəb olduğunu göstərməyə çalışmışdır. Bu əsər şiəliyin əsalətini müdafiə etməklə yanaşı, sünnülərlə şiələr arasında təfriqə yaradılmasına yol verməmiş, əksinə İslam dininin iki əsas məzhəbi arasında yarana biləcək anlaşmanı asanlaşdırmışdır. Çünki bu məzhəblər arasındakı həqiqi yaxınlıq yalnız hər iki tərəfin əsalətinin qorunub saxlanması ilə mümkün ola bilər.

Müasir dövrün qəribəliklərindən biri də budur ki, bu kitabın **ərəb-**farscasına (və ya azəri dilinə) olan ehtiyac ingiliscəsinə olan ehtiyacdan heç də az deyildir. Bəlkə də yüz minlərlə şiə cavan hal-hazırda öz din və məzhəbləri barədə mə`lumatsızlığa, cəhalətə düçar olmuşlar və

onunla yaxından tanış olmağa kəskin ehtiyac hiss edirlər. Onlar adi dini kitablardan istifadə etməklə kifayətlənmir, İslam maarifi haqda daha elmi mə`lumatlar əldə etmək istəyirlər.

Keçən illərdə cəmiyyətin müxtəlif təbəqələri arasında dini tə`limat məsələsi qəribə bir vəziyyətə düşmüşdü. İranda yaşayan qeyri-müsəlman xalqlar, eləcə də xarici vətəndaşlar ev və ya məktəb şəraitində öz mədəniyyət və dinlərini öyrənmək üçün müəyyən tədbirlər gördükləri halda, İran cəmiyyətinin əksəriyyətini təşkil edən müsəlmanlar arasında dini tə`limlər tamamilə unudulmuşdu. Valideynlər bu məs`uliyyətin öz üzərlərindən götürüldüyünü zənn edərək, məktəblərin bu ağır vəzifəni mö`cüzəli bir şəkildə həyata keçirəcəyini fikirləşirlər. Məktəblər də öz növbəsində adi dərslərin tədrisi üçün müəllim çatışmazlığı ilə üzləşdikləri halda, təbiidir ki, bu "mö`cüzəni" həyata keçirmək imkanında olmayacaqdır. Bu istiqamətdə tədrici olaraq yaranan bir qrupa hər növ vəsait verilmiş, lazım olan imkan yaradılmışdır; onlar necə hərəkət etməyi bacarır, lakin hara getməyi bilmirlər.

İnsan hədəfli, məqsədyönlü bir varlıq olduğundan, ömrünü bütünlüklə ötəri hisslərdə, puç və maddi işlərdə keçirmək səlahiyyətinə malik olmadığından belə bir vəziyyətlə barışa bilmir; bə`ziləri doğrudan da konkret olaraq nə etmək lazım olduğunu bilmədikləri üçün vicdan əzabı çəkir, ruhi narahatlıqlara düçar olurlar. Həqiqətən dini-mə`nəvi tə`limlər axtarışında olan bir çoxları onlara yol göstərə biləcək alim, müəllim və hətta bə`zən bir kitab

belə tapa bilmədikləri üçün əcnəbi din və məzhəblərə üz tutur, həqiqəti ayrı bir yerdə arayıbaxtarır.

Bu kitab qərb ölkələrində yaşayan tələbə və tədqiqatçılar üçün nəzərdə alınsa da, müsəlmanlar üçün də mühüm əhəmiyyət kəsb edir və hətta demək olar ki, bu kitab öz növbəsində misilsizdir.

Mərhum Əllamə Təbatəbai sadə qələmlə tarix, hikmət, irfan və sair bölmələrdə şiəliyin təqribən bütün yönlərini izah etmiş və islam maarifinin ən mühüm həqiqətlərini aydınlaşdırmışdır.

Bu kitabın mütaliə edilməsi şiə təfəkkürünün əsasları barədə mə`lumat əldə etmək və ali mətləblərə çatmaq yolunda düzgün istiqamətlənmək üçün kifayət edər. Hal-hazırda bu nəfis əsərin yol göstərməsi ilə şiəliyin mə`nəvi dünyasına yad olan hər bir şəxs geniş bir aləmə qədəm qoymuş olur. Bu mö`təbər yolgöstərənə istinad etməklə yoldan sapmayacağına, "möhkəm ipə" sarılmaqla son məqsədə nail olacağına əmin ola bilər.

Bu kitabda şiəliyin bütün elmi mərhələləri, o cümlədən yaranma tarixi, fiqhi, şəriəti, mə`nəvi həqiqətlərin ən lətif və incə nümunələri o qədər sadə dildə yazılmışdır ki, onun yalnız həqiqi bir ustadın qələminin məhsulu olmasında şübhə etmək olmur.

# USTADIN TƏRCÜMEYİ-HALI

Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai 1904-cü ildə Təbrizdə tanınmış bir ailədə dünyaya göz açmışdır. Onun ardıcıl olaraq, on dörd nəsli Təbrizin məşhur seyyid və alim sülaləsindəndir. O, Təbrizdə mövcud olan ibtidaidini məktəbi bitirdikdən sonra, 1925-ci ildə təhsilini davam etdirmək üçün Nəcəfi-əşrəf şəhərinə yola düşmüş və on il bu yüksək elmi-dini mərkəzdə öz elmini təkmilləşdirməyə, müxtəlif İslam elmlərinə yiyələnməyə başlamışdır. Fiqh və üsul elmlərini tanınmış alim Naini və Kompanidən, fəlsəfəni Seyyid Hüseyn Badkubeyidən,[1] riyaziyyatı Ağa Seyyid Xonsaridən və əxlaq elmini isə Hacı Mirza Əli Qazidən[2] öyrənmişdi. Ustad 1935-ci ildə təhsilini başa vurub öz vətəninə qayıtmışdır.

Əllamə Təbatəbai təkcə fiqh və üsul elmi ilə kifayətlənməmiş, ərəb dilinin qrammatikasında çox yüksək nailiyyətlər əldə etmiş, qədim və müasir riyaziyyat sahəsində müvəffəqiyyətlər qazanmışdır. Ustadın fəlsəfə, kəlam, irfan və təfsir elmlərində qazandığı uğurlar hamını heyrətləndirmiş, o, bu sahələrdə ictihad dərəcəsinə nail olmuşdur.

---

1 Nəcəfi-əşrəfin ən böyük fəlsəfə ustadı olan Seyyid Hüseyn Badkubeyi əslən Bakının Xırdalan qəsəbəsindən idi.

2 Hacı Mirza Əli Qazi dövrünün ən böyük hikmət və irfan ustadı, yüksək mə`nəviyyatlı bir arif idi.

İkinci dünya müharibəsi illərində rus qoşunlarının İrana daxil olması ilə cənubi Azərbaycanda vəziyyətin gərginləşməsi, eləcə də yerli kommunistlərin dinə və ruhanilərə qarşı başladığı amansız repressiyaların nəticəsində ustad məcburiyyət qarşısında qalıb öz doğma şəhəri olan Təbrizi tərk edərək Qum şəhərinə köçmüş, bu illər ərzində İranın bir çox elmiyyə hövzələrində elmi-tədqiqat işləri və tədrislə məşğul olmuşdur.

O, 1946-cı ildə Qum şəhərində məskunlaşaraq, orada təfsir və hikmət dərslərinin tədrisinə başlamış, Tehrana etdiyi ardıcıl səfərlərdə İslam maarifi və hikmət teşnələri ilə əlaqələr yaratmışdır. Ustad uzun illər boyu yorulmaq bilmədən din və hikmət müxalifləri ilə elmi mübahisələr təşkil etmiş, qərb və şərqdən məqsədyönlü şəkildə müsəlmanları azdırmaq üçün göndərilən ideoloji məktəblərlə elmi mübarizələr aparmışdır. Əql və məntiq əsasında aparılan bu misilsiz fəaliyyətlər əcnəbi tə`sirinə qapılmış bir çox alim və ziyalıların doğru yola hidayət olunmasında müstəsna rol oynamış, həqiqət axtarışında olanları dini həqiqətlərlə yaxından tanış etmişdir. O, həyatının son 20 ilində təkcə ruhani təbəqəsinə deyil, ziyalı sinfinə və qərbdə təhsil alan alim və tələbələrə də əvəzsiz bir tə`sir mənbəyi olmuşdur.

Neçə illər idi ki, payız fəslində ustadla professor Henri Korben arasında, bir çox alim və tələbələrin iştirakı ilə elmi mübahisələr təşkil edilirdi. Yüksək mə`nəviyyatlı bir şəxsiyyətlə həqiqət axataran elm xadimi arasında təşkil olunan dini-fəlsəfi, eləcə də psixoloji, sosioloji və digər dünyəvi elmlərlə əlaqədar aparılan elmi mübahisələr zamanı çox maraqlı məsələlər araşdırılır, bu görüşlər

daimi olaraq çox mühüm və müsbət nəticələrlə sona çatırdı. Bu müzakirələr elə yüksək səviyyədə keçirilirdi ki, bəlkə də islamla xristianlıq arasında mə`nəvi-ideoloji əlaqələrin kəsildiyi orta əsrlərdən bu vaxta qədər qərb ölkələri ilə müsəlmanlar arasında belə bir rabitə yaradılmamışdı.

Əllamə Təbatəbai Qum elmiyyə hövzəsinə böyük xidmətlər göstərmiş, bu elm ocağında əqli elmləri, o cümlədən Qur`an təfsirini yenidən dirçəltmişdir; ustad bu mərkəzlərdə tədrici olaraq hikmətin əsas bünövrələrini qoymuş, "Şifa", "Əsfar" və sair fəlsəfi kitabların tədrisinə başlamışdır.

Ustadın yüksək elmi, bariz şəxsiyyəti, gözəl əxlaqi səciyyələri və tələbələrlə münasibətdə hədsiz mülayimliyi az bir zamanda onun məşhurlaşmasına səbəb olmuş, elm xadimləri, ruhanilər və sıravi dindarlar arasında saysız-hesabsız müridlər qazanması ilə nəticələnmişdi. Əllamənin dərslərində yüzlərlə tələbə iştirak edir, tanınmış alimlər də onun elm dəryasından bacardıqları qədər faydalanırdılar. Ustadın iyirmi illik zəhməti artıq öz bəhrəsini vermiş, onun əkdiyi gül-çiçəklərin ətri hər yeri bürümüşdür; hal-hazırda elə bir islami mərkəz və elm ocağı tapmaq olmaz ki, orada ustadın şagirdlərindən və ya onların əsərlərindən biri öz əvəzsiz xidmətini göstərməmiş olsun. Demək olar ki, hikmət alimlərinin əksəriyyəti birbaşa və ya bir və bir neçə vasitə ilə ustadın şagirdi hesab olunurlar. Əllamə Təbatəbainin nəzarəti altında əqli elmlər sahəsində ictihad dərəcəsinə çatan alimlərin dəqiq sayı mə`lum deyildir, amma qətiyyətlə demək olar ki, onun islam fəlsəfəsi üzrə hazırladığı

alimləri, yazdığı dəyərli kitabları və göstərdiyi digər mühüm xidmətləri heç bir şeylə müqayisə etmək olmaz.

Əllamə Təbatəbai tələbə və alim hazır-lamaqda təkcə elmi inkişafla kifayətlənməmiş, bu işdə mə`nəvi saflığa və əxlaqi məsələlərə mühüm əhəmiyyət vermişdir. O, elm və əxlaqı özündə birləşdirən yeni bir məktəbin əsasını qoymuş, cəmiyyətə çox layiqli insanlar təqdim etmişdir; ustad bu iki məsələni bir-birindən ayırmağı böyük faciə hesab etmiş, elm ocaqlarında belə bir sistemin yaradılması yolunda əlindən gələni əsirgəməmişdir.

# ƏLLAMƏ TƏBATƏBAİNİN ƏSƏRLƏRİ

Ustad Əllamə Təbatəbainin bir çox qiymətli əsərləri vardır. O cümlədən aşağıdakıları qeyd etmək olar:

1.“Təfsirul-mizan”; (20 cild)

2.“Fəlsəfə üsulları və realizm metodu”; (5 cild)

3.Sədruddin Şirazinin “Əsfar” kitabına haşiyə; (5 cild)

4.“Professor Korbenla mübahisələr”; (2 cild)

5.“İslam hökuməti” risaləsi;

6.“Haşiyeyi-Kifayə”;

7.“Qüvvə və fe`l” risaləsi;

8.“İsbati-zat” risaləsi;

9.“Risalə dər sifat”;

10.“Risalə dər əf`al”;

11.“Risalə dər vəsait”;

12.“Əl-insanu qəbləd-din”;

13.“Əl-insanu fid-din”;

14.“Əl-insanu bə`dəd-din”;

15.“Risaleyi dər nübüvvət”;

16.“Risalə dər vilayət”;

17.“Risalə dər müştəqqat”;

18.“Risalə dər bürhan”;

19.“Risalə dər müğalitə”;

20.“Risalə dər təhlil”;

21.“Risalə dər tərkib”;

22.“Risalə dər e`tibarat”;

23.“Risalə dər nübüvvət və məqamat”;

24.“Mənzumə dər rəsmi xətte nəstə`liq”;

25.“Əli vəl-fəlsəfətul-ilahiyyə”;

26.“Qur`an dər islam”;

27.“Şiə dər islam”.

Ustad bunlardan əlavə bir çox risalə və məqalələr də yazmışdır. “Məktəbi təşəyyö`”, “Dərshayi əz məktəbi islam”, “Rəhnomai kitab” və s. jurnallarda çap edilmiş müxtəlif həcimli yazıları buna misal göstərmək olar.

Ustadın ən mühüm əsəri müasir dövrdə ən böyük və nəfis təfsirlərdən sayılan iyirmi cilddə yazdığı “Əl-mizan” kitabıdır. Bu əsər indiyə qədər dəfələrlə çap olunmuşdur. Qədim dövrlərdə yazılan təfsirlərin əksəriyyəti müasir tələblərə cavab vermədiyindən, ustad belə bir əsər yazaraq islam dünyasına misilsiz xidmət göstərmiş, onu hal-hazırkı və gələcək nəsillər üçün yadigar qoyub getmişdir. Əllamə Təbatəbai həmin təfsirdə aşkar hədislərə əsaslanan yeni metoddan – bir ayənin sair ayələr vasitəsilə təfsir olunmasından istifadə etmişdir.

Əziz oxucular, qarşınızda olan bu kitab ilk dəfə olaraq gənc nəsl, eləcə də qərbdə yaşayan iranşünas, şərqşünas və islamşünaslar üçün yazılmışdır. Buna görə də Əllamə Təbatəbainin haqqında bə`zi məsələləri qeyd etməyi, əsrin elm və hikmət korifeyini təqdim etməyi lazım bilirəm.

Əlbəttə, qələmimiz belə bir vəsfolunmaz şəxsiyyətin təqdim olunmasında yetərli deyildir və dillə onun mə`nəvi-ruhani məqamını, fəzilət və kamal dərəcələrini izhar etmək olmaz. Bu səhifələr uzun illər tanınmaz bir şəxsiyyət kimi islam cəmiyyətinə böyük xidmətlər göstərən bir insan haqda dərya müqabilində bir damlaya bənzəyir. Ustadın özü həqiqət məqamına çatdığından, daim şö`lələnməkdə olan bir məş`əl kimi öz ətrafında olanların, şagirdlərinin və onun əsərlərini oxuyanların

yolunu işıqlandırmış, onların fikir və mə`nəvi həyatına ruh, istiqamət və mə`na vermişdir.

# MÜQƏDDİMƏ

"İslamda şiəlik" adlı bu kitab islamın iki böyük məzhəbindən biri olan şiəliyin həqiqi və real mahiyyətini, onun necə yaranıb inkişaf etməsini, təfəkkür tərzini və islam maarifi haqda olan baxışlarını bəyan edir.

**1. Din:** Şübhəsiz, hər bir şəxs öz fərdi həyatında təbii olaraq başqa insanlarla ünsiyyətdə olur, cəmiyyətin digər üzvləri ilə müəyyən işləri yerinə yetirir. Onlar zahirdə bir-birlərindən ayrı olsalar da, yemək-içmək, yatıb-durmaq, danışmaq, eşitmək, oturmaq, yol getmək, qaynayıb-qarışmaq və s. işlərdə sıx əlaqədədirlər; heç bir şəxsə icazə verilmir ki, hər bir yerdə ürəyi istədiyi işi azad şəkildə yerinə yetisin. Bütün cəmiyyətlərdə müəyyən qanunauyğunluqlar vardır və hamı onlara tabe olmağa məcburdur.

Deməli, insanın öz həyat və məişətində gördüyü işlər labüd bir sistem çərçivəsində baş verir və bunlar həqiqətdə müəyyən bir nöqtədən qaynaqlanır. O da bundan ibarətdir ki, insan həmişə ideal bir həyata nail olmaq istəyir, öz arzu və məramlarına çatmağa çalışır. Başqa sözlə, öz vücudunu qoruyub saxlamaq üçün mümkün yollardan istifadə edir, ehtiyaclarını tam şəkildə tə`min edib aradan qaldırmaq istəyir.

Buna görə də insan daimi olaraq, əməl və rəftarlarını ürəyi istədiyi tərzdə, yaxud başqalarından qəbul etdiyi qayda-qanunlarla uyğunlaşdırmağa çalışır, məqsədə çatmaq üçün həyatda müəyyən yollar axtarır, lazım olan vəsait və avadanlıqları əldə etmək üçün işləyir. O, həyat vasaitlərinin əldə olunmasını bu qayda-qanunların biri

hesab edir; maddi ne`mətlərdən faydalanmaq, aclıq və susuzluğunu aradan qaldırmaq üçün yemək yeyir, su içir, çünki yemək və içməyi öz həyatının davamı üçün lazım və zəruri hesab edir və s.

İnsan həyatına hakim olan qayda-qanunlar əsaslı bir e`tiqad üzərində qurulmuşdur ki, insan öz həyatında ona arxalanır. O da elə bir təsəvvürdür ki, insan, o xəyalı özünün də bir üzvü olduğu varlıq aləmindən yaratmışdır; bu, məhz onun həqiqətində yürütdüyü bir mühakimədir. Bu məsələ insanların dünyanın həqiqəti barədə olan müxtəlif fikirlərinə diqqət yetirməklə aydın olur. Varlıq aləmini, o cümlədən insanı tam mə`nada maddi bir varlıq hesab edən şəxslərin həyatdakı mövqeyi müvəqqəti və ötəri ləzzətlərini tə`min etməkdən, bütün sə`y və bacarıqlarını öz maddi ehtiyaclarını ödəməyə, nəfsani istəklərini doyurmağa sərf etməkdən ibarətdir.

Bütpərəstlər kimi təbiət aləmini, ondan yüksəkdə olan allahın yaratdığı hesab edənlər, yə`ni, allahın dünyanı, xüsusilə insanı yaradan, onun yaxşılıq və ehsanlarından lazımi şəkildə istifadə etmələri üçün onları müxtəlif ne`mətlərdən bəhrələndirən bir qüvvə olmasına inananlar həyat proqramlarını ilahi razılığı qazanmaq və onun qəzəbinə səbəb olan işlər görməmək əsasında tənzim etmişlər.

Onlar deyirlər ki, allahı razı sala bilsək öz ne`mətlərini bizim üçün artıracaq, əksinə, onu qəzəbləndirməklə mövcud ne`mətlərdən də məhrum olacağıq.

Məcusilər, yəhudilər, xristianlar və müsəlmanlar kimi allaha imandan əlavə, əbədi bir həyatın olmasına inananlar, onu öz yaxşı və pis əməllərinin məhsulu hesab

edərək qiyamət gününü isbat edənlər həyatda elə bir yol seçmək istəyirlər ki, onda bu e`tiqad prinsipinə riayət olunmaqla həm dünya, həm də axirət xoşbəxtliyinə nail olsunlar.

Bu e`tiqadlar məcmuəsi və ona münasib olan qayda-qanunlar din, dində yaranan ayrı-ayrı şö`bələr isə məzhəb adlandırılır. İslamda mövcud olan sünnü və şiə, eləcə də xristianlıqda yaranmış məzhəbləri buna misal göstərmək olar.

Qeyd olunanlara əsasən, insan həmişə müəyyən bir dinə ehtiyac hiss edir; deməli, din insanların öz hədəf və məqsədlərinə çatması üçün seçdikləri bir həyat yolu və onun ayrılmaz bir hissəsidir.

Qur`ani-Kərimdə buyurulur ki, insanlar üçün hökmən bir din olmalıdır; bu, Allah-taalanın bəşəriyyət üçün tə`yin etdiyi bir yoldur ki, insan yalnız onu ötüb keçməklə öz Rəbbinə qovuşa bilər. Lakin bu yolu haqq dini qəbul edən şəxslər həqiqi mə`nada başa vura bilərlər; onu qəbul etməyənlər isə yollarını azmış və zəlalətə düçar olmuş şəxslərdir.[1]

2. İslam:

İslam kəlməsi lüğətdə "təslim olmaq", "boyun əymək" mə`nasınadır. Qur`ani-Kərimdə insanların də`vət olunduğu haqq din ona görə islam adlandırılmışdır ki,

---

1"...Allah zalımlara lə`nət eləsin!

O kəslərə ki, insanları Allah yolundan döndərər, onu (Allah yolunu) əyri hala salmaq (əymək) istəyir və axirəti də inkar edərlər." ("Ə`raf" surəsi, ayə 44-45)

onun bütün proqramları insanın Allaha təslim olmasından ibarətdir;[1] insan bu təslim olma nəticəsində yalnız yeganə Allaha sitayiş etməli, Onun əmr və fərmanlarından başqa heç bir şeyə itaətkarlıq göstərməməlidir. Qur`ani-Kərimdə buyurulur ki, bu dini islam və onun ardıcıllarını müsəlman adlan-dıran ilk şəxs həzrət İbrahim (ə) olmuşdur.[2]

3. Şiə:

Lüğətdə "ardıcıl" mə`nasında olan şiə sözü Peyğəmbərin (s) canişininliyinin yalnız o həzrətin ailəsinə

---

[1]"Hansı din bir şəxsin özünü Allahın hökmünə təslim edib yaxşı əməl sahibi olmasından, İbrahimin pak və mö`tədil dininə tabe olmasından yaxşı ola bilər?!" ("Nisa" surəsi, ayə-125)

"Kitab əhlinə de: Gəlin bir müştərək sözdə bir-birimizlə həmkarlıq edək: "Allahdan başqasına ibadət etməyək, Onun üçün heç nəyi şərik qoşmayaq, bizlərdən bə`zimiz bə`zi digərini özünə rəbb qərar verməsin." Əgər bu sözdən üz çevirsələr, de: şahid olun ki, mən Haqqa təslimərn." ("Ali-imran" surəsi, ayə-64)

"Ey iman əhli! Hamılıqla təslim məqamına daxil olun!" ("Bəqərə" surəsi, ayə-208)

[2]"(İbrahim və İsmail dedilər:) Pərvərdigara! Bizi Öz fərmanına təslim et və bizim övladlarımızdan da müsəlman ümmət qərar ver!" ("Bəqərə" surəsi, ayə-128)

"Bu, sizin atanız İbrahimin dinidir, sizi müsəlman (təslim olan) adlandıran məhz odur."

məxsus olmasına e`tiqad bəsləyən və islam maarifində Əhli-beyt ardıcılları olan şəxslərə deyilir.[1]

BİRİNCİ BÖLMƏ

# *ŞİƏLİYİN YARANMASI VƏ İNKİŞAF ETMƏSİ*

*Şiəliyin yaranması;

*Azlıq təşkil edən şiələrin çoxluqda olan sünnülərdən ayrılması və ixtilafın səbəbləri;

*İki məsələ: Canişinlik və elmi mərcəiyyət;

*Seçki yolu ilə olan xilafət məsələsi və onun şiəlik nəzəriyyəsi ilə zidd olması;

*Xilafətin Əli (ə)-a verilməsi və o həzrətin bu barədə mövqeyi;

*Əli (ə)-ın beş illik xilafət dövründə şiələrin əldə etdiyi nailiyyətlər;

*Xilafətin Müaviyənin əlinə keçməsi və onun padşahlıq və varislik üslubuna çevrilməsi;

*Şiələrin ən ağır günləri;

*Bəni-üməyyə sülaləsinin hakimiyyəti;

***Şiəlik -** 2-ci hicri əsrində;

***Şiəlik -** 3-cü hicri əsrində;

***Şiəlik -** 4-cü hicri əsrində;

---

[1] Əli (ə)-dan qabaq iki xəlifənin haqq olmasını isbat etmək istəyən, fiqhdə Əbu Hənifəyə əməl edən zeydiyyələrə də şiə deyilir. Çünki, onlar Bəni-üməyyə və Bəni-abbas xəlifələri qarşısında xilafətin Əli və onun övladlarına məxsus olduğuna inanırdılar.

*__Şiəlik -__ 5-ci hicri əsrində;
*__Şiəlik -__ 7-11-ci əsrlərdə;
*__Şiəlik -__ 12-14-cü əsrlərdə;
*__Şiələrin firqələrə bölünməsi;__
*Firqələrə parçalanma və bə`zi cərəyanların aradan getməsi;
*Zeydiyyə şiələri;
*İsmailiyyə firqəsi və onun parçalanması;
*Nəzariyyə, müstə`liyyə, dəruziyyə və muqniə;
*On iki imamçı şiələr, onun zeydiyyə və ismailiyyə ilə olan fərqləri;
*On iki imamçı şiələrin tarixi.

# ŞİƏLİYİN YARANMASI

Əli (ə)-ın şiələri adı ilə tanınan şiəlik məktəbinin başlanması Peyğəmbəri-Əkrəmin (s) həyatı dövrünə qayıdır. 23 illik peyğəmbərlik dövründə islami təbliğat və çağırışların genişlənməsi ilə əlaqədar baş verən bir çox hadisələr, şübhəsiz, Peyğəmbərin (s) səhabələri arasında belə bir cəmiyyətin yaranmasını tələb edirdi.[1] O hadisələr aşağıdakılardır:

a) Be`sətin ilk günlərində Allah tərəfindən Peyğəmbəri-Əkrəmə (s) öz qohum-əqrəbasını dinə də`vət etmək əmr olundu.[2] Bu zaman Həzrət aşkar şəkildə buyurdu ki, sizlərdən hər kəs ilk olaraq mənim də`vətimə müsbət cavab versə mənim vəzirim, canişinim və vəsimdir. Əli (ə) hamıdan əvvəl islamı qəbul edərək Peyğəmbərə (s) iman gətirdi və verilən və`dələrə layiq görüldü.[3]

---

1 Peyğəmbərin (s) dövründə yaranan ilk ad "şiə" idi; belə ki, Salman, Əbuzər, Miqdad, Əmmar bu adla məşhurlaşmışdı. ("Hazirul-alimil-islamiyy", 1-ci cild, səh-188)

2 "(Ya Peyğəmbər,) ən yaxın qohum-əqrəbalarını (Allahdan) qorxut." ("Şüəra" surəsi, ayə-214)

3 Bu hədislə əlaqədar Əli (ə) buyurur: "Mən hamıdan kiçik olduğuma baxmayaraq dedim: "Mən sənin vəzirin olaram." Peyğəmbər əlini mənim çiynimə qoyaraq buyurdu: "Bu şəxs mənim qardaşım, vəsim və canişinimdir, ona itaət edin." Camaat gülüb Əbu Talibə dedilər: "Sənə əmr etdi ki, öz oğluna itaət edəsən!" ("Tarixi Təbəri", 2-ci cild, səh-321; "Əbil Fidanın tarixi", 1-ci cild, səh-116; "Əl-bidayətu vən-nihayə", 3-cü cild, səh-39; "Həyatul-məram", səh-320)

Adətən, hər hansı bir cərəyanın rəhbəri öz hərəkat və qiyamının ilk günlərində dostlarından birini vəzir və canişin olaraq başqalarına təqdim edir; o rəhbər belə bir şəxsi onun yolunda canından keçməyə hazır olan fədakar insanlara tanıtdırır.

b) Həm sünni, həm də şiə mənbələrinin nəql etdiyi mütəvatir hədislərə əsasən, Peyğəmbəri-Əkrəm (s) aşkar şəkildə buyurmuşdur ki, Əli (ə) danışıq, əməl və rəftarında hər növ xəta və günahdan uzaqdır.[1] Onun dediyi hər bir söz, etdiyi hər bir iş dini əsaslarla tamamilə müvafiqdir; o, islam maarifi və şəriət hökmlərini hamıdan yaxşı bilir.[2]

v) Əli (ə) misilsiz xidmətlər və vəsfolunmaz fədakarlıqlar göstərmişdir. Əli (ə)-ın Peyğəmbərin (s) hicrət gecəsində onun yatağında yatmasını buna misal göstərmək olar.[3]

---

1 Ümmü Sələmə deyir ki, Peyğəmbər belə buyurdu: "Əli həmişə haqq və Qur᾽an ilədir, haqq və Qur᾽an da həmişə onunladır və qiyamətə qədər bir-birindən ayrılma-yacaqlar", (Bu hədis sünnülərdən 15 yol ilə, şiələrdən isə 11 yolla nəql olunmuşdur.)

2 Peyğəmbər (s) buyurmuşdur: "Hikmət on yerə bölünmüşdür, onun doqquz hissəsi Əliyə, bir hissəsi isə bütün müsəlmanlara nəsib olmuşdur." ("Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh-359)

3 Məkkə kafirləri həzrət Məhəmmədi (s) qətlə yetirmək məqsədi ilə onun evini mühasirəyə aldıqları zaman Peyğəmbər (s) Mədinəyə hicrət etməyi qərara aldı və Əli (ə)-a buyurdu: "Bu gecə mənim yatağımda yatmağa razısanmı? Qoy mənim yatdığımı güman etsinlər və onların tə᾽qibindən amanda

Bədr, Ühüd, Xəndək və Xeybər müharibələrində düşmənlər Əli (ə)-ın əli ilə məğlub edilməsəydi, islamçılar onların vasitəsilə məhv olub aradan gedəcəkdi.[1]

q) "Qədir-Xum" hadisəsində Peyğəmbər (s) Əli (ə)-ı bütün insanların vilayət və rəhbərliyinə tə`yin edərək, onu da özü kimi ümmətin rəhbəri e`lan etdi.[2]

Aydındır ki, hamının fikir birliyində olduğu bu kimi imtiyazlar[3] və Peyğəmbəri-Əkrəmin (s) Əli (ə)-a dərin məhəbbəti fəzilət və həqiqət aşiqi olan səhabələrdən bir qrupunun Əli (ə)-ı sevərək onun ətrafında birləşməsinə və ona itaət etmələrinə səbəb olurdu. Bunun müqabilində başqa bir qrup da o həzrətə qarşı həsəd və kin-küdurət bəsləyirdilər.

---

qalım?" Əli (ə) bu təhlükəli vəziyyətdə bu təklifi cani-dildən qəbul etdi.

1 "Təvarix və cəvameu hədis"

2 "Qədir-xum" hədisi sünnü və şiələr arasında danılmaz hədislər sırasındadır, səhabələrdən yüzdən artığı müxtəlif sənədlər və ibarələrlə onu nəql etmişlər. Şiə və sünnülərin mö`təbər kitablarında da qeyd olunmuşdur. Əlavə mə`lumat üçün "Ğayətul-məram"ın 79-cu səhifəsinə, "Əbəqat"ın Qədir bölməsinə və "Əl-Qədir" kitabına müraciət edə bilərsiniz.

3 "Tarixi Yə`qubi" (Nəcəf çapı), 2-ci cild, səh-137 və 140; "Əbil Fidanın tarixi", 1-ci cild, səh-156; "Səhihi Buxari", 4-cü cild, səh-107; "Murucuz-zəhəb", 2-ci cild, səh-437; "Nəhcül-bəlağənin şərhi", (İbni Əbil Hədid,) 1-ci cild, səh 127 və 161.

Bundan əlavə, "Əli şiəsi", "Əhli-beyt şiəsi" kimi ifadələr Peyğəmbəri-Əkrəmin (s) sözlərində də çox görünmüşdür.[1]

## *AZLIQ TƏŞKİL EDƏN ŞİƏLƏRİN ÇOXLUQ TƏŞKİL EDƏN SÜNNÜLƏRDƏN AYRILMASI VƏ İXTİLAFIN YARANMA SƏBƏLƏRİ*

Peyğəmbərin (s), səhabələrin və bütün müsəlmanların nəzərində Əli (ə)-ın yüksək məqamına nəzər salmaqla, onun ardıcılları Peyğəmbərin (s) vəfatından sonra o həzrətin xilafət məqamına çatacağına şübhə etmirdilər. Peyğəmbəri-Əkrəm (s) ölüm yatağında olarkən baş verən hadisələr istisna olmaqla, mövcud şərait və zahiri əlamətlər də bu nəzəriyyəni təsdiq edirdi.[2]

---

[1] Cabir deyir: Peyğəmbərin (s) yanında idim, Əli uzaqdan göründükdə o həzrət buyurdu: "Canım qüdrət əlində olan Allaha and olsun! Bu şəxs və onun şiələri qiyamətdə nicat tapacaqlar."

İbni Abbas deyir: "İnnəlləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrul-bəriyyəh" ayəsi nazil olduqda Peyğəmbər Əliyə buyurdu: "Bu ayədə buyurulan şəxslər sən və sənin şiələrindir ki, qiyamətdə razılıq və sevincdə olacaqsınız və Allah da sizdən razı olacaqdır".

Bu iki hədis, eləcə də çoxlu başqa hədislər "Əd-durrul-mənsur" təfsirinin 6-cı cildinin 379-cu səhifəsində və "Ğayətul-məram" kitabının 326-cı səhifəsində nəql olunmuşdur.

[2] Həzrət Məhəmməd (s) ölüm yatağında yatarkən Üsamə ibni Zeydin başçılığı ilə bir qoşun təşkil etdi, hamının bu

Amma Peyğəmbəri-Əkrəm (s) vəfat edəndən sonra gözlənilməz hadisələr baş verdi; onun ailə üzvləri və səhabələrdən bir çoxu dərin hüzn və matəm içində dəfn mərasimi ilə məşğul olduqları zaman, sonralar əksəriyyət təşkil edən bir qrup son dərəcə özbaşınalıq və tələskənliklə bir qərar çıxardılar. Onlar Peyğəmbərin Əhli-beyti, onun yaxın adamları və tərəfdarları ilə məşvərət etmədən, hətta onlara xəbər vermədən "xoşməramlı" bir tədbir keçirib müsəlmanlara xəlifə tə`yin etdilər. Əli (ə) və onun köməkçilərini qanunsuz olaraq baş vermiş bir iş qarşısında qoydular. Əli (ə) və digər tanınmış səhabələr, o cümlədən İbni Abbas, Zübeyr, Salman, Əbuzər, Miqdad,

---

müharibədə iştirak edərk Mədinədən çıxmasına israr edirdi. Bə`ziləri, o cümlədən Əbu Bəkr və Ömər Peyğəmbərin (s) göstərişindən imtina etdilər. Bu hadisələr Peyğəmbəri (s) çox narahat etdi. ("Şərhi-Nəhcül-bəlağə" (İbni Əbil Hədid), Misir çapı, 1-ci cild, səh-53.)

Peyğəmbəri-əkrəm (s) vəfatından bir az əvvəl buyurdu: "Mənim üçün kağız-qələm gətirin, sizin üçün bir məktub yazım ki, sizin hidayətinizə və yoldan azmamağınıza kömək olsun." Ömər bu işə mane olub dedi: "Onun xəstəliyi şiddətlənmişdir və sayaqlayır!!!" ("Tarixi Təbəri", 2-ci cild, səh-436; "Səhihi Buxari", 3-ci cild, "Səhihi Müslüm", 5-ci cild, "Əl-bidayətu vən-nihayə", 5-ci cild, səh-227; "Şərhi-Nəhcül-bəlağə" (İbni Əbil Hədid), 1-ci cild, səh-133.

Həmin hadisə birinci xəlifənin ölümü ilə nəticələnən xəstəliyində də təkrar olundu və o, xilafəti Ömərə verdi və vəsiyyət edərkən huşdan getdi, lakin Ömər birinci xəlifənin sayaqladığını iddia etmədi. Halbuki, vəsiyyətin yazıldığı zaman huşdan getmişdi, lakin Peyğəmbər (s) mə`sum və onun duyğu üzvləri öz yerində idi. (Rövzətus-səfa, 2-ci cild, səh-260

Əmmar və digərləri dəfn mərasimini tamamladıqdan sonra bu işdən xəbərdar oldular. Onlar bu üslubla və tələmtələsik xəlifə tə`yin etmək məsələsinə qarşı öz e`tirazlarını bildirmək məqsədi ilə ümumi yığıncaq keçirdilər. Lakin cavabında "belə məsləhət oldu" sözlərini eşitdilər.

Məhz bu tənqid və e`tirazlar azlıq təşkil edənləri çoxluq təşkil edənlərdən ayırdı; Əli (ə)-ın ardıcıllarını "Əli şiəsi" adı ilə cəmiyyətə tanıtdırdı. Xilafət məqamında əyləşənlər də dövrü siyasətin tələblərinə uyğun olaraq, azlıqda olanların bu adla tanınmamasına, cəmiyyətin parçalanmamasına çalışırdılar. Onlar xilafətin fikir birliyi əsasında olduğunu iddia edir, e`tiraz edənləri və bey`ətdən boyun qaçıranları "müsəlman icmasından ayrılanlar" adlandırır, bə`zən onların haqqında nalayiq ifadələr də işlədirdilər.[1] Əlbəttə, şiələr ilk dövrlərdə hakim qüvvə tərəfindən kəskin təzyiqlərə mə`ruz qaldıqlarından, sadəcə e`tiraz etməklə öz müxalifətçiliklərini bildirməkdən əlavə, hər hansı bir tədbir görməyə müvəffəq olmadılar. Əli (ə) da islamın və müsəlmanların ümumi mənafeyini nəzərə almaqla və kifayət qədər köməkçi olmadığına görə silahlı qiyama qalxmadı. Lakin e`tiraz edənlər əqidə baxımından əksəriyyət təşkil edənlərə tabe olmadılar; onlar bilirdilər

---

[1] Ömər ibni Həris, Səid ibni Zeydə dedi: Bir kəs Əbu Bəkrə bey`ətə müxalifət etdimi? Cavab verdi: Heç kəs müxalif deyildi, yalnız mürtəd olanlar, yaxud mürtəd olmaq ərəfəsində olanlar müxalifət etmişdilər. ("Tarixi Təbəri", 2-ci cild, səh-447)

ki, Peyğəmbəri-Əkrəmin (s) həqiqi canişini və elmi mərcəiyyət məqamı Əli (ə)-dır.[1]

Peyğəmbər (s) buyurmuşdur: "Mən elmin şəhəri, Əli onun darvazasıdır. Hər kəs elm axtarırsa, gərək onun qapısından varid olsun."[2]

Azlıq təşkil edən dəstənin üzvləri elmi və mə`nəvi cəhətdən yalnız o həzrətə müraciət etməyi rəva görür və başqalarını da ona doğru də`vət edirdilər.

## *İKİ MƏSƏLƏ: CANİŞİNLİK VƏ ELMİ MƏRCƏİYYƏT*

Şiələr əldə etdikləri islami tə`limlər əsasında inanırdılar ki, cəmiyyət üçün ilk növbədə əhəmiyyət kəsb edən məsələ – islam tə`limlərinin və dini mədəniyyətin aydın olması,[3] sonrakı mərhələdə isə bu iki dəyərin cəmiyyət arasında kamil cərəyan etməsidir.

---

1 Peyğəmbəri əkrəm (s) məşhur "Səqəleyn" hədisində buyurur: "Mən sizin aranızda iki ağır və dəyərli əmanət qoyub gedirəm, əgər onlara sarılsanız heç vaxt yolunuzdan azmazsınız. O iki əmanət Qur`an və Əhli-beytimdir, onlar qiyamət gününə qədər bir-birindən ayrılmazlar."

Bu hədis yüzdən artıq yol ilə Peyğəmbər səhabəsindən nəql olunmuşdur. Əlavə mə`lumat almaq üçün "Səqəleyn" hədisinin təbəqatına müraciət edə bilərsiniz. ("Ğayətul-məram", səh-211)

2 "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh-359

3 Allahın kitabı, Peyğəmbərin (s) və onun Əhli-beytindən olan imamların (ə) kəlamlarında elm öyrənməyə dair çoxlu tə`kidlər edilmişdir. Belə ki, Peyğəmbər (s) buyurur: "Elm

Başqa sözlə desək, əvvəla cəmiyyət üzvləri dünyaya və insana real nəzərlə baxmalı, öz insani vəzifələrini bilməli və onlar şəxsi mənafelərinə uyğun olmasa belə, yerinə yetirməlidirlər.

İkincisi, dini hökumət cəmiyyətdə islamın həqiqi nəzm və inzibatını elə bir şəkildə qoruyub saxlamalı və icraya qoymalıdırdır ki, insanlar Allahdan başqa heç bir mə`buda sitayiş etməsinlər, eləcə də fərdi və ictimai ədalətdən, kamil azadlıqdan bəhrələnsinlər. Bu iki məsələ Allah tərəfindən paklaşdırılan və günahdan uzaq olan bir şəxsin əli ilə icra edilməlidir; əks halda, elmi məqamda və hakimiyyət kürsüsündə elə şəxslər oturacaqlar ki, öz üzərlərinə düşən vəzifələr qarşısında belə, fikri azğınlıq və xəyanətdən amanda deyillər; nəticədə islamın ümumbəşəri azadlıq, ədalətli vilayəti tədrici olaraq zülmkarlıq və istibdad əsasında olan səltənətə, padşahlığa çevriləcək; dinin pak və mütərəqqi maarifi sair dinlərin tə`limləri kimi xudbin və yaltaq alimlər tərəfindən təhrif olunacaqdır.

Peyğəmbərin (s) dəfələrlə buyurub təsdiq etdiyi kəlamlara əsasən, əməl və sözlərində doğruçu, tutduğu yol Allahın kitabı və Peyğəmbərin sünnəsi ilə uyğun olan şəxs yalnız Əli (ə) idi.[1]

Əgər əksəriyyət təşkil edən dəstənin üzvləri Qüreyş tayfasının Əlinin haqq xilafəti ilə müxalif olduğunu desəydilər, onda onların haqqa məcbur edilməsi, boyun

---

öyrənmək hər bir müsəlmana vacibdir." ("Biharul-ənvar", 1-ci cild, səh-172)

1 "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh-360

qaçıranları və inadkarları yerində oturtmaq lazım gələrdi. Necə ki, onlar zəkat verməkdən imtina edən şəxslərlə vuruşub onların e`tirazlarına fikir vermədilər; aydındır ki, onlar istəsəydilər belə bir təqdirdə də Qüreyş tayfasının müxalifətçiliklərinə e`tina etməz və qorxudan haqqı tapdalamazdılar.

Bəli, şiələri seçki yolu ilə olan xilafətlə razılaşmaqdan çəkindirən məsələ onun xoşagəlməz nəticələrindən törənən qorxu, yə`ni islam hökumətinin düzgün olmayan üslubu və ali-dini tə`limlərin məhv edilməsi idi. Hadisələrin inkişafı da bu əqidəni günbəgün aşkar edir, şiələr də öz əqidələrində daha da möhkəmlənirdilər. İlk əvvəldə saylarının çox az olduğuna görə əksəriyyətin içərisində görünməz olduqlarına baxmayaraq, onlar batində islam tə`limlərini Əhli-beytdən əxz edir, öz yollarının həqiqətinə də`vət məsələsində israr edirdilər; eyni zamanda islam hökumətinin qüdrət, izzət, təhlükəsizlik və inkişafını qoruyub saxlamaq üçün aşkar şəkildə müxalifətçilik etmirdilər. Hətta onlar sünnülərlə çiyin-çiyinə cihada gedir, ümumi işlərdə qaynayıb-qarışırdılar; Əli (ə) şəxsən özü zəruri hallarda islamın ümumi mənafeyinə uyğun olan işlərdə yaxından iştirak edir, əksəriyyət təşkil edənlərə lazımi məsləhətlər verir və köməklik göstərirdi.[1]

[1]"Tarixi Yə`qubi", səh-111, 126, 129

## *SEÇKİ YOLU İLƏ OLAN XİLAFƏT MƏSƏLƏSİ VƏ ONUN ŞİƏLİK NƏZƏRİYYƏSİ İLƏ ZİDD OLMASI*

Şiələr inanırdılar ki, Allahın kitabında və Peyğəmbərin (s) sünnəsində bəyan olunan islam şəriəti qiyamətə qədər öz qüvvəsində qalmalıdır və onda heç bir dəyişiklik edilə bilməz.[1]

İslam hökuməti heç bir üzr gətirməklə şəriət qanunlarının icrasından boyun qaçıra bilməz. Onun yeganə vəzifəsi zamanın tələbi olan bə`zi işlərdə məsləhəti nəzərə alaraq, şəriət qanunları çərçivəsində şura yolu ilə müəyyən qərarlar çıxarmaqdır; lakin bu hadisənin gedişatında şiələrin siyasət xatirinə etdikləri bey`ət məsələsindən və həmçinin Peyğəmbərin (s) ömrünün son anlarında baş verən "kağız-qələm" hadisə-sindən aydın olurdu ki, xilafətin seçki yolu ilə olmasının tərəfdarları və onun icraçıları ilahi kitabın bir əsas qanun kimi qorunub

---

1 Allah-taala Öz kəlamında buyurur:

"Qur`an əziz bir kitabdır ki, batil heç vaxt, nə öndən, nə arxadan ona yol tapa bilməz." "Fussilət" surəsi, ayə-41-42

Yenə buyurur:

"Allahdan başqa heç kəs hökm edə bilməz." ("Yusif" surəsi, ayə-67) Yə`ni şəriət – yalnız Allahın tə`yin etdiyi şəriət və qanunlardır ki, nübuvvət yolu ilə insanlara çatdırılmalıdır.

("Əhzab" surəsi, ayə-40) Bu ayə ilə nübuvvətin və şəriətin Peyğəmbər vasitəsilə

sona çatdırıldığı e`lan edilir.

"Hər kəs Allahın hökmi əsasında hökm etməsə kafirdir." ("Maidə" surəsi, ayə-44)

saxlanmasını zəruri hesab edir və ona e`tiqad bəsləyirdilər. Onların nəzərinə görə Peyğəmbərin sünnəsi və buyurduğu kəlamlar belə bir əsalətə malik deyildir; o həzrətin vəfatından sonra onlar sabit qalmır və öz e`tibarını əldən verir. Onlar inanırdılar ki, islam hökuməti məsləhət bildiyi yerlərdə onları icra etməyə bilər. Bu nəzəriyyə sonralar səhabə barəsində nəql olunan bir çox rəvayətlərlə qüvvətləndirildi.[1] Bu nəzəriyyənin ən bariz nümunəsi xəlifənin tanınmış bir sərkərdəsi olan Xalid ibni Vəlidin törətdiyi üzdəniraq hadisə idi; o, məşhur səhabə olan Malik ibni Nüveyrənin evində qonaq kimi gecələyərkən onu qəfildən öldürdü, başını kəsib ocağda yandırdı və həmin gecə də onun arvadı ilə zina etdi! Bu rüsvayçı cinayətlərin ardınca xəlifə onun hökumətində Xalid kimi sərkərdəyə ehtiyac olduğunu bəhanə edərək, onun barəsində şəriət hökmünü icra etmədi!![2]

Həmçinin xumsu Peyğəmbər (s)-in Əhli-beytindən və o həzrətin yaxın adamlarından kəsdilər.[3] Peyğəmbəri-Əkrəmin (s) hədislərinin yazılması birdəfəlik qadağan

---

1 Onlar deyirdilər ki, səhabələr müctehiddirlər; öz ictihadlarında düzgün qərar çıxarsalar onlara savab verilər, xətaya yol verdikdə isə üzürlü hesab olunarlar.

2 "Tarixi Yə`qubi", 2-ci cild, səh-110, Əbil Fidanın tarixi, 1-ci cild, səh-158

3 "Bilin ki, hər nəyi qənimət olaraq götürsəniz onun beşdə biri Allaha, Onun rəsuluna və Peyğəmbərin yaxın adamlarına məxsusdur." ("Ənfal" surəsi, ayə-41)

olundu. Hər hansı bir yerdə yazılı hədis tapılsaydı, yaxud bir kəsdən alınsaydı onu zəbt edib yandırırdılar.[1]

Məhəmməd ibni Əbi Bəkr deyir: Ömərin dövründə hədis çoxaldı, hədislər onun yanına gətirildikdə onların yandırılmasını əmr etdi.[2]

Bu qadağanlar raşidi xəlifələrinin dövründən əməvi xəlifəsi Ömər ibni Əbdül Əzizin zamanına qədər (99-102) davam etdi.

İkinci xəlifənin hakimiyyəti dövründə (13-25) bu siyasət daha qabarıq şəkildə büruzə gəldi və xəlifə şəriətin bə`zi hökmlərini, o cümlədən "təməttö` həcci"ni, "müt`ə nikahı"nı və azanda "həyyə əla xəyril-əməl" cümləsinin deyilməsini qadağan etdi, bir görüşdə üç təlağın qanuni hökm olmasına icazə verdi və s.[3]

---

1 Əbu Bəkr öz xilafəti dövründə 500 hədis yazılan vərəqələri cəm etdi. Ayişə deyir: Bir gecə sübhə qədər atamın iztirablı olduğunu gördüm, sübh mənə dedi: O hədisləri gətir!" Sonra onların hamısını yandırdı. ("Kənzül-ümmal", 5-ci cild, səh-237)

Ömər bütün şəhərlərə yazdı: "Hər kimdə hədis varsa onu məhv etsin." ("Kənzül-ümmal", 5-ci cild, səh-237)

2 "Təbəqati ibni Səd", 5-ci cild, səh-140

3 Peyğəmbər (s) həccətul-vidada Məkkədən uzaqda yerləşən məntəqələrdən gələn hacılar üçün "fəmən təməttəə bil-ümrəti iləl-həcci..." ayəsinə əsasən həcc əməlini xüsusi şəkildə bəyan etdi. Ömər isə öz xilafəti dövründə onu qadağan etdi. Həmçinin Peyğəmbərin (s) dövründə müt`ə (müvəqqəti izdivac) adi bir iş idi, lakin Ömər öz xilafəti dövründə onu qadağan etdi, bu əmrin əksinə gedənlərin daş-qalaq olunması hökmünü verdi. Həmçinin Rəsuli-Əkrəmin (s) dövründə namazda "həyyə əla xəyril-əməl" (yə`ni əməllərin ən yaxşısı olan namaz üçün

İlk dəfə olaraq onun xilafəti dövründə beytül-mal camaatın arasında ədalətsiz şəkildə bölünməyə başladı. Bu da sonralar müsəlmanların arasında dəhşətli sinfi ziddiyyətlər və qanlı çəkişmələr yaratdı. Onun xilafəti dövründə Müaviyə Şamda padşahlara məxsus olan səltənət üsul-idarəsini tətbiq etdi, xəlifə də onu "ərəblərin kəsrası" adlandırdı və heç vaxt ona e`tiraz etmədi.

İkinci xəlifə 23-cü hicri-qəməri ilində iranlı bir qulun əli ilə öldürüldü. Onun öz göstərişi ilə tə`sis olunan altı nəfərlik şuranın rə`yinə uyğun olaraq, üçüncü xəlifə müsəlmanların rəhbərliyini öz öhdəsinə götürdü. O, öz xilafət illərində əməvi sülaləsindən olan qohum-əqrəbalarını xalqa hakim etdi, Hicazda, İraqda, Misirdə və s. islam ölkələrində rəhbərlik işini onlara həvalə etdi.[1]

O, bir çox qanunsuz hərəkətlərin bünövrəsini qoydu, aşkar şəkildə zülm, günah və əxlaqsızlıq etməyə, islamın cari qanunlarını pozmağa başladı; şikayətlər hər tərəfdən sel kimi xilafət mərkəzinə gəlməyə başladı. Lakin öz əməvi kənizlərinin, xüsusilə Mərvan ibni Həkəmin tə`siri altına düşən xəlifə o şikayətlərə məhəl qoymur və bə`zən

---

tələsin) deyilirdi. Lakin Ömər dedi: "Bu kəlmə camaatın cihada getməsinin qarşısını alır"; sonra bu cümlənin deyilməsini qadağan etdi! Həmçinin Peyğəmbəri-Əkrəmin (s) dövründə o həzrətin öz göstərişi əsasında bir yığıncaqda bir təlaqdan artığı gerçəkləşmirdi, lakin Ömər bir məclisdə üç təlağın qanuni hökm olmasına icazə verdi!!! Qeyd olunan hadisələr sünnü və şiələrin məşhur hədis, fiqh, kəlam kitablarında qələmə alınmışdır.

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-150, Əbil Fidanın tarixi, 1-ci cild, səh-168; "Tarixi Təbəri", 3-cü cild, səh-377 və s.

də şikayətçiləri tə`qib edib onlara müxtəlif yollarla təzyiq göstərilməsinə əmr verirdi.[1] Nəhayət hicri tarixi ilə 35-ci

---

1 Misir əhalisindən bir dəstə camaat Osmanın əleyhinə qiyam etdi. Osman təhlükə hiss etdiyi zaman Əli (ə)-dan kömək istəyərək peşman olduğunu bildirdi. Əli (ə) misirlilərə buyurdu: Siz haqqı dirçəltmək üçün qiyam etmisiniz. Osman tövbə edərək öz keçmiş əməllərindən peşman olduğunu deyir və bildirir ki, üç gün ərzində sizin istəklərinizi yerinə yetirəcək, zalım valiləri işdən çıxaracaq.

Əli (ə) Osmanın tərəfindən onlar üçün müqavilə yazdı və onlar öz vətənlərinə qayıtdılar. Yol əsnasında Osmanın qulamını onun dəvəsinə minib Misrə tərəf getdiyini gördükdə onun barəsində şübhəyə düşüb axtardılar. Osmanın Misir valisinə yazılmış bir məktubunu tapdılar:

"Allahın adı ilə! Əbdürrəhman ibni Ədis sənin yanına gələndə ona yüz şallaq vur, üzünü və başını qırx, uzun müddətli zindana sal. Bu əməli Əmr ibni Həməq, Sovdan ibni Həmran və Ürvət ibni Nəbağın barəsində də icra et!!"

Bu məktubu alıb qəzəbləndilər və yenidən Osmanın yanına qayıdıb dedilər: Sən bizə xəyanət etmisən! Osman bu məktubu özünün yazdığını inkar etdikdə dedilər ki, sənin qulamın bu məktubu aparırdı. Osman dedi ki, o, bu işi mənim icazəm olmadan görmüşdür. Dedilər ki, axı o, sənin dəvənə minmişdi?! Cavab verdi ki, mənim dəvəmi oğurlamışdır. Dedilər: Məktub sənin katibinin vasitəsilə yazılmışdır. Cavab verdi ki, mənim icazəm və xəbərim olmadan bu işi görmüşdür.

Dedilər: Belə isə sən xilafətə layiq deyilsən, gərək iste`fa verəsən. Çünki əgər bu iş sənin icazənlə olmuşsa xəyanətkarsan, yox əgər belə mühüm işlər icazən və xəbərin olmadan baş vermişsə sən ləyaqətsizsən, bununla ləyaqətsiz olduğun sübuta yetir və hər bir halda ya iste`fa verməlisən, ya da zalım valilərini işdən kənarlaşdırmalısan.

ildə onun əleyhinə qiyam baş verdi; bir neçə gün davam edən mühasirə və çarpışmalardan sonra xəlifə öldürüldü.

Üçüncü xəlifə öz xilafəti dövründə başda onun əməvi qohumlarının rəisi olan Müaviyə olmaqla, Şam hökumətini günbəgün möhkəmlətdi və həqiqətdə xilafətin təməllərini Şamda təmərküzləşdirdi; artıq Mədinədə yerləşən xilafət mərkəzi formal xarakter daşımağa başlayırdı.

Birinci xəlifə xilafət məqamına səhabələrin əksəriyyətinin seçkisi ilə, ikinci xəlifə birinci xəlifənin vəsiyyəti ilə, üçüncü xəlifə isə üzvləri və proqramı ikinci xəlifə tərəfindən tə`yin edilən altı nəfərlik şuranın vasitəsilə seçildi. İslam hökuməti üç xəlifənin üst-üstə 25 ildən artıq davam edən hakimiyyət illərində xəlifənin məsləhət və ictihadı əsasında idarə olunurdu. İslam maarifi yalnız Qur`an oxumaqla bitirdi; özü də təfsir olunmadan, yaxud heç bir araşdırma aparılmadan. Peyğəmbərin (s) sözləri (hədisləri) də kağız üzərinə gəlmədən, şifahi şəkildə söylənilməklə rəvayət olunurdu.

Yazı yazmaq yalnız Qur`ana məxsus idi və bu iş hədis barəsində qadağan edilmişdi.[1] Hicri tarixi ilə 12-ci ildə qurtaran Yəmamə müharibəsində Qur`an qarilərindən bir dəstəsi qətlə yetirildi; Ömər ibni Xəttab birinci xəlifəyə təklif etdi ki, Qur`an ayələri bir müshəfdə yazılaraq bir yerə toplansın. O deyirdi ki, müharibə baş versə və sair

---

Osman dedi: Əgər mən sizin istəyinizə uyğun əməl etsəm onda siz hakim sayılırsınız; bu halda mən nəçiyəm? Onlar qəzəblə məclisdən qalxdılar. "Tarixi Yə`qubi", 2-ci cild, səh-150-151

[1] "Tarixi Yə`qubi", 2-ci cild, səh-113)

Qur`an qariləri də öldürülsə, artıq Qur`an məhv olub aradan gedəcəkdir. Buna əsasən Qur`an ayələrini bir cilddə toplayaraq kitab halına salmalıyıq.[1]

Onlar Qur`an barəsində belə bir qərar çıxardılar, lakin, Qur`anın bəyanedicisi olan Peyğəmbər (s) hədisləri haqda heç bir tədbir görmədilər, (daha doğrusu əks tədbir gördülər. O həzrətin kəlamları Qur`andan da artıq təhlükə ilə üzbəüz olduğu halda onu yazmağı qəti şəkildə qadağan etdilər.) Onlar, mə`nalarında baş veriləcək nöqsanlardan – artırıb-azaldılmaq, qondarma və unutqanlıq kimi təhlükələrdən amanda deyildi. Bu dövrlərdə nəinki hədisin qorunub saxlanılmasına azacıq diqqət yetirilmirdi, hətta onun yazılması belə qadağan edilmişdi, ələ düşən hər bir hədisi də yandırırdılar.

Az bir müddət ərzində iş o yerə çatdı ki, hətta islamın zəruri məsələlərindən olan namaz barəsində belə, bir-biri ilə zidd olan çoxlu rəvayətlər nəql olundu. Bu müddət ərzində elmin digər sahələrində heç bir tədbir görülmədi, Qur`an ayələri və Peyğəmbərin (s) kəlamlarında elmin müqəddəsliyi, onun öyrənilməsinə olan tə`kid və təşviqlər görünməz oldu. Xalqın əksəriyyəti ardıcıl fəthlər və hər tərəfdən sel kimi axaraq Ərəbistan yarmadasına gələn qənimətlərlə məşğul idi. Artıq, başda Əli (ə) olmaqla, Peyğəmbər sülaləsinin elminə azacıq da olsa e`tina olunmurdu. Halbuki, Peyğəmbər (s) Əli (ə)-ı islam maarifi və Qur`anın mə`na və məqsədləri barədə ən agah və bilikli şəxs kimi təqdim etmişdi. Hətta Qur`anın toplanması hadisəsində ona e`tina etmədilər, onun adını

[1] "Tarixi Yə`qubi", 2-ci cild, səh-111

belə dilə gətirmədilər. (Halbuki, Peyğəmbərin (s) vəfatından sonra Əli əleyhissəlamın bir müddət evdə oturub Qur`anı bir yerə topladığını və onlar yenicə qərara gəlib görmək istədikləri işi çoxdan başa çatdırdığını bilirdilər.)[1]

Bu və bu kimi bir çox hadisələr Əli (ə)-ın ardıcıllarının öz əqidələrində daha da möhkəmlənməsinə, işlərin gedişatında daha artıq ayıq və tədbirli olmalarına, həmçinin öz fəaliyyətlərini günbəgün artırmalarına səbəb olurdu. Xalqın ümumi şəkildə tə`lim-tərbiyə işlərindən məhrum olan Əli (ə) bu işlərlə xüsusi şəkildə məşğul olur, ayrı-ayrı şəxslərin hazırlanmasında əlindən gələni əsirgəmirdi.

Hicri tarixi ilə 25-ci ildə Əli (ə)-ın yaxın köməkçilərindən üç nəfəri (Salman Farsi, Əbuzər Ğifari və

---

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-113; "Nəhcül-bəlağə"nin şərhi, (İbni Əbil Hədid), 1-ci cild səh-9. Çoxlu rəvayətlərdə qeyd olunur ki, Əbu Bəkr, ona bey`ət edildikdən sonra bir neçə nəfəri Əlinin (ə) yanına göndərib onun da bey`ət etməsini istədi. Əli (ə) cavab verdi ki, "mən namazdan başqa heç bir şey üçün evimdən çıxmamağı və evdə qalıb Qur`anı toplamağı əhd etmişəm." Yenə də qeyd olunur ki, "Əli (ə) altı aydan sonra Əbu Bəkr ilə bey`ət etdi, səbəbi də bu müddətdə Qur`anı bir yerə toplaması idi." Başqa bir rəvayətdə qeyd olunur ki, Əli (ə) Qur`anı müshəf şəklində bir yerə topladıqdan sonra dəvəyə yükləyib camaatın yanına gətirdi və onlara göstərdi. Həmçinin nəql olunur ki, Yəmamə müharibəsi (Qur`an ondan sonra bir yerə yığılmışdır) Əbu Bəkrin xilafətinin ikinci ilində baş verdi. Qeyd olunan mətləblər müshəfin bir yerə toplanması hadisəsini bəyan edən hədis və tarix kitablarında gözə çarpır.

Miqdad) vəfat etdi. Lakin səhabələrdən böyük bir qrupu, Hicazda, Yəməndə, İraqda və s. yerlərdə olan səhabə və tabeinlərin əksəriyyəti Əli (ə)-ın ardıcıllarına qoşuldu; üçüncü xəlifənin öldürülməsindən sonra müsəlmanlar mümkün olan hər bir yolla o həzrətə bey`ət edərək onu xilafətə seçdilər.

## *XİLAFƏTİN ƏLİ (Ə)-A ÇATMASI VƏ ONUN SEÇDİYİ YOL*

Əli (ə)-ın xilafəti hicri tarixi ilə 35-ci ilin axırlarında başlandı və təqribən 4 il beş ay davam etdi. Əli (ə) öz xilafəti dövründə Peyğəmbərin (s) siyrəsinə (üslub və davranışına) əməl edirdi.[1]

Əvvəlki üç xəlifənin dövründə şəriətdə baş verən dəyişikliklərin əksəriyyəti islah olunaraq əvvəlki hala qaytarıldı və ümmətin idarə olunmasını öhdəsinə alan nalayiq valilər işdən kənarlaşdırıldı.[2] Həqiqətdə bunlar inqilabi bir hərəkat idi və təbiidir ki, bu prosesdə bir çox çətinliklər qarşıya çıxmalı idi.

Əli (ə) xilafətə çatdığı ilk gündə camaata belə söyləyir: "Agah olun! Peyğəmbəri-Əkrəmin (s) be`səti dövründə qarşılaşdığınız çətinliklər bu gün yenidən sizə tərəf qaytarılmış və yaxanızdan tutmuşdur. Hər şey dəyişdirilməlidir; geriyə çəkilmiş fəzilətli səhabələr üzə çıxmalı, nalayiq və yaramaz işlərə adət edənlər geri çəkilməlidir. (Haqq və batil; onların hər birinin sahibi

---

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-154.

2 "Tarixi Yə`qubi", 2-ci cild, səh-155).

vardır və hamı haqqa tabe olmalıdır). Batilin əksəriyyətə çevrilməsi təzə bir şey deyildir. Haqqın azlıqda olmasına gəldikdə isə, azlar da bə`zən irəliləyir və onların da irəliləmək ümidi vardır. Əlbəttə, çox az hallarda insana arxa çevirən məsələ, yenidən ona üz gətirir."[1]

Əli (ə) başladığı inqilabi prosesi və islahat işlərini davam etdirirdi. Amma hər bir inqilabi hərəkatın təbiətinə uyğun olaraq, mənafeləri təhlükəyə düşən müxalif ünsürlər hər tərəfdən müxalifətçiliyə başlayıb "üçüncü xəlifənin intiqamını almaq" bəhanəsi ilə daxildə qanlı müharibələr törətdilər. Bu mübarizə və müharibələr təqribən Əli (ə)-ın xilafətinin əvvəlindən axırına qədər davam etdi. Şiələrin nəzərində bu daxili çarpışmaların əsil səbəbi şəxsi mənafelər və əldən getmiş mövqelərin yenidən qaytarılması marağı olub; üçüncü xəlifənin intiqamının alınması xalqı aldatmaqdan başqa bir şey deyildi, hətta bu barədə azacıq da olsa anlaşılmazlıq və şübhə yox idi.[2]

---

1 "Nəhcül-bəlağə", 15-ci xütbə

2 Peyğəmbəri-əkrəmin (s) vəfatından sonra bir neçə nəfər Əli (ə)-a tabe olaraq Əbu Bəkrə bey`ət etməkdən imtina etdilər. Bunların başında tanınmış səhabə Salman, Əbuzər, Miqdad, Əmmar dayanırdı. Əli (ə)-ın xilafətinin əvvəllərində də çox az adam müxalifət ünvanı ilə bey`ətdən imtina etdilər. O cümlədən inadkar müxalif və qanun pozanlar olan Səid ibni As, Vəlid ibni Əqəbə, Mərvan ibni Həkəm, Əmr ibni As, Busr ibni Ərtat, Səmrət ibni Cündəb, Müğeyrət ibni Şö`bə və s.-nin adını qeyd etmək olar.

Bu iki dəstənin tarixinin araş-dırılması, onlardan baş verən əməllərə diqqət yetirilməsi, onların tarixində baş verilən

"Cəməl" müharibəsi adlanan birinci qiyamın əsas amili ikinci xəlifənin dövründə beytül-malın müsəlmanlar arasında bölüşdürülməsi zamanı yaranan sinfi ixtilaflar

---

hadisələr onların dini şəxsiyyətlərini və hədəflərini gözəl şəkildə bəyan edir. Birinci dəstə Peyğəmbəri-Əkrəmin (s) xas səhabələrindən, zahid, ibadətçi, fədakar və islami azadlıq sevənlər olub Peyğəmbər (s) tərəfindən xüsusi hörmətə layiq görülürdü. Peyğəmbər (s) buyurmuşdur: "Allah mənə xəbər vermişdir ki, O, dörd nəfəri sevir, mənə də əmr etmişdir ki, onları sevəm. Onların adını soruşduqda üç dəfə "Əli" - deyə buyurdu və sonra Salman, Əbuzər və Miqdadın adını çəkdi." "Sünəni ibni Macə", 1-ci cild, səh-66.

Ayişə deyir: "Rəsuli-Əkrəm (s) buyurdu: "Əmmara hər vaxt iki iş əmr olunsa hökmən haqq və daha yaxşı olanını seçəcəkdir." "Sünəni ibni Macə", 1-ci cild, səh-66.

Peyğəmbər (s) buyurmuşdur: "Asiman və yer arasında Əbuzərdən doğru danışan bir şəxs yoxdur." "Sünəni ibni Macə", 1-ci cild, səh-68.

Bu böyük səhabələrdən bütün ömürləri boyu şəriətə zidd və qanunsuz bir əməl görünməmişdi, onlar heç bir kəsin qanını nahaq yerə axıtmamış, bir kəsin namusuna toxunmamış, bir kəsin malını oğurlamamış, yaxud camaatı düz yoldan azdırmamışlar.

Lakin tarix ikinci dəstənin törətdikləri faciəli işlər və qanuna zidd hərəkətlərlə doludur, onların nahaq yerə axıtdıqları qanlar, müsəlmanların mallarını zəbt etmələri, rüsvayçı əməlləri saysız-hesabsızdır və heç bir üzürlü bəhanə ilə onlara bəraət qazandırmaq olmaz. Yalnız (sünnülərin dedikləri kimi), bunu demək olar ki, Allah onlardan razı olsun, törətdikləri hər bir cinayətdə azad idilər, kitab və sünnətdə olan islam qayda-qanunları istisnai olaraq onlara aid deyildi və yalnız başqalarının haqqında yaradılmışdı!!

idi. Əli (ə) xilafətə seçildikdən sonra beytül-malı camaatın arasında bərabər şəkildə böldü; Peyğəmbərin (s) üslubu da məhz bu idi. Əli (ə)-ın bu rəftarı Təlhə və Zübeyri çox qəzəbləndirdi. Onlar Əli (ə)-a qarşı çıxaraq, öz ətraflarında qüvvə toplamaq qərarına gəldilər. Kə`bəni ziyarət etmək adı ilə Mədinədən Məkkəyə gedib o zaman orada olan Ümmül-mö`minin Ayişə ilə görüşdülər. (O, Əli (ə)-a qarşı yaxşı münasibət bəsləmirdi.) Onlar ümumi razılığa gəlib üçüncü xəlifənin intiqamını almaq (!) adı ilə qanlı "Cəməl" müharibəsini törətdilər.[1] Halbuki, Təlhə və Zübeyr üçüncü xəlifənin evi mühasirəyə alınıb qətlə yetirilən zaman Mədinədə olduqları halda onu müdafiə etməmişdilər;[2] hələ üstəlik bu hadisədən sonra Əli (ə)-a bey`ət edən ilk şəxslər idi.[3] Hətta Ayişənin özü də camaatı üçüncü xəlifənin qətlə yetirilməsinə təhrik edənlərdən biri idi.[4] O, xəlifənin qətlə yetirilməsi xəbərini eşidəndə sevincini gizlədə bilmədi və ölənin ardınca söyüş söyüb təhqiramiz sözlər işlətdi.

Xəlifənin qətlə yetirilməsinin əsas səbəbkarları ümumiyyətlə səhabələr özləri idi. Belə ki, onlar Mədinədən ətraf yerlərə məktublar yazaraq camaatı xəlifənin əleyhinə qiyama təhrik edirdilər.

Bir il yarım davam edən "Siffeyn" adlı ikinci müharibənin də səbəbi Müaviyənin xilafətə göz dikməsi idi. O, bu müharibəyə üçüncü xəlifənin intiqamını almaq

---

1 "Tarixi Yə`qubi", 2-ci cild; "Tarixi Əbil Fida", səh-172

2 "Tarixi Yə`qubi", 2-ci cild

3 "Tarixi Yə`qubi", 2-ci cild, səh-154

4 "Tarixi Yə`qubi", 2-ci cild, səh-152

bəhanəsi ilə başladı və yüz mindən artıq insanın nahaq qanına bais oldu. Əlbəttə, Müaviyə bu müharibədə müdafiə mövqeyində deyil, hücumçu məqamında idi. Çünki, intiqamçılıq hissi ilə başlanan mübarizə heç vaxt müdafiə xarakteri daşıya bilməzdi.

Bu müharibəyə "üçüncü xəlifənin intiqamı" da deyilirdi. Halbuki, üçüncü xəlifə bu hadisələr zamanı qiyamı yatırtmaq üçün Müaviyədən kömək istəmişdi. O da bir qoşunla Şamdan Mədinəyə tərəf hərəkət etmiş, lakin yolda bilərəkdən o qədər yubanmışdı ki, nəhayət mə`lum hadisə baş verib qurtarmışdı. Xəlifə öldürüldükdən sonra Şama qayıdaraq "xəlifənin intiqamı" adı altında qiyama başlamışdı.

Əli (ə) şəhid olduqdan və xilafət qəsb edildikdən sonra artıq üçüncü xəlifənin intiqamı unuduldu və qatillər tə`qib edilmədi!!

"Siffeyn" müharibəsindən sonra "Nəhrəvan" qiyamı baş verdi. Bu hadisələr zamanı aralarında bə`zi səhabələr də olan mürtəce bir qrup Müaviyənin təhriki ilə Əli (ə)-a qarşı qiyam edib islam ölkələrində iğtişaş yaradırdılar; Əli (ə)-ın tərəfdarlarını hər yerdə tapıb öldürür, hətta hamilə qadınların qarnını cıraraq körpəni çıxarır və başını kəsirdilər.[1]

Əli (ə) bu iğtişaşları da yatırtdı, lakin bir müddət sonra Kufə məscidində namaz üstündə xəvaric tərəfindən şəhid edildi.

---

1 "Murucuz-zəhəb", 2-ci cild, səh-415

## *ŞİƏLƏRİN ƏLİ (Ə)-IN BEŞ İLLİK XİLAFƏT DÖVRÜNDƏ ƏLDƏ ETDİKLƏRİ NAİLİYYƏTLƏR*

Əli (ə)-ın dörd il doqquz aylıq xilafəti dövründə islam ölkələrinə hakim olan böhranlı şərait tamamilə əvvəlki vəziyyətinə qaytarıla bilməsə də, bu hakimiyyətin üç cəhətdən əsaslı müvəffəqiyyətləri oldu:

1. Ədalətli üslubun tətbiqi gənc nəsli Peyğəmbərin (s) davranışları ilə, başqa sözlə desək, islamın həqiqi siması ilə yenidən tanış etdi. Həzrət Əli əleyhissəlam Müaviyənin padşahlara məxsus olan şan-şöhrəti müqabilində fəqirlərlə eyni səviyyədə, camaat arasında ən kasıb bir şəxs kimi yaşayırdı. O heç vaxt dostlarını və qohum-əqrəbalarını başqalarından ayırmır, varlını kasıbdan, güclünü zəifdən üstün tutmurdu.

2. Bu qədər üzücü çətinliklər və çoxlu məşğuliyyətlərlə yanaşı, xalq arasında haqq olan islam elmlərini və ilahi maarifi yadigar qoydu.

Əli (ə)-ın müxalifləri deyirlər: "O siyasət adamı deyil, şücaətli bir şəxsiyyət idi; çünki o, xilafətinin əvvəllərində müxalif ünsürlərlə müvəqqəti də olsa razılaşaraq səfa-səmimiyyət yaratsaydı, hakimiyyətini möhkəmləndirdikdən sonra onların kökünü kəsə bilərdi." Lakin onlar nəzərə almamışdılar ki, Əli (ə)-ın xilafəti inqilabi xarakter daşıyırdı; belə bir hərəkatda zahiri razılaşma və sazişdən danışmağa dəyməz. Bu hərəkat Peyğəmbərin (s) be`səti dövründə yaranmış bir vəziyyətə oxşayır. Belə ki, kafirlər və müşriklər dəfələrlə o həzrətin qarşısında sazişkarlıq təklifi ilə çıxış edirdilər; o həzrətdən

onların bütlərinə və mə`budlarına toxun-mamasını istəyir, əvəzində Peyğəmbərin (s) də`vəti ilə müxalifətçilik etməyəcəklərinə söz verirdilər. Lakin Peyğəmbər (s) bunları qəbul etmədi. Peyğəmbər (s) belə bir şəraitdə saziş edərək öz mövqeyini möhkəmlətsəydi, sonradan düşmənləri ilə mübarizəyə başlayıb onlara qələbə çala bilərdi.

İslami də`vət heç vaxt müəyyən bir haqqı dirçəltmək üçün başqa bir haqqın tapdalanmasına, yaxud müəyyən bir batili aradan aparmaq üçün başqa bir batilin yaranmasına icazə vermir. Qur`ani-Kərimin bir çox yerlərində bu məsələ ilə əlaqədar ayələr mövcuddur.[1]

Əli (ə)-ın müxalifləri qələbə çalmaq və öz hədəflərinə çatmaq üçün heç bir cinayətdən çəkinmir, islam qanunlarını rahatca tapdalaya bilirdilər; onlar "səhabə" və "müctehid" toxunulmazlığı iddiası ilə hər bir cinayətə əl atır, bu bəhanələrlə də öz qanunsuz hərəkətlərinin üzərinə pərdə çəkirdilər. Lakin Əli (ə) islam qanunlarını heç bir şeyə qurban vermir, nəyin bahasına olursa-olsun, onlara sədaqət və vəfadarlıqla yanaşırdı.

Əli (ə)-dan əqli, dini, ictimai-siyasi və bu kimi digər sahələrə aid on bir minə yaxın qısa kəlamlar mövcuddur. O həzrət öz çıxışlarında islam maarifini ən gözəl söz üslubu və eyni zamanda sadə dildə bəyan etmiş, ərəb dilinin qrammatika və ədəbiyyatının bünövrəsini qoymuşdur. Əli (ə) ilahi fəlsəfə qaydaları əsasında söhbət

---

[1] "Sad" surəsi, ayə-5, "İsra" surəsi, ayə-74, "Qələm" surəsi, ayə-9 ilə əlaqədar olaraq ayələrin nazil olma səbəblərinə müraciət edin.

edən ilk islami şəxsiyyətdir.[1] O həzrət azad istidlal və məntiqi bürhan üslubunda danışır, o dövrə qədər dünya filosoflarının arasında diqqət yetirilməyən məsələləri işıqlandırır və hətta müharibənin qızğın çağlarında belə, elmi məsələləri araşdırırdı.[2]

3. İmam Əli (ə) bir çox islami şəxsiyyətlər və alimlər yetişdirmiş, arif insanlar və fəzilət sahibləri tərbiyə etmişdir ki, onların arasında Üveys Qərəni, Kumeyl ibni Ziyad, Meysəmi Təmmar və Rəşid Hicri kimi mə`rifət əhli və zahidlər mövcud idi; onlar islam arifləri arasında irfanın mənbəyi kimi tanınmışlar. O həzrətin fiqh, kəlam, təfsir, qiraət və s. elmlər üzrə hazırladığı şəxsiyyətlər də bir çox islami sahələrin ilkin mənbələri hesab olunurlar.

---

1 "Nəhcül-bəlağə"

2 "Cəməl" müharibəsinin qızğın çağların-da bir ərəb Əli (ə)-ın hüzuruna gəlib dedi: "Ya Əmirəl-mö`minin! Sən deyirsən ki, Allah vahiddir?" Camaat hər tərəfdən ona hücum edib dedilər ki, ey ərəb, məgər Əlinin qəlbinin narahatlağını olduğunu görmürsənmi ki, belə suallar verirsən? Əli (ə) öz səhabələrinə buyurdu: "Bu kişi ilə işiniz olmasın, çünki mənim bu qövm ilə müharibə etməkdə düzgün əqaid və dini yaymaqdan başqa bir məqsədim yoxdur." Sonra o ərəbin sualına geniş şəkildə cavab verdi. ("Biharul-ənvar", 2-ci cild, səh-65)

## *XİLAFƏTİN MÜAVİYƏNİN ƏLİNƏ KEÇMƏSİ VƏ ONUN PADŞAHLIQ VƏ VARİSLİK ÜSLUBUNA ÇEVRİLMƏSİ*

Əmirəl-mö`minin Əli (ə)-ın şəhadətindən sonra o həzrətin vəsiyyəti və camaatın bey`əti əsasında həzrət Həsən ibni Əli xilafəti öhdəsinə götürdü. Lakin Müaviyə sakit oturmayıb xilafət mərkəzi olan İraqa tərəf qoşun yeritdi və Həsən ibni Əli (ə) ilə müharibəyə başladı.

O, məkirli və hiyləgər tədbirlər görməklə, eləcə də külli miqdarda rüşvət verməklə tədricən Həsən ibni Əlinin köməkçilərini və sərkərdələrini yoldan çıxartdı; nəhayət sülh ünvanı ilə Həsən ibni Əlini, xilafəti ona verməyə məcbur etdi. O həzrət də xilafəti ona bu şərtlə təhvil verdi ki, Müaviyənin ölümündən sonra hakimiyyət bir daha onun özünə qaytarılsın və şiələrə toxunulmasın.[1]

Hicrətin 40-cı ilində Müaviyə islam xilafətini öz istilası altına keçirdi və dərhal İraqa gəlib camaata xəbərdarlıq edib dedi: "Mən sizinlə namaz və orucla əlaqədar müharibə etmirdim; mən istəyirdim ki, sizə hakim olum və indi də öz məqsədimə çatmışam."[2]

Daha sonra dedi: "Həsənlə bağladığım əhdi-peymanı ləğv edərək onu tapdaladım!!"[3]

---

[1] "Tarixi Yə`qubi", 2-ci cild, səh-191

[2] "Şərhi ibni Əbil Hədid", 4-cü cild, səh-160

[3] Həmin mənbə

Müaviyə bu sözlə bildirmək istəyirdi ki, siyasəti dindən ayıracaq, dini qayda-qanunlarla əlaqədar heç bir zəmanət verməyəcək və varqüvvəsini öz hakimiyyətinin qorunmasına sərf edəcək. Əlbəttə, mə`lum olduğu kimi, belə bir hökumət xilafət və Peyğəmbər canişinliyi deyil, padşahlıq üslubu ilə idarə olunan qanunsuz hökumət idi. Məhz buna görə də onun hüzuruna gedən bə`zi şəxslər ona padşahlara məxsus olan tərzdə tə`zim edib salam verirdilər.[1] Onun özü də xüsusi məclislərdə öz hökumətini padşahlıq adlandırır,[2] camaat arasında isə özünü xəlifə kimi tanıtdırırdı.

Qeyd etmək lazımdır ki, onun padşahlığı zorakılıq əsasında qurulmuşdu və varislik yolu ilə onun övladına ötürülməli idi. Nəhayət o, öz niyyətini əməli olaraq həyata keçirdi və azacıq da olsa dini şəxsiyyəti olmayan tərbiyəsiz oğlu Yezidi özünə vəliəhd və canişin tə`yin etdi.[3] O da öz növbəsində tarixdə qeyd olunan çox böyük faciələr və rüsvayçı cinayətlər törətdi.

---

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-193

2 "Tarixi Yə`qubi", 2-ci cild, səh-202

3 Yezid əyyaş, şəhvətpərəst və daim şərab içən bir adam idi. İpək parçalardan toxunmuş paltarlar geyinir, daim it və meymunla oynayardı. Gecələr şərab və rəqs məclisləri təşkil edirdi. Onun meymununun adı "Əbu Qeys" idi. Ona da gözəl bir paltar geyindirərək şərab məclisinə gətirirdi. Bə`zən də onu atına mindirib müsabiqəyə göndərirdi. "Tarixi Yə`qubi", 2-ci cild, səh-196.

Müaviyə yuxarıda qeyd olunan sözləri söyləməklə bildirmək istəyirdi ki, Həsən (ə)-ın ondan sonra xilafətə çatacağına yol verməyəcəkdir. Yə`ni, onun özündən sonra xilafət barədə başqa bir fikri vardır. Buna görə də Həsən ibni Əlini zəhərləyib şəhid etdi[1] və oğlu Yezidin xilafətə çatması üçün lazım olan şəraiti yaratdı.

Müaviyə imam Həsənlə bağladığı əhd-peymanı pozmaqla bildirmək istəyirdi ki, Əhli-beyt şiələrinin əmin-amanlıqda və asayişdə yaşayacağına, əvvəldə olduğu kimi dini fəaliyyətlərini davam etdirəcəyinə heç vaxt yol verməyəcəkdir. O bu işini də əməli olaraq həyata keçirmişdi.

O, e`lan etmişdi ki, hər kəs Əhli-beytin fəziləti barədə bir hədis nəql etsə onun canı, malı və namusunun toxunulmazlığı heç bir vəchlə tə`min olunmayacaq. Göstəriş vermişdi ki, hər kim sair səhabələrin və xəlifələrin fəziləti barədə hədis gətirsə mükafatlanacaq. Bu tədbirin həyata keçirilməsi nəticəsində səhabələrin fəziləti barədə saysız-hesabsız hədislər quraş-dırıldı.[2]

Müaviyənin göstərişi ilə bütün islam ölkələrində mənbərlərdə Əli (ə)-ın adına nalayiq sözlər deyilirdi. (Bu yaramaz əməl əməvi xəlifəsi Ömər ibni Əbdül Əzizin xilafəti dövrünə qədər (99-101-ci illərə qədər) icra olunurdu.) O, öz mə`murlarının köməyi ilə (onların bə`ziləri də Peyğəmbər (s) səhabələrindən idilər) Əli (ə)-ın şiələrini öldürür, bə`zilərinin başını

---

1 "Murucuz-zəhəb", 3-cü cild, səh-5

2 "Ən-nəsayihul-kafiyə", səh 72-73

kəsib nizəyə vuraraq şəhərbə-şəhər gəzdirirdi; şiələrin özlərini də Əli (ə)-a qarşı çıxmağa vadar edir, nalayiq sözlər demək məcburiyyətində qoyur, imtina edənlərin boynunu vurdururdu.[1]

## *ŞİƏLƏRİN ƏN AĞIR DÖVRANI*

Şiəlik tarixində onların keçirdiyi ən ağır və acınacaqlı şərait Müaviyənin 20 illik hakimiyyət dövrü idi. Bu illərdə əksəriyyəti tanınmış şəxsiyyətlər olan şiələrin təhlükəsizliyini tə`min edə biləcək heç bir qanun və şərait yox idi. Şiələrin iki böyük rəhbəri (ikinci və üçüncü imam) Müaviyənin dövründə yaşayırdı; onlar xoşagəlməz və acınacaqlı vəziyyəti islah etmək üçün azacıq imkanlara belə, malik deyildilər. Hətta Yezidin hakimiyyətinin ilk altı ayında öz köməkçiləri və övladları ilə qiyam edərək şəhid olan imam Hüseyn (ə)-ın da Müaviyənin xilafətdə olduğu 10 il müddət ərzində qiyam etməyə heç bir imkanı yox idi.

Sünnülərin əksəriyyəti səhabələrin, xüsusilə Müaviyənin və onun mə`murlarının əli ilə baş verən bu qədər cinayətlərə və qanunsuz hərəkətlərə bəraət qazandırırlar. Onların fikrincə Müaviyə və onun yaxın adamları səhabə idi və Peyğəmbərdən nəql olunan hədislərə əsasən səhabələrin hamısı müctehiddirlər; onlar, baş verən xətalara və törətdikləri cinayətlərə görə heç bir məs`uliyyət daşımırlar; təsəvvür olunması mümkün olan hər bir günah qarşısında üzürlü

---

1 "Ən-nəsayihul-kafiyə", səh 58, 64, 77 və78

sayılırlar; Allah onlardan razıdır, onların törətdikləri hər növ cinayət və təqsir əfv olunub!!! Lakin şiələr bir neçə səbəbə görə bu bəhanələri qətiyyətlə rədd edirlər.

**Əvvəla:** Peyğəmbəri-Əkrəm (s) kimi bir rəhbərin, haqq-ədalət və azadlığın dirçəldilməsi üçün qiyam edib böyük bir kütləni özü ilə həmməslək etdikdən, bu müqəddəs məqsəd yolunda bütün varlığını verdikdən və onu həyata keçirib öz məqsədinə çatdıqdan sonra, xalq və müqəddəs qanunlar qarşısında öz səhabələrinə mütləq şəkildə azadlıq verməsini necə qiymətləndirmək olar?! Onların haqqı tapdalamasını, törətdikləri cinayətləri əfv etməsi o həzrətə yaraşan bir iş deyildi; əks halda belə çıxırdı ki, o həzrət öz əlləri ilə qurub düzəltdiyi bir binanı sonradan öz əli ilə də viran etdi?!

**İkincisi:** Səhabələrin müqəddəsliyini qoruyan, onların yaramaz və qanunsuz işlərinə bəraət qazandıran, onların bağışlandığını və bütün yaramaz işlər və cinayətlər qarşısında toxunulmazığını göstərən rəvayətlər məhz səhabələrin özləri tərəfindən gəlib çatmışdır və bunların hamısı onların özlərinə mənsub edilir. Tarixi sənədlərin verdiyi şəhadətə əsasən səhabələrin özləri də bir-birləri ilə “toxunulmazlıq” və “əfv olunmaq” əsasında rəftar etmirdilər. Onların özləri də bir-birinin qanını tökür, söyür, lə`nətləyir və rüsvay edirdilər; bir-birlərinə qarşı azacıq da olsa e`tinasızlığı rəva görmürdülər.

Qeyd olunanları nəzərə almaqla demək olar ki, səhabələrin öz şəhadətinə əsasən bu rəvayətlər düzgün ola bilməz. Onların düzgün olması fərz edilsə belə,

məqsəd tamamilə başqa sözdür və səhabələrin müqəddəslik və toxunulmazlığını çatdırmır.

Allah-taala Öz kəlamında nə vaxtsa Onun fərmanın icrasında etdiyi xidmətlərə əsasən səhabələrdən razı olduğunu bildirmişsə belə, ("Tövbə" surəsi, ayə:100) onun mə`nası gələcəkdə də ürəkləri istəyən itaətsizliyə icazə verilməsi deyildir; sadəcə olaraq burada onların keçmişdə olan itaətkarlıqlarına təşəkkür edilir.

## *BƏNİ-ÜMƏYYƏ SƏLTƏNƏTİNİN MÖHKƏMLƏNMƏSİ*

Hicri-qəməri tarixi ilə 60-cı ildə Müaviyə öldü və oğlu Yezid atasının camaatdan onun üçün aldığı bey`ət əsasında islam hökumətinin idarəçiliyini öz öhdəsinə aldı.

Tarixi mə`lumatlara əsasən, Yezidin heç bir dini şəxsiyyəti yox idi. O, hətta atasının sağlığında belə, islam qanunlarına əsla əhəmiyyət vermir, əyyaşlıqdan, şəhvətpərəstlikdən başqa bir şeylə məşğul olmurdu. Yezid hakimiyyətinin üçüncü ilində islam tarixində misli görünməmiş faciələr törətdi.

Birinci il Peyğəmbərin (s) nəvəsi əziz olan Hüseyn ibni Əli (ə)-ı övladları, qohumları, köməkçiləri və dostları ilə birlikdə faciəli şəkildə öldürdü, qadınlarını, uşaqlarını və Peyğəmbər Əhli-beytini şəhidlərin kəsilmiş başı ilə birlikdə şəhərbə-şəhər gəzdirdi.[1] İkinci ildə isə Mədinə əhalisini kütləvi şəkildə qırdı və üç gün

---

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-216

ərzində camaatın qanını, malını və namusunu öz ordusunda olanlara halal etdi.[1] Üçüncü ildə isə müqəddəs Kə`bəni dağıtdı və oranı yandırdı!![2]

Yeziddən sonra Mərvan və Üməyyə övladları islam hökumətini idarə olunmasını əllərinə aldı. Yetmiş ilə qədər davam edən on bir nəfərin hökmranlığı islam və müsəlmanlar üçün çox ağır və acınacaqlı vəziyyətlər qarşıya çıxardı. Bu dövrdə islam cəmiyyətinə xilafət adı altında ərəb imperatorluğunun istibdad və zülmündən başqa heç bir şey hökmranlıq etmirdi. Onların hakimiyyəti dövründə iş o yerə çatmışdı ki, dövrün xəlifəsi Vəlid ibni Yəzid Peyğəmbəri-Əkrəmin (s) canişini, dinin yeganə himayəçisi sayılırdı; halbuki o, heç kəsdən çəkinmədən qərara almışdı ki, Kə`bə evinin üstündə bir otaq tiksin və həcc mərasimində orada eyş-işrətlə məşğul olsun!![3]

Dövrün xəlifəsi Vəlid ibni Yezid Qur`ani-Kərimi oxlatdırdı; Qur`ana xitabən söylədiyi şe`rdə isə belə deyirdi: "Qiyamət günü öz Allahının hüzurunda hazır olanda de ki, xəlifə məni cırdı!!"

Əlbəttə, əksəriyyət təşkil edən sünnülərlə, islam xilafəti və dini mərcəiyyət kimi iki əsaslı məsələdə köklü ixtilafları olan şiələr tarixin bu qaranlıq və irticaçı dövründə çox ağır vəziyyətdə idilər. Lakin hökumətlərin törətdiyi cinayət və zülmlər, Əhli-beyt (ə)-dan olan rəhbərlərin paklığı, təqvası və məzlumluğu onları

---

1 "Tarixi Yə`qubi", 2-ci cild, səh-243

2 "Tarixi Yə`qubi", 2-ci cild, səh-224

3 "Tarixi Yə`qubi", 3-cü cild, səh-73

günbəgün öz əqidələrində möhkəmlədirirdi; xüsusilə (şiələrin üçüncü imamı) həzrət Hüseyn (ə)-ın faciəli şəhadəti şiəliyin, xüsusilə xilafət mərkəzindən uzaqda olan məntəqələrdə, o cümlədən İraqda, Yəməndə və İranda yayılıb genişlənməsinə səbəb oldu.

Müddəamızın şahidi budur ki, şiələrin beşinci rəhbərinin imaməti dövründə Üməyyə hökumətində yaranan zəiflik nəticəsində şiələr islam ölkələrinin müxtəlif yerlərindən sel kimi Mədinəyə gələrək beşinci imamın ətrafına yığışdılar, ondan hədis və dini elmləri öyrənməyə başladılar.[1] Hələ birinci hicri əsri tamam olmamışdı ki, bir neçə nəfər dövlət əmiri İranda Qum şəhərinin bünövrəsini qoydu və şiələri oraya köçürdülər. Amma eyni halda şiələr öz rəhbərlərinin göstərişinə əsasən təqiyyə şəraitində yaşayır və öz əqidələrini gizlədirdilər.

Ələvi seyyidləri dəfələrlə hökumətin zülmkarlıq hərəkatlarına qarşı çıxaraq qiyam etdilər, lakin məğlub olub bu yolda öz canlarından keçdilər. Dövrün amansız hökuməti onları məhv etmək üçün əlindən gələni əsirgəmədi. Zeydiyyə şiələrinin rəhbəri olan Zeydin cəsədini qəbirdən çıxarıb dar ağacından asdılar, üç il darda asılı vəziyyətdə saxladıqdan sonra yerə endirib yandırdılar və külünü göyə sovurdular.[2] Əksər şiələrin inancına görə dördüncü və beşinci imam da Bəni-

---

1 Bu kitabın imamət barəsində bölməsinə müraciət edin.

2 "Murucuz-zəhəb", 3-cü cild, səh 217-219; "Tarixi Yə`qubi", 3-cü cild, səh-66.

üməyyənin əli ilə zəhərləndirilərək şəhid edilmişdir.[1] İkinci və üçüncü imamın da dünyadan getməsinə onlar səbəb olmuşlar.

Əməvi hakimləri faciə törətməkdə o qədər həddi aşmışdılar ki, sünnülərin əksəriyyəti xəlifələrə itaət etməyin ümumi halda vacib olmasını dediklərinə baxmayaraq, xəlifələri iki dəstəyə bölməyə məcbur olmuşlar: Birincisi raşidi xəlifələri, yə`ni Peyğəmbərin (s) vəfatından sonra ardıcıl olaraq gələn dörd xəlifə (Əbu Bəkr, Ömər, Osman, Əli), ikincisi isə qeyri-raşidi xəlifələrdir ki, bu silsilə Müaviyədən başlanır.

Əməvilərin törətdikləri zülm və cinayətlər nəticəsində camaatın onlara qarşı nifrəti özünün son həddinə çatmışdı; axırıncı əməvi xəlifəsinin öldürülməsindən və əməvilərin məğlu-biyyəti qətiləşdikdən sonra xəlifənin iki oğlu öz ailə-uşaqları ilə birlikdə darul-xilafədən qaçdılar. Hər yerə pənah apardılarsa da heç kəs onlara sığınacaq vermədi; nəhayət onlar uzun müddət Nobə, Həbəşə və Becavə çöllərində sərgərdan qaldılar; əksəriyyəti aclıq və susuzluqdan tələf olduqdan sonra Yəmənin cənubuna gəlib çıxdılar. Onlar bir müddət buralarda dilənçilik edib pul topladıqdan sonra hambal sifətində Məkkəyə yola düşüb camaat arasında gizləndilər.[2]

## *ŞİƏLƏR - İKİNCİ HİCRİ ƏSRİNDƏ*

İkinci hicri əsrinin axırıncı üçdə birində Bəni-üməyyənin zülmləri nəticəsində yaranan qanlı

---

1 "Biharul-ənvar", 12-ci cild.

2 "Tarixi Yə`qubi", 3-cü cild, səh-84.

müharibələrin ardınca islam ölkələrinin hər bir yerində qiyamlar baş verirdi; məhz bu illərdə "Peyğəmbər Əhli-beyti" adı ilə İranın Xorasan nahiyəsində bir hərəkat başlandı. Bu hərəkatın başçısı İran sərkərdəsi Əbu Müslüm Mərvəzi idi. O, mövcud hakimiyyət əleyhinə qiyam edərək əməvi dövlətini devirmək üçün inqilabi iş aparırdı.[1]

Bu inqilabi hərəkat şiələrin dərin təbliğatlarından qaynaqlandığına, Əhli-beyt şəhidlərinin intiqamını almaq adı ilə baş verdiyinə, hətta Əhli-beytdən olan layiqli və bəyənilmiş bir şəxsiyyət üçün camaatdan gizli şəkildə bey`ət alındığına baxmayaraq, birbaşa şiə rəhbərlərinin göstərişi ilə olmamışdır. Çünki, Əbu Müslüm xilafəti Mədinədə imamiyyə şiələrinin altıncı imamına təqdim edəndə, o həzrət bunu ciddi şəkildə rədd edib buyurdu: "Sən bizim adamlardan deyilsən, dövran da mənim dövranım deyildir."[2]

Nəhayət, Abbasilər sülaləsi Əhli-beyt adından istifadə edərək xilafəti ələ keçirdilər.[3] Əvvəlcə bir neçə gün camaatla və ələvilərlə xoş rəftar etdilər, hətta ələvi şəhidlərinin intiqamını almaq adı ilə Bəni-üməyyə tayfasını kütləvi şəkildə qırdılar, onların xəlifələrinin qəbirlərini açaraq tapdıqları hər bir şeyi yandırdılar.[4] Amma çox keçmədi ki, Bəni-üməyyənin üslublarını

---

1 "Tarixi Yə`qubi", 3-cü cild, səh-79

2 "Tarixi Yə`qubi", 3-cü cild, səh-86

3 "Tarixi Yə`qubi", 3-cü cild, səh-86

4 "Tarixi Yə`qubi", 3-cü cild, səh-91-96

özlərinə örnək kimi götürərək zülm və azğınlıq etməkdə heç nəyi əsirgəmədilər.

Dörd sünnü məzhəbindən biri olan hənəfi məzhəbinin rəisi Əbu Hənifə Mənsurun zindanına göndərildi. Ona çoxlu işgəncələr verildi. Sünnülərin digər bir məzhəb rəisi Əhməd ibni Hənbələ şallaq vuruldu.[1] İmamiyyə şiələrinin altıncı imamı da çoxlu əzab-əziyyətlərə və ağır işgəncələrə mə`ruz qaldıqdan sonra zəhərləndirilib şəhid edildi.[2] Abbasilər ələviləri dəstə-dəstə öldürür, diri-diri dəfn edir və ya divarların arasına qoyub hörürdülər.

Abbasi xəlifəsi olan Harunun dövründə islam xilafəti öz qüdrətinin zirvə nöqtəsinə çatmışdı. Bə`zi vaxtlar xəlifə günəşə xitab edərək deyirdi: “Hər yerə saçırsan saç, heç vaxt mənim ölkəmdən kənara çıxa bilməzsən!”[3] Onun orduları şərqə və qərbə doğru irəlilədiyi halda, guya onun xəlifə qəsrinin bir neçə addımlığında yerləşən Bağdad körpüsündə icazəsiz tə`yin olunmuş mə`murdan xəbəri yoxmuş; o, yoldan keçənlərdən yol haqqı alırdı, hətta bir gün xəlifənin özü də oradan keçmək istəyəndə qabağını kəsərək ondan da vergi tələb etmişdi.

Bir müğənni eyş-işrət barədə iki beyt şe`r oxuyaraq, Abbasi xəlifəsi Əminin ehtiraslarını coşdurdu. Əmin ona üç milyon dirhəm gümüş pul bağışladı! Müğənni sevincindən özünü xəlifənin ayaqları altına atıb dedi: “Ey mö`minlərin əmiri! Bu qədər pulu mənə bağışlayırsanmı?” Xəlifə cavabında dedi: “Bu elə də

---

[1] “Tarixi Yə`qubi”, 3-cü cild, səh-198

[2] “Biharul-ənvar”, 12-ci cild, imam Sadiqin əhvalat-ları

[3] Bu onun ölkəsinin ərazisinin böyüklüyünə bir işarədir.

yüksək bir məbləğ deyildir! Biz bu pulları ölkənin ucqar nahiyələ-rinin birindən alırıq!!”

İslam ölkələrinin hər bir yerindən müsəlmanların beytul-malı adı ilə xilafət sarayına sel kimi axıb gələn külli miqdarda mal-dövlət xəlifənin nəfsani istəklərinə və haqqın tapdalanmasına sərf olunurdu. Abbasi xəlifələrinin sarayında minlərlə gözəl kənizlər, oğlan və qızlar var idi!!

Əməvi dövləti süquta uğradıqdan və Abbasilər sülaləsi hakimiyyətə gəldikdən sonra da şiələrin vəziyyətində dəyişiklik baş vermədi; onların qəddar düşmənləri sadəcə olaraq öz adlarını dəyişmişdilər.

## *ŞİƏLƏR - ÜÇÜNCÜ HİCRİ ƏSRİNDƏ*

Üçüncü hicri əsrinin başlanması ilə şiələr bir neçə səbəbə görə nisbətən rahat nəfəs almağa başladılar:

**Əvvəla,** bir çox elmi və fəlsəfi kitablar yunan, siryani və s. dillərdən ərəb dilinə tərcümə olunmuşdu; camaat əqli və istidlali elmləri öyrənməyə həddən artıq maraq göstərməyə başlamışdılar. Bundan əlavə, Abbasi xəlifəsi Mə`mun (195-218) mö`təzilə məzhəbindən olduğuna görə, məzhəbdə əqli istidlalların aparılmasına xüsusi əhəmiyyət verirdi. Buna görə də dinlərdə və məzhəblərdə istidlali bəhslər aparılmasına tam azadlıq verdi. Şiə alimləri bu azadlıqdan istifadə edərək elmi fəaliyyətlərə başladılar, Əhli-beyt məzhəbinin təbliğ olunması üçün yaranan münasib fürsətdən lazımınca istifadə etdilər.[1]

---

1 Tarixlər.

**İkincisi,** Mə`mun Abbasi öz siyasətinin tələbinə uyğun olaraq, vəliəhdlik məqamını şiələrin səkkizinci imamına vermişdi; bunun sayəsində ələvilər və Əhli-beyt ardıcılları müəyyən qədər dövlət valilərinin təzyiqlərindən amanda idilər. Lakin çox keçmədi ki, iti qılınclar yenidən şiələrə tərəf tuşlandı və keçmiş xəlifələrin unudulmuş üslubu bir daha təkrarlandı. Xüsusilə, Mütəvəkkil Abbasi Əli şiələrinə qarşı qatı düşmənçilik hissi bəsləyirdi; buna görə də onun dövründə (232-247) şiələrin üçüncü imamı Hüseyn (ə)-ın Kərbəladakı qəbri yerlə yeksan edilmişdi.[1]

## *ŞİƏLƏR - DÖRDÜNCÜ HİCRİ ƏSRİNDƏ*

Dördüncü hicri əsrində şiəliyin genişlənməsi və güclənməsi üçün münasib şərait yaranmışdı ki, Bəni-Abbas xilafətinin zəifləməsi və Ali-bəveyh_padşahlarının zahir olmasını buna misal göstərmək olar.

Əslən şiə olan Ali-bəveyh padşahları Bağdadda yerləşən xilafət mərkəzinə nüfuz edərək xəlifənin özünə də tə`sir göstərə bilmişdilər. Nəzərə çarpacaq dərəcədə əldə olunan bu qüdrət şiələrə öz məzhəblərini azad şəkildə təbliğ etməyə imkan verirdi.

Tarixçilərin qeyd etdiyi kimi, bu əsrdə Ərəbistan yarımadası bütövlükdə, yaxud böyük şəhərlər istisna olunmaqla, onun əksər hissələrini şiələr təşkil edirdilər; bundan əlavə bə`zi şəhərlərdə, o cümlədən Həcər, Əmman, Sə`də də şiələr var idi. Daim sünnü mərkəzi hesab olunan və Kufə ilə rəqabət edən Bəsrə şəhərində,

---

1 "Tarixi Əbil Fida" və sair tarixlər.

həmçinin Trablos, Nablos, Təbəriyyə və Həratda da çoxlu şiələr var idi. Əhvaz əyaləti və İranın Fars körfəzi sahillərində də şiələr yaşayırdılar.

Həmin illərdə Nasir Ətruş İranın şimalında uzun illər təbliğat apardıqdan sonra Təbəristanı ələ keçirdi və orada öz hakimiyyətini e`lan etdi; bu hökumət bir neçə nəsil davam gətirə bildi. Ətruşdan əvvəl də Həsən ibni Zeyd Ələvi uzun illər Təbəristanda hakimiyyətdə olmuşdu.

Bu əsrdə İsmaili məzhəbindən olan fatimilər sülaləsi Misri ələ keçirərək orada güclü bir hökumət təşkil etdilər (296-527).[1]

Bir çox hallarda Bağdad, Bəsrə, Nişapur kimi böyük şəhərlərdə şiələrlə sünnülər arasında ciddi toqquşmalar baş verirdi; bu qarşıdurmalarda şiələr bə`zən qələbə çalır, bə`zən də məğlub olurdular.

## *ŞİƏLƏR - DOQQUZUNCU HİCRİ ƏSRİNDƏ*

Beşinci əsrdən doqquzuncu əsrin axırlarına kimi şiələr dördüncü əsrdə malik olduqları imkanlarını davam etdirir, şiə məzhəbindən olan rəhbərlər də şiəliyi genişləndirirdilər.

5-ci hicri əsrinin axırlarında İsmailiyyə firqəsinin çağırışı ilə bu firqə ardıcılları Ələmut qalasında məskən saldılar; onlar İranın mərkəzi hissəsində bir əsr yarım davam edən bir müddət ərzində tam istiqlaliyyət

[1] "Tarixi Əbil Fida", 2-ci cild, səh-63 və 3-cü cild, səh-50

şəraitində yaşadılar. Mazandaranda mər`əşi seyyidləri uzun illər boyu hakimiyyətdə oldular.[1]

Monqol padşahlarından olan Şah Xudabəndə şiəliyi qəbul etdi; onun ardınca monqollar uzun müddət İranda hakimiyyətdə oldular və şiəliyi yaydılar. Ağqoyunlu və qaraqoyunlu dövlətinin padşahları (Onların mərkəzi Təbrizdə yerləşsə də, sərhədləri Fars və Kerman əyalətinə qədər gedib çatırdı.), eləcə də (Misirdə) fatimilər hökuməti də uzun illər hakimiyyətdə olmuşdular.

Əlbəttə, sıravi insanların bu məzhəbə bağlılığı iqtidarda olan hakimlərin əqidəsi ilə fərqlənirdi. Belə ki, fatimilər hökuməti tənəzzülə uğradıqdan və Ali-əyyub sultanları hakimiyyətə gəldikdən sonra tarix bir daha təkrar-landı; Misir və Şam şiələri dini azadlıqlardan tamamilə məhrum edildi və şiələrin böyük bir qrupu qılıncdan keçirildi.[2]

O cümlədən, şiə fiqhinin böyük və görkəmli şəxsiyyətlərindən olan Şəhidi Əvvəl Məhəmməd ibni Məhəmməd Məkki şiə olduğuna görə 786-cı hicri ilində Dəməşqdə qətlə yetirildi; Şeyxi-işraq Şəhabuddin Söhrəvərdi fəlsəfəyə meyl göstərdiyinə görə Hələb şəhərində e`dam olundu.[3]

Bu beş əsr ərzində şiələrin sayı ümumi şəkildə artmaqda idi; qüdrət və məzhəbi azadlıq məsələsi isə sultanların şiələrlə müxalif və ya müvafiq olmalarından

---

1 “Tarixi Əbil Fida” 3-cü cild.

2 “Tarixi Əbil Fida” və sair tarixlər.

3 “Rövzat” və “Kitabu-məcaniz”

asılı idi. Bu müddət ərzində şiə məzhəbi heç bir yerdə rəsmi məzhəb kimi e`lan edilməmişdir.

## *ŞİƏLƏR - ON-ON BİRİNCİ HİCRİ ƏSRLƏRİNDƏ*

906-cı hicri ilində Şeyx Səfiyəddin Ərdəbilinin sülaləsindən olan 13 yaşlı bir cavan[1] ata-babalarının müridlərindən təşkil olunmuş üç yüz nəfərlik bir dəstə ilə müstəqil və iqtidarlı bir şiə dövləti qurmaq üçün Ərdəbildən qiyama başladı; o, öz ətrafında qoşun toplayaraq İranın ayrı-ayrı xanlıqlardan təşkil olunmuş şahlıq üsul idarəsini devirmək fikrində idi. Şah İsmayıl Səfəvi xanlıqlar arasında, xüsusilə osmanlı imperatorluğu tərəfindən ələ alınmış Ali-Osman padşahlarının apardıqları qanlı müharibələrdə parçalanmış İranı vahid bir ölkə halına salaraq, bu ölkədə şiəliyi rəsmi məzhəb e`lan etdilər.

Şah İsmayılın vəfatından sonra səfəvi şahları 12-ci hicri əsrinin ortalarına qədər hakimiyyətdə oldular və biri digərindən sonra on iki imamçı şiə məzhəbinin rəsmiyyətini təsdiq etdilər; hətta qüdrətin ən yüksək zirvəsində olduqları dövrdə (Şah Abbas Kəbirin dövründə) ölkə ərazisini və əhalinin sayını iki dəfə artıra bildilər. Bu iki əsr yarımlıq dövrdə şiələr sair islam ölkələrində əvvəlki kimi və öz təbii hallarında qalmaqda idilər.

---

1 Şeyx Səfiyəddin Ərdəbili şiə aləmində böyük şəxsiyyətlərdən sayılırdı və 735-ci ildə vəfat etmişdir.

## *ŞİƏLƏR - ON İKİ- ON DÖRDÜNCÜ ƏSRLƏRDƏ*

Son üç əsrdə şiə məzhəbinin inkişafı öz təbii formasında davam etmiş, on dördüncü hicri əsrinin axırları olan müasir dövrdə şiəlik İranda rəsmi və ümumi bir məzhəb kimi tanınmışdır. Yəmən və İraqda da əhalinin əksəriyyətini şiələr təşkil edir. Dünyanın müsəlmanlar yaşayan bütün ölkələrində şiələr vardır, artıq onların sayı yüz milyonlarladır.

# ŞİƏLƏRİN FİRQƏLƏRƏ BÖLÜNMƏSİ

## *FİRQƏLƏRƏ PARÇALANMA VƏ BƏ`Zİ CƏRƏYANLARIN ARADAN GETMƏSİ*

Hər bir məzhəbin bir sıra özünəməxsus məsələləri vardır ki, onun ilkin qayda və prinsiplərini təşkil edir; ikinci dərəcəli məsələlər və həmin məzhəb ardıcılları tərəfindən qəbul edilən müştərək məsələ-lərdən əlavə, onların ixtilaflı olduğu təfərrüat isə "şö`bələr" adlanır.

Şö`bə və ya firqələrə ayrılma bütün dinlərdə, xüsusilə dörd səmavi din olan xristianlıq, yəhudilik, məcusluq və islamda da mövcuddur. Şiə məzhəbi Əhli-beytdən (ə) olan rəhbərlərin (Əli (ə), Həsən ibni Əli (ə), Hüseyn ibni Əli (ə)-ın) dövründə heç bir şö`bəyə parçalan-mamışdır. Lakin imam Hüseyn (ə) şəhid olduqdan sonra şiələrin əksəriyyəti həzrət Əli ibni Hüseyn (ə)-ın imamətinə inandılar. "Keysaniyyə" adı ilə məşhur olan və azlıq təşkil edən bir dəstə isə Əli (ə)-ın üçüncü oğlu Məhəmməd ibni Hənəfiyyəni imam hesab edərək onu və`də verilən Məhdi adlandırdılar; onların əqidəsinə görə o, Rəzva dağında qeybə çəkilmişdir və öz vaxtında zahir olacaqdır!

İmam Səccad (ə)-ın vəfatından sonra şiələrin əksəriyyəti onun oğlu imam Məhəmməd Baqir (ə)-ın imamətinə inandılar; yenə də azlıq təşkil edən bir dəstə imam Səccad (ə)-ın şəhid olmuş Zeyd adlı başqa bir oğlunun imamətinə inanaraq, zeydiyyə adlandılar.

İmam Məhəmməd Baqir (ə)-ın vəfatından sonra şiələr onun oğlu imam Cə`fər Sadiq (ə)-a iman gətirdilər; o

həzrət də vəfat etdikdən sonra şiələrin əksəriyyəti o həzrətin oğlu imam Musa Kazim (ə)-ı yeddinci imam kimi qəbul etdilər. Az bir dəstə isə altıncı imamın sağlığında onun vəfat edən oğlu İsmaili imam hesab etdilər. Bunlar da əksəriyyət təşkil edən şiələrdən ayrılaraq ismailiyyə adı ilə məşhurlaşdılar. Bə`ziləri də o həzrətin Əbdullah adlı oğluna, digərləri isə onun Məhəmməd adlı başqa bir oğlunun imamətinə inandılar; digər bir qrup isə imamətin o həzrətdə sona çatdığını güman edərək onu axırıncı imam hesab etdilər.

İmam Musa Kazim (ə)-ın şəhadətindən sonra şiələrin əksəriyyəti imam Riza (ə)-ı səkkizinci imam hesab etdilər; qeyd olunduğu kimi, bə`ziləri də imamətin yeddinci imamda başa çatdığına əqidə bəsləyərək, vaqifiyyə adı ilə məşhurlaş-dılar.

Artıq səkkizinci imamdan on ikinci imama qədər nəzərə çarpacaq parçalanma baş vermədi; baş versə də, bir neçə gündən sonra öz-özünə məhv olub aradan getdi. Misal üçün, onuncu imamın oğlu Cə`fər, öz qardaşı Həsən Əskərinin vəfatından sonra imamət iddiası etdi; bir neçə nəfər ona inandı, lakin bir neçə gündən sonra onlar da onun ətrafından dağıldılar və Cə`fər də öz iddiasından əl çəkdi. Qeyd etmək lazımdır ki, görkəmli şiə şəxsiyyətləri arasında kəlami və fiqhi məsələlər barəsində yaranan ixtilafları da məzhəbi parçalanma hesab etmək olmaz.

Şiəlikdən ayrılan və əksəriyyət qarşısında dayanan bu firqələr az bir müddət ərzində aradan getdilər; bunlardan yalnız zeydiyyə və ismailiyyə firqələri qaldı. Hal-hazırda da onlardan bir dəstəsi Yəməndə, Hindistanda, Livanda və başqa yerlərdə yaşayırlar. Buna görə də əksəriyyət

təşkil edən on iki imamçı şiələrlə yanaşı, bu iki firqəni də araşdıracağıq.

## *ZEYDİYYƏ ŞİƏLƏRİ*

Zeydiyyə firqəsi imam Səccad (ə)-ın oğlu Zeydin ardıcıllarına deyilir. Zeyd 121-ci hicri ilində əməvi xəlifəsi Hişam ibni Əbdülməlikin əleyhinə qiyam etdi; bir dəstə adam ona bey`ət etsə də, sonradan o, Kufədə xəlifənin tərəfdarları ilə döyüşdə öldürüldü.

O, öz ardıcıllarının nəzərində Əhli-beytin beşinci imamı sayılır. Ondan sonra oğlu Yəhya ibni Zeyd onun yerini tutdu və əməvi xəlifəsi Vəlid ibni Yezidin əleyhinə başladığı qiyamda öldürüldü; ondan sonra da Abbasi xəlifəsi Mənsurun əleyhinə qiyam edib öldürülən Məhəmməd və İbrahim ibni Əbdüllah da imamət məqamına seçildilər.

O hadisədən sonra zeydiyyə firqəsi pərakəndə vəziyyətdə idi; nəhayət Zeydin nəslindən olan Nasir Xorasanda qiyam etdi və yerli hökumət tərəfindən tə`qib olunduğuna görə oradan qaçıb, hələ də əhalisi islamı qəbul etməyən Mazandarana getdi. O, 13 illik təbliğ və də`vətdən sonra bir çoxlarını müsəlman etdi, onları zeydiyyə məzhəbinə inandırdı və onların köməyi ilə də Təbəristanı ələ keçirib imamətə başladı. Onun bir neçə nəsli sonradan həmin yerlərdə bir müddət imamət etdilər.

Zeydiyyə firqəsinin əqidəsinə görə Fatimə (ə)-ın nəslindən olan hər bir alim, zahid, şücaətli və səxavətli bir şəxs haqqı bərqərar etmək üçün qiyam etsə, imam ola bilər.

Bu firqə, yarandığı ilk çağlarda Zeydin özü kimi, əvvəldəki iki xəlifəni (Əbu Bəkr və Öməri) də imam hesab edirdilər; lakin bir müddətdən sonra onların adını imamların sırasından çıxarıb, imamətin Əli (ə)-dan başlandığına inandılar.

Qeyd olunanlara əsasən, zeydiyyə firqəsi üsulidində mö`təzilə, füruidində isə dörd sünnü məzhəbindən birinin başçısı olan Əbu Hənifənin fiqhində idilər. Bə`zi məsələlərdə onların arasında ixtilaf da gözə dəyir.[1]

## *İSMAİLİYYƏ ŞİƏLƏRİ VƏ ONUN ŞÖ`BƏLƏRİ*

**Batiniyyə:** Şiələrin altıncı imamının İsmail adlı bir oğlu var idi və o, imamın ən böyük övladı idi. O, imamın sağlığında vəfat etmişdi və imam da onun cənazəsini dəfn mərasimində iştirak edənlərin hamısına, o cümlədən Mədinə hakiminə göstərərək onları onun ölümünə şahid tutmuşdu. Amma bə`ziləri inanırlar ki, İsmail ölməmiş və qeybə çəkilmişdir; o, və`dəsi verilən Məhdidir və yenidən zühur edəcəkdir. Onlar deyirlər ki, altıncı imam, Abbasi xəlifəsi Mənsurun qorxusundan camaatı onun ölmünə şahid tutmuşdu. Bə`ziləri də inanırdılar ki, imamət İsmailin haqqı idi və onun ölümü ilə oğlu Məhəmmədə keçmişdir. Bə`zilərinin əqidəsinə görə, İsmail atasının sağlığında vəfat etməsinə baxmayaraq, imamdır; ondan

[1] Qeyd olunanlar Şəhristaninin "Miləl və nihəl" kitabından və İbni Əsirin "Kamil" kitabından əxz olunmuşdur.

sonra imamət Məhəmməd ibni İsmailə və onun nəslinə keçir.

Əvvəldəki iki firqə az bir müddət ərzində aradan getdi. Lakin üçüncü firqə indiyə qədər də davam etməkdədir və onun müxtəlif şö`bələri vardır.

İsmailiyyənin ümumi prinsipi Hindistan irfanı ilə qarışmış ulduzpərəst fəlsəfəsinə oxşayır. İslam hökmlərində və maarifində hər bir zahir üçün bir batini mə`na, hər bir tənzil üçün tə`vil olduğuna inanırlar. İsmaililər inanırdılar ki, yer üzü heç vaxt ilahi höccətsiz olmaz. Allahın höccəti də iki cürdür: natiq və samit. Natiq – Peyğəmbər, samit isə peyğəmbərin canişini olan vəli və vəsidir; hər bir halda höccət ilahiliyin məzhər və göstəricisidir.

Höccətin əsası ardıcıl olaraq yeddi rəqəminin üzərində dövr edir. Belə ki, nübüvvət (şəriət) və vilayət sahibi olan bir peyğəmbər göndərildiyi zaman, onun özündən sonra vəsiyyətə malik olan yeddi vəsisi də olmalıdır; onların altısı bir məqamdadır, yeddinci vəsinin isə nübüvvətlə yanaşı digər iki məqamı da vardır: visayət (canişinlik) və vilayət.

Onlar deyirlər ki, Adəm (ə) nübüvvət və vilayətlə məb`us oldu və onun yeddi canişini var idi. Axırıncı vəsi olan Nuh həm nübüvvət, həm visayət və həm də vilayət məqamına malik idi. İbrahim (ə) da Nuhun, Musa (ə) İbrahimin, İsa (ə) Musanın (ə), həzrət Məhəmməd (s) İsanın və Məhəmməd ibni İsmail də həzrət Məhəmmədin (s) yeddinci canişinidir. Beləliklə, həzrət Məhəmməd (s), Əli, Hüseyn, Əli ibni Hüseyn, Məhəmməd Baqir, Cə`fər Sadiq, İsmail ibni Cə`fər, Məhəmməd ibni İsmail;

Məhəmməd ibni İsmaildən sonra onun nəslindən gələn yeddi nəfərin adları isə gizlindir.[1] Ondan sonra da əvvəli Misirdəki fatimilər dövlətinin banisi Übeydullah Məhdi olmaqla, ilk yeddi nəfər fatimilər sülaləsini təşkil edirdilər.

İsmaililər inanırdılar ki, ilahi höccətdən əlavə, həmişə onun yer üzündə xüsusi həvariləri olan 12 nəfər nəqib də mövcuddur; lakin batiniyyə şö`bələrindən bə`ziləri altı nəqibi imamların altı nəfərindən, qalanlarını isə başqalarından götürürlər.

278-ci hicri ilində[2] heç vaxt öz adını, əsil-nəsəbini bildirməyən tanınmaz bir xuzistanlı şəxs Kufə ətrafında zahir oldu. O, gündüzləri oruc tutur, gecələri ibadətlə keçirir, öz alın təri və əlinin zəhməti ilə ruzi yeyir və camaatı ismailiyyə firqəsinə doğru də`vət edirdi. O, bir çoxlarını öz ətrafına topladı, ardıcılları arasından nəqib adı ilə 12 nəfəri seçdi, özü Şama getdi və bundan sonra artıq ondan heç bir xəbər olmadı.

Bu tanınmaz şəxsdən sonra İraqda Qirmit ləqəbilə tanınan Əhməd adlı bir şəxs onun yerində oturub fatimiyyə tə`limlərini yaymağa başladı. Tarixçilərin yazdığına görə o, islamda mövcud olun beş vacib namazın yerinə təzə bir namaz icad etdi; cənabət qüslünü ləğv etdi və şərab içməyə icazə verdi. Bu vəziyyətlə yanaşı, fatimiyyə firqəsinin hətta başçıları da bu də`vəti

---

[1] Onlar ikinci imam Həsən ibni Əlini imam hesab etmirlər.

[2] Übeydullah Məhdinin Afrikada zahir olmasından bir neçə il qabaq.

qəbul edərək camaatdan bir qrupunu öz ətraflarına yığa bildilər.

Bunlar fatimiyyə firqəsindən kənara çəkilən şəxslərin can və mallarını toxunulmaz hesab etmirdilər. Buna görə də İraq, Bəhreyn, Yəmən və Şamın bə`zi şəhərlərində hərəkata başlayaraq camaatın qanını nahaq yerə axıdır, mal-dövlətlərini qarət edirdilər. Onlar dəfələrlə həcc karvanlarını soyaraq minlərlə ziyarətçini öldürüb, yol azuqələrini qarət etmişdilər.

Fatmiyyənin başçılarından olan Əbu Tahir Qirmiti 311-ci ildə Bəsrəni ələ keçirib camaatı kütləvi şəkildə qırdı və mallarını qarət etdi. O, 317-ci ildə həcc mövsümündə fatimiyyə ardıcıllarından təşkil olunmuş böyük bir qrupla Məkkəyə yola düşdü; dövlət tərfindən göstərilən zəif müqaviməti qırdıqdan sonra Məkkə şəhərinə daxil olub yerli əhalini və oraya gələn hacıları kütləvi şəkildə qırdı. Qeyd olunanlara görə, hətta Məscidül-həramda və Kə`bənin içində qan su yerinə axıdıldı. O, Kə`bənin pərdəsini öz ardıcılları arasında bölüşdürdü, qapısını yerindən çıxardı və Həcərül-əsvədi yerindən götürüb Yəmənə apardı. Bu daş 22 il qirmitilərin əlində qaldı.

Bu cinayətkar əməllərin nəticəsində bütün müsəlmanlar fatimilərə nifrət edib onları islam dinindən çıxmış hesab etdilər. Hətta o dövrdə Afrikada zühur edən fatimi padşahı və özünü və`dəsi verilən Məhdi adlandıran Übeydullah Məhdi də qirmitiləri lə`nətlədi.

Tarixçilərin yazdığına əsasən, fatimiyyə firqəsinin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

Onlar İslamın zahiri hökmlərini və göstərişlərini batini-irfani məqamlara yozurdular;

Şəriətin zahirini yalnız ağıldan kəm və kamil mə`nəviyyatdan bəhrələnə bilməyən şəxslərə aid edirdilər. Onlar bə`zən öz imamət məqamlarından müəyyən göstərişlər də verirdilər.

## *NƏZARİYYƏ, MÜSTƏ`LİYYƏ, DƏRUZİYYƏ VƏ MUQNİƏ*

296-cı hicri-qəməri ilində Afrikada zahir olan Übeydullah Məhdi camaatı ismailiyyə yolu ilə öz imamətinə də`vət edərək fatimi səltənətinin əsasını qoydu. Ondan sonra onun nəsli Misri özləri üçün xilafət mərkəzi seçdilər. Yeddi nəsil ardıcıl olaraq heç bir münaqişə və parçalanma olmadan ismailiyyə ardıcıllarına imamət və hökumət etdilər. Yeddinci imam Müstənsir Billahdan sonra Sə`d ibni Əli onun yerini tutdu. Sə`din iki oğlu Nəzar və Müstə`li xilafət və imamət üstündə bir-biri ilə mübarizə apardı; uzun-uzadı davam edən çəkişmələrdən və qanlı müharibələrdən sonra Müstə`li qələbə çaldı və öz qardaşı Nəzarı ömrünün axırına qədər zindanda saxladı. Bu çəkişmələr nəticəsində fatimiyyə ardıcılları nəzariyyə və müstə`liyyə ardıcılları olaraq iki hissəyə bölündülər.

**a) Nəzariyyə;**

Nəzariyyə – Həsən Səbbaha iman gətirənlərə deyilir. O, Müstənsirin ən yaxın adamlarından idi və ondan sonra nəzarilərə tərəfdarlıq etdiyinə görə Müstə`linin hökmü ilə Misirdən çıxarıldı. O, İrana gəldi və bir müddətdən sonra

Ələmut qalasına gəlib çıxdı;[1] Ələmut qalasını və başqa bir neçə qalanı ələ keçirib hakimiyyətə başladı. Əvvəldə xalqı nəzariyyə firqəsinə doğru də`vət edirdi. Həsənin ölümündən sonra (518-ci H.Q.) Bozorg Ümid Rudbadi və ondan sonra da onun oğlu Kiya Məhəmməd Həsən, Səbbahın tutduğu yolla hakimiyyəti ələ aldılar. Ondan sonra da oğlu və Ələmut qalasının dördüncü padşahı Həsənəli Zikruhus-sələm Həsən Səbbahın üslubunu tərk edərərək fatimilərə qoşuldu.

Nəhayət İrana hücum edən Hulakuxan Monqol ismailiyyə qalalarını fəth etdi; onların hamısını qılıncdan keçirib, qalalarını yerlə yeksan etdi. Ondan sonra 1255-ci hicri ilində nəzariyyə firqəsindən olan Ağaxan Məhəllat İranda Məhəmməd şah Qacarın əleyhinə qiyam etdi. Kerman nahiyələrində etdiyi müharibədə məğlub olaraq Bombeyə qaçdı və öz imaməti ilə batiniyyə əqidəsində olan nəzariliyi yaymağa başladı. Bu cərəyan indiyə qədər də davam edir və nəzariyyə hal-hazırda "ağaxaniyyə" adlandırılır.

b) Müstə`liyyə;

Müstə`la Fatiminin ardıcıllarına müstə`liyyə deyilir. Onların imaməti 557-ci hicri qəməri ilinə qədər Misrin fatimi xəlifələri tərəfindən qorunub saxlanırdı; bir müddətdən sonra həmin məzhəb ətrafında Hindistanda bəhrə firqəsi zahir oldu və o da indiyə qədər qalmaqdadır.

v) Dəruziyyə;

Şamın Dəruz dağlarında sakin olan dəruziyyə ardıcılları ilk əvvəllərdə Misrin fatimilər firqəsinin

[1] Bu qala Qəzvin şəhərinin ətrafında yerləşir.

ardıcılları idilər. Onlar altıncı fatimi xəlifəsinin dövründə Neştəgin Dəruzinin də`vəti ilə fatimiyyəyə qoşuldular. Qeyd olunanlara görə dəruziyyə, öldürülən Əl-hakimu Billahda dayanıb; onların əqidəsinə görə o, qeybə çəkilmiş, asimanlara doğru getmiş və nə vaxtsa yenidən camaatın arasına qayıdacaqdır!

q) Muqniə.

Əta Mərvinin ardıcılları ilk əvvəldə muqniə adı ilə tanınırdılar. Tarixçilərin qeyd etdiklərinə görə onlar Əbu Müslüm Xorasaninin ardıcılları idilər və Əbu Müslümün ruhunun onda hülul etdiyini iddia edirdilər. O, bir neçə müddətdən sonra əvvəlcə peyğəmbərlik, sonra isə Allahlıq iddiası etdi! Nəhayət 162-ci hicri ilində Dəclə-Fərat çayları arasında yerləşən Kiş qalasında mühasirəyə düşdü. Tutulub öldürüləcəyini yəqin etdiyinə görə od yandırıb öz ardıcılları ilə birlikdə tonqalın içinə girib yandılar. Əta Müq`niənin ardıcılları bir müddətdən sonra ismailiyyə məzhəbini qəbul edib batiniyyə firqəsinə qoşuldular.

## *ON İKİ İMAMÇI ŞİƏLƏR VƏ ONLARIN ZEYDİYYƏ VƏ İSMAİLİYYƏ İLƏ OLAN FƏRQLƏRİ*

Azlıq təşkil edən və adları qeyd olunan firqələrin ayrılmasından sonra əksəriyyət təşkil edən şiələr "imamiyyə", yaxud "on iki imamçı şiələr" adlandırıldı. Qeyd olunduğu kimi, onlar yarandığı ilk dövrlərdə islamın iki əsas məsələsinə e`tiraz və tənqidlə yanaşmışdılar. Onların Peyğəmbəri-Əkrəmin (s) tə`limləri

və o həzrətin müasirləri olan müsəlmanlar arasında mövcud olan dini əqidələr barəsində heç bir e`tirazları yox idi; amma onlar iki mühüm məsələni - "islami hökuməti" və "elmi mərcəiyyət"i Əhli-beytin (ə) qanuni haqqı hesab edirdilər.

Şiələr deyirdilər:

İslami xilafət Əli (ə) və onun övladlarına məxsusdur. Əlbəttə, batini vilayət və mə`nəvi rəhbərlik bunun ayrılmaz hissəsidir. Belə ki, Peyğəmbəri-Əkrəmin (s) özünün və sair Əhli-beyt imamlarının aşkar şəkildə buyurduğuna əsasən, imamların sayı 12 nəfərdir. Onlar deyirdilər ki, şəriət qanunlarından və hökmlərindən ibarət olan və eyni halda kamil mə`nəvi həyata da şamil olan Qur`anın zahiri tə`limatları qiyamətə qədər əsalət və e`tibara malikdir; onun heç bir qanunu qüvvədən düşməyəcəkdir; bu hökm və qanunları yalnız Əhli-beyt (ə)-ın vasitəsilə əldə etmək lazımdır.

Buradan on iki imamçı şiələrlə zeydiyyə şiələri arasında mövcud olan ümumi fərq aydın olur. Əsas fərq bundan ibarətdir ki, zeydiyyə şiələri imamətin Əhli-beytə məxsus olduğunu qəbul etmir, imamların sayının qəti olaraq on iki olunduğuna inanmır və Əhli-beyt fiqhinə tabe olmurlar. Amma on iki imamçı şiələr bunların tam əksinədir.

On iki imamçı şiələrlə ismailiyyə şiələri arasında da ümumi və əsaslı fərqlər mövcuddur; ismaililərin inancına görə imamət yeddi rəqəmi üzərində dövr edir, nübüvvət həzrət Məhəmmədlə (s) xətm olunmur. Həmçinin, şəriət hökmlərində müəyyən dəyişikliklər edilməsi, hətta xüsusi şər`i təkliflərin özünün ləğv edilməsi belə, batiniyyəçilərin

nəzərində maneəsizdir! Amma on iki imamçı şiələr həzrət Məhəmmədi (s) peyğəmbərlərin sonuncusu hesab edir və onun üçün on iki canişin olduğuna inanırlar; şəriətin zahirinin mö`təbər və dəyişməz olduğuna əqidə bəsləyir, Qur`ani-Kərimin həm zahiri, həm də batini mə`nalara malik olduğunu təsdiq edirlər.

* * *

Son iki əsrdə on iki imamçı şiələrin arasında şeyxiyyə və kərimxaniyyə cərəyanları da yaranmışdır. Onların başqaları ilə olan ixtilafı məsələlərin əslinin isbat və ya inkar olunmasında deyil, bir sıra nəzəri məsələlərdədir; buna görə də onları şiələrdən ayrılan xüsusi bir firqə hesab etmirik.

Həmçinin "ğülat" adlandırılan və on iki imamçı şiələrdən ayrılan, batiniyyə və ismailiyyə şiəsi kimi yalnız batinə inanan və buna görə də düzgün bir məntiqi olmayan Əliyyullah firqəsini də müstəqil cərəyan hesab etmirik.

## *ON İKİ İMAMÇI ŞİƏLƏRİN QISA TARİXİ*

Keçən fəsillərdən aydın olduğu kimi, şiələrin əksəriyyətini on iki imamçı şiələr təşkil edir. Onlar Əli (ə)-ın tərəfdarlarından ibarət bir cərəyanın ardıcılları idi ki, Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra Əhli-beytin xilafət və elmi mərcəiyyət barədə olan hüququnu dirçəltmək üçün e`tiraz və tənqidə başlayaraq, əksəriyyətdən ayrılmışdılar.

Raşidi xəlifələrinin dövründə (11-35-ci h.Q) şiələr daim təzyiqlər altında olmuşlar; Bəni-üməyyə xilafəti dövründə (40-132-ci h.q) isə onlar heç bir hüquqa malik olmayıb mallarını, canlarını və əmin-amanlıqlarını qorumaq səlahiyyətlərini tamamilə əldən vermişdilər. Lakin zülm və təzyiqlər nə qədər artırdısa, onlar öz əqidələrində bir o qədər möhkəmlənir, öz məzlumiyyətlərindən əqidələrinin inkişafı istiqamətində faydalanırdılar. Abbasilər sülaləsi hakimiyyəti ələ keçirdiyi vaxtdan, yə`ni ikinci əsrin ortalarından e`tibarən şiələr İranda yaranmış nisbi azadlıq şəraitində rahat və sərbəst yaşamağa başladılar; lakin az bir müddətdən sonra təzyiqlər yenidən artmağa başladı və bu vəziyyət üçüncü hicri əsrinin axırlarına qədər günbəgün şiddətləndi.

Əslən şiə olan Ali-bəveyh tayfasının nüfuzlu sultanları hakimiyyətə gəldiyi dördüncü əsrin əvvəllərində şiələr müəyyən qədər qüdrət və azadlıq əldə etdilər; onlar yaranmış fürsətdən istifadə edib açıq-aşkar mübarizəyə başladılar və bu vəziyyət də beşinci əsrin axırlarına qədər davam etdi. Monqol hücumlarının başlandığı altıncı əsrin əvvəllərində yaranmış ümumi çətinliklərə görə və eləcə də səlib yürüşlərinin davam etməsi nəticəsində islam hökuməti başçıları şiə aləminə çox da təzyiq göstərə bilmirdilər; xüsusilə İranda monqol sultanlarının bir qrupunun şiəliyi qəbul etməsi, Mazandaranda Mər`əşi seyyidlərinin hakimiyyətdə olması şiə cəmiyyətinin qüdrətlənib genişlənməsinə münasib şərait yaratdı. İslam ölkələrinin hər bir yerində, xüsusilə İranda milyonlarla şiənin yaşaması hiss olunurdu. Bu vəziyyət doqquzuncu hicri əsrinin axırlarına qədər davam etdi. Onuncu hicri

əsrində Səfəvilərin İran kimi böyük bir dövlətdə hakimiyyətə gəlməsi ilə həmin ölkədə şiə məzhəbinə rəsmiyyət verildi; bu şərait bugünkü günə qədər öz rəsmiyyətində qalmaqdadır. Bundan əlavə, dünyanın müxtəlif nöqtələrində on milyonlarla şiə yaşayır.

# İKİNCİ BÖLMƏ

## *ŞİƏ MƏZHƏBİNİN TƏFƏKKÜR TƏRZİ*

–Dini təfəkkürün mə`nası;
–İslamda dini təfəkkürün əsas mənbələri;
–Qur`anın dini təfəkkür üçün göstərdiyi yollar;
–Bu üç yol arasındakı fərqlər;

### *–Birinci yol: dini zahirlər və onların növləri*

–Səhabənin hədisi;
–Kitab və sünnə barəsində digər bir bəhs;
–Qur`anın zahiri və batini;
–Qur`anın tə`vili;
–Hədis barəsində yekun bəhs;
–Şiələrin hədisə əməletmə üslubları;
–İslamda ümumi tə`lim-tərbiyə;
–Şiəlik və nəqli elmlər;

### *–İkinci yol: Əqli bəhslər*

–Əqli, fəlsəfi və kəlami təfəkkür;
–Şiələrin islami kəlam və fəlsəfə təfəkküründə üstünlükləri;
–Şiələrin fəlsəfə və sair əqli elmlərdə ardıcıl sə`yləri;
–Nə üçün şiəlikdə fəlsəfə mövcuddur;
–Şiəliyin bə`zi elmi şəxsiyyətləri;

### *–Üçüncü yol: kəşf*

–İnsan və irfani idrak;
–İslamda irfanın zühuru;

–Kitab və sünnənin irfana yol göstərməsi və onun proqramları.

# DİNİ TƏFƏKKÜRÜN MƏ`NASI

Öz dini tə`limlərində əsas maddələrdən birini nəticə kimi götürən axtarış və araşdırma təfəkkürünə dini təfəkkür deyilir; Məsələn, riyazi təfəkkür, bir riyazi nəzəriyyə ilə nəticələnən, yaxud riyazi bir məsələni həll edən bir təfəkkürə deyilir.

## *İSLAMDA MƏZHƏBİ TƏFƏKKÜRÜN ƏSAS MƏNBƏLƏRİ*

Əlbəttə, dini təfəkkürün də sair təfəkkürlər kimi müəyyən mənbəyi vardır ki, ondan qaynaqlanır və ona arxalanır. Məsələn, riyazi bir məsələni həll etmək üçün aparılan təfəkkürdə bir sıra riyazi mə`lumatlardan istifadə etmək lazımdır ki, aparılan əməliyyatlar düzgün nəticə versin. İslamın, asimani bir din kimi istinad etdiyi yeganə mənbə Peyğəmbərin (s) əbədi nübüvvətinin qəti dəlili olan Qur`andır. Əlbəttə, qeyd edəcəyimiz kimi, Qur`ani-Kərimin yeganə mənbə olması sair düzgün təfəkkür və höccətləri e`tibardan salmır.

## *QUR`ANIN DİNİ TƏFƏKKÜR ÜÇÜN GÖSTƏRDİYİ YOLLAR*

Qur`ani-Kərim öz tə`limlərində islam maarifini və dini məqsədləri dərk edib anlamaq üçün öz ardıcıllarına üç yol göstərmiş və bəyan etmişdir ki, dini zahirlər, əqli höccət və mə`nəvi dərk ixlas və bəndəlik yolu ilə mümkün ola bilər.

**İzah:** Mə`lum olduğu kimi, Qur`ani-Kərim öz bəyanlarında bütün insanlara xitab edir; bə`zi hallarda öz müddəasına höccət və bürhan gətirmədən, özünün ilahi rəhbərliyinə arxalanaraq tövhid, nübüvvət, məad kimi e`tiqad üsullarının, eləcə də namaz, oruc və s. əməli hökmlərin qəbul edilməsini onlara əmr edir və onları bə`zi işlərdən çəkindirir. Əgər sözlə ifadə olunan bu bəyanları höccət hesab etməsəydi, heç vaxt insanlardan onlara itaət etməyi tələb etməzdi. Deməli, qəbul etməliyik ki, Qur`anın bu kimi sadə bəyanları islam maarifini və dini məqsədləri başa düşmək üçün bir yoldur. Biz bu şəkildə buyurulan *"aminu billahi və rəsulih"*, *"əqimussəlatə"* və s. bəyanları dini zahirlər adlandırırıq.

Digər tərəfdən görürük ki, Qur`ani-Kərim bir çox ayələrdə insanı əqli höccətə doğru hidayət edir, insanı kainatda və onun öz daxili aləmində mövcud olan nişanələr barəsində əql və təfəkkür qüvvəsini işə salmağa də`vət edir, lazım gəldikdə həqiqətlərin işıqlandırılması üçün əqli sübutlar gətirir. Doğrusu, heç bir asimani kitab insanlara Qur`an kimi bürhanı, mə`rifəti və elmi təqdim etməmişdir.

Qur`ani-Kərim bu bəyanlarla əqli höccətin, istidlalın və azad bürhanın e`tibarını şübhəsiz və danılmaz hesab edir. Qur`an heç vaxt demir ki, əvvəlcə islam maarifinin haqq olmasını qəbul edin, sonra əqli yollarla dəlil gətirərək qeyd olunan həqiqətləri əldə edin; əksinə, öz həqiqət və gerçəkliklərinə kamil e`timadla belə buyurur:

Əqli dəlillər gətirərək qeyd olunan maarifin haqq olmasını dərk edin; islami də`vətdən eşitdiyiniz sözlərin təsdiqini yaradılış dünyasından əldə edin; soruşun, eşidin

və nəhayət dəlilin nəticəsindən əqidə və iman qazanın. Buyurmur ki, əvvəlcə iman gətirin, sonra onun müvafiq olmasına dair dəlil gətirin. Deməli, fəlsəfi təfəkkür də Qur`ani-Kərim tərəfindən təsdiq edilən bir yoldur. Qur`ani-Kərim aydın və gözəl bir bəyanla aydınlaşdırır ki, bütün həqiqi maariflər tövhid və allahşünaslıqdan qaynaqlanıb əldə edilir. Özlərini hamıdan kənara çəkərək hər bir şeyi unudan, ixlas və bəndəçilik sayəsində bütün qüvvələrini təbiətin fövqündə dayanan aləmə yönəldən bu şəxslər öz gözlərini pak Pərvərdigarın nuru ilə işıqlandırmışlar; onlar həqiqət görən gözləri ilə əşyaların həqiqətlərini, asimanların və yerin mə`nəvi simasını görmüşlər. Çünki ixlas və bəndəçilik sayəsində yəqin mərhələsinə çatmışlar; yəqin sayəsində yerin və asimanların mələkuti çöhrəsi, əbədiyyət aləmi onlar üçün kəşf olunmuşdur. Aşağıda göstərilən Qur`an ayələri bu müddəanı tamamilə sübuta yetirir:

a)"Ənbiya" surəsi, 25-ci ayə:

"Biz, səndən qabaq elə bir peyğəmbər göndərmədik ki, ona "Məndən başqa heç bir mə`bud yoxdur, yalnız Mənə ibadət edin" - deyə vəhy etməyək."[1]

b)"Saffat" surəsi, 159-160-cı ayələr:

"Allah, (müşriklərin) Onu aid etdikləri sifətlərdən tamamilə uzaqdır.

Allahın müxlis (mö`min) bəndələri isə istisnadır..."

v) Başqa bir ayədə buyurulur:

---

1 Bu ayədən başa düşülür ki, ilahi dinlərdə pərəstiş tövhiddən doğur və onun əsasında qurulur.

"De: Mən yalnız sizin kimi bir insanam, (mənim imtiyazım budur ki,) mənə vəhy olunur ki, sizin mə`budunuz vahid olan Allahdır; hər kəsin öz Rəbbi ilə görüşəcəyinə ümidi vardırsa, gərək yaxşı işlər (saleh əməllər) görsün və ibadətdə Rəbbinə şərik qoşmasın." ("Kəhf" surəsi, 110-cu ayə)[1]

q) Başqa bir ayədə isə belə buyurulur:

***"Və (əcəlin gəlib çatana qədər) Rəbbinə ibadət et!"*** ("Hicr" surəsi, 99-cu ayə)[2]

ğ) Allah-taala buyurur:

***"Beləlcə Biz, İbrahimə asimanların və yerin mələkutunu göstərdik ki, yəqin əhlindən olsun."*** ("Ən`am" surəsi, 75-ci ayə)[3]

d) Yenə buyurulur:

***"Xeyr! (Onlar məad barəsində düşünmürlər) Həqiqətən yaxşı insanların kitabı İlliyyindədir. Sən İlliyyinin nə olduğunu haradan bilərsən?! (O) yazılmış bir kitabdır ki, onu müqərrəblər müşahidə edərlər."*** ("Mütəffifin" surəsi, 18-21-ci ayələr)[4]

---

1 Ayədən başa düşülür ki, Haqq-taalanın görüşü üçün tövhid və əməli salehdən başqa heç bir yol yoxdur.

2 Ayədən başa düşülür ki, Allaha həqiqi pərəstiş yəqinlə nəticələnir.

3 Ayədən belə başa düşülür ki, yəqinin ardınca asimanların və yerin mələkutunu müşahidə etmək gəlir.

4 Bu ayələrdən başa düşülür ki, yaxşı insanların taleyi "İlliyyin" adlanan (çox uca məqamlı) kitabdadır ki, Allah dərgahına müqərrəb olanlar onu müşahidə edirlər. "Yəşhəduhu" kəlməsindən aydın olur ki, məqsəd yazılı şəkildə olan kitab deyil, Allah dərgahına qürb və yüksəliş aləmidir.

e) ***"Xeyr, əgər (qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə bilsəydiniz (fani dünya malına uymazdınız).***

***(Ey müşriklər! Qiyamət günü) siz o Cəhənnəmi mütləq görəcəksiniz."*** ("Təkasur" surəsi, 5-6-cı ayələr.)[1]

Deməli, ilahi maarifin dərk olunma yollarından biri də nəfsin rəzil sifətlərdən və aludəliklərdən paklaşdırılması, həmçinin bəndəçilikdə xalis niyyət və ixlasa nail olmaqdan ibarətdir.

## *BU ÜÇ YOL ARASINDAKI FƏRQLƏR*

Yuxarıda qeyd olunan məsələrdən mə`lum olur ki, Qur`ani-Kərim dini maarifin dərk olunması üçün üç yol göstərmişdir: Dini zahirlər, əql, bəndəçilikdə ixlas və mə`nəvi saflıq. Sonuncu yol həqiqətlərin aşkar olunmasına və onların batini müşahidəsinə səbəb olur. Lakin qeyd etmək lazımdır ki, bu üç yol bir-biri ilə müəyyən cəhətlərdən fərqlənir:

**Əvvəla:** Dini zahirlər ləfz, ifadə və bəyanlardan ibarət olduğundan və ən sadə dillə çatdırıldığından hamı tərəfindən dərk edilir, hər bir şəxs öz dərrakə və tutumu qədər ondan faydalanır.[2] Amma qalan iki yol xüsusi

---

1 Ayədən belə başa düşülür ki, elmi-yəqin bədbəxtlərin cəhənnəmdən ibarət olan son vəziyyətlərinin müşahidə olunmasına səbəb olur.

2 Məhz buna görə də Peyğəmbəri-Əkrəm (s) sünnü və şiələr tərəfindən nəql olunan bir rəvayətdə buyurur: "Biz peyğəmbərlər camaatla, onların əqllərinin səviyyəsində danışırıq." "Biharul-ənvar", 1-ci cild, səh-37.

təbəqələrə məxsusdur və ümumi kütlə ondan istifadə edə bilmir.

**İkincisi:** Dini zahirlər elə bir yoldur ki, onu qət etməklə islam maarifinin əqidəvi və əməli prinsiplərini anlamaq olar. Amma yerdə qalan iki yol belə deyildir. Əql yolu ilə əxlaqi, e`tiqadi və əməli məsələlərin külliyyatını (füruidini) əldə etmək mümkün olsa da, hökmlərin xüsusiyyatını, incəlik və təfərrüatını dərk etmək olmaz. Nəfsin saflaşdırıl-ması yolu ilə də həqiqətlərin kəşf olunmasına və onun Allah tərəfindən göndərilməsinə heç bir şübhə yerinin qalmamasına baxmayaraq, onlara da hədd-hüdud tə`yin etmək, yaxud onu me`yar götürmək olmaz. Onlar hər bir yerdən əlaqələrini kəsdiyinə, Allahdan başqa hər bir şeyi unutduqlarına görə birbaşa ilahi vilayətin nəzarətində olur; onlar öz istədiklərini deyil, Allahın iradə etdiyi şeyləri müşahidə edirlər.

# BİRİNCİ YOL

## *DİNİ ZAHİRLƏR VƏ ONLARIN QİSMLƏRİ*

Qeyd olunduğu kimi, islamda dini təfəkkürün əsas mənbəyi olan Qur`ani-Kərim dinləyiciləri müqabilində öz sözlərinin zahiri mə`nalarına höcciyyət və e`tibar verir, həmin ayələrin zahiri Peyğəmbəri-Əkrəmin (s) sözlərini Qur`andan sonrakı silsilədə yerləşdirir və Qur`an kimi onu da dəlil və höccət sanır. Belə ki, buyurulur:

"...Və Zikri sənə nazil etdik ki, xalqa nazil edilənləri onlara bəyan edəsən..."[1]

Başqa bir yerdə buyurulur:

"O, həmin Allahdır ki, ümmilər (dərs oxumamış) arasında, onların özündən olan bir Rəsul göndərdi ki, o, (Allahın) ayələrini onlara tilavət edir, (ruhlarını aludəliklərdən və rəzil sifətlərdən) saflaşdırır, Kitabı və hikməti onlara öyrədir."[2]

Sonra buyurulur:

***"Şübhəsiz, Allahın Rəsulunda sizin üçün gözəl nümunələr, örnəklər vardır."***[3]

Aydındır ki, Peyğəmbərin (s) sözləri və əməlləri, hətta sükut və razılığı bizim üçün Qur`an qədər höccət olmasaydı, onda qeyd olunan ayələr də öz e`tibarını əldən

---

1 "Nəhl" surəsi, ayə-44

2 "Cümə" surəsi, ayə-2

3 "Əhzab" surəsi, ayə-21

verərdi. Deməli, Peyğəmbəri-Əkrəmin (s) sözləri, onu o həzrətdən, yaxud başqa e`timadlı şəxslərdən eşidən şəxslər üçün höccət sayılır və onlara itaət etmək vacibdir. O həzrətdən qəti təvatür əsasında nəql olunmuşdur ki, Əhli-beytin bəyanları onun öz kəlamları kimidir. Bu və Peyğəmbərin (s) sair qəti hədislərinə əsasən, Əhli-beytin (ə) sözləri Peyğəmbərin (s) sözlərinin davamıdır, onlar islamda elmi mərcəiyyət məqamına malik olmuş, islam elmlərinin və hökmlərinin bəyan olunmasında heç vaxt xətaya yol verməmişlər; onların bəyanları şifahi, yaxud nəql olunduğu şəkildə höccət və mö`təbər sayılır.

Deməli, islami təfəkkürdə mənbə sayılan dini zahirlər iki cürdür: Kitab və sünnə. Kitab dedikdə Qur`ani-Kərimin ayələrinin zahiri mə`naları, sünnə dedikdə isə, Peyğəmbər və onun Əhli-beytindən (ə) nəql olunan hədislər nəzərdə tutulur.

## *SƏHABƏLƏRİN HƏDİSLƏRİ*

Səhabələrdən nəql olunan hədislərə gəldikdə isə, onlar Peyğəmbərin (s) söz və əməlini ehtiva etmişsə, eləcə də Əhli-beytdən (ə) nəql olunan hədislərlə müxalif deyilsə qəbul oluna bilər. Amma bu hədislər səhabələrin öz şəxsi rə`y və nəzərlərindən ibarətdirsə, heç vaxt höccət ola bilməz. Səhabələr bu məsələdə sair müsəlmanlar kimidirlər; onların özləri də başqa səhabələrlə adi bir müsəlman kimi rəftar edirdilər.

# *KİTAB VƏ SÜNNƏ BARƏSİNDƏ DİGƏR BİR BƏHS*

Allahın kitabı (Qur`an) islami təfəkkürün əsas mənbəyidir, sair dini mənbələrə e`tibar və höcciyyət verən də məhz odur. Buna görə də o, hamı üçün dərk olunası bir səviyyədə olmalıdır.

Bundan əlavə, Qur`ani-Kərim özü özünü "hər bir şeyin nuru və aydınlaşdırıcısı" kimi təqdim edir. Mübariz istəyərkən camaatdan onun ayələri barəsində təfəkkür etməsini və nəticədə onda heç bir növ ixtilaf və təzad olmadığını müşahidə etmələrini istəyir. Qur`an buyurur ki, bacarırlarsa onun kimi bir kitab yazıb Qur`anla qarşılaşdırsınlar. Aydındır ki, Qur`anın hamı tərəfindən dərk olunması mümkün olmasaydı heç vaxt onlara belə xitab etməzdi.

Əlbəttə, belə təsəvvür etmək olmaz ki, bu mətləb (Qur`anın hamı tərəfindən dərk olunmasının mümkünlüyü) əvvəldə qeyd olunan mətləblə (Peyğəmbəri-Əkrəm (s) və onun Əhli-beytinin Qur`ani-kərimin məzmunlarından ibarət olan islami maarifdə elmi müraciət yeri olmaları ilə) təzadlı deyildir. Çünki Qur`an, şəriət qanunları və hökmlərindən ibarət olan islam maarifinin bir qisminin külliyyatını ehtiva edir, onların müfəssəl şəkildə bəyan olunması sünnəyə (Əhli-beyt hədislərinə) müraciət edilməklə mümkün ola bilər.

Əxlaqi və e`tiqadi maarifdən ibarət olan digər bir bölmə isə, məzmun və izahlarının hamı tərəfindən dərk olunmasına baxmayaraq, onların həqiqi mə`nalarını dərk etmək üçün adi qayda-qanunlardan, gündəlik ünsiyyətdə

olduğumuz fərdi-ictimai nəzəriyyələrimizdən istifadə etməliyik; əksinə, Əhli-beytin (ə) getdiyi yolla getmək və hər bir Qur`an ayəsini sair bir Qur`an ayəsi ilə izah və təfsir etmək lazımdır.

Əmirəl-mö`minin Əli ibni Əbitalib (ə) buyurur: "Qur`anın bə`zi ayələri digər ayələri ilə danışaraq öz mə`nasını anladır, onların bə`zisi digərlərinə şahidlik edir."[1]

Peyğəmbəri-Əkrəm (s) buyurur: "Qur`anın bir hissəsi digər bir hissəsini təsdiq edir."[2]

Başqa bir hədisdə buyurulur: "Hər kəs Qur`anı öz şəxsi rə`yi ilə təfsir etsə, özü üçün cəhənnəmdə bir yer hazırlayar."[3]

Qur`anın bə`zi ayələrinin başqa ayələr tərəfindən təfsir olunmasına sadə misallar vururuq: Allah-taala Lut qövmünə əzab verilməsi ilə əlaqədar bir yerdə buyurur:

"Onlar üçün çox bir pis yağış yağdırdıq."[4]

Başqa bir yerdə isə bu kəlməni başqa bir kəlmə ilə dəyişərək buyurur: *"Onlar üçün daş yağdırdıq."*[5]

İkinci ayəni birinci ayəyə əlavə etməklə, pis yağış dedikdə məqsədin asimani daşlardan ibarət olması mə`lum olur. Tədqiqatçı nəzəri ilə Əhli-beytin (ə) hədislərində, səhabə və tabeindən olan müfəssirlərin

---

[1] "Nəhcül-bəlağə", 231-ci xütbə, eləcə də "Qur`an dər islam" kitabının vərəqaltı haşiyəsində də mövcuddur.

[2] "Durrul Mənsur", 2-ci cild, səh-6

[3] "Təfsiri Safi", 8-ci cild, "Biharul-ənvar", 19-cu cild, səh-28

[4] "Şüəra" surəsi, ayə-127

[5] "Hicr" surəsi, ayə-74

rəvayətlərində araşdırma aparsaq, Qur`anın Qur`anla təfsir olunmasının yalnız Əhli-beytə (ə) məxsus olan bir üslub olduğunu başa düşərik.

## *QUR`ANIN ZAHİR VƏ BATİNİ*

Mə`lum olduğu kimi, Qur`ani-Kərim öz sözləri ilə dini məfhumları aydınlaşdırır, e`tiqad və əməl barədə camaata müəyyən göstərişlər verir. Lakin Qur`anın məqsədləri bu mərhələ ilə bitmir; həmin sözlərin sayəsində və həmin məqsədlərin batinində mə`nəvi bir mərhələ, daha dərin, daha dolğun və geniş məqsədlər nəzərdə tutur ki, yalnız xüsusi insanlar özlərinin pak qəlbləri ilə onları başa düşə bilərlər.

İlahi Qur`an müəllimi olan Peyğəmbəri-Əkrəm (s) buyurur: "Qur`anın gözəl və xoşa gələn zahiri, dərin batini vardır."[1]

Başqa bir hədisdə buyurur: "Qur`anın batini vardır, batininin də batini vardır. Bu batinlər yetmişə qədər davam edir."[2]

Əhli-beyt (ə) imamlarının kəlamlarında da Qur`anın batini mə`nası ilə əlaqədar çoxlu mətləblər qeyd olunmuşdur.[3] Bu rəvayətlərin əsil kökü "Rə`d" surəsinin 17-ci ayəsində gətirilən məsəldir. Belə ki, Mütəal Allah bu ayədə səmavi feyz və bəxşişləri göydən yağan yağışa bənzədir ki, yerin və yer əhlinin həyat və yaşayışı ona

---

1 "Təfsiri Safi", səh-4

2 "Səfinətül-bihar", "Təfsiri Safi", səh-15

3 "Biharul-ənvar", 1-ci cild, səh-117

bağlıdır. Yağışın yağması ilə çaylar aşıb-daşıb, vadilərin hər biri öz tutumları qədərində o sulardan götürür; sellər-sular axıb cərəyan edərkən onun üzəri köpüklə örtülür, lakin köpüyün altında camaat üçün onların həyatlarına faydalı olan su gizlənmişdir.

Bu misalda işarə olunduğu kimi, insanların batininə həyat bəxş edən bu səmavi ne`mət və maarifin öyrənilməsində camaatın idrak tutumları bir-biri ilə fərqlidir.

Bə`ziləri bu dünyanın ötəri həyatında maddə və maddi həyatdan başqa bir şeyə üstünlük vermirlər; maddi istəklərindən başqa bir şeyə ürək bağlamır, maddi məhrumiyyətlərdən başqa heç nədən qorxmurlar. Bunlar malik olduqları müxtəlif dərəcələrlə belə, asimani maarifdən qəbul edəcəkləri ən çox şey – icmali e`tiqadlara inanmaq, islamın əməli göstərişlərini donuq halda icra etmək və nəhayət axirət savabına nail olmaq, yaxud ilahi əzabdan qorxmaq üçün yeganə Allaha sitayiş etməkdir.

Bə`ziləri də fitrətlərinin paklığı və öz səadətləri sayəsində bu dünyanın bir neçə günlük ötəri həyatına və ötəri ləzzətlərinə ürək bağlamırlar; bu dünyanın qazanc və ziyanı, şirin və acılığı onlar üçün aldadıcı və gözqamaşdırıcı şeylərdən başqa heç nə hesab olunmur; dünən varlıq karvanında ləzzət alanlar, bu gün isə əfsanə hesab olunan keçmiş insanların həyatı onlar üçün həmişə ibrət dərsidir.

Bu kimi insanlar təbii olaraq özlərinin pak qəlbləri ilə əbədiyyət dünyasına rəğbət bəsləyirlər; müvəqqəti dünyanın müxtəlif varlıqlarına ilahi nişanələr gözü ilə

baxır, onların heç bir əsalət və müstəqilliyə malik olmasına inanmırlar.

Məhz belə bir baxış və mə`nəvi idrakla Allahın asimanda və yerdə olan ayələrinin pəncərəsindən ilahi əzəmətin sonunsuz nurunu müşahidə edirlər; onların pak qəlbləri yaradılış sirlərinin dərk olunması ilə məftun olur və şəxsi mənafelərin darısqal daxmasında məhbus olmaq əvəzinə, əbədiyyət aləminin sonsuz fəzasında pərvaz edərək yüksəlirlər.

Onlar asimani vəhy yolu ilə mütəal Allahın bütlərə sitayişi qadağan etdiyini eşitdikdə və zahirdə bütlərin qarşısında baş əyməkdən ibarət olan bu qadağanı əzəmətlə yad etdiklərinə görə başa düşürlər ki, Allahdan başqa heç bir şeyə itaət etmək olmaz. Çünki itaətin həqiqəti bəndəçilik və baş əyməkdən ibarətdir; başa düşürlər ki, Allahdan başqa bir kimsədən qorxmaq və ya ona ümid bəsləmək, bundan da qorxulu olan nəfsani istəklər qarşısında təslim olmaq olmaz. Həm də başa düşürlər ki, Allahdan başqasına heç vaxt diqqət yetirməməli, e`tina etməməlidirlər.

Qur`anın dilindən onun namaza əmr etdiyini eşitdikdə – onun zahiri də xüsusi göstərişdir – onları yerinə yetirib batin əsasında başa düşürlər ki, bütün varlıqları ilə Allaha ibadət etməlidirlər. Onlar başa düşürlər ki, haqqın qarşısında təvazö`kar olmalı, özlərini tamamilə unutmalı, yalnız Allahı yadda saxlamalıdırlar. Bu iki misalda qeyd olunan batini mə`nalar adı çəkilən əmr və qadağanların zahirdə dəlalət etdiyi şeylər deyildir; onların dərk olunması daha geniş təfəkkürlə məşğul olaraq xudbinlik xəstəliyindən xilas olanlar üçün labüd bir məsələdir.

Qeyd olunanlardan Qur`anın batini və zahiri mə`naları, həmçinin onun batininin öz zahirini batil edərək qüvvədən salmaması, əksinə, öz cisminə həyat verən bir ruh kimi olması aydın oldu. Ümumbəşəri və əbədi bir din kimi ilk növbədə insanların tə`lim-tərbiyəsinə əhəmiyyət verən islam dini cəmiyyətin ümumi mənafeyinə xidmət edən zahiri qanunlardan, qeyd olunan qanunların keşikçisi olan sadə əqidələrdən heç vaxt əl çəkmir.

Hər hansı bir cəmiyyət təkcə "insanın qəlbi pak olsun" deyib rəftar, davranış və əmələ dəyər verməsə, hərc-mərclik və ədalətsizliklərdən yaxa qurtara bilərmi?! Belə bir cəmiyyətin səadət və xoşbəxtliyə çatması necə mümkün ola bilər? Yaramaz əməl və sözlərin pak bir qəlb yetirməsi, yaxud pak bir qəlbin nalayiq işlər törətməsi mümkündürmü? Mütəal Allah Öz kitabında buyurur: *"Paklar pakların, napaklar da napkalarındır."*

Başqa yerdə buyurulur: *"Yaxşı torpaq öz bitkilərini yaxşı cücərdir, pis torpaq da cüz`i məhsuldan başqa bir şey vermir."*[1] Deməli, aydın olur ki, Qur`ani-Kərimin zahiri və batini, batininin də müxtəlif mərhələləri vardır. Qur`ani-kərimin məzmununu bəyan edən hədislər də həmin qaydada üzrədir.

## *QUR`ANDA TƏ`VİL (YOZUM)*

İslamın əvvəllərində əksəriyyət təşkil edən sünnülərin arasında kifayət qədər dəlil mövcud olduğu halda,

---

1 "Ə`raf" surəsi, ayə-58

Qur`ani-Kərimin zahiri mə`nasından dönüb onun digər bir mə`naya yozulması adi bir hal idi və adətən zahiri mə`nanın əksinə götürülən bu kimi yozumlar "tə`vil" adlandırılırdı. Qur`ani-Kərimdə tə`vil adlandırılan digər ifadələr də məhz bu mə`nanı çatdırır.

Sünnülərin mö`təbər kitablarında, eləcə də müxtəlif məzhəblər arasında aparılan elmi mübahisələrdə din alimlərinin fikir birliyi ilə, yaxud başqa dəlil vasitəsilə sübuta yetən bir məsələ Qur`an ayələrinin zahiri mə`nası ilə müxalif olduğu təqdirdə tə`vil edilərək zahiri mə`nadan başqa bir mə`naya götürülürdü. Bə`zən müəyyən bir məsələ ətrafında mübahisə aparan iki nəfər bir-birinə zidd olan iki nəzəriyyəni sübuta yetirmək üçün bir ayəni höccət kimi gətirir, onun iki tərəfindən biri ni tə`vil edirdi.

Bu qayda müəyyən mə`nada şiələrə də sirayət etmişdir və belə hallara onların bə`zi kəlami məktəblərində də rast gəlmək olur. Lakin Qur`an ayələrinə və Əhli-beyt (ə) hədislərinə lazımi diqqət yetirildikdə aydın olur ki, Qur`ani-Kərim misilsiz söz üslubundan faydalanaraq, heç vaxt müəmmalı və zəif qaydalardan istifadə etməmiş, öz mə`na və məfhumlarını xalq arasında mövcud olan ifadə tərzi ilə çatdırmışdır; Qur`ani-Kərimdə "tə`vil" adı ilə qeyd olunan sözlər dəlalət formasında deyil, ümumxalq idrakının fövqündə dayanan həqiqi və real gerçəkliklər şəklində gətirilmişdir; Qur`anın əməli hökmləri və e`tiqadi maariflərinin mənşəyi də məhz onlardır.

Bəli, Qur`anın hər bir ayəsinin tə`vili vardır və onu sadə təfəkkür yolu ilə dərk etmək olmaz; bunları sözlə ifadə etmək də mümkün deyildir. Bu kimi yozumları

yalnız bəşəriyyətin düçar olduğu aludəçiliklərdən uzaq olan peyğəmbərlər, pak imamlar və ilahi övliyalar batini müşahidə yolu ilə dərk edə bilərlər. Qeyd etmək lazımdır ki, Qur`anın tə`vili qiyamət günü hamı üçün aşkar olacaqdır.

**İzah:** Mə`lum məsələdir ki, insanları danışmağa, hər hansı bir dil və nitqi yaratmağa və sözlərdən istifadə etməyə məcbur edən məsələ onun maddi-ictimai ehtiyacları olmuşdur. İnsanlar ictimai həyatda bir-birləri ilə ünsiyyət yaratmaq, ehtiyac duyduqları və zəruri sandıqları fikirlərini başqa insanlara çatdırmaq məcburiyyətində idilər. Onlar bu məqsədi həyata keçirmək üçün səsdən (tələffüzdən) və qulaqdan kömək alır, bə`zi hallarda gözdən və işarədən də istifadə edirdilər. Deməli, bu halda lallarla korların arasında heç bir anlaşma mövcud olmamışdır. Çünki, kor insanın dildə dediyini kar insan eşitmir, kar insanın işarə ilə başa saldığını kor insan görmürdü. Buna görə də dillərin yaradılması və əşyalara ad qoyulmasında maddi məqsədlər nəzərdə tutulmuş, müəyyən şeylər, vəziyyətlər və hallar üçün ayrı-ayrı kəlmələr yaradılmışdır; bunların hamısı maddi mə`naları daşıyan, hiss orqanları tərəfindən duyulan, yaxud hissiyyata yaxın ifadələr idi. Diqqət yetirsək görərik ki, duyğu üzvlərindən hər hansı birini itirən şəxslə həmin hiss tərəfindən idrak olunan şeylər barəsində danışmaq istədikdə bir növ təmsil və təşbihdən istifadə olunur. Məsələn, anadangəlmə kora işıq və rənglər, yaxud həddi-büluğa çatmayan uşağa cinsi ləzzətlər barədə danışmaq istəsək, öz məqsədimizi bir növ müqayisə, təşbih və münasib bir misal gətirməklə ifadə

edə bilərik. Buna əsasən, dünya və varlıq aləmində maddiyyatdan tamamilə uzaq olan real gerçəkliklər haqda (axirət aləmi, mələk və s. ) söhbət açmaq istəsək, az bir hissə istisna olmaqla, insanlar onları dərk etməyəcək; həmin məsələlərin adi təfəkkür, söz və bəyan yolu ilə ifadə və dərk olunması mümkün olmadığından, onları təmsil və təşbihdən başqa bir yolla çatdırmaq olmaz.

Allah-taala Öz kitabında buyurur:

"Biz bu kitabı ərəb dilində və oxunaqlı halda olan ləfz qərar verdik ki, bəlkə siz onun barəsində düşünüb başa düşə biləsiniz.

Həqiqətən bu kitab Bizim yanımızda asimani kitabın əsli olan Lövhi-məhfuzdadır, bu çox uca məqamlı və möhkəm bir əsasdır (adi idrakların onu dərk etməsi mümkün deyil və ona nüfuz edə bilməzlər)."[1]

Başqa bir yerdə buyurulur:

"Ona yalnız pak olanlar toxunar."[2]

Həmçinin Peyğəmbəri-Əkrəm (s) və onun Əhli-beyti (ə) barəsində buyurur:

"Mütəal Allah siz Əhli-beytdən hər növ çirkinlikləri aparmaq, sizi pak-pakizə qərar vermək istəyir."[3]

Bu ayələrə əsasən, Qur`ani-Kərim elə bir mənbədən qaynaqlanır ki, adi insanların düşüncə qüvvəsi onun dərk etməkdə və oraya nüfüz etməkdə acizdir; Allahın pak-pakizə qərar verdiyi bəndələrdən, Peyğəmbər (s) və onun

---

1 "Zuxruf" surəsi, ayə-3-4

2 "Vaqiə" surəsi, ayə-79

3 "Əhzab" surəsi, ayə-33

Əhli-beytindən (ə) başqa bir kimsə bu barədə azacıq idraka malik deyildir.

Başqa yerdə isə buyurulur:

"Qur`ana iman gətirməyən bu şəxslər o şeyi təkzib etdilər ki, onun elminə əhatə tapmamışdılar və onun tə`vili onlar üçün müşahidə olunmamışdır (yə`ni əşyaların həqiqətinin əyani olaraq göründüyü qiyamət gününü təkzib etdilər)."

Digər bir yerdə isə belə buyurulur:

"Qur`anın tə`vilinin (bütün Qur`anın) müşahidə olunduğu bir gündə onu unudan şəxslər nübüvvət də`vətinin doğru olmasını e`tiraf edəcəklər."[1]

## *HƏDİS BARƏSİNDƏ YEKUN BƏHS*

Qur`ani-Kərimin təsdiq etdiyi hədisin əsli barəsində şiələrlə sair müsəlmanlar arsında heç bir münaqişə yoxdur. Lakin islamın əvvəllərində hakimiyyətdə olan rəhbərlərin hədisin qorunub saxlanmasında yol verdikləri səhlənkarlıqlar, eləcə də səhabə və tabeinlər tərəfindən hədislərin yayılmasında göstərilən ifrat sə`ylər hədisləri acınacaqlı vəziyyətə düçar etdi.

Bir tərəfdən dövri xəlifələr hədis yazılmasını qadağan edir, əllərinə düşən bütün hədisləri yandırır, bə`zən də hədis nəql olunmasını qadağan edirdilər. Buna görə də hədislərin əksəriyyəti təhrif olundu, dəyişdirildi, unuduldu və nəticədə hal-hazırda mövcud olan aruolunmaz vəziyyət yarandı.

---

1 "Ə`raf" surəsi, ayə-53

Digər tərəfdən də Peyğəmbərin (s) hüzurunda olub o həzrətdən hədis eşitmək iftixarına nail olan, eləcə də dövri xəlifələr və müsəlmanlar tərəfindən ehtirama layiq görülən səhabələr hədis yaymağa başladılar; iş o yerə çatdı ki, hədis Qur`an ayələrindən üstün sayıldı, hətta bə`zi ayələrin hökmü hədis vasitəsilə qüvvədən salındı.[1] Bir çox hallarda hədis nəql edənlər müəyyən bir hədisi eşitmək üçün uzun məsafələr qət edir və əzab-əziyyətli səfərlərə gedirdilər.

İslam pərdəsi altında gizlənən daxili və xarici düşmənlərdən bir qrupu hədis yazıb yaymağa və nəticədə mö`təbər hədisləri də e`tibardan salmağa başladılar.[2]

Buna görə də islam alimləri düzgün hədisləri yanlış və qondarma hədislərdən ayırmaq üçün "rical və dirayə" adlı bir elmin təməlini qoydular.

Şiələr hədislərin sənədini araşdırmaqla yanaşı, onların mə`na və məfhumunun Qur`anla müvafiq olmasını da lazımi şərt bilirlər. Şiələrin vasitəsilə sənədləri qəti olan, Peyğəmbəri-Əkrəmdən (s) və Əhli-beyt (ə) imamlarından çatan çoxlu hədislər varid olmuşdur. Bu məktəb nöqteyi-nəzərindən Qur`anla müxalif olan hədislərin heç bir

---

1 Hədis vasitəsilə Qur`an ayəsinin fəsx edilə bilməsi üsul elminin araşdırdığı məsələlərdən biridir. Sünnü alimlərindən bə`ziləri ona inanır. Fədək hadisəsindən mə`lum olur ki, birinci xəlifə də ona inanırmış.

2 Bu mətləbə şahid olaraq bir çox mətləblər yazıl-mışdır ki, alimlər saxta hədislər bölməsində bu barədə danışmışlar. Həmçinin rical kitablarında ravilərdən bə`ziləri yalançı və hədis qondaran kimi təqdim edilmişdi.)

dəyəri yoxdur və yalnız onunla müvafiq olan hədislər mö`təbər sayılır.[1]

Bu rəvayətlərin varlığına görə şiələr Qur`anla müxalif olan hədislərə əməl etmirlər; Qur`anla müxalif, yoxsa müvafiq olması mə`lum olmayan hədislər barəsində də Əhli-beyt imamlarından çatan başqa bir göstərişə əsasən onu rədd, yaxud qəbul etmədən "məskutun ənh" (heç bir nəzər verilməyən-red.) saxlayırlar.[2] Əlbəttə, bə`zən şiə aləmində də sünnülər kimi əllərinə düşən hər bir hədisə əməl edən şəxslər tapılır.

## *ŞİƏLƏRİN HƏDİSƏ ƏMƏLETMƏ ÜSLUBLARI*

Heç bir vasitə olmadan, şəxsən Peyğəmbərin (s) mübarək dilindən, yaxud Əhli-beyt (ə) imamlarından eşidilən hədislər Qur`ani-Kərimin ayələri hökmündədir. Lakin şiələrin nəzərində müəyyən vasitələrlə gəlib çatan hədislərə əməl edilməsi aşağıdakı şəkildədir:

Qur`anın aşkar buyuruqlarına əsasən, elm və yəqinlik lazım olduğu e`tiqadi məsələlərdə mütəvatir, yaxud səhih sənədlərlə isbat olunan hədislərə əməl olunur və bu iki qisimdən başqa, "vahid xəbər" adlanan hədisin e`tibarı yoxdur; lakin şəriət hökmlərinin istixrac və istinbatında gətirilən dəlillərə nəzər yetirməklə qəti və mütəvatir xəbərdən əlavə, adətən mö`təbər sayılan vahid xəbərə də əməl olunur.

---

[1] "Biharul-ənvar", 1-ci cild, səh-139

[2] Üsul elmində vahid xəbərin höccət olub olmaması.

Deməli, şiələrin nəzərində mütəvatir və qəti xəbər mütləq şəkildə höccət sayılır və ona əməl etmək vacibdir. Qəti olmayan xəbər isə (vahid xəbər) şərti e`timad olunanlardan olsa, yalnız şər`i hökmlərdə höccət sayılır.

## *İSLAMDA ÜMUMİ TƏ`LİM-TƏRBİYƏ*

Elm öyrənmək islamda dini vəzifələrdən biridir. Peyğəmbəri-Əkrəm (s) buyurur: *"Elm əldə etmək hər bir müsəlman üçün vacibdir."*[1] Qəti sənədlərlə sübut olunan rəvayətlərə əsasən, elm dedikdə, islamın üçlük təşkil edən prinsipləri – tövhid, nübuvvət və məadla bilavasitə bağlı olan məsələlər nəzərdə tutulur. İslam qanunları və hökmlərinin geniş şəkildə öyrənilməsinə gəldikdə isə, hər bir şəxsə ehtiyac duyduğu məsələlri öyrənmək vacibdir.

Mə`lum olduğu kimi, üsulidin barəsində lazım olan mə`lumatları əldə etmək icmali dəlil əsasında olsa belə, hamı üçün müyəssərdir. Lakin dini qanun və hökmlərin müfəssəl şəkildə öyrənilməsi, kitab və sünnətin əsil mənbələrindən yüksək şəkildə istifadə etmək hamı üçün müyəssər deyildir və bu işə yalnız bə`zi şəxslərin iste`dad və imkanı çatar.

İslam dinində insanın bacarıq və imkanı çatmayan işlərə hökm verilməmişdir. Buna görə də dəlil əsasında dini qanun və hökmləri əldə etmək vacibi-kifayi olaraq, bu işə bacarıq və səlahiyyəti çatan şəxslərə vacibdir; yerdə qalan şəxslərin vəzifəsi isə "savadsız və ya mə`lumatsız şəxslərin alimə müraciət etməsinin vacibliyi" əsasındadır.

---

[1] "Biharul-ənvar", 1-ci cild, səh-172

Yə`ni, ümumi qayda bundan ibarətdir ki, dini elmlər üzrə mütəxəssis olmayanlar qeyd olunan şəxslərə (müctehid və fəqihlərə) müraciət etməlidirlər. Əlbəttə, bu cür müraciət və təqlid Qur`anın aşkar şəkildə buyurduğu kimi, üsulidində təqlidin qadağan olunmasından tamamilə fərqlidir.[1]

Qeyd etmək lazımdır ki, şiələr ibtidai müraciətlə dünyadan getmiş müctehidə təqlid etməyi caiz bilmirlər. Yə`ni, məsələni ictihad yolu ilə əldə edə bilməyən və dini vəzifəsində müctehidə təqlid etməli olan bir şəxs dünyadan getmiş bir müctehidin nəzərinə əməl edə bilməz. Amma diri müctehidin icazəsi ilə dünyadan getmiş bir müctehidin fətvalarına əməl etmək olar.

Bu məsələ şiə fiqhinin həmişə inkişafda olmasının, onun canlı və təravətli qalmasının ən mühüm amillərindən biridir; belə ki, müəyyən şəxslər daim ictihad dərəcəsinə çatmaq üçün çalışmış və fiqhi məsələləri dəqiq şəkildə araşdırmışlar. Lakin əhli-sünnət alimləri hicri tarixi ilə beşinci əsrdə yaşamış dörd fəqihdən - Əbu Hənifə, Malik, Şafei və Əhməd ibni Hənbəl kimi fəqihlərdən birinin məzhəbinə tabe olmağın vacibliyi barədə fikir birliyinə gəldikləri üçün azad ictihadı, həmçinin bu dörd fəqihdən başqasına təqlid etməyi caiz bilməmişlər. Ona görə də bu məzhəbdə nəzərə çarpacaq dərəcədə inkişaf olmamışdır və onların fiqhləri təqribən 1200 il bundan qabaqkı səviyyədə qalmışlar. Son zamanlar onlardan da bə`zilərinin qeyd

---

1 "İsra" surəsi, ayə-36: Bu məsələ ilə əlaqədar üsul elminin ictihad və təqlid bəhslərinə müraciət edə bilərsiniz.

olunan icmadan imtina edərək azad ictihada başladığı söylənilir.

## *ŞİƏLİK VƏ NƏQLİ ELMLƏR*

İslam alimlərinin ağır zəhmətləri nəticəsində formalaşaraq bu günə qədər qorunub saxlanmış islami elmlər əqli və nəqli (humanitar və dəqiq) olaraq iki hissəyə bölünürlər. Nəqli elmlər o elmlərdir ki, onların mövzu və məsələləri nitq, danışıq və nəqlə əsaslanır; məsələn lüğət, hədis, tarix və s. Əqli elmlər isə fəlsəfə və riyaziyyat kimi dəqiq elmlərə deyilir.

Şübhəsiz, islamda nəqli elmlərin yaranmasının əsas amili Qur`ani-Kərimdir; tarix, ənsab və əruz elmi kimi bir neçə fənn istisna olmaqla, yerdə qalan elmlərin hamısı ümumiyyətlə bu asimani kitabdan qaynaqlanır.

Müsəlmanlar dini tədqiqat və araşdırmaların vacib olması göstərişinə əsaslanaraq bu elmləri yaradaraq inkişaf etdirmişlər. Onların ən ümdəsi ərəb ədəbiyyatı, nəhv, sərf, məani, bəyan, bədi` və lüğətdən ibarətdir. Dini zahirlərlə əlaqədar olan fənlərdən isə qiraət, təfsir, hədis, rical, dirayə, üsul və fiqh kimi elmləri misal göstərmək olar.

Şiələr də öz növbəsində bu elmlərin tə`sis olunub genişləndirilməsində çox böyük rol oynamışlar; hətta onların bir çoxunun bani və ixtiraçısı da məhz şiələrdir. Belə ki, ərəb dili qrammatikasının əsas bölmələrindən biri olan nəhv elmi (sintaksis) Peyğəmbəri-Əkrəmin (s) və Əli (ə)-ın səhabələrindən olan Əbul Əsvəd Duəli tərəfindən yaradılmışdır; o ilk dəfə olaraq, Əli (ə)-ın göstərişi ilə nəhv elminin əsas qaydalarını hazırlayaraq kitab şəklinə

salmışdır. Fəsahət və bəlağət (məani, bəyan və lüğət) elminin banilərindən biri olan Sahib ibni Ubbad da şiə olmuşdur; o, Ali-bəveyh sülaləsindən və dövri hakimin vəzirlərindən biri idi.[1]

İlk lüğət kitabı olan "Kitabul-eyn"i məşhur şiə alimi Xəlil ibni Əhməd Bəsri yazmışdır.[2] O, əruz elmini ixtira etmiş və nəhv elmində ustad Sibəveyhin müəllimi olmuşdur.

Asimin qiraəti bir vasitə ilə Əli (ə)-a çatır. Təfsir elmi ilə ilk dəfə məşğul olan səhabə də Əbdullah ibni Abbas olmuşdur ki, o da Əli (ə)-ın şagirdi sayılır. Əhli-beyt (ə) və onların şiələrinin hədis və fiqhdə göstərdikləri sə`ylər, dörd əhli-sünnət imamlarının və ondan başqalarının beşinci və altıncı imamın şagirdləri olmaları tarixdə məşhurdur. Vəhid Behbəhaninin dövründə (H.Q.1205) üsuli-fiqh elmində qəribə bir irəliləyiş baş verdi; xüsusilə Şeyx Mürtəza Ənsarinin vasitəsilə (H.Q.1281) başlanan inkişaf prosesi şiə fiqhini təsəvvürolunmaz mərhələyə çatdırdı; hal-hazırda əhli-sünnət fiqhi onunla müqayisə olunası deyildir.

---

1 "Vəfəyatu ibni Xəlkan", səh-78

2 "Vəfəyat", səh-190

# İKİNCİ YOL: ƏQLİ BƏHSLƏR

Əqli, fəlsəfi və kəlami təfəkkür:

Əvvəldə qeyd olundu ki, Qur`ani-Kərim əqli araşdırmaları təsdiq edərək onu dini təfəkkürün bir hissəsi qərar vermişdir. Əlbəttə, bunun əksi də mövcuddur; yə`ni əqli təfəkkür Peyğəmbəri-Əkrəmin (s) nübuvvətini və haqq olmasını təsdiq etdikdən sonra asimani vəhy olan Qur`ani-Kərimin, Peyğəmbəri-Əkrəmin (s) və onun Əhli-beytinin (ə) kəlamlarının zahiri mə`nalarını əqli höccətlərlə bir sırada qərar vermişdir. Ümumbəşəri nəzəriyyələri ilahi fitrətlə isbat edən əqli höccətlər də iki qismdir: "Bürhan" və "cədəl".

Bürhan o höccətlərə deyilir ki, onun maddələri hətta məşhur, yaxud aksioma olmasa belə, haqq və aşkar müqəddimələrdən təşkil olunsun. Başqa sözlə desək, elə qəziyyələr olmalıdır ki, insan öz ibtidai şüuru ilə çətinlik çəkmədən onları dərk və təsdiq edə bilsin. Məsələn üçün dörddən kiçik olması əqli təfəkkür hesab olunur. Əgər varlıq aləminin külliyyatında olarsa, yaradılış aləmini icad edən, dünya və onda olanların işinin axırı barədə fikirləşmək də fəlsəfi təfəkkür adlanır.

Cədəl elə bir höccətdir ki, onun maddələrinin hamısı, yaxud bə`zisi məşhur və aksiom məsələlərdən götürülmüş olsun. Belə ki, din və məzhəb ardıcılları arasında mövcud olan bir qaydaya görə onlar daxildə öz e`tiqadi nəzəriyyələrini həmin məktəbin inkarolunmaz prinsipləri ilə isbat edirlər. Qur`ani-Kərim hər iki üslubdan istifadə etmişdir və bu asimani kitabın bir çox ayələrində hər iki üslub nəzərə çarpır:

**Əvvəla:** Varlıq aləminin külliyyatında, aləmin ümumi qanunlarında, eləcə də onun xüsusi sistemlərində, o cümlədən asiman, ulduzlar, gecə-gündüz, yer, bitkilər, heyvanlar, insan və s. barədə dərindən fikirləşməyə əmr edir, azad əqli araş-dırmaları ali dərəcədə tə`rif və təşviq edir.

**İkincisi:** Adətən kəlami bəhslər adlandırılan əqli, cədəli araşdırmaların ən gözəl tərzdə aparılmasına əmr edir (məqsəd, gözəl əxlaqla yanaşı və inadkarlıqdan uzaq olmaqla haqqın izhar olunmasıdır). Belə ki, buyurulur:

"Öz Rəbbinin yoluna hikmət və gözəl moizə ilə də`vət et, onlarla gözəl olan mücadilə ilə mübahisə et."[1]

## *ŞİƏLƏRİN İSLAMİ KƏLAM VƏ FƏLSƏFƏ TƏFƏKKÜRÜNDƏ ÜSTÜNLÜKLƏRİ*

Tamamilə aydındır ki, ilk gündən azlıq təşkil edən şiələr çoxluq təşkil edən sünnülərdən ayrılaraq, öz müxalifləri ilə daimi olaraq, xüsusi nəzəriyyələr barədə mübahisələr aparmışlar. Elmi mübahisələrin qarşılıqlı olmasına və münaqişə tərəflərinin hər ikisinin ondan bəhrələnməsinə baxmayaraq, şiələr həmişə hücum, digərləri isə müdafiə mövqeyində dayanmışlar. Həqiqətdə münaqişə tərəflərindən kifayət qədər vasitə əldə etməkdə irəli düşənlər həmləyə başlayan şəxslərə məxsusdur.

---

[1] "Nəhl" surəsi, ayə-125

Həmçinin, kəlami bəhslərin rövnəqləndiyi ikinci və üçüncü əsrdə mö`təzilə məzhəbinin yayılması ilə öz inkişaf mərhələlərinin zirvə nöqtəsinə çatan şiə alimləri (onlar Əhli-beyt (ə) məktəbinin şagirdləri idi) mütəkkəllimlər cəbhəsinin öncülləri idilər. Sünnülərin əş`əriyyə, mö`təzilə və s. mütəkəllimlər silsiləsi də Əli (ə)-a gedib çatır.[1]

Amma Peyğəmbər (s) səhabələrinin əsərləri ilə tanış olanlar bilirlər ki, sayı on iki mindən artıq olan məşhur və mə`lum səhabələrdən nəql olunan bu qədər əsərlər içərisində hətta bircə dənə də olsun belə, fəlsəfi təfəkkürə malik olan bir mətləb tapmaq olmaz. Yalnız Əli (ə) özünün son dərəcə elmi və cazibədar bəyanları ilə ilahiyyat elmində ən dərin fəlsəfi təfəkkürləri təqdim etmişdir.

Səhabələrin və onların ardınca gələn alimlərin, habelə o dövrdə yaşayan ərəbdilli elm xadimlərinin azad fəlsəfi təfəkkür barədə heç bir mə`lumatları yox idi; ilk iki əsrin alimlərinin sözlərində fəlsəfi təfəkkürə aid olan heç bir mətləb müşahidə olunmur. Yalnız şiələrin birinci və səkkizinci imamlarının kəlamlarında fəlsəfi təfəkkür əsasında buyurulmuş kəlamlar mövcuddur; öz şagirdlərindən bir qrupunu bu təfəkkürlə tanış edənlər də məhz onlar olmuşdur.

Ərəblər fəlsəfi təfəkkürdən tamamilə uzaq idilər; nəhayət ikinci əsrin əvvəllərində onun bir nümunəsi bə`zi yunan fəlsəfi kitablarından ərəb dilinə tərcümə olundu. Bundan sonra üçüncü hicri əsrinin əvvəllərində yunan,

[1] "Şərhi İbni Əbil Hədid", 1-ci cildin əvvəlləri

siriyani və başqa dillərdən bə`zi kitablar ərəb dilinə tərcümə olundu və fəlsəfi təfəkkür üslubu hamının ixtiyarına verildi. Bununla belə fəqih və mütəkəllimlərin əksəriyyəti islam aləminə yenicə daxil olmuş fəlsəfəyə və eləcə də sair elmlərə yaxşı münasibət bəsləmirdilər. İlk vaxtlarda dövlət tərəfindən himayə olunduğuna görə onların müxalifətləri bu elmlərə əsaslı tə`sir göstərə bilmirdi. Lakin bir müddət keçdikdən sonra vəziyyət tamamilə dəyişildi, fəlsəfi kitabları ciddi şəkildə qadağan edərək dənizə tökdülər. Adı bəlli olmayan bir qrup müəllifin təfəkkürünün məhsulu olan "İxvanus-səfa" risalələri həmin günlərin yadigarıdır; bu əsərlərdə o dövrdə hakim olan irticaçı şərait gözəl şəkildə bəyan olunur.

Bu dövrdən sonra dördüncü hicri əsrinin əvvəllərində fəlsəfə elmi Əbu Nəsr Farabinin vasitəsilə dirçəldildi, beşinci əsrin əvvəllərində məşhur filosof Əbu Əli ibn Sinanın göstərdiyi sə`ylər nəticəsində tam sür`ətlə genişləndi; altıncı əsrdə Şeyx Şəhabüddin Söhrəvərdi İşraq fəlsəfəsinin əsaslarını yaratdı və məhz buna görə də təqsirkar hesab olunaraq sultan Səlahəddin Əyyubinin vasitəsilə e`dam edildi. Artıq bundan sonra fəlsəfə elmi xalq arasında rəsmi şəkildə qadağan edildi və o dövrlərdə məşhur filosoflar yetişmədi. Yalnız yeddinci əsrdə islam ölkələrinin kənarında yerləşən ispaniyalı İbni Rüşd Əndolosi fəlsəfənin yayılmasına çalışdı.[1]

---

[1] Qeyd olunan mətləblər "Əxbaru üləma", "Vəfəyat" və sair kitablardan əxz edil-mişdir.

## *ŞİƏLƏRİN FƏLSƏFƏ VƏ SAİR ƏQLİ ELMLƏRDƏ ARDICIL SƏ`YLƏRİ*

Şiələr ilk əvvəldə fəlsəfi təfəkkürün yaranmasında tə`sirli bir amil olduqları kimi, bu təfəkkür tərzinin inkişaf etməsi və əqli elmlərin yayılmasında da əsas e`tibarı ilə onlar sə`y göstərirdilər. İbni Rüşdün dünyadan getməsi ilə fəlsəfə elmi əksəriyyət təşkil edən sünnülərin arasında yığışdırıldı; amma bu elm heç vaxt şiələrin arasından götürülmədi. Ondan sonra da Xacə Nəsirəddin Tusi, Mirdamad və Sədrul-Mütəəllihin kimi məşhur filosoflar yetişdi, dünya səviyyəli şiə filosofları biri digərindən sonra fəlsəfənin inkişaf edib yayılmasında misilsiz xidmətlər göstərdilər.

Digər əqli elmlərdə də Xacə Tusi, Bircəndi və sair böyük şəxsiyyətlər yarandı. Bu elmlərin hamısı, xüsusilə ilahiyyat fəlsəfəsi şiələrin yorulmaz sə`yləri nəticəsində çox sür`ətlə yayılıb inkişaf etdi. Nəsirəddin Tusinin, Şəmsəddin Türkənin, Mirdamadın və Sədrül-Mütəəllihinin əsərlərini keçmiş alimlərin kitabları ilə müqayisə etdikdə qeyd olunan məsələ aydın olur.

## *NƏ ÜÇÜN FƏLSƏFƏ ŞİƏLƏRİN ARASINDA QALDI?*

Şiə rəhbərlərindən yadigar qalan fəlsəfi təfəkkür və əqli elmlərin şiələrin arasında yaranmasının və eləcə də onların vasitəsilə başqalarının arasında elmi xəzinə olmasında tə`sirli səbəb olduğu kimi bu təfəkkürün şiələr

arasında qalmasının ən tə`sirli amili də həmişə bu məktəb ardıcılları tərəfindən müqəddəs sanılaraq ehtirama layiq görülən elmi ehtiyatlardır. Bu mətləbə aydınlıq gətirmək üçün Əhli-beyt (ə)-ın elm xəzinələrini tarix boyu yazılmış fəlsəfi kitablarla müqayisə etməyimiz kifayətdir. Çünki bu halda həmin elmi ehtiyatlarla fəlsəfə arasında günbəgün yaxınlaşma və uyğunlaşmanın baş verdiyini əyani şəkildə müşahidə edəcəyik. Belə ki, hicri tarixi ilə on birinci əsrdə bu proses təqribən başa çatdı, onların arasında söz və ifadə ixtilaflarından başqa bir fərq qalmadı.

## *ŞİƏLƏRİN ELMİ ŞƏXSİYYƏTLƏRİNDƏN BİR NEÇƏ NÜMUNƏ*

Siqətul-İslam Məhəmməd ibni Yə`qub Kuleyni; (H.Q.329.)

O, şiə rəvayətlərini əsas mənbələrdən (üsul)[1] istixrac edən və onları fiqhi bablar və e`tiqad prinsipləri əsasında tərtibə salan ilk şəxsiyyət idi. Onun yazdığı kitab "Kafi" adlanır və üç hissədən – üsul, füru` və rövzə (müxtəlif məsələlər) olaraq üç yerə bölünür. Bu kitabda 16199 hədis vardır və şiə aləmində tanınan ən mö`təbər və məşhur hədis kitabıdır.

"Kafi"nin ardınca gələn digər üç kitab – Şeyx Səduq Məhəmməd ibni Babəveyh Quminin (H.Q.381) yazdığı

---

[1] Mühəddislərin hər biri Əhli-beyt imamlarından əxz etdikləri hədisləri bir kitabda yazmış və onu "əsl" adlandırmışlar; "üsul" sözü "əsl" kəlməsinin cəm formasıdır.

“Mən la yəhzuruhul-fəqih” və Şeyx Tusinin (H.Q.460) yazdığı “Təhzib” və “İstibsar” kitablarıdır.

**Əbul Qasim Cə`fər ibni Həsən ibni Yəhya Hilli;** (H.Q.660) Mühəqqiq adı ilə məşhur olan mərhum Hilli şiə aləminin görkəmli fəqihlərindən, fiqh elmində dərin biliyə malik olan şəxsiyyətlərdəndir. Onun fiqhdə yazdığı şah əsərlərindən “Müxtəsərun-nafe” və “Şəraye” kitablarını qeyd etmək olar. Bu kitablar 700 ildir ki, fəqihlərin arasında istifadə olunur və ona çox əzəmətlə baxılır.

Mühəqqiqdən sonra Şəhidi Əvvəl ləqəbi ilə tanınan **Şəmsəddin Məhəmməd ibni Məkkini** qeyd etmək olar. O, 786-cı hicri qəməri ilində Dəməşqdə məhz şiə olduğu üçün qətlə yetirildi. Onun fiqhdə yazdığı şah əsərlərindən “Lüm`ətud-Dəməşqiyyə”ni qeyd etmək olar ki, e`damdan qabaq həbsdə olduğu yeddi gün ərzində yazmışdır. Həmçinin 1227-ci ildə vəfat edən **Şeyx Cə`fər Kaşiful-Ğita Nəcəfini** və onun fiqhdə şah əsəri olan “Kəşful-ğitanı” qeyd etmək olar.

Şeyx Mürtəza Ənsari Şüştəri; (H.Q.1281.)

O, üsuli-fiqh elmini yazmış və üsul elminin ən mühüm hissələri olan üsuli-əməliyyəni qələmə almışdır. Yüz ildən artıqdır ki, onun məktəbi şiə fəqihləri arasında tədris olunur.

Xacə Nəsirəddin Tusi; (H.Q.676.)

O, kəlam elmini klassik şəkildə ixtisaslı formaya salmışdır. Onun şah əsəri sayılan “Tədricul-kəlam” kitabı 700 ildən artıqdır ki, mütəxəssislər arasında öz e`tibarını qoruyub saxlayır. Sünnü və şiə alimlərindən bir çoxu onun şərh və izahında müxtəlif kitablar yazmışlar. Xacə Nəsirəddin Tusi kəlam elmində malik olduğu dərin

ixtisasla yanaşı, fəlsəfə və riyaziyyatda da öz əsrinin dahi şəxsiyyəti sayılırdı. Müddəamızın ən mühüm şahidi onun bütün əqli elmlərdə yazdığı əsərlər, eləcə də Marağada tə`sis etdiyi rəsədxanadır.

Sədruddin Məhəmməd Şirazi. (H.Q.979-1050.)

O, əsrlər boyu islamda tədrici və pərakəndə inkişafda olan fəlsəfi məsələləri yenidən işləyərək təkmilləşdirən, eləcə də onları riyazi məsələlər kimi tərtibə salan ilk filosofdur.

Buna görə də əvvəla: Onun elmi nailiyyətləri sayəsində bu vaxta qədər fəlsəfədə işıqlandırılması və həlli mümkün olmayan yüzlərlə məsələnin həll edilməsinə imkanlar yarandı. **İkincisi,** bir sıra irfani məsələlər çox asan səpgidə həll edildi (o dövrə qədər bu məsələlər əqldən yüksəkdə, onun mə`lumatları idrak olunmayan səviyyədə hesab olunurdu). **Üçüncüsü,** Əhli-beyt (ə)-ın rəhbərlərinin uzun əsrlər boyu həllolunmaz bir müəmma şəklində qalan, çox hallarda isə mütəşabihlərdən sayılan dərin və mürəkkəb fəlsəfi bəyanlarından və dinin zahiri mə`nalarından çoxu həll edilərək aydınlaşdırıldı. Beləliklə də dinin zahiri mə`naları ilə irfan fəlsəfi arasında tam uyğunluq yaradıldı və onların hər ikisi bir istiqamətdə düşünülməyə başlandı.

Mərhum Şirazidən qabaq da Şeyx Söhrəvərdi[1] və Şəmsuddin Məhəmməd Türkə[2] bu barədə əsaslı irəliləyişlərə nail olmuşlar. Kamil müvəffəqiyyət isə Sədrul-Mütəəllihin Məhəmməd Şiraziyə nəsib olmuşdur.

Sədrul-Mütəəllihin bu üslubu davam etdirərək "cövhəri hərəkət" nəzəriyyəsini isbat etdi, dördüncü yön və nisbiyyət nəzəriyyəsini (əlbəttə zehn və təsəvvür aləmində deyil, tarixdə) kəşf etdi, əlliyə yaxın kitab və risalə yazdı. Onun fəlsəfədə yazdığı şah əsərlərindən biri dörd cildlik "Əsfar" kitabıdır.

---

[1] O, Hikmətul-işraq kitabının müəllifi və altıncı hicri əsrinin filosofların-dandır.

[2] O, səkkizinci hicri əsrinin filosof-larındandır.

# ÜÇÜNCÜ YOL: KƏŞF

## *(Mə`nəvi müşahidə)*

İnsan və irfani idrak

İnsan fərdlərinin əksəriyyəti gündəlik tələbatını və məişət ehtiyaclarını tə`min etməklə məşğul olduqları üçün mə`nəviyyatla maraqlanmırlar. Halbuki, insanın batinində "həqiqət görənlik" adlı bir hiss vardır ki, bə`zən müəyyən şəxslərdə fəallaşaraq onları bir sıra mə`nəvi idraklara vadar edir.

Hər bir insanın (həqiqətləri və real gerçəklikləri sırf təsəvvür və xurafat hesab edən şəkkakların əksinə olaraq,) sabit gerçəkliklərə imanı vardır. O, bə`zən saf və aydın bir zehnlə, pak bir batinlə yaradılış dünyasının sabit gerçəkliklərinə tamaşa edir, digər tərəfdən dünyanı təşkil edən zərrəciklərin fani olduğunu başa düşür, dünyanı və onda olan varlıqları gözəl və sabit gerçəklikləri əks etdirən bir güzgü hesab edir. Belə ki, bu idrakın ləzzəti başqa ləzzətləri onun nəzərində çox dəyərsiz və əhəmiyyətsiz göstərir. Bununla o, təbii olaraq maddi həyatın müvəqqəti və şirin nümunələrindən əl çəkir.

Bu da məhz irfanda izah olunan "cəzb" halətidir; bu hal Allahı tanıyan insanı yüksək aləmlərə doğru seyr etdirir, pak və münəzzəh Rəbbinin höccətini insanın qəlbinə yerləşdirir, nəticədə ona hər bir şeyi unutdurur; bu məqam həmin şəxsi öz uzun-uzadı və puç arzularından birdəfəlik əl çəkməyə vadar edir, onu hər bir görülməli və eşidilməli şeylərdən uzaqlaşaraq aşkar

şəkildə başa düşülən, eyni zamanda gözə görünməz Allaha sitayişə gətirib çıxarır. Həqiqətdə bəşər aləmində ilahi dinləri vücuda gətirən də məhz bu batini qüvvədir.

Arif insanlar Allaha savaba nail olmaq, yaxud cəhənnəm əzabından qorxduğu üçün deyil, Ona məhəbbət bəslədiyi üçün sitayiş edir.[1] Buradan da aydın olur ki, irfan sair məzhəblər qarşısında müstəqil bir məktəb sayılmamalıdır; o, sadəcə olaraq, pərəstiş (ümid, yaxud qorxu üzündən deyil, məhəbbət əsasında olan sitayiş) yollarından biridir. Bu yol əqli təfəkkür və dini zahirlər müqabilində dinlərin həqiqətini dərk etmək üçün bir yoldur.

Təkallahlı dinlərin hər birinin, hətta bütpərəstliyin belə, bu yolla seyri-süluk edən ardıcılları vardır. Bütpərəstlərin, yəhudilərin, məsihilərin, məcusilərin və islamın həm arifləri, həm də qeyri-arifləri vardır.

---

1 İmam Sadiq (ə) buyurub: "İbadət üç növdür: Bə᾽ziləri Allaha, cəhənnəm odunun qorxusundan ibadət edir, bu, qulların ibadətidir. Bə᾽ziləri behişt ne᾽mətlərinə çatmaq üçün Allaha pərəstiş edir, bu da muzdurların pərəstişidir. Bir qrup isə Allaha məhəbbət bəslədikləri üçün Ona ibadət edirlər, bu da azad insanların ibadəti və pərəstişlərin ən gözəlidir." "Biharul-ənvar", 15-ci cild, səh-208

# *İSLAMDA İRFANIN MEYDANA GƏLMƏSİ*

İslam Peyğəmbərinin (s) səhabələri arasında[1] yalnız Həzrət Əli ibni Əbitalib (ə)-ın yetərli və gözəl bəyan üslubu irfani həqiqətlərdən, mə`nəvi həyatın mərhələlərindən ibarət olan böyük və sonsuz ehtiyatlara malikdir. Sair səhabələrdən yadigar qalan əsərlərdə bu kimi məsələlər barədə əsla söhbət getmir. O həzrətin köməkçiləri və şagirdləri arasında Salman Farsi, Üveys Qərəni, Kumeyl ibni Ziyad, Rəşid Hicri və Meysəm Təmmar kimi şəxsiyyətli insanlar yetişmişdir ki, islam aləmində məşhur olan ariflərin hamısı Əli (ə)-dan sonra onları öz silsilələrinin başlanğıcı hesab etmişlər. Bu təbəqədən sonra ikinci hicri əsrində Tavus Yəmani, Malik ibni Dinar, İbrahim Ədhəm və Şəqiq Bəlxi kimi böyük şəxsiyyətlər də yaranmışlar ki, irfan və sufilik izhar etmədən zahidlər cərgəsində olmuş, xalq arasında haqq övliyalar, görkəmli şəxsiyyətlər kimi tanınmışlar. Amma onlar eyni halda özlərindən qabaq olan təbəqə ilə tərbiyəvi əlaqələrini də gizlətmirdilər.

Bu təbəqədən sonra ikinci əsrin axırlarında və üçüncü əsrin əvvəllərində digər bir təbəqə – Bayəzid Bəstami, Mə`ruf Kərxi və Cüneyd Bağdadi və sair şəxsiyyətlər yarandı. Onlar seyri-süluk yolunu gedərək irfan və sufilik məsləkində zahir oldular, kəşf və şühud anlamını xatırladan bə`zi sözlər deməyə başladılar; bu ifadələr

---

1 Rical elmində onlardan 12000 nəfərinin adı qeyd olunmuşdur.

zahirdə xoşagəlməz mə`nalara malik olduqlarına görə dövrün fəqih və mütəkəllimləri e`tiraz və qiyam edərək onlar üçün müəyyən çətinliklər yaratdılar. Onların çoxu ev dustağına çevrildi, yaxud işgəncə verilərək dar ağacından asıldı.

Bütün bunlara baxmayaraq, onlar öz yol və əqidələrinə müxalif olanlarla çox ciddi şəkildə rəftar edirdilər. Təriqət cərəyanı günbəgün genişlənərək yeddinci və səkkizinci hicri əsrində öz qüdrət və genişliyinin son həddinə çatdı. Bundan sonra da bə`zən irəliləyişdə, bə`zən isə tənəzzüldə olmaqla, indiki dövrə qədər öz varlığını davam etdirmişdir.[1]

Adları "Təzkirə" kitablarında qeyd olunan irfani şəxsiyyətlər zahirdə sünnü məzhəbli idilər. Bu gün müşahidə olunan təriqətlər də onların yadigarlarıdır.[2] Onların bə`zi adət-ən`ənələri hətta şiələrə də sirayət etmişdir.

Qeyd olunduğu kimi, sünnülər inanırdılar ki, islamda irfani seyri-süluk üçün heç bir proqram və tədbir nəzərdə tutulmamışdır, nəfs barədə mə`rifət kəsb etmək yolunu müsəlmanların özləri dərk etmişlər və məhz bu da Haqqın nəzərində qəbul olunan yoldur; rahiblik də (tərki-dünyalıq) eynilə belədir. Belə ki, İsa (ə)-ın də`vətində belə bir məsələ və əqidənin olmamasına baxmayaraq,

---

1 Şəxsiyyətlərin tərcümeyi-hallarını qeyd edən kitablara, "Təzkirətul-övliya", "Təraiq" və s. kitablara müraciət edin.

2 Bu cərəyanlarda Allahın kitabı və Peyğəmbər (s) sünnəsində mövcud olan tə`lim və qayda-qanunlardan əsər-əlamət yoxdur.

məsihilər onu özləri icad edərək məqbul hesab etmişlər.[1] Buna görə də təriqət şeyxlərindən hər biri məsləhət gördükləri qayda-qanunları özlərinin seyri-süluk proqramlarında yerləşdirmiş, müridlərinə də bu göstərişləri vermiş, nəticədə tədrici olaraq geniş və müstəqil proqramlar yaranmışdır. O cümlədən, baş yellətmək mərasimi, zikrin təlqin olunması, xirqə, musiqidən istifadə olunması, ğina, zikr deyərkən vəcdə gəlmək və s.-ni qeyd etmək olar. Bu işlər bə`zən elə bir həddə çatırdı ki, şəriət bir tərəfdə, təriqət isə digər bir tərəfdə qərar tuturdu. Bu üslubun tərəfdarları əməli olaraq batiniyyəyə qoşulmuşlar. Lakin şiəliyin nəzəri me`yarlarını mülahizə etməklə aydın olur ki, islamın əsl mənbələrindən (kitab və sünnə) əldə olunanlar yuxarıdakıların tam əksinədir. Dini göstərişlərin insanı bu həqiqətlərə doğru sövq etməməsi, yaxud onun müəyyən proqramlarının bəyan edilib açıqlanmasında e`tinasızlığa yol verilməsi, yaxud da müəyyən bir şəxsin barəsində (kimliyindən asılı olmayaraq) öz vacib və haramlarını qüvvədən salması heç vaxt mümkün deyildir.

---

1 Allah-taala buyurur: "Nəsranilərin özlərindən uydurub çıxartdıqları rahibliyi Biz onların haqqında yazma-mışdıq; yalnız onlar bu işlə Allahın razılığını nəzərdə tuturdular." "Hədid" surəsi, ayə-27

## *KİTAB VƏ SÜNNƏNİN NƏFS HAQDA MƏ`RİFƏT ƏLDƏ ETMƏYƏ DAİR GÖSTƏRİŞİ*

Allah-taala Öz kəlamının bir neçə yerində insanları Qur`an barəsində dərindən təfəkkür etməyə, sadə, səthi idrakla qənaətlənməməyə əmr edir. Bir çox ayələrdə yaradılış dünyası və onda olan varlıqlar (istisnasız olaraq) Allahın ayə, əlamət və nişanələri kimi təqdim olunur.

Ayə və nişanə sözlərinin mə`nasında azacıq düşünməklə aydın olur ki, onlar özlərini deyil, məhz başqasını göstərdikləri üçün belə adlandır-ılmışlar. Məsələn, yol kənarında "ehtiyatlı olmaq" əlamətini göstərən qırmızı işıq qoylur və insan onu görməklə qarşıda təhlükə olduğunu başa düşür; bu zaman o, hadisə və xətərdən başqa heç bir şey düşünmür, həmin işığın özü haqda dərindən fikirləşmir. Əgər sürücü qırmızı işığın quruluşu və forması, şüşənin mahiyyəti və rəngi barədə fikirləşsə, bu halda onun təfəkkür qüvvəsində təhlükənin məhfumu deyil, şüşənin, yaxud çırağın surəti və ya rəngi qalacaqdır.

Dünya və onda mövcud olan varlıqlar da hamılıqla və hər bir cəhətdən Allahın əlamət və nişanələridirsə, deməli onların özlərinin heç bir müstəqillikləri yoxdur; hər tərəfdən görünsələr belə, yalnız pak olan Allahın göstəricisi olacaqdır. Qur`anın belə bir tə`lim və hidayətinə əsasən, dünya və onun simasına məhz bu nəzərlə baxan hər bir şəxs Allahdan başqa heç bir şey dərk etməyəcəkdir. O, başqalarının dünyanın ürəkoxşayan gözəlliklərindən dərk etdikləri şeyi bu dünyanın dar

pəncərəsindən təcəlli edən sonsuz gözəlliklərə açılan bir qapı olduğunu görəcək; məhz belə olan surətdə öz varlığını əldən verərək ilahi məhəbbətə ürək bağlayacaqdır.

Mə`lum olduğu kimi bu cür idrak göz, qulaq və sair duyğu üzvləri, yaxud xəyal və əql qüvvəsi ilə həyata keçmir. Çünki bu vasitələrin həm özləri, həm də işləri ilahi ayə və nişanələrdir; Allahın varlığına dəlalət etmək, Ona doğru yol göstərmək məqamında bunların özləri unudulur.[1]

Allahı yad etməkdən, Ondan başqa hər bir varlığı unutmaqdan başqa bir iradə və əzmi olmayan bu şəxs Allahın buyurduğu: **"Ey iman gətirənlər! Öz nəfsinizi tapın, siz (düz) yolu tapdığınız zaman yollarını azanlar sizə ziyan çatdıra bilməz"**[2] – kəlamını eşidəndə anlayacaqdır ki, kamil və real hidayətə şamil olan ən böyük yol onun nəfsinin yoludur; "Həqiqi Yol Göstərən" (Allah) da ona özünü tanımağı, bütün yolları arxada qoyaraq öz nəfsinin yolunu getməyi, Allahına öz nəfsinin pəncərəsindən baxmağı, bununla da özünün həqiqi istəyinə nail olmağı əmr etmişdir. Buna görə də Peyğəmbəri-Əkrəm (s) buyurur: **"Hər kəs özünü tanısa Rəbbini də tanıyacaq."**[3] Başqa bir hədisdə buyurulur:

---

[1] Əli (ə) buyurur: "Mə`rifət əhatəsinə gələnlər Allah deyildir. Dəlili özünə tərəf hidayət edən məhz odur." "Biharul-ənvar", 2-ci cild, səh-186

[2] "Maidə" surəsi, ayə-105

[3] "Ğürərül-hikəm", 2-ci cild, səh-665

**"Sizlərdən o kəs Allahı daha yaxşı tanıyır ki, özünü (nəfsini) daha yaxşı tanımış olsun."**

Bu yolun proqramları və seyri-süluku barəsində insanı Allahı yad etməyə əmr edən çoxlu Qur`an ayələri vardır. Belə ki, buyurulur: **"Məni yad edin ki, Mən də sizi yad edim."**[1] Bu barədə sair ayələri də misal göstərmək olar. "Allahı yad etmək" dedikdə məqsəd Qur`an və sünnədə ətraflı şəkildə bəyan olunan saleh əməllərdir və bunun axırında da buyurulur: **"Öz Peyğəmbərinizə itaət edin."**[2]

İslam dininin bu yolu ilahi yol kimi müəyyənləşdirməsi, amma bəndələrə o yolla getməyə tövsiyə etməməsi, yaxud onu tanıtdırıb, lakin onun proqramlarını bəyan etməkdə qafil qalması, yaxud da bu barədə e`tinasızlıq göstərməsi necə mümkün və ya təsəvvür oluna bilər; halbuki, Allah-taala Öz kəlamında buyurur:

"Biz Qur`anı sənə nazil etdik ki, hər bir şeyi bəyan edən və müsəlmanlar üçün hidayət, rəhmət və müjdə qaynağı olsun."[3]

---

1 "Bəqərə" surəsi, ayə-152

2 "Əhzab" surəsi, ayə-21

3 "Nəhl" surəsi, ayə-89

# ÜÇÜNCÜ BÖLMƏ

## *ON İKİ İMAMÇI ŞİƏLİK NÖQTEYİ-NƏZƏRİNDƏN İSLAMİ E`TİQADLAR*

1. Allahşünaslıq;

–Real gerçəkliklərə və varlıqlara nəzər yetirmək – Allahın vücudunun (varlığının) zərurəti

–İnsanla dünyanın qarşılıqlı əlaqəsi yolu ilə başqa bir nəzər

–Allahın vahidliyi

–Zat və sifət

–Allahın sifətlərinin mə`nası

–İlahi sifətlər barəsində əlavə izah

–Fe`li sifətlər

–Qəza və qədər

–İnsan və ixtiyar

2. Peyğəmbərşünaslıq (nübuvvət)

–Hədəfə doğru - ümumi hidayət

–Xüsusi hidayət

–Əql və qanun

–Vəhy adlı sirli bir şüur

–Peyğəmbərlərin ismət və nübuvvəti

–Peyğəmbərlər və səmavi din

–Peyğəmbərlər, vəhy və nübüvvətin höccət olması

–İlahi peyğəmbərlərin sayı

–Ulul-əzm və şəriət sahibi olan peyğəmbərlər

–Həzrət Məhəmmədin (s) nübuvvəti

–Peyğəmbəri-Əkrəm (s) və Qur`an

3. Məadşünaslıq
–İnsanın ruh və bədəndən təşkil olunması
–Ruhun həqiqət və mahiyyətinin başqa bir nöqteyi-nəzərdən araşdırılması
–Ölüm - İslam nöqteyi-nəzərindən
–Bərzəx
–Qiyamət günü
–Başqa bir izah
–Yaradılışın davamı
**4. İmamşünaslıq**
–İmamın mə`nası
–İmamət - Peyğəmbəri-Əkrəmin (s) canişini və islami hökumət
–Qeyd olunan izahların tə`kidi
–İlahi maarifin bəyanında imamət
–Nəbi ilə imamın fərqi
–Əməllərin batinində imamət
–İmamlar və islam rəhbərləri
–On iki imamın həyatına qısa bir baxış
–Həzrət Məhdi (ə)-ın zühuru - ümumi baxışla
–Həzrət Məhdi (ə)-ın zühuru – xüsusi baxışla
–Bir neçə irad və onların cavabları
**Yekun bəhs**
Şiəliyin mə`nəvi çağırışı

# 1. ALLAHŞÜNASLIQ

## *GERÇƏKLİKLƏRƏ VƏ VARLIQ ALƏMİNƏ NƏZƏR YETİRMƏK – ALLAHIN VARLIĞININ ZƏRURƏTİ*

İnsanın yaranışı ilə yanaşı olan şüur və idrak, özünün ilk baxışında dünya və onda olanların Yaradanının varlığını onun üçün bəyan edir. Çünki həm öz varlıqları, həm də sair şeylər barədə şəkk-tərəddüddə olan, varlıq aləmini xəyal və təsəvvür hesab edənlərin əksinə olaraq, bilirik ki, hər bir insan yaranışının əvvəllində ona əta olunan şüurla özünü və dünyanı dərk edir. Yə`ni o, nə öz vücudu və nə də başqa şeylərin varlığına şəkk etmir. İnsan, nə vaxta qədər ki, insandır, onun bu idrakı və elmi də mövcud olacaqdır, bu barədə heç bir şəkk-şübhə yoxdur və burada hər hansı bir dəyişiklik də yol verilməzdir.

Şəkkakların iddiasının əksinə olaraq, insanın isbat etdiyi varlıq və gerçəklik sabitdir, onda heç vaxt puçluq ola bilməz. Yə`ni, onların mövcud həqiqətlərin inkarı barədə söylədiyi sözlər heç vaxt düzgün ola bilməz; deməli, varlıq aləmi də sabit gerçəkliyə malikdir.

Lakin həqiqət hesab etdiyimiz bu varlıqlardan hər biri gec-tez öz gerçəkliyini əldən verərək məhv olur. Aydın olur ki, müşahidə olunan dünya və onun hissələri (batilin yolverilməz olduğu) gerçəkliklə eyniyyət təşkil etmir, əksinə onlar sabit bir həqiqətə arxalanaraq məhz onun sayəsində gerçəklik tapmışlar; onun vasitəsilə varlığa

malik olmuşlar, onunla əlaqəli olduqları vaxta qədər var olacaqlar və ondan ayrılan kimi dərhal məhvə məhkumdurlar.[1] Biz sabit və batilin yolverilməz olduğu bu gerçəkliyi "Vacibəl-vücud", yə`ni "Allah" adlandırırıq.

## *İNSAN VƏ DÜNYANIN RABİTƏSİ YOLU İLƏ BAŞQA BİR NƏZƏR*

Keçən fəsildə Allahın varlığının isbat edilməsi üçün gətirilən yol çox sadə və aydın bir yoldur ki, insan öz fitrəti ilə onu qət edir və burada heç bir müəmma, anlaşılmazlıq yoxdur. Lakin insanların əksəriyyəti daim maddi işlərlə məşğul olduğundan, maddi və hissi ləzzətlərdə qərq olduğundan, adətən Allahın onlara verdiyi sadə və pak fitrətə müraciət edə bilmirlər.

Buna görə də öz pak ayinini bütün dünyaya təqdim edən, dini məqsədlər müqabilində hamını bərabər hesab edən islam dini Allahın varlığını bu kimi insanlar üçün başqa yolla isbat edir; sadə fitrəti camaatın diqqətindən uzaq saxladığı həmin yolla danışaraq Allahı tanıtdırır.

Qur`ani-Kərim Allahı tanımağı müxtəlif yollarla ümum camaata öyrədir, hər şeydən artıq onların nəzər diqqətini yaradılış aləminə, onda hakim olan dəqiq qanunauyğunluqlara yönəldir, asimanlarda və insanın öz

---

1 Qur`anda bu bürhana işarə olunaraq buyurulur: "Asimanları və yeri vücuda gətirən olduğu halda Allahın varlığında şəkk etmək olarmı?! Halbuki, o Allah yoxluğu yaradaraq asimanları və yeri möhkəm etmişdir." "İbrahim" surəsi, ayə-10

nəfsində dərindən düşünməyə də`vət edir. Çünki insan öz qısa həyatında hər bir yolu seçsə və dünyəvi maddi ləzzətlərə nə qədər qərq olsa belə, yaradılış aləmi və ona hakim olan qanunlardan kənarda qalmayacaq, onun şüur və idrakı asimanın və yerin heyrətamiz səhnələrinə tamaşa etməkdən doymayacaqdır.

Gözümüz önündə olan ucsuz-bucaqsız yaradılış aləminin[1] hər bir hissəsi ayrı-ayrılıqda, eləcə də məcmu halında daim dəyişilir, hər an özünə yeni-yeni şəkil və cilvələr alır.

Heç bir istisna qəbul etməyən qanunların tə`siri altında gerçəklik libası geyən varlıqların hamısının – ən uzaq qalaktikalardan tutmuş, dünyanın elementar hissələrini təşkil edən ən kiçik zərrəciklərə qədər hər bir varlığın özünəməxsus və heyrətamiz qanunauyğunluqları vardır; onlar öz qanunauyğunluqları əsasında cərəyan edir, öz əməli şüalarını ən ibtidai vəziyyətdən başlayaraq ən kamil nöqtəyə doğru sövq etdirir və nəticədə kamal dərəcəsinə çatırlar.

Xüsusi nizamlardan yüksəkdə dayanan daha ümumi nizamlar və nəhayət dünyanın heç bir qanunauyğunluqlarına sığmayan varlıqların ümumi sistemlərini bir-biri ilə əlaqələndirən nizamlar vardır ki, cüz`i sistemləri bir-birinə qovuşdurur və özünün davamlı cərəyanında heç vaxt istisnaya yol vermir; bu qanunlar heç bir vaxt pozulmur.

Yaradılış dünyası hər hansı bir varlığa yer üzündə yer verirsə onun vücud və quruluşunu elə xüsusiyyətlərə

---

1 "Casiyə" surəsi, ayə-3-6

malik edir ki, onun öz yaşayış mühiti və həyat tərzi ilə uyğun olsun; yaşadığı mühiti də elə tənzim edir ki, nəvazişli və mehriban bir dayə kimi onu böyüdüb tərbiyə etsin. Günəş, ay, ulduzlar, su, torpaq, gecə, gündüz, fəsillər, buludlar, küləklər, yağışlar, yeraltı xəzinələr və yerüstü ehtiyatlar hamılıqla öz sərmayə və qüvvələrini insanın asayişi və xatircəmliyi üçün sərf edir. Biz belə bir qanunauyğunluğu və əlaqəni bütün varlıqların arasında, onun uzaq-yaxın qonşuları və onun "yaşadığı evdə" belə görürük.

Bu cür sıx bağlılıq və qırılmaz qanunauyğunluq dünya varlıqlarının hər birinin daxili aləminin təchiz olunmasında da mövcuddur. Yaradılış insan üçün çörək verirsə, onun əldə edilməsi üçün ayaq, onu götürmək üçün əl, onu yemək üçün ağız, çeynəmək üçün diş də vermişdir; zəncir halqaları kimi bir-birinə birləşən bir sıra vasitələr bu varlığı onun əbədi kamal hədəfi ilə əlaqələndirir.

Dünya alimləri e`tiraf edirlər ki, neçə min illik elmi fəaliyyət və sə`ylər nəticəsində əldə olunan saysız-hesabsız rabitələr sonsuzluq təşkil edən yaradılış sirlərindən yalnız cüzi miqdarıdır və bu mə`lum mə`lumatların hər biri bəşəriyyətə sonsuz məchullardan bir növ xəbər verir.

Belə isə, tək-tək üzvləri bir-birindən ayrı olmaqla eyni zamanda həm də vəhdət şəklində olan, öz heyrətamiz bağlılıq və müttəfiqliyi ilə sonsuz elm və qüdrət mənbəyindən xəbər verən bu aləmin heç bir yaradan olmadan təsadüfi olaraq meydana gəldiyini iddia etmək olarmı?!

Görəsən möhkəm və saysız-hesabsız əlaqələr, qanunlar yaratmaqla dünyanı böyük bir vahid şəklində qərar verən, istisnaya yol verilməyən və dəqiq qanunları ilə cərəyanda olan kainatın ümumi nizamlarının, eləcə də cüzi və külli nizamlarının heç bir məqsəd və tədbir olmadan, sadəcə təsadüf üzündən yarandığını iddia etmək olarmı? Yaxud demək olarmı ki, bu varlıqlardan hər biri, dünyanın böyüklü-kiçikli bütün mühitləri yaranmamışdan qabaq özləri üçün bir nizam və sistem qurmuş, müəyyən yollar seçmiş və yarandıqdan sonra da onları icra etməyə başlamışlar?!

Yaxud bu dünya malik olduğu kamil vəhdətdə, bir vahiddən başqa bir şey olmadığı halda, müxtəlif səbəblər tərəfindən yaranıb müxtəlif qayda-qanunlarla hərəkət edirmi?!

Əlbəttə, hər bir hadisə və varlıq üçün müəyyən bir səbəbin olduğunu qəbul edən, bə`zən namə`lum bir səbəbi tapmaq üçün uzun müddətlər tədqiqat aparan, elmi nailiyyətlər ardınca gəzən bir şəxs, dəqiq nəzm və qayda ilə bir-birinin üzərinə düzülmüş bir neçə kərpici müşahidə etməklə onun elmli və qüdrətli bir şəxs tərəfindən icad edildiyini deyir, onların təsadüf üzündən belə bir tərtiblə hörülməsini inkar edir. O, bu işdə müəyyən tədbir və hədəfin olmasına qətiyyətlə hökm edir. Belə bir şəxs heç vaxt dünyanın səbəbsiz olaraq yarandığını, ona hakim olan qayda-qanunların təsadüf üzündən olduğunu fərz edə bilməz.

Deməli, dünya ona hakim olan dəqiq qayda-qanunlar və nəzm əsasında, böyük bir Xaliq tərəfindən yaradılmışdır; O, Özünün sonsuz elm və qüdrəti ilə bu

aləmi yaratmış və müəyyən bir hədəfə doğru hərəkət etdirmişdir; dünyada cüzi hadisələri yaradan cüzi səbəblərin hamısının mənşəyi Odur və hər bir cəhətdən Onun tədbiri və təqdiri altındadır; hər bir şey öz varlığında Ona möhtacdır, Onun isə heç bir şeyə ehtiyacı yoxdur. O, heç bir səbəb və şərtdən qaynaqlanmır.

## *ALLAHIN VAHİD OLMASI*

Dünyada olan gerçəkliklərdən hər birini fərz etsək, o, məhdud bir reallıqdır. Yə`ni bir fərz və təqdir əsasında (səbəb və şərtin varlığının fərz olunması ilə) "varlığa" malikdir və digər bir fərz və təqdirə əsasən (şərt və səbəbin olmadığını fərz etdikdə) yox olur. Həqiqətdə onun vücudunun müəyyən sərhəddi vardır ki, o sərhədlərdən kənarda mövcud olmur. Heç bir hədd-hüdudun və sonluğun təsəvvür olunmadığı yeganə varlıq yalnız Allahdır. Çünki Onun gerçəkliyi mütləqdir, hər bir təqdirdə mövcuddur və heç bir səbəb və şərtlə rabitəli və onlara ehtiyaclı deyildir.

Aydındır ki, qeyri-məhdud və sonsuz varlıq barəsində hər hansı ədəd fərz oluna bilməz. Çünki fərz olunan hər bir "ikinci" əvvəlkindən tam başqa (qeyri) olacaqdır və nəticədə hər ikisi məhdud olacaq, biri digərinin gerçəkliyinə məhdudiyyət yaradacaq. Misal üçün, hər hansı bir həcmi qeyri-məhdud, sonsuz fərz etsək onun müqabilində ikinci bir həcm təsəvvür və fərz etmək olmaz. Əgər fərz etsək belə, ikincisi eynilə birincisi olacaqdır. Deməli, Allah yeganədir və heç bir şəriki

yoxdur.[1]

---

[1] “Cəməl” müharibəsində bir kişi Əli (ə)-a yaxınlaşıb dedi: “Ya Əmirəl-mö᾽minin, sən deyirsən Allah birdir?” Camaat hər tərəfdən onun üzərinə qışqırıb dedilər: “Görmürsən ki, Əmirəl-mö᾽mininin başı nə qədər qarışıqdır?”

Əmirəl-mö᾽minin Əli (ə) buyurdu: “Onunla işiniz olmasın; çünki bu ərəbin istədiyi şey elə bizim bu camaatdan istədiyimizdir.” Sonra ərəbə dedi: “Allah birdir” dedikdə dörd növ “bir olmaq” təsəvvür oluna bilər ki, onun iki mə᾽nası düzgün deyil, iki mə᾽nası isə düzgündür: Düzgün olmayan mə᾽nalardan biri budur ki, bir kəs “Allah birdir” deyərək ədəd nəzərdə tutsun. Bu düzgün deyildir. Çünki “ikincisi olmayan” heç vaxt ədədin içinə daxil olmayır. Görmürsənmi ki, “Allah üçün üçüncüsüdür” deyənlər (məsihilərin üçlük əqidəsinə işarədir) kafir olmuşlar? Digəri də budur ki, bir kəs misal üçün, “filankəs camaatdan biridir” desin. Yə᾽ni bu cinsdən olan bir növdür (yaxud bu növdən olan bir vahiddir). Bu mə᾽na da Allahın barəsində düzgün deyildir. Çünki bu təşbihdir, Allah isə təşbihdən çox-çox uzaqdır.

Amma Allah barəsində düzgün olan mə᾽nalara gəldikdə isə, biri budur ki, bir şəxs “Allah birdir” desin, məqsədi də əşyalar arasında Onun oxşarı olmadığını çatdırmaq olsun. Allah belədir. Digəri isə belədir: “Allah birdir” (Əhəd – yə᾽ni Onda nə xaricdə, nə əql və nə də fəhm qüvvəsində heç növ çoxluğa və bölgüyə yer yoxdur). Allah məhz belədir. “Biharul-ənvar”, 3-cü cild, səh-207

Əli (ə) yenə buyurur: “Allahı tanımaq – Onu yeganə bilməkdir.” (Biharul-ənvar, 2-ci cild, səh-186). Yə᾽ni varlığı qeyri-məhdud, sonsuz olan Allahın varlığının isbat olunması üçün Onun vəhdaniyyətinin isbat olunması kifayətdir. Çünki qeyri-məhdud və sonsuz varlıq üçün heç vaxt “ikinci” təsəvvür oluna bilməz.

# *ZAT VƏ SİFƏT*

Əgər əqli cəhətdən hər hansı bir insanı araşdırsaq, onun şəxsi insaniyyətindən ibarət olan bir zata malik olduğunu görəcəyik. Onun müəyyən sifətləri də vardır ki, zatı həmin sifətlərlə tanınar. Məsələn, "filan şəxsin oğludur", "çox biliklidir", "qüdrətlidir", "uca boyludur", "gözəldir"; bu kimi sifətlərin əksini də deyə bilərik.

Bu sifətlərdən bə`zilərinin (birinci və ikinci sifət kimi) zatından ayrıla bilmədiyinə, bə`zilərinin isə (bilikli və qüdrətli olmasının) ondan ayrılmasının və dəyişilməsinin mümkün olmasına baxmayaraq, hər bir halda bu sifətlər onun zatından ayrıdır, öz aralarında da bir-birlərindən fərqlənir.

Bu mətləb (zat ilə sifətin, eləcə də sifətlərin öz aralarında fərqli olması) sifətə malik olan zatın, eləcə də zatın təqdimedicisi olan sifətin – hər ikisinin məhdud olmasına ən yaxşı dəlildir. Çünki əgər zat qeyri-məhdud olsaydı sifətləri də əhatə edərdi. Həmçinin əgər sifətlər qeyri-məhdud olsaydı bir-birini əhatə edər və nəticədə hamısı bir şey olardı. Məsələn, fərz olunan insanın zatı elə həmin qüdrət olar, həmçinin bacarıqlı, elimli, uca boylu olması, gözəlliyi və s. hamısı bir-birində eyniyyət təşkil edər və artıq bu mə`naların hamısı birdən artıq mə`na kəsb etməzdi.

Qeyd olunanlardan aydın olur ki, Allahın zatı üçün sifət (yuxarıda qeyd olunan mə`nalara olan sifət) olduğunu isbat etmək olmaz. Çünki (bu halda) qeyri-məhdud, sonsuz sifət baş vermir və Onun müqəddəs zatı hər bir məhdudiyyətdən (hətta hər hansı bir sifətin isbat

olunması sayılan "tənzih"dən belə) pakdır.

## *İLAHİ SİFƏTLƏRİN MƏ`NASI*

Yaradılış aləmində sifətlər şəklində zahir olan çoxlu kamallar mövcuddur. Bunlar müsbət sifətlər olub zahir olduqları hər yerdə özlərini daha kamil edir və ona daha artıq varlıq dəyəri verirlər. İnsan kimi canlı bir varlığın daş kimi cansız bir əşya ilə müqayisə olunmasında qeyd olunanlar aydın olur.

Şübhəsiz bu kamalları Allah xəlq edərək varlıqlara əta etmişdir. Əgər Allahın Özü bu kamallara malik olmasaydı onu başqalarına verə və onları təkmilləşdirə bilməzdi. Buradan sağlam əqli mühakiməyə əsasən hökm edərək demək lazımdır ki, Allahın elmi, qüdrəti vardır; O, bütün real kamallara malikdir. Bundan əlavə elm və qüdrətin nişanələri və nəticədə həyat əsərləri bütün yaradılış aləmində zahir olur.

Lakin Allah-taalanın müqəddəs zatının qeyri-məhdud və sonsuz olduğuna nəzər yetirdikdə Allah üçün sifətlər şəklində isbat olunan bu kamalların Onun zatı ilə eyni olması, eləcə də bir-birləri ilə eyniyyət təşkil etməsi mə`lum olur.[1] Zat ilə sifət, eləcə də sifətlərin öz aralarında

---

[1] İmam Sadiq (ə) buyurur: "Allahın sabit varlığı vardır və Onun elmi elə Özüdür, heç bir mə`lum olmadığı vaxtda belə; həmçinin heç bir eşidilən şey olmadığı halda belə eşitmək Onun Özü, heç bir görünən şey olmadığı bir zamanda görmək onun Özü, qüdrət tapılan şey olmadığı dövrdə belə qüdrət Onun Özü ilə idi. ("Biharul-ənvar", 2-ci cild, səh-125). Bu məsələ ilə əlaqədar Əhli-beyt (ə)-dan nəql olunan hədislər olduqca çoxdur.

olan fərqlər isə yalnız məfhum mərhələsindədir, həqiqətdə isə bölgüyə yer olmayan vahiddən başqa bir şey deyildir.

İslam bu yersiz səhvin (vəsf etməklə zatın məhdudlaşdırılması, yaxud ümumiyyətlə kamalın inkar edilməsinin) qarşısını almaq üçün öz ardıcıllarının əqidəsini inkar ilə isbat arasında saxlayır.[1] O, öz ardıcıllarına e`tiqadlarının belə olmasını tövsiyə edir: Allahın elmi var, amma başqalarının elmi kimi deyil; qüdrəti var, amma başqalarının qüdrəti kimi deyil; eşidəndir, amma qulaqla yox; görəndir, amma gözlə yox. Başqa sifətlər də belədir.

## *SİFƏTİN MƏ`NASI BARƏDƏ ƏLAVƏ İZAH*

Sifətlər iki qismdir: kamal sifətləri, qeyri-kamal sifətləri. Əvvəldə qeyd olunduğu kimi, kamal sifətləri isbati mə`nalar olub vəsf olunan şeyin daha artıq vücud

---

"Nəhcül-bəlağə", "Tövhid", "Üyun" və "Biharul-ənvar", 2-ci cild.

[1] İmam Baqir (ə), imam Sadiq və imam Riza (ə) buyurur: "Allah-taala zülmətlə qarışmayan nur, cəhaləti olmayan elm, ölüm olmayan bir həyatdır." (Biharul-ənvar, -ci cild, səh-129.

İmam Riza (ə) buyurur: "(İlahi) sifətlərlə əlaqədar camaat üç qrupa bölünür: Bə`ziləri sifəti Allah üçün, başqalarına təşbih etmək yolu ilə isbat edir, digər bir qrup bu sifətləri inkar edirlər. Haqq olan üçüncü yol bundan ibarətdir ki, başqalarına təşbihi inkar etməklə sifətləri Allah üçün isbat etsinlər. "Biharul-ənvar", 2-ci cild, səh-91

dəyərinə malik olmasına və vücud əsərlərinin artmasına səbəb olur. Bu məsələ hər hansı bir canlı, elimli və bacarıqlı varlığı ölü, elimsiz, qüdrətsiz bir varlıqla müqayisə etdikdə mə`lum olur. Qeyri-kamal sifətlərində isə məsələ tam əksinədir.

Qeyri-kamal sifətlərinin mə`nası barədə dəqiq fikirləşdikdə, onun mənfi mə`naya malik olduğu üçün kamaldan məhrum olmasından, bir növ vücud dəyərinə malik olmamasından danışıldığı mə`lum olar. Cəhalət, acizlik, çirkinlik, sağlam olmamaq və s.-ni buna misal göstərmək olar. Deməli, qeyri-kamal sifətlərinin inkar olunması kamal sifətlərinin mə`nasını aşılayır. Məsələn, nadanlığın inkar olunması elimli olmaq mə`nasını, zəifliyin inkar olunması isə qüdrətli olmaq mə`nasını çatdırır.

Buna görə Qur`ani-Kərim hər bir kamal sifətini birbaşa Allah üçün isbat edir, hər bir qeyri-kamal sifətlərini Ondan uzaq bilir, həmçinin nöqsan sifətinin mənfiləşmiş mə`nasını Allah üçün isbat edib buyurur:

**"O, elimli, qüdrətli və diridir; O, yuxulamaz və mürgüləməz; və bilin ki, siz Allahı aciz edə bilməzsiniz."**

Mühüm məsələlərdən biri də budur ki, Allah-taala mütləq bir gerçəkliyə malikdir, Onun heç bir həddi-hüdudu və sonu yoxdur.[1] Buna görə də Allah barəsində

---

[1] İmam Sadiq (ə) buyurub: "Allah-taala zaman, məkan, hərəkət, bir yerdən başqa yerə nəql olunma, yaxud sükunət halında olmaqla vəsf edilməz, əksinə O zamanın, məkanın,

isbat olunan hər növ kamal sifətində məhdudiyyət mə`nası olmayacaqdır. O, maddi və cismani şeylərlə, məkan və zamanla məhdudlaşmaz, hər hansı bir dəyişiklik, yenilik və hali sifətlərdən pakdır. Onun üçün həqiqətən isbat olunan hər bir sifət məhdudiyyət mə`nasından uzaqdır. Belə ki, buyurulur:

**"Heç bir şey Onun oxşarı və misli deyildir."**[1]

## *FE`Lİ SİFƏTLƏR*

Sifətlər (yuxarıda qeyd olunanlardan əlavə) digər bir bölgüyə əsasən zat və fe`l sifətləri olaraq iki yerə bölünür. Belə ki, sifət, məsələn, həyat, elm, qüdrət bə`zən tə`yini söz birləşməsinin ikinci tərəfi ilə (sifət sahibinin) birlikdə olur. Belə ki, bu sifətlər diri, bilikli və bacarıqlı insanla yanaşıdır və biz insanı, hətta ondan başqa bir şeyi fərz etməsək belə, onlarla vəsf olunmadan fərz edə bilmərik. Bə`zən də təkcə ikinci tərəflə birgə deyildir; o, sifətlərlə vəsf edilmək üçün başqa bir şeyin gerçəkləşməsinə ehtiyac duyur. Məsələn, yazıçılıq, nitq söyləmək və s. kimi şeylər. Çünki insan o zaman yazıçı ola bilər ki, onun kağızı, qələmi, mürəkkəbi olsun; o vaxt xitab edə bilər ki, onun üçün müəyyən eşidənlər fərz olunsun; o zaman istəyə bilər ki, istənilən bir şeyi olsun. İnsanın özünün fərz edilməsi bu sifətlərin gerçəkləşməsinə kifayət etmir.

Buradan aydın olur ki, Allahın həqiqi sifətləri (yuxarıda da qeyd olunduğu kimi Onun zatı ilə eynidir

---

hərəkətin, sükunətin yaradanıdır." "Biharul-ənvar", 2-ci cild, səh-96

1 "Şura" surəsi, ayə-11.

və) yalnız birinci qismdəndir. Amma onların gerçəkləşməsində başqa şeyin varlığına ehtiyac duyulan ikinci qismə gəldikdə isə, Ondan başqa olan hər bir şey Onun məxluqudur, yaranışda Ondan sonradır. Öz yaranışı ilə vücuda gətirdiyi sifətləri də zati sifəti və Allahın zatı ilə eyni hesab etmək olmaz.

Allah-taala barəsində yaradılışın gerçəkləşməsi üçün sübut olunan sifətlər, o cümlədən yaradan, hərəkət etdirən, tə`lim-tərbiyə verən, dirildən, öldürən, ruzi verən və s. kimi sifətlər zat ilə eyni deyildir; onlar fe`l sifəti olub zata əlavə edilir.

"Fe`l sifəti" dedikdə bir fe`lin gerçəkləşməsindən sonra zatdan deyil, məhz həmin fe`ldən başa düşülən müəyyən bir sifət nəzərdə tutulur. Məsələn, yaradılış gerçəkləşdikdən sonra yaradılan varlıqlardan Allahın yaradan olması sifəti düşünülür. Bu sifət də Allahın-taalanın müqəddəs zatı ilə deyil, yaradılanların özü ilə birgədir ki, bir sifətin yaranması ilə zatın bir haldan başqa hala çevrilməsi lazım gəlməsin.

Şiələr iradə və kəlam kimi iki sifəti bu sözlərin özündən başa düşülən mə`naya götürərək fe`l sifəti[1] hesab edirlər (iradə istəmək, kəlam isə kəlmənin

---

[1] İmam Sadiq (ə) buyurur: "Allah həmişə Öz zatında alim olmuşdur, halbuki heç bir mə`lum mövcud deyildi, heç bir məqdur olmadığı halda da qadir idi." Ravi soruşdu: "Mütəkəllim idimi?" İmam (ə) buyurdu: "Kəlam hadisdir (sonradan yaranan), Allah var idi, amma mütəkəllim deyildi, bundan sonra kəlamı icad etdi." Biharul-ənvar", 2-ci cild, səh-147

mə`nasını kəşf etmək). Amma sünnülərin əksəriyyəti onu elm mə`nasına götürərək zati sifətlərdən hesab etmişlər.

## *QƏZA VƏ QƏDƏR*

Varlıq aləmində səbəb-nəticə qanunu hakimdir; bu qanunlar heç bir istisna olmadan cərəyan edir. Bu qanunlara əsasən, dünyada hər bir varlığın yaranması müəyyən səbəblərə (gerçəkləşmənin səbəb və şərtlərinə) bağlıdır. Onların hamısının gerçəkləşməsi fərz olunduqda (bu, tam illət (səbəb) adlanır) onun vücuda gəlməsi (fərz olunan mə`lul) zəruri (cəbri) olur. Onların hamısının, yaxud bə`zi qisminin olmaması ilə həmin varlığın vücuda gəlməsi qeyri-mümkündür. Bu nəzəriyyənin dəqiq şəkildə araşdırılmasından aşağıdakı iki mətləb aydın olur:

1. Hər hansı bir varlığı (mə`lulun) onun tam illətinin məcmusu ilə, həmçinin tam illətinin hissələri ilə müqayisə etdikdə onu tam illətlə olan tənasübü zərurət nisbətində (cəbr) olacaqdır. Onun tam illətin hissələrin hər birinə olan münasibəti (onların hər biri "naqis (natamam) illət" adlandırılır) "imkan" nisbətidir. Çünki illətin bir hissəsinin mə`lula olan nisbəti "vücudun zərurətini" deyil, yalnız ona "vücud imkanı" verir.

Buna əsasən, hər bir varlığı öz vücudunda özünün tam illətinə zəruri bağlılığı olan, onun bütün varlığına zərurət hakim kəsilən varlıq aləmi bir sıra zəruri və qəti hadisələrdən tənzim olunmuşdur. Bununla belə onun hissələrində "imkan" sifəti (özünün tam illətindən başqa şeylərlə müəyyən nisbəti və əlaqəsi) öz yerində qalmaqdadır.

Qur`ani-Kərim öz tə`limlərində bu zəruri hökmü "ilahi qəza" adlandırır. Çünki bu zərurətin mənşəyi varlıq aləminə vücud verən Allahdır. Buna görə də heç bir qanundan kənar hallara yol verilməyən, ədalətli olan, istisna və seçkilik qəbul etməyən qəti bir hökm və qəzadır.

Allah-taala buyurur:

"...Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur..."[1]

Başqa bir yerdə buyurur:

**"(Allah) bir işi hökm edəndə ona "ol!" deyər, o da dərhal vücuda gələr."**[2]

**"Allah hökm edir, Onun hökmü üçün heç bir tə`qib edən yoxdur."**[3]

2. İllətin (səbəbin) hissələrindən hər biri mə`lula (nəticə) münasib əndazə və me`yar verir, mə`lulun yaranması da tam illətin onun üçün müəyyən etdiyi əndazələrin məcmusuna müvafiq şəkildə olur. Məsələn, insan üçün tələffüzü vücuda gətirən illətlər təkcə mütləq tənəffüsü icad etmir, əksinə ağızda və burundakı müəyyən qədər havanı müəyyən zaman, məkan və şəkildə müəyyən əndazədə tənəffüs yolu ilə ciyərlərə göndərir. Görməyi insan üçün vücuda gətirən illətlər (insan da onların bir hissəsidir) qeyd və şərt olmayan gözləri vücuda gətirmir; əksinə o, gözləri icad edir ki, onun vasitələri hər bir cəhətdən onun üçün tə`yin

---

1 "Ə`raf" surəsi, ayə-54

2 "Bəqərə" surəsi, ayə-117

3 "Rə`d" surəsi, ayə-41

olunubdur. Bu həqiqət bütün dünya varlıqlarında, eləcə də onda baş verən hadisələrdə heç bir istisna olmadan cərəyan edir və qüvvədədir.

Qur`ani-Kərim öz tə`limlərində bu həqiqəti "qədər" adlandırır, onu bütün varlıqların mənşəyi olan Allaha nisbət verib buyurur:

**"Həqiqətən Biz hər bir şeyi qədər ilə xəlq etdik."**[1]

Başqa bir ayədə buyurulur:

**"Elə bir şey yoxdur ki, onun xəzinələri Bizim yanımızda olmasın; Biz də onu yalnız mə`lum qədərdə nazil edirik."**[2]

İlahi qəza səbəbi ilə yaradılış aləmində yer tutan, qərarlaşan hər bir varlıq və hadisənin vücudu zəruri və qaçılmazdır. Həmçinin qədər səbəbi ilə vücuda gələn hər bir varlıq və hadisə Allah tərəfindən onun üçün müəyyən olunmuş əndazədən azacıq da olsa, kənara çıxmır.

## *İNSAN VƏ İXTİYAR*

İnsanın gördüyü hər bir iş yaradılış aləminin varlıqlarından biridir və onun vücuda gəlməsi sair dünya varlıqları kimi tam mə`nada illət və səbəbə bağlıdır. İnsanın yaradılış aləminin bir hissəsi olduğunu, dünyanın sair varlıqları ilə əlaqədə olduğunu nəzərə almaqla, başqa varlıqları onun fe`llərində tə`sirsiz hesab etmək olmaz.

---

[1] "Qəmər" surəsi, ayə-49.

[2] "Hicr" surəsi, ayə-21 İmam Sadiq (ə) buyurur: "Allah-taala bir şeyi iradə etdikdə onu müqəddər edir, müqəddər etdikdə qəza edir, qəza etdikdə imza (icra) edir." "Biharul-ənvar", (Kompani çapı) 3-cü cild, səh-34

Məsələn, insanın yediyi bir tikə çörəyi götürək. Bu fe`lin yerinə yetirilməsində əl, ayaq, ağız, elm, qüdrət, iradə lazım olduğu kimi, çörəyin xaricdə varlığı, əl çatan yerdə olması, heç bir maneənin olmaması və s. zaman və məkan şərtləri də bu fe`lin yerinə yetirilməsində lazımdır. Belə ki, onlardan hər hansı birinin olmaması ilə fe`l gerçəkləşə bilmir. Onların hamısının da gerçəkləşməsi ilə (tam illətin gerçəkləşməsi ilə) fe`lin baş verməsi zəruri olur.

Deməli, bir fe`lin, tam illətin hissələrinin məcmusuna nisbətən zəruri olmasının tam illətin hissələrindən biri olan insan fe`linin nisbətinin imkan nisbətində olması ilə heç bir ziddiyyəti yoxdur.

İnsanda imkan, yə`ni fe`lin ixtiyarı vardır və fe`lin illətin hissələrinin məcmusuna nisbətən zəruri olması fe`lin insandan ibarət olan hissələrin bə`zilərinə nisbətən zəruri olmasına səbəb olmaz.

İnsanın sadə idrakı da bu nəzəriyyəni tə`kid edir. Çünki gördüyümüz kimi, insanlar Allah verən fitrət əsasında yemək, içmək, getmək, gəlmək kimi işlərlə bədənin səhhəti, xəstəliyi, böyüklüyü, kiçikliyi və uzunluğu arasında fərq qoyurlar. İnsanın iradə və istəyi ilə birbaşa əlaqədə olan birinci qism onun şəxsən öz ixtiyarında olub əmr, nəhy, tə`rif və məzəmmətə layiq görülə bilər. Amma ikinci qismdə insanın heç bir vəzifəsi yoxdur.

İslamın əvvəllərində sünnülər arasında insanın fe`lləri barədə iki məşhur məzhəb yaranmışdır. Onlardan bir qrupu insanın gördüyü işləri heç bir qanundan çıxma halı – təxəllüf olunmayacaq dərəcədə Allaha aid edir, insanı isə öz işlərində məcbur hesab edir və bu barədə insanın

ixtiyar və iradəsinə heç bir dəyər vermirdilər. Bir qrup isə insanı öz işlərində tam müstəqil hesab edərək deyirdilər ki, onun işləri ilə Allahın iradəsi arasında heç bir əlaqə yoxdur. Onlar bu işləri qədər hökmündən xaric hesab edirdilər.

Lakin Qur`anın zahiri tə`limləri ilə müvafiq olan Əhli-beyt (ə) tə`limlərinə əsasən insan öz əməllərində ixtiyar sahibidir, amma müstəqil deyildir. Allah-taala onlara ixtiyar və iradə əsasında iş görmək imkanları vermişdir. Əvvəldə gətirilən tə`birlə desək, Allah-taala insana ixtiyar və iradə verməklə, ona tam illətlərin məcmusu yolu ilə bir işi istəyərək həyata keçirmək zərurəti vermişdir. Bu cür ilahi istəyin nəticəsi də zəruri fe`ldir. İnsan da onu görməkdə ixtiyar sahibidir. Öz illətinin hissələrinin məcmusuna nisbətən zəruri, insan olan hissələrə nisbətdə isə ixtiyari və mümkündür.

İmam Sadiq (ə) buyurur: "Nə cəbr (mütləq məcburiyyət) və nə də təfviz (mütləq azadlıq); bunların arasında olan (orta bir mövqe) bir işdir."[1]

---

1 "Biharul-ənvar", 3-cü cild, səh-5. İmam Baqir, imam Sadiq və imam Riza (əleyhimussalam) buyurmuşlar: "Allah Öz yaratdıqlarına o qədər mehribandır ki, onları heç vaxt günaha icbar edərək sonra da onlara əzab verməz. Allah o qədər əzizdir (izzətlidir) ki, bir işi istəsə hökmən vücuda gələr (bir işi istədiyi halda o işin vücuda gəlməməsi mümkün deyil.)" "Biharul-ənvar", 3-cü cild, səh-6

İmam Sadiq (ə) buyurur: "Allah o qədər kəramətlidir ki, insanları qüdrətləri olmayan, gücləri çatmayan işlərə vəzifəli etməz. O izzət sahibidir və Onun mülkündə Onun istəmədiyi

Bu hədislərdə cəbr və təfviz məsələlərinə işarə olunmuşdur.

---

bir şey heç vaxt vücuda gəlməz." "Biharul-ənvar", 3-cü cild, səh-15.

# 2. PEYĞƏMBƏRŞÜNASLIQ

## *HƏDƏFƏ DOĞRU – ÜMUMİ HİDAYƏT*

Münasib şəraitlər əsasında əkilən buğda dənəsi inkişaf etməyə başlayır, dəyişikliklər mərhələsinə keçir, hər an özünə yeni bir forma alır, dəqiq nəzm və tərtibə əsasən müəyyən mərhələləri keçir və nəhayət kamil buğda dənlərinə malik olan bir sünbülə çevrilir. Əgər onun dənlərindən biri yerə düşsə yenə də əvvəlki prosesi başlayaraq, axırda öz məqsədinə çatacaqdır. Hər hansı bir meyvə çəyirdəyini münasib şəraitdə torpağa əkəriksə, torpağın altında inkişafa başlayaraq öz qabığın yarıb yaşıl bir rüşeyim şəklinə düşür, dəqiq və əvvəlcədən onun üçün müəyyən olunmuş bir yolu ötərək böyük və meyvəli yaşıl bir ağaca çevrilir.

Heyvan nütfəsi isə yumurtada, yaxud ana bətnində inkişafa başlayır, hələlik nütfə şəklində olan həmin heyvan ona məxsus olan mərhələləri ötüb keçir, nəhayət həmin heyvanın kamil nümunəsinə çevrilir.

Əvvəlcədən müəyyən olunan və onun tərəfindən qət edilən yol bu dünyada müşahidə olunan hər bir varlığın daxilində qoyulmuşdur və bu da həmin növün taleyidir. Əvvəlcə dən şəklində olub inkişaf edən yaşıl buğda sünbülü heç vaxt qoyuna, keçiyə, yaxud filə dönməz; eləcə də öz növündən olan erkək növ ilə cütləşən (mayalanan) dişi heyvan heç vaxt buğda və yaxud çinar ağacı doğmaz. Hətta əgər körpəsinin təbii əməlində, yaxud bədən üzvlərinin tərkibində bir nöqsanlı hal olarsa

məsələn, qoyun bir gözlü doğsa, yaxud sünbülü olmayan bir buğda şaxəsi əmələ gəlsə, onların hökmən müəyyən səbəblər nəticəsində anormal olmasına hökm olunur.

Əşyaların yaranışında və keçdiyi inkişaf proseslərində ardıcıl nəzm və tərtibə, yaradılış növlərindən hər birinin özünəməməxsus təkamül və dəyişikliyə, xüsusi nizama malik olması inkaredilməz bir məsələdir. Bu nəzəriyyədən nəticə olaraq iki məsələni qeyd etmək olar:

1. Yaradılış növlərindən hər hansı birinin yarandığı dövrdən bu dövrü keçdiyi vaxta qədər olan mərhələlər arasında bir növ qırılmaz rabitə bərqərardır. Məsələn, qeyd olunan həmin növ özünün yaranış, inkişaf və dəyişiklik mərhələlərinin hər birində arxadan irəliyə doğru dəf edilir, qarşı tərəfdən isə cəzb olunur.

2. Qeyd olunan qırılmaz rabitəyə nəzər salmaqla mə`lum olur ki, hər bir növün yaranışının əvvəlindən e`tibarən keçdiyi mərhələlərin axırıncısı həmin növ tərəfindən istənilən (mətlub) və təkvini_diqqətə malik olacaqdır. Belə ki, yerə əkilən qoz dənəsindən əvvəlcə yaşıl rüşeyim çıxır, həmin vaxtdan e`tibarən böyük bir ağac olmaq istiqamətində inkişafa başlayır; yumurtanın içində, yaxud ana bətnində olan rüşeym də yaradılışının ilk əvvəlindən tam və kamil bir canlı olmaq üçün müəyyən mərhələləri qət edir.

Qur`ani-Kərim özünün mütərəqqi tə`limlərində (burada əşyaların yaradılışı, inkişafı və son məqsədə doğru olan hidayəti mütləq şəkildə Allaha istinad edilir) varlıqların hər birinin öz kamalı istiqamətində keçdiyi yolları “ilahi hidayət” adlandırır və bunları Allaha nisbət verərək buyurur:

**"O həmin Allahdır ki, hər bir şeyə onun xilqətini əta edib sonra onu hidayət etdi."**[1]

Başqa bir ayədə isə buyurulur:

**"O kəs ki, (varlıqları) xəlq edib onu normal hala saldı, təqdir edib hidayət etdi."**[2]

Yenə buyurulur:

**"(Varlıqların) hər birinin müəyyən hədəfi vardır ki, (daim) ona doğru gedir."**[3]

Yenə buyurur:

**"Biz asimanları, yeri və onların arasında olanları oyun oynamaq üçün yaratmamışıq (bunlar hədəfsiz yaradılmayıb); onlar yalnız haqq olaraq yaradılmışdır (onların yaradılışında müəyyən hədəf və məqsəd vardır); lakin camaatın çoxu (bunu) bilməz."**[4]

## *XÜSUSİ HİDAYƏT*

Aydındır ki, insan növü də bu ümumi və külli qaydalardan istisna olunmur, yaradılış növlərinin hər birinə hakim kəsilən ilkin və təkvini hidayət ona da hakim olacaqdır. Belə ki, hər bir növ özünə məxsus olan müəyyən qanunauyğunluqla öz kamalına doğru hərəkət edir və hidayət yolunu tapır. İnsan da təkvini hidayət yolu ilə öz həqiqi kamalına doğru hidayət yolunu tapır. İnsanın sair canlılarla bir çox xüsusiyyətlərdə şərik olması

---

1 "Taha" surəsi, ayə-50

2 "Ə`la" surəsi, ayə-32

3 "Bəqərə" surəsi, ayə-148

4 "Duxan" surəsi, ayə-39

ilə eyni zamanda onu başqa varlıqlardan seçən xüsusi bir məziyyəti də vardır ki, ona əql (ağıl) deyilir.

İnsan məhz əqlin vasitəsilə təfəkkür edir, mümkün vasitələrdən öz xeyrinə istifadə edir, asimanın sonsuz fəzasına yüksəlir, dəryaların dərinliklərinə baş vurur, yerin üstündə növbənöv əşyaları, bitkiləri, heyvanları istismar edir, hətta insan növlərindən də bacardığı qədər faydalanır.

İnsan ilkin təbiətinə uyğun olaraq, öz kamal və səadətini mütləq azadlıqda görür; lakin onun vücudu ictimai və ehtiyacları saysız-hesabsız olduğundan heç vaxt təklikdə onları tə`min edə bilmir. O, öz insan növləri ilə qarşılıqlı əlaqələr yaradaraq həmkarlıq edir, ictimai şəkildə yaşadıqda məcburi şəkildə bir çox azadlıqlarını bu yolda əldən verir; başqalarından əldə etdiyi qazanc müqabilində onlara da müəyyən qədər qazanc verir, başqalarının əziyyətinə mə`ruz qaldığı qədər digərlərini zəhmətə salır, başqa sözlə məcburiyyət üzündən ictimai həmkarlığı qəbul edir.

Bu həqiqət körpələrin və uşaqların barəsində daha aydındır. Onlar ilk əvvəllər öz istəklərinə çatmaq üçün inadkarlıq və ağlamaqdan başqa heç bir üsuldan istifadə etmir, həmçinin heç bir qayda-qanuna tabe olmaq istəmirlər. Lakin fikirlərinin tədricən inkişaf etməsi nəticəsində başa düşürlər ki, inadkarlıq və zorakılıqla yaşamaq olmaz; yavaş-yavaş ictimai fərdlərin ümumi tələblərinə uyğunlaşmağa başlayırlar; nəhayət kamil təfəkkürə malik olan ictimai yetkinlik yaşlarında öz mühitində mövcud olan ictimai qayda-qanunlar qarşısında əyilir. İctimai həmkarlığı qəbul etməyin

ardınca qayda-qanunların varlığı zəruri hesab olunur; bu qanunlar cəmiyyətdə tətbiq edilərək ayrı-ayrı fərdlərin hər birinin vəzifəsini müəyyən edir və ictimai asayişi pozanları öz cəzasına çatdırır. İnsan elə bir qanun istəyir ki, onun əməli olaraq icra olunması ilə cəmiyyət fərdlərindən hər biri özünün həqiqi xoşbəxtliyinə çatsın, onun ictimai dəyərinə bərabər olan səadətə nail olsun.

Bəşər övladı yarandığı ilk gündən bu ümumi miqyaslı, hər tərəfli və əməli qanunlara məftun olmuş, həmişə onu öz arzularının sərlövhəsi seçmiş və onun həyata keçməsinə çalışmışdır. Aydındır ki, əgər belə bir şey mümkün olmasaydı və bəşərin taleyinə yazılmasaydı onun həmişəlik istəyi olmazdı.[1] Allah-taala bu ümumbəşəri və ictimai qanunauyğunluqların həqiqətinə işarə edərək buyurur:

**"Biz insanların məişət və həyatını onların arasında bölüşdürdük (hər şəxs onun bir qismini öhdəsinə alır; onlardan bə`zilərinə üstünlük verdik ki, bə`ziləri digərlərini öz ixtiyarlarına keçirsin."**[2] (Necə ki, fəhlə və

---

1 Bütün insan fərdləri, hətta onların ən sadəsi və ən az fikirləşəni belə, öz təbiətinə uyğun olaraq insaniyyət aləminin elə bir vəziyyətdə olmasını istəyir ki, hamılıqla asayişdə, sülh və səfa-səmimiyyətdə yaşasın. Fəlsəfi cəhətdən də istəmək, meyl və rəğbət iki tərəflə gerçəkləşən nisbi vəsflərdir; o cümlədən "istəyən və istənilən", "sevən və sevilən" və s. Aydındır ki, əgər istəmək və sevmək mümkün olmasaydı onu sevməyin mə`nası olmazdı. Və nəhayət hamı bu cür nöqsanlı dərs səviyyəsinə qayıdır. Əgər kamal mümkün olmasaydı nöqsanın mə`nası olmazdı.

2 "Zuxruf" surəsi, ayə-32

sahibkarın hər biri məxsus vaxtlarda biri digərini müəyyən işlərə cəlb edir; rəislə onun əli altında işləyənlər, icarəçi ilə icarənişin, alıcı və müştəri də bu qayda ilədir.).

İnsanın özünüsevmək və inhisarçılığı barədə isə belə buyurulur:

“İnsan çox həris yaradılmışdır. Ona xoşagəlməz bir hadisə baş verdikdə ah-nalə edir, xeyir çatanda başqalarını ondan məhrum edir.”[1]

## *ƏQL VƏ QANUN*

Düzgün diqqət yetirdikdə aydın olur ki, insanlar daim arzuladıqları və onların səadətini tə`min edə biləcək qanunların lüzumunu Allah verən fitrətlə həm təklikdə, həm də hamılıqla dərk edirlər. Elə bir qanun ki, bəşəriyyət aləmini məhz “bəşər aləmi” olduğuna görə ayrı-seçkilik olmadan xoşbəxtliyə çatdıraraq onların arasında ümumi kamalı bərqərar etsin. Aydındır ki, indiyə qədər bəşər həyatının müxtəlif dövrlərində əql tərəfindən tənzim olunan belə bir qanun görünməmişdir. Əgər belə bir qanun təkvin əsasında onun öz öhdəsinə qoyulmuş olsaydı, əlbəttə bu uzun dövr ərzində bəşəriyyət üçün dərk olunar, ağıl və düşüncə qüvvəsinə malik olan bütün insanlar onun cəmiyyətdə nə qədər lazım və zəruri olmasını dərk etdikləri kimi, onun məfhumunu da müfəssəl şəkildə dərk edərdilər.

Başqa sözlə desək, əgər bəşər cəmiyyətinin əbədi

---

1 “Məaric” surəsi, ayə 19-21.

xoşbəxtlik və səadətinə tə`minat verən, bəşəriyyətin yaradılış yolunda ona doğru hidayət olunası müştərək və kamil qanun təkvin e`tibarı ilə insanların öz öhdəsinə qoyulsaydı, hər bir insan öz həyatındakı fayda və qazancını, eləcə də sair zəruri olan şeyləri dərk etdiyi kimi öz əqli ilə o qanunu da dərk edərdi. Lakin indiyə qədər belə bir qanun görünməmişdir; öz-özünə yaranan, yaxud indiyə qədər cəmiyyətlərdə olub-keçən millətlər, şəxslər, sahibkarlar, yaxud bir şəxs tərəfindən icad olunan belə qanunlar şübhəsiz ki, bə`ziləri üçün qəbul olunmuş, bə`ziləri üçün isə müəmmalı qalmışdır; bə`ziləri ondan xəbərdardır, bə`ziləri isə ondan tamamilə xəbərsizdirlər və bəşəri quruluş baxımından bir-biri ilə bağlı olan, Allah verən əqldən bəhrələnən camaatın hamısı bu bölmədə heç vaxt müştərək idraka malik olmamışlar.

## *VƏHY ADLI SİRLİ BİR ŞÜUR*

Yuxarıda qeyd olunanlardan aydın olur ki, bəşəriyyətin əbədi xoşbəxtliyini tə`min edən qanunu əql dərk edə bilmir və ümumi hidayət nəzəriyyəsinin tələbinə əsasən, belə bir idrakın varlığı insanlar üçün zəruri olduğundan onlar arasında hökmən başqa bir idrak vasitəsi mövcud olmalıdır ki, həyatın həqiqi vəzifələrini onlara anladaraq hamının ixtiyarında qoysun. Əql və hiss yönündən tamamilə başqa yönə malik olan bu idrak və şüur "vəhy şüuru" adlandırılır. Əlbəttə, bəşəriyyətdə belə bir qüvvənin yaranması onun bütün insanlarda mövcud olmasını tələb etmir. Belə ki, cinsiyyət qüvvəsi insanda yaradılmışdır, lakin izdivac ləzzətini dərk etmək və ona hazırlaşmaq üçün olan dərk yalnız o

şəxslərdə mövcud olur ki, həddi-büluğ çağlarına çatmış olsunlar. Həddi-büluğa çatmayan şəxslərdə izdivac ləzzətini dərk etmək sirli bir şüur olduğu kimi, zühur etməmiş şəxslərdə olan vəhy şüuru da bir növ sirli şüurdur.

Allah-taala Öz kəlamında Özünün şəriət vəhyi barəsində, eləcə də əqlin bu barədə yetərli olmadığına işarə edərək buyurur:

**“Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik... O peyğəmbərlər bəşəriyyətə (ilahi ne`mətləri) müjdə verən və onları ilahi əzabdan qorxudanlar idi. Ona görə göndərilmişdilər ki, bu işdən sonra camaatın Allah qarşısında heç bir bəhanəsi (höccəti) olmasın.**[1]**“** (Aydındır ki, əgər əql Allahın höccəti tamamlamasında kafi olsaydı, artıq höccətin tamamlanması üçün peyğəmbərin göndərilməsinə ehtiyac olmazdı.)

## *PEYĞƏMBƏRLƏR – NÜBÜVVƏTİN İSMƏTİ*

İnsanlar arasında ilahi peyğəmbərlərin zahir olması əvvəlki fəsildə qeyd olunan vəhy nəzəriyyəsini bir daha təsdiqləyir. Çünki ilahi peyğəmbərlər vəhy və nübüvvət iddiası edərək öz risalətləri üçün qəti və yetərli höccətlər gətirmişlər; ilahi dinin “ilahi xoşbəxtlik qanunu”ndan ibarət olan maddələrini xalqa təqdim etmiş və onların ixtiyarında qoymuşlar. Vəhy və nübüvvət qüvvəsi ilə

---

1 “Nisa” surəsi, ayə-162

yaraqlanan peyğəmbərlər hər bir zamanda zahir olmuşlarsa, onların sayı bir, yaxud bir neçə nəfərdən artıq olmamışdır; Allah sair insanların hidayətini Öz peyğəmbərlərinə verdiyi tə`lim və də`vət mə`muriyyəti ilə təkmilləşdirib sona çatdırmışdır.

Buradan aydın olur ki, ilahi peyğəmbərlər ismət sifətinə malik olmalıdırlar. Yə`ni, Allah tərəfindən vəhyin alınmasında, onun saxlanılmasında və xalqa çatdırılmasında səhvdən, xətadan uzaq olub günah etməməlidir (qanunu pozmamalıdır). Çünki qeyd olunduğu kimi, vəhyin alınması, qorunması və xalqa çatdırılması təkvini hidayətin üç əsas sütunudur və təkvin aləmində xətaya yol verilməsinin heç bir mə`nası yoxdur.

Qeyd etmək lazımdır ki, öz təbliğ və də`vətlərinin əksinə gedərək günah etmələri onların də`vət və məqsədlərinin ziddinə olan bir əməl olardı; camaat arasında e`tibar və e`timadın əldən verilməsi ilə nəticələnər, bundan əlavə də`vətin düzgün olmasını, onun hədəf və məqsədini puça çıxarardı.

Allah-taala Öz kəlamında peyğəmbərlərin ismət məqamına işarə edərək buyurur:

**"Biz peyğəmbərləri Öz tərəfimizə doğru topladıq (onlar Bizdən başqasına sitayiş etmir, Bizdən başqasının əmrinə tabe olmurdular) və Biz onları düz yola çatdırdıq."**[1]

Başqa bir ayədə isə belə buyurur:

---

1 "Ən`am" surəsi, ayə-87

"Qeybi bilən yalnız Odur və Öz qeybini peyğəmbərlərindən – bəyəndiyi şəxslərdən başqasına agah etməz. Bu halda onun (peyğəmbər, yaxud vəhyin) arxasından və önündən kamil nəzarət qoyur ki, onlar öz ilahi peyğamlarını çatdırsanlar."[1]

## *PEYĞƏMBƏRLƏR VƏ ASİMANİ DİN*

İlahi peyğəmbərlərin vəhy yolu ilə əldə etdikləri və ilahi tövsiyələr kimi insanlara çatdırdıqları şeylərin məcmusu din adlanır. Din, insanların həqiqi xoşbəxtliyini tə`min edən vəzifələr və yaşayış üsullarıdır.[2]

Asimani din ümumi şəkildə iki hissədən - e`tiqadi və əməli hissələrdən təşkil olunur. E`tiqadi hissə bir sıra əsasi və gerçək e`tiqadlardan ibarətdir ki, insan öz həyatının əsasını onun üzərində qurmalıdır. Onlar tövhid, nübuvvət və məad kimi üç əsas prinsipdən ibarətdir ki, onların hər hansı birinə olan e`tiqada xələl gəldikdə artıq onun daşıyıcısı din ardıcılı sayılmır.

Əməli bölmə isə bir sıra əxlaqi və əməli vəzifələrdən ibarətdir; bu da insanın həm aləmlərin pərvərdigarı olan Allah qarşısında, həm də cəmiyyət qarşısında malik olduğu vəzifələri göstərir. Buradan aydın olur ki, asimani şəriətlərdə insan üçün tənzim olunan fərdi vəzifələr iki qismdir: Əxlaq və əməllər. Onların hər biri də öz növbəsində iki hissəyə bölünür:

---

1 "Cin" surəsi, ayə-26-28)

2 Kitabın müqəddiməsinə müraciət edin.

a) Birinci qism: Allah ilə əlaqədar olan əməl və əxlaqlar, o cümlədən gözəl əxlaq, iman, ixlas, bəndəçilik, Allahın əmrinə razı olmaq, tə`zim, oruc, namaz, qurbanlıq kimi əməllər. Bu qismdən olan əməllər "ibadətlər" adlandırılır, insanın Allah dərgahında olan bəndəçiliyini isbat edir.

b) Cəmiyyətlə əlaqədar olan layiqli əməllər və əxlaq. Məsələn, əxlaq, insanları sevmək, xeyirxahlıq, ədalət, səxavət, ticarət və s. ictimai əlaqələr. Bu qism isə "müamilələr" adlanır.

Digər tərəfdən, insan həmişə kamala diqqət yetirir və bəşər cəmiyyəti zamanın keçməsi ilə daha da kamilləşir. Asimani şəriətlərdə də bu cür təkamülün zahir olması zəruridir. Qur`ani-Kərim də həmin tədrici təkamülü (əql yolu ilə əldə edildiyi kimi) tə`kid edir. Qur`an ayələrindən mə`lum olduğu kimi, sonradan gələn hər bir din və şəriət əvvəlkindən daha kamildir. Allah-taala belə buyurur:

"Biz kitabı (Qur`anı) haqq olaraq sənə nazil etdik. Halbuki, öz qarşısında olan (Tövrat və İncil kimi kitabları) təsdiq edən və onu qoruyan (və ya onların doğruluğuna şahid) kimi nazil etdik."[1]

Əlbəttə, elmi nəzəriyyələrin göstərdiyi və Qur`anın aşkar buyurduğu kimi insan cəmiyyətinin dünya həyatı əbədi deyildir və təbii ki, onun təkamülü də sonsuz olmayacaqdır. Buna görə də insanın e`tiqad və əməl baxımından olan vəzifələrinin külliyyatı hökmən müəyyən bir mərhələdə dayanacaq və bunun ardınca e`tiqadın kamalı və əməli qayda-qanunların genişlənməsi

---

1 "Maidə" surəsi, ayə-48

baxımından mərhələnin axırına çatan şəriət və nübuvvət də xətm olunacaqdır.

Məhz buna görə də Qur`ani-Kərim islam dininin Həzrət Məhəmməd (s)-in dini kimi asimani dinlərin axırıncısı və ən kamili olduğunu bəyan etməklə yanaşı, özünü nəsx olunmayan (qüvvədən düşməyən) asimani kitab, Peyğəmbəri-Əkrəmi (s) peyğəmbərlərin sonuncusu, islam dinini isə bütün vəzifələrin göstəricisi olan bir din kimi təqdim edərək buyurur:

**"Və şübhəsiz Qur`an əziz və öz sərhəddini qoruyan bir kitabdır. Nə öndən, nə də arxadan batil ona yol tapa bilməz."**[1]

Başqa bir ayədə buyurulur:

**"Məhəmməd sizlərdən heç kəsin atası deyildir, əksinə o, Allahın peyğəmbəri və peyğəmbərlərin sonuncusudur."**[2]

Başqa bir ayədə isə buyurulur:

**"Sənə kitab nazil etdik, halbuki o, hər bir şeyin bəyanedicisidir."**[3]

## *PEYĞƏMBƏRLƏR, NÜBUVVƏT VƏ VƏHYİN HÖCCƏTİ*

Vəhy və nübuvvət barəsində tədqiqat aparan müasir alimlərdən çoxu vəhy, nübuvvət və eləcə də onlarla əlaqədar olan sair məsələləri ictimai-psixoloji qaydalar

---

1 "Səcdə" surəsi, ayə-41-42

2 "Əhzab" surəsi, ayə-40

3 "Nəhl" surəsi, ayə-89

əsasında izah edərək deyirlər: *İlahi peyğəmbərlər pak fitrətli, böyük himmətli və bəşəriyyəti sevən insanlar olmuşlar. Buna görə də onlar maddi və mə`nəvi cəhətdən inkişaf edərək, ictimaiyyətdəki fəsad və eybəcərlikləri islah etmək üçün müəyyən qayda-qanunlar tənzim etmiş və xalqı ona doğru də`vət etmişlər. O dövrdə insanlar əql və məntiqi qəbul etmədiklərindən, camaatı bu qanunlara tabe etdirmək məqsədi ilə özünü və öz fikirlərini qeyri-maddi (mücərrəd) aləmlə əlaqələndirir, öz pak ruhlarını Ruhul-Qüdüs hesab edir, ondan yaranan fikirləri (vəhy və nübüvvəti), ondan nəticə kimi alınan vəzifələri (asimani şəriəti) və onları özündə əhatə edən bəyanları "asimani kitab" adlandırırdılar.*

Hər kəs asimani kitablara diqqətlə baxsa, xüsusilə Qur`ani-Kərimə və peyğəmbərlərin şəriətinə nəzər salsa, heç bir şəkk-şübhə olmadan yuxarıdakı nəzəriyyənin düzgün olmadığını başa düşəcəkdir. İlahi peyğəmbərlər siyasətbaz deyil, haqq insanlar olmuşlar; onların bütün vücudları doğruçuluq, səfa-səmimiyyətlə birgə yoğrulmuşdur. Dərk etdikləri şeyi artırıb-azaltmadan deyir, dediklərinə də əməl edirdilər; onların iddia etdikləri məsələlər qeyb aləmindən onlara bəxş olunan rəmzli bir şüur idi; onlar məhz bu yolla xalqın e`tiqadi və əməli vəzifələrini Allahdan alıb camaata çatdırırdılar.

Buradan aydın olur ki, nübuvvət iddiasını isbat etmək üçün güclü dəlil və höccət lazımdır. Peyğəmbərin şəriətinin sadəcə olaraq "əql ilə uyğun olduğunu" demək, peyğəmbərlik iddiasının doğru olmasının isbat edilməsində kifayət deyildir. Çünki peyğəmbərçilik iddiası edən hər bir şəxs öz şəriətinin doğruluğu ilə yanaşı, başqa bir şeyi də iddia edir; o, maddi aləmin

fövqündə dayanan başqa bir aləmlə vəhy və nübuvvət rabitəsinə malik olduğunu və Allah tərəfindən (risalətə) mə`mur olunduğunu deyir. Bu da öz növbəsində dəlil-sübut tələb edir. Məhz buna görə də (Qur`anın xəbər verdiyi kimi) insanlar həmişə özlərinin sadə zehnləri ilə ilahi peyğəmbərlərdən öz iddialarını isbat etmək üçün mö`cüzə istəyirdilər.

Bu düzgün və sadə məntiqin mə`nası bundan ibarətdir ki, ilahi peyğəmbər başqa insanlarda mövcud olmayan bir şeyi iddia edir. Bunun üçün də hökmən qeybi bir qüvvə olmalıdır. Allah-taala onu xariqül-adə surətdə Öz peyğəmbərinə verməlidir ki, onun vasitəsilə Allahın kəlamını eşidərək müəyyən göstəriş və tapşırıqlar əsasında camaata çatdırsın. Bu halda peyğəmbər, xalq onun nübuvvətinin doğruluğuna inansın deyə, öz Allahından başqa bir xariqül-adə iş yaratmasını istəyəcəkdir.

Aydındır ki, peyğəmbərdən mö`cüzə istənilməsi məntiqi qanunlara uyğundur; öz nübuvvətini başlanğıcda və ya camaatın istəyinə əsasən isbat etmək istəyən peyğəmbərə mö`cüzə göstərmək vacibdir. Qur`ani-Kərim də bu məntiqi təsdiqləyərək bir çox peyğəmbərlərin öz risalətlərinin əvvəllərində, yaxud camaatın istəyi ilə sonradan mö`cüzə göstərmələrini nəql etmişdir.

Əlbəttə, tədqiqatçıların bir çoxu mö`cüzənin gerçəkləşməsini inkar etmişlər; lakin onların sözləri e`tina olunacaq dərəcədə əsaslı deyildir. İndiyə qədər təcrübə, yaxud axtarış yolu ilə hadisələr üçün gəlib çatan səbəblər arasında onların daimi olmasına heç bir dəlilimiz yoxdur və heç bir hadisə öz adi səbəb və amillərindən başqa bir

şeylə gerçəkləşmir; ilahi peyğəmbərlərə mənsub edilən mö`cüzələr də qeyri-mümkün və (üç ədədinin cüt olması kimi) əqlin xilafına deyildir; sadəcə olaraq qeyri-adidir. Qeyri-adi işlər ruhi məşğələlərlə məşğul olan şəxslərdən (yoqlardan) də müşahidə olunmuş və eşidilmişdir.

## *İLAHİ PEYĞƏMBƏRLƏRİN SAYI*

Nəql edildiyinə görə, tarixdə çoxlu peyğəmbərlər gəlmişdir. Qur`an da onların çox olduğunu buyurmuş, bə`zilərinin əlamət və adlarını da qeyd etmişdir; lakin onların sayının dəqiq şəkildə nə qədər olduğunu bəyan etməmişdir.

Peyğəmbərdən (s) qəti sənədlərə nəql olunan sair hədislərdə onların sayı mə`lum olmamış, yalnız məşhur səhabə Əbuzər Ğifarinin Peyğəmbərdən nəql etdiyi hədisdə onların 124 min olduğu qeyd edilmişdir.

## *ULUL-ƏZM VƏ ŞƏRİƏT SAHİBİ OLAN PEYĞƏMBƏRLƏR*

Qur`an ayələrindən mə`lum olur ki, ilahi peyğəmbərlərin hamısı yeni şəriət gətirməmişlər; onlardan yalnız beş nəfəri - həzrət Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Məhəmməd (s) ulul-əzm və şəriət sahibidir, sair peyğəmbərlər isə ulul-əzm peyğəmbərlərə tabe olmuşlar. Allah-taala Öz kəlamında belə buyurur:

**"Allah Nuha tövsiyə etdiyini, eləcə də sənin özünə vəhy etdiyimizi, İbrahim, Musa və İsaya tövsiyə**

**edilənləri sizin üçün şəriət qanunları tə`yin etdi.”**[1]

Digər bir ayədə isə buyurulur:

**“Peyğəmbərlərdən əhd-peyman aldığımız, səndən, İbrahimdən, Musa və İsadan əhd-peyman aldığımız zaman... Onlardan möhkəm əhdi-peyman aldıq.”**

## *HƏZRƏT MƏHƏMMƏDİN (S) NÜBUVVƏTİ*

Həzrət Məhəmməd (s) ilahi peyğəmbərlərin sonuncusu, kitab və şəriət sahibidir; müsəlmanlar ona iman gətirmişlər. Həzrət Məhəmməd (s) hicri qəməri tarixinin başlanmasından 50 il qabaq Hicazın Məkkə şəhərində, Qüreyş qəbiləsinin Bəni-haşim sülaləsində dünyaya gəlmişdir; atasının adı Əbdüllah, anasının adı isə Amənə idi; o həzrət uşaq ikən öz valideynlərini itirmiş və babası Əbdülmüttəlibin himayəsinə keçmişdir. O da tez bir zamanda dünyasını dəyişdiyi üçün əmisi Əbu Talib onu öhdəsinə alaraq öz evinə gətirmişdir. O həzrət həmin ailədə böyüyüb boya-başa çatmış, həddi-büluğa çatmamış-dan qabaq əmisi ilə ticarət üçün Şama səfər etmişdir.

O həzrət heç bir yerdə elm öyrənmədiyi üçün yazıb-oxumağı bacarmırdı. Həddi-büluğa çatdıqdan sonra ağıl, ədəb-ərkan və əmanətdarlıq kimi insani keyfiyyətlərlə

---

[1] “Şura” surəsi, ayə- 13. Bu şərif ayə imtinan məqamındadır və mə`lumdur ki, əgər ayədə qeyd olunan bu beş nəfərdən başqa, şəriət sahibi olan digər bir peyğəmbər olsaydı, mütləq qeyd olunmalı idi.

məşhurluşmışdır. Buna görə də sərvətli Qüreyş qadınlarından biri olan Xədicə öz mal-dövlətini onun ixtiyarında qoymuş və ticarət işlərini ona həvalə etmişdi.

O həzrət ticarət məqsədilə Şama bir daha səfərə getmiş, öz fərasət, iste`dad və bacarığı sayəsində çoxlu qazanc əldə etmişdi. Çox çəkmədən Xədicə Peyğəmbərlə evlənmək təklifi irəli sürdü, həzrət də qəbul etdi və 25 yaşında ikən onunla ailə həyatı qurdu. Bu evlənmədən sonra 40 yaşına qədər həmin halda idi, əql və əmanətdarlıqda şöhrəti hər yerə yayılmışdı. O, heç vaxt bütə pərəstiş etməmişdi; halbuki o zaman ərəblərin rəsmi dini bütpərəstlik idi. O, bə`zən camaatın gözündən yayınaraq xəlvətə çəkilər, Allahla razi-niyaz edərdi. Nəhayət 40 yaşında Həra mağarasında[1] raz-niyaza məşğul ikən Allah tərəfindən peyğəmbərliyə seçildi və dinin təbliğ olunmasına əmr olundu. Qur`anın ilk surəsi ("Ələq" surəsi) ona nazil oldu və həmin gün öz evinə qayıtdı. Yolda əmisi oğlu Əli ibni Əbu Talibi gördü. Hadisəni bəyan etdikdən sonra Əli (ə) ona iman gətirdi, evə daxil olduqdan sonra isə həyat yoldaşı Xədicə də iman gətirdi.

Peyğəmbəri-Əkrəm (s) camaatı ilk dəfə dinə aşkar şəkildə də`vət etdiyi zaman onların çox kəskin əks-əməlləri ilə qarşılaşdı və bundan sonra məcburiyyət qarşısında qalıb gizli fəaliyyət və də`vətə başladı. Yenidən ona əmr olundu ki, ən yaxın qohum-əqrəbalarını dinə də`vət etsin. Lakin bu də`vətin də heç bir müsbət

---

[1] Məkkə yaxınlığında yerləşən Təhamə dağındakı mağarının adıdır.

nəticəsi olmadı və Əli ibni Əbu Talibdən başqa heç kəs ona iman gətirmədi. (Əhli-beyt imamlarından nəql olunan hədislərə, eləcə də Əbu Talibin öz şe`rlərinə istinadən şiələr inanırlar ki, Əbu Talib elə ilk vaxtlarda islama iman gətirmişdi. Lakin Peyğəmbəri-Əkrəmin (s) yeganə himayəçisi olduğundan öz imanını camaatdan gizlədirdi ki, Qüreyşin yanında öz zahiri nüfuz və qüvvəsini qoruyub saxlaya bilsin.) Bundan sonra Peyğəmbəri-Əkrəm (s) Allah tərəfindən verilən əmr əsasında aşkar şəkildə təbliğə başladı. Məkkə əhalisi o həzrətə ən ağır əzab-əziyyət və işgəncələr verməyə başladı. Təzə müsəlman olan şəxslərə qarşı Qüreyş tayfasının göstərdiyi işgəncə və təzyiqlər elə həddə çatmışdı ki, müsəlmanlardan bə`ziləri öz ev-eşiklərini tərk edərək Həbəşistana köçməyə məcbur oldular. Peyğəmbər (s) öz əmisi Əbu Talib və Bəni-haşimdən olan qohum-əqrəbası ilə birlikdə Əbu Talib dərəsində (Məkkə dərələrindən birində olan hasar idi) iqtisadi mühasirədə, həm də son dərəcə ağır və acınacaqlı vəziyyətdə yaşayırdılar; heç kəs onlarla qaynayıb-qarışmır və alver də etmirdi; onların oradan çıxmağa da imkanları yox idi.

Məkkə bütpərəstləri Peyğəmbərə (s) rəva gördükləri hər növ təzyiq, işgəncə, həmçinin vurmaq, döymək, təhqir etmək, istehza və məsxərə və işində maneçilik törətmələrinə baxmayaraq, bə`zən də onu məramından və tutduğu yoldan qaytarmaq üçün özlərini zahirdə mehriban göstərir, çoxlu mal-dövlət, rəyasət və`dəsi verirdilər. Lakin o həzrətin nəzərində onların yağlı və`dələri ilə əzab və`dələri eyni səviyyədə idi və bunların hamısının Peyğəmbərin (s) sə`y və fəailyyətlərinin

genişlənməsindən, əzminin güclənməsindən başqa bir nəticəsi olmadı. Qüreyş başçıları çox vaxt o həzrətə müraciət edib ona mal-dövlət və rəyasət və`dəsi verirdilər. Bir dəfə o həzrət onlara dedi: *"Əgər günəşi sağ əlimə, ayı sol əlimə qoysanız belə, yeganə Allaha itaət etməkdən və öz risalətimi yerinə yetirməkdən əl çəkməyəcəyəm."*

Be`sətin təqribən onuncu ilində o həzrət "Əbu Talib" dərəsindən çıxdıqdan bir müddət sonra yeganə himayəçisi olan əmisi Əbu Talib dünyadan getdi; onun vəfalı həyat yoldaşı da vəfat etdi. Artıq o həzrətin canı heç bir təhlükə qarşısında əmin-amanlıqda deyildi və sığınacaq yeri də yox idi. Nəhayət Məkkə bütpərəstləri gizlin və məkrli bir tədbir töküb onu öldürmək qərarına gəldilər, gecə ikən evini hər tərəfdən mühasirəyə aldılar. Onlar qəfildən həzrətin üstünə tökülüb onu tikə-tikə doğramaq istəyirdilər.

Lakin Allah-taala o həzrəti bu məkrli tədbirdən agah etdi və ona Yəsribə köçmək əmri verildi. Bu zaman həzrət Əlini (ə) öz yatağında yatırdaraq gecə ikən Allahın mühafizəsi ilə öz evindən çıxdı, düşmənlərin içindən keçdi və Məkkənin bir neçə kilometrliyində yerləşən mağaraya sığındı. Düşmənlər üç gün hər yeri axtarıb onu tapmaqdan ümidsiz olduqdan sonra Məkkəyə qayıtdılar. Bu zaman Peyğəmbər (s) mağaradan çıxıb Yəsribə yola düşdü.

Mədinə əhalisi əvvəldən o həzrətə iman gətirib bey`ət etdikləri üçün onu yüksək rəğbətlə qarşıladılar, öz canlarını və mallarını onun ixtiyarında qoydular.

O həzrət Yəsrib şəhərində ilk dəfə olaraq kiçik islami cəmiyyət təşkil etdi, şəhərdə və onun ətraf

məntəqələrində olan yəhudi tayfaları və o nahiyədə yerləşən güclü ərəb qəbilələri ilə də müqavilə bağlayıb islam dinini yaymağa başladı. Bundan sonra Yəsrib şəhəri Mədinətur-Rəsul adı ilə tanındı.

İslam dini günbəgün genişlənib yayılırdı. Məkkədə Qüreyş zalımlarının əlində əsir olan müsəlmanlar tədrici olaraq öz ev-eşiklərini buraxaraq Mədinəyə köçüb pərvanə kimi Peyğəmbərin (s) ətrafına yığışırdılar. Onlara "mühacirlər", Peyğəmbərin (s) Yəsribdə olan yerli köməkçilərinə isə "ənsar" deyilirdi.

İslam dininin çox sür`ətlə inkişaf edib yayılmasına baxmayaraq, Qüreyş bütpərəstləri və Hicazdakı yəhudi tayfaları bacardıqları qədər maneçilik törədir, müsəlmanların içərisində olan və batində heç bir əmrə tabe olmayan münafiqlərin əli ilə hər gün müsəlmanlar üçün yeni-yeni müsibətlər, çətinliklər yaradırdılar. Nəhayət iş müharibə ilə nəticələndi. Müsəlmanlarla ərəb bütpərəstləri və yəhudilər arasında çoxlu müharibələr baş verdi ki, onların əksəriyyətində islam ordusu qələbə çaldı. Bu müharibələrin sayı 80-a çatır. Bədr, Ühüd, Xəndək, Xeybər və s. böyük müharibələrin hamısında Peyğəmbər (s) şəxsən iştirak edirdi. Böyük müharibələrin hamısında, eləcə də kiçik müharibələrin əksəriyyətində qələbə Əli (ə)-ın əli ilə baş verirdi. O həzrət müharibələrin heç birində bir addım olsun belə geri çəkilmirdi. Hicrətdən sonrakı on il ərzində baş verən bütün müharibələrdə müsəlmanlardan 200 nəfərdən az, kafirlərdən isə 1000 nəfərə qədər öldürüldü. O həzrətin fəaliyyətləri, həmçinin mühacir və ənsarın göstərdiyi on illik sə`ylər nəticəsində islam dini Ərəbistan

yarmadasının hər yerini bürüdü. İran, Roma, Misir, Həbəşistan və s. ölkə başçılarının islama də`vət olunması üçün məktublar yazılırdı.

O həzrət fəqirlər kimi yaşayır, maddi cəhətdən aşağı sinfə mənsub olması ilə fəxr edir[1] və öz vaxtını bir an olsun belə, boş və əbəs işlərə sərf etmirdi. O həzrət vaxtını üç yerə bölmüşdü: bir hissəsində Allahla raz-niyaz edir, ibadətlə məşğul olur, Allahı yad edirdi; bir hissəsini ailəsinə və əhl-əyalına sərf edir, mənzil üçün lazım olan avadanlıqları tə`min edirdi; digər bir hissəsini isə camaat üçün ayırmışdı ki, bu vaxtda dini tə`limlərin və maarifin yayılması, islam cəmiyyətinin idarə olunması, mövcud çatışmazlıqları, əxlaqi və qanun pozuntularını aradan qaldırmaq, müsəlmanların ehtiyaclarını tə`min etmək, daxili və xarici rabitələri möhkəmləndirmək və s. işlərlə məşğul olurdu. O həzrət Mədinədə on il qaldıqdan sonra yəhudi qadının yeməyinə qatdığı zəhər nəticəsində ağır xəstəliyə düçar oldu və bir neçə gün əziyyət çəkdikdən sonra vəfat etdi. Rəvayətdə qeyd olunduğu kimi, o həzrətin dilindən eşidilən son söz qullar və qadınlar barəsində söylədiyi tövsiyələr olmuşdur.

---

[1] Peyğəmbər (s) məşhur bir rəvayətdə buyurur: "Fəqirlik mənim iftixarımdır." (Bu fəslin mətləbləri barədə əlavə mə`lumat almaq üçün "Sireyi İbni Hişam", "Sireyi Hələbi", "Biharul-ənvar" (6-cı cild) və s. mö`təbər kitablara müraciət edə bilərsiniz.

## *PEYĞƏMBƏRİ-ƏKRƏM (S) VƏ QUR`ANİ-KƏRİM*

Sair peyğəmbərlərin dövründə olduğu kimi, həzrət Məhəmmədin (s) dövründə də xalq ondan mö`cüzə istəyirdilər. O həzrət də mö`cüzənin (əvvəlki) peyğəmbərlərdə olmasını tə`kid edirdi. Qur`ani-Kərim bu mətləbi açıq-aşkar şəkildə bəyan etmişdir.

O həzrətin barəsində çoxlu mö`cüzələr qeyd olunmuşdur ki, onların bə`ziləri qəti və e`timad olunasıdır; lakin o həzrətin hazırkı vaxta qədər qalan əbədi mö`cüzəsi onun asimani kitabı olan Qur`ani-Kərimdir. Qur`ani-Kərim asimani bir kitabdır və onun altı mindən artıq ayəsi vardır. O, 114 böyük və kiçik surədən təşkil olunub. Qur`ani-Kərimin ayələri Peyğəmbərin (s) 23 ildən ibarət olan be`sət və təbliği dövründə tədrici olaraq nazil olmuşdur. Bir ayədən tutmuş tam bir surəyə qədər hamısı o həzrətin müxtəlif hallarında - gecə və gündüz, səfərdə və qeyri-səfərdə, müharibə və sülh şəraitində, ağır günlərdə və asudə vaxtlarında ona vəhy olunmuşdur.

Qur`ani-Kərim bir çox ayələrdə öz aşkar bəyanı ilə özünü mö`cüzə kimi təqdim edir və tarixin verdiyi şəhadətə əsasən, dövri fəsahət və bəlağətin ən yüksək mərhələsində olan ərəbləri, eləcə də gözəl və səlis danışıqla söz ustadlığının önündə gedən alim və xətibləri mübarizəyə də`vət edərək buyururdu: Əgər Qur`ani-Kərimin bəşər sözü olduğunu, yaxud Peyğəmbərin onu

kimdənsə öyrəndiyini güman edirsinizsə onun oxşarını[1], yaxud on surə[2], yaxud heç olmasa Qur`an surəsi kimi bir surə gətirin[3] və bu yolda mümkün olan hər bir vasitədən istifadə edin. Ərəblərin məşhur söz ustadlarından Qur`anla mübariztələblik qarşısında eşidilən söz "Qur`an sehrdir və onun oxşarını gətirmək bizim qüdrətimizdən kənardır" olmuşdur.[4]

Qur`ani-Kərim təkcə fəsahət və bəlağət yolu ilə mübarizə etmirdi, bə`zən mə`na baxımından da mübarizə tələbini irəli sürür, cinlərin və insanların hamısının fikri qüvvəsi ilə mübarizə tələb edirdi. Çünki bəşər həyatının bütün proqramlarını əhatə edən bir kitab barəsində diqqətlə araşdırma aparsaq, aydın olar ki, o, insaniyyətin saysız-hesabsız e`tiqad, əxlaq və əməllərini geniş bir səviyyədə əhatə etmiş, onun bütün incəliklərinə və mətləblərinə nəzər yetirmişdir; bunları haqq qərar vermiş, haqq din adlandırmışdır. (İslam dinindəki mövcud olan qayda-qanunların mənşəyi xalqın

---

1 Belə ki, buyurulur: "Əgər düz deyirsinizsə, Qur`anın oxşarı olan bir söz gətirin!" "Tur" surəsi, ayə-34.

2 "Hud" surəsi, ayə-13

3 "Yoxsa deyirlər ki, (bu Qur`an) Allaha bağladığı bir yalandır?! De: Əgər belədirsə, onda Qur`an kimi bir surə gətirin." "Yunis" surəsi, ayə-38

4 Ərəb söz ustalarından biri olan Vəlidin dilindən belə deyilir: "(Vəlid çox fikirləşdikdən sonra haqqa arxa çevirdi və inadkarlıq edərək) dedi: "Bu Qur`an (çox cazibəli) sehrdən başqa bir şey deyildir, bu Qur`an bəşər sözündən başqa bir şey deyildir." "Müddəssir" surəsi, ayə 24-25.

əksəriyyətinin istəyi və meylləri, yaxud zorakı bir şəxsin ürəyinin istəyi deyil, həqiqi islahat və haqdan ibarətdir).

Bu geniş proqramların əsasını yeganə Allaha imandan ibarət olan haqq kəlməsi kimi yenilməz bir kəlmə təşkil edir və bütün prinsip və maariflər tövhiddən nəticə kimi alınır; daha sonra insani əxlaqın ən bəyənilən maarif prinsiplərindən nəticə kimi alınaraq proqramlarının tərkib hissəsi qərar verilir.

Daha sonra sonsuz insani əməllər, eləcə də bəşərin ictimai və fərdi əməlləri cüz`i və külli şəkildə araşdırılmış, onların yeganəpərəstlikdən qaynaqlanan vəzifələri tənzim edilmişdir.

İslam dinində üsulidin və füruidin arasında qarşılıqlı əlaqə elə bir şəkildədir ki, hər hansı bir bölmədə olan əməli hökm diqqətlə araşdırılsa yeganə tövhid kəlməsinə qayıdır və tövhid kəlməsi də qayda-qanun və hökmlərlə birgə yoğrulmuş halda olur.

Əlbəttə, yekun tənzimdən əlavə, belə bir geniş miqyaslı ayin, özünün bu qədər vəhdət və sıx əlaqəsi ilə, hətta onun ibtidai siyahısının tənzim olunması belə, nəinki qısa müddət ərzində minlərlə çətinlik və giriftarçılıq arasında çalışan, öz canını, malını daxili və xarici düşmənlərin törətdikləri maniələr və qanlı müharibələr yolunda qoyan bir insanın, hətta dünya hüquqşünaslarından olan adi bir şəxsin qüvvəsindən belə, xaricdədir.

Bunu da nəzərə almalıyıq ki, Peyğəmbəri-Əkrəm (s) heç bir müəllim görməmişdi, yazıb-oxumağı öyrənməmişdi və öz də`və-tindən əvvəl həyatının üçdə

ikisini[1] heç bir mədəniyyət görməyən, ot-ələfi, münasib iqlim şəraiti olmayan, ən ağır şəraitdə iqtisadi şəraitdə yaşayan və hər gün istismarçı dövlətlərdən birinin işğalı altında olan bir qövm arasında keçirmişdi.

Bunlardan əlavə, Qur`ani-Kərim başqa bir yolla da öz müxaliflərini mübarizəyə çağırır; o da bundan ibarətdir ki, bu kitab bir-biri ilə fərqlənən tam müxtəlif şəraitlərdən, o cümlədən çətinlik-asudəçilik, müharibə-sülh, qüdrət-zəiflik və s. şəraitlərdən ibarət olan 23 il ərzində tədricən nazil olmuşdur. Əgər Allah tərəfindən nazil olan deyil, bəşərin düzəltdiyi bir kitab olsaydı, onda tədrici təkamülün tələb etdiyinə görə çoxlu təzad və ziddiyyətlər yaranar, axırı əvvəlindən daha möhkəm və mütərəqqi olardı. Halbuki, bu kitabın Məkki ayələri Mədəni ayələri ilə eyni səviyyədədir; axırı əvvəlindən fərqlənmir, elə bir kitabdır ki, onun cüz`ləri və hissələri bir birinə oxşayır, onun heyrətə salan bəyan qüdrəti də

---

[1] Belə ki, Peyğəmbəri-Əkrəm (s)-in öz dilindən buyurulur: "Mən nübuvvətimdən və Qur`anın nazil olmasından öncə, bir ömür sizin aranızda yaşamışam, əqlinizi işə salmırsınızmı?!"

Yenə buyurulur: "Sən, Qur`anın nazil olmasından əvvəl heç bir yazını oxuya bilmirdin, öz əlin ilə də yaza bilmirdin." "Ənkəbut" surəsi, ayə-48

Həmçinin buyurulur: "Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizdə (Qur`anda) şəkk-şübhədə olsanız, onda (yazıb-oxumamaq, heç bir müəllim görməmək kimi) vücud şəraitlərində Məhəmməd kimi olan bir şəxsdən bir surə gətirin ki, Qur`anın Allah kəlamı olmamasını isbat edə biləsiniz." "Bəqərə" surəsi, ayə- 23.

hər yerində eyni bir səviyyədədir.[1]

[1] Belə ki, buyurulur: "Qur᾿anda dərindən düşünüb tədəbbür etmirlərmi?! Əgər o, Allahdan başqasının tərəfindən olsaydı, onda çoxlu ixtilaf tapardınız." "Nisa" surəsi, ayə-82.

# 3. MƏADŞÜNASLIQ

## *İNSAN, RUH VƏ BƏDƏNDƏN TƏŞKİL OLUNMUŞDUR*

İslam maarifi ilə müəyyən qədər tanış olanlara mə`lum olduğu kimi, kitab və sünnə içərisində ruh və cism, yaxud nəfs və bədən barəsində çoxlu söhbətlər edilmişdir. Belə ki, hiss orqanları vasitəsilə dərk olunan cism və bədənin təsəvvür olunması nisbətən az, ruh və nəfsin təsəvvür olunması isə çox mürəkkəb və müəmmalıdır.

Şiə-sünnü mütəkəllim və filosofları arasında olan tədqiqatçılar ruhun həqiqət və mahiyyəti barəsində müxtəlif nəzəriyyələr söyləmişlər. Lakin müəyyən qədər də olsa, mə`lumdur ki, islam nəzərindən ruh və bədən bir-birinə müxalif olan iki gerçəklikdən ibarətdir. Bədən ölüm vasitəsilə həyat xüsusiyyətlərini itirir və tədricən çürüyüb aradan gedir, lakin ruh nəinki belə deyildir, üstəlik həyat əsalətən və ilk növbədə ruha məxsusdur. Ruh bədənlə əlaqəli olmayınca bədən də ondan həyat kəsb edə bilmir; ruh bədəndən ayrılıb onunla əlaqəsini kəsdikdə (öldükdə) bədən öz fəaliyyətini dayandırır, amma ruh öz həyatını əvvəldə olduğu kimi davam etdirir.

Qur`an ayələrində və Peyğəmbəri-Əkrəmin (s) Əhli-beytindən olan imamların kəlamlarına diqqət yetirdikdə mə`lum olur ki, insanın ruhu qeyri-adi bir varlıqdır; bədənlə bir növ ittihad və və yeganəliyə malikdir. Allah-

taala Öz kəlamında buyurur:

"Həqiqətən Biz insanı palçıqdan alınmış olan xülasədən yaratdıq, sonra onu aram bir məkanda nütfə qərar verdik, sonra onu laxta qan şəklinə saldıq, laxta qanı çeynənmiş ətə çevirdik, çeynənmiş əti sümüyə döndərdik, sümükləri ətlə örtdük, bundan sonra onu misli görünməmiş başqa bir varlığa döndərdik."[1]

Ayənin bəyan tərzindən aydın olur ki, onun əvvəli insanın maddi və tədrici yaradılışını bəyan edir, sonda isə ruhun, yaxud iradə və şüurun yaranması vurğulanaraq əvvəlki yaranışla tamamilə fərqli olan tam başqa bir yaradılışı bəyan edir.

Başqa bir yerdə məadı inkar edənlərin "insan öldükdən, çürüyüb torpağa qarışdıqdan, bədəni itib batdıqdan sonra yerin tərkibində necə bir yaradılış tapacaqdır?" - deyə verdikləri sualın cavabında buyurur:

**"De: Ölüm mələyi sizi bədənlərinizdən alacaq, ondan sonra öz Allahınıza tərəf qayıdacaqsınız."**[2] Yə`ni, öldükdən sonra çürüyən, torpağın içinə qarışan məhz sizin bədənlərinizdir, lakin sizin özünüz (ruhlarınız) ölüm mələyinin əli ilə bədənlərinizdən alınaraq Allah yanında qorunub saxlanır.

Bu kimi ayələrdən əlavə, Qur`ani-Kərim ətraflı və hərtərəfli bir bəyanla mütləq ruhu qeyri-maddi bir şəkildə bəyan edərək buyurur:

**"Səndən ruhun həqiqəti barəsində soruşurlar: De:**

---

[1] Mu`minun 12-13.

[2] "Səcdə" surəsi, ayə-11.

**Ruh mənim Allahımın əmri qəbilindən olandır."**[1]

Başqa bir yerdə isə Öz əmrini təqdim edərək buyurur:

**"Allahın əmri (budur ki,) bir şeyi istədiyi (iradə etdiyi) zaman ona "ol!" dedikdə heç bir fasilə olmadan vücuda gəlir və hər bir şeyin mələkutu da elə budur."**[2]

Bu ayələr göstərir ki, əşyaların yaranışında Allahın fərmanı tədrici deyil, zaman və məkanın əhatəsindən xaricdədir. Deməli, Allahın fərmanından başqa bir həqiqəti olmayan ruh da maddi deyildir, onun vücudunda tədricilik, eləcə də zaman və məkandan asılı olan maddi xüsusiyyətlər yoxdur.

## *BAŞQALARININ NƏZƏRİNDƏN RUHUN HƏQİQƏTİ*

Əqli tədqiqatlar da Qur`ani-Kərimin ruh barəsindəki nəzəriyyəsini təsdiq edir. Bizim hər birimiz öz həqiqətimizi dərk edərək onu "mən" tə`biri ilə ifadə edirik. Bu idrak insanda həmişə mövcuddur. Hətta bə`zən insan özünün başını, əlini, ayağını və sair üzvlərini, hətta bütün bədən üzvlərini unudur, lakin "mən", yaxud "öz"lüyün mövcud olduğu vaxta qədər "mən"in özü onu dərrakəsindən xaricə çıxmır və müşahidə olunduğu kimi bunda bölgü və hissələrə bölünmək də təsəvvürə sığmır. İnsan bədəni həmişə dəyişikliyə mə`ruz qaldığına, özü üçün müxtəlif məkanlar seçdiyinə və müxtəlif zamanlar keçirdiyinə

---

1 "İsra" surəsi, ayə- 85.

2 "Yasin" surəsi, ayə- 83.

baxmayaraq, "mən" adlı həqiqət həmişə sabitdir və onun həqiqəti heç vaxt dəyişilmir. Deməli, bu anlam maddi olsaydı bölgü, zaman və məkan şəraitini, eləcə də dəyişilmə kimi maddi xüsusiyətləri qəbul edərdi.

Amma bədən bu kimi xüsusiyyətlərin hamısını qəbul edir və ruhla əlaqəli olduğuna görə bu xüsusiyyətlər ruha da aid edilir. Lakin azacıq diqqət yetirməklə aydın olur ki, "o vaxt" və "bu vaxt", "bura" və "ora", "bu şəkil" və "o şəkil", "bu tərəf" və "o tərəf" və s. hamısı bədənin xüsusiyyətləridir və ruh bu kimi xasiyyətlərdən uzaqdır və bu nisbi dəyişikliklər yalnız bədən vasitəsilə ruha aid edilir.

Bu bəyanın oxşarını ruhun xüsusiyyətlərində olan elm, şüur və idrak və s. xüsusiyyətlər barədə də demək olar. Aydındır ki, əgər elm maddi xüsusiyyətə malik olsaydı maddəyə tabe olaraq bölünər, zaman və məkanı qəbul edərdi.

Əlbəttə, bu əqli bəhsin miqyası çox genişdir və bunun ardınca çoxlu suallar yaranır ki, bu kitabın həcminə uyğun deyildir. Onun barəsində yuxarıda qeyd olunanlar sadəcə işarə xarakteri daşıyırdı; əlavə mə`lumat almaq üçün islami fəlsəfə kitablarına müraciət etmək lazımdır.

## *İSLAM NƏZƏRİNDƏN ÖLÜM*

Səthi bir baxışla ölüm insanın məhv olduğunu xatırladır və həyatın yalnız doğulduğu vaxtla öldüyü vaxt arasında yerləşən qısa bir zaman məhdudəsini əhatə etdiyini çatdırır. İslam isə ölümü insanın həyatın bir mərhələsindən digər bir mərhələsinə nəql olunması kimi təfsir edir. İslam nəzərində insanın əbədi bir həyatı vardır

ki, onun üçün heç bir son təsəvvür olunmur, ruhun bədəndən ayrılmasından ibarət olan ölüm onu həyatın digər bir mərhələsinə daxil edir ki, orada xoşbəxt və ya bədbəxt olması ölümdən qabaqkı həyat mərhələsində yaxşı və ya pis əməl sahibi olmasından asılıdır.

Peyğəmbəri-Əkrəm (s) buyurur: "Ölməklə məhv olduğunuzu heç vaxt güman etməyin, əksinə bir evdən başqa bir evə nəql olunursunuz."[1]

## *BƏRZƏX*

Qur`an və sünnədən mə`lum olur ki, insan ölüm ilə ümumi Qiyamət arasında məhdud və müvəqqəti bir həyata da malikdir; bu, dünya həyatı ilə axirət həyatı arasında vasitə və bərzəx hesab olunur. İnsan öldükdən sonra malik olduğu e`tiqadlar, bu dünyada gördüyü yaxşı və ya pis əməllər xüsusi şəkildə araşdırılır, qısa şəkildə mühasibə aparıldıqdan sonra alınan nəticəyə əsasən şirin və yaxud acı bir həyata məhkum edilir; bu həyat da ümumi Qiyamət gününə qədər davam edir. İnsanın bərzəx aləmindəki həyatı eynilə müəyyən əməllərin araşdırılması üçün məhkəmə orqanına çağırılan, istintaq aparılıb müəyyən suallar soruşulan və sənədləri tənzim olunan şəxslərin vəziyyətinə oxşayır. Bundan sonra o, məhkəmənin vaxtı gəlib çatana qədər müvəqqəti olaraq zindanda saxlanılır. İnsanın bərzəxdəki ruhu dünyada yaşadığı surətdə olur; yaxşı əməl sahibləri xoşbəxtlik və ne`mət içərisində Allah dərgahına yaxın olan pak

1 "Biharul-ənvar", 3-cü cild, səh-161. (Şeyx Səduqun "E`tiqadat" kitabından.)

insanların qonşuluğunda ilahi ne`mətlərdən bəhrələnir, pis əməl sahibləri isə bədbəxtliyə, əzaba düçar olur, şeytanlar və zəlalət başçıları ilə yoldaş olur. Allah-taala xoşbəxtlik və səadət əhlinin vəziyyətini belə bəyan edir:

"Allah yolunda öldürülən şəxslərin əsla ölü olduğunu güman etmə! Onlar öz Rəbblərinin yanında (qürb məqamında) ruzilərdən bəhrələnirlər, Allahın Öz fəzl və mərhəməti ilə onlara verdiyi şeylər səbəbi ilə şadlıq və sevinc içərisindədir, onların ardınca gələn və hələ onlara qovuşmayan mö`minlərə müjdə verib deyirlər ki, onlar üçün heç bir qəm-qüssə və qorxu yoxdur. Həm də onlara Allahın (vəsfə sığmayan) fəzl və mərhəmətini müjdələyib deyirlər ki, Allah mö`minlərin əcr və savabını heç vaxt zay etmir."[1]

Dünya həyatında mal-dövlətlərindən və sərvətlərindən qanuni yolla istifadə etməyən başqa qrupu isə belə vəsf edir:

"Nəhayət, onlardan birinin ölümü çatar və deyər: Pərvərdigara! Məni (dünyaya) qaytarın, bəlkə zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görəm. Xeyr, əsla! Bu onun dediyi bir sözdür (onun sözlərinə əhəmiyyət verilməz), onların qarşısında Qiyamət gününə qədər davam edən bərzəx vardır."[2]

---

[1] "Ali-İmran" surəsi, ayə-169.

[2] "Mu`minun" surəsi, ayə-99-100.

## *QİYAMƏT GÜNÜ*

Asimani kitablar içərisində Qur`an Qiyamət barəsində müfəssəl şəkildə danışan yeganə kitabdır. Tövrat bu gün barəsində əsla söhbət açmamış, İncil isə cüz`i işarədən başqa bir şey bəyan etməmişdir. Qur`anın yüzlərlə ayəsində Qiyamət günü müxtəlif adlarla yad edilmiş, bu gündə dünya və onun əhalisinin malik olduqları tale barəsində bə`zən qısa şəkildə, bə`zən isə geniş şəkildə izahlar verilmişdir.

Qur`an dəfələrlə xatırladır ki, Qiyamət gününə iman Allaha imanla yanaşı olub islamın üçlük təşkil edən e`tiqadi prinsiplərindən biridir ki, ona malik olmayan şəxs (məadı inkar edən şəxs) islam dinindən xaric olub, əbədi həlakətə düçar olanlar sırasındadır.

Həqiqət də məhz belədir. Çünki əgər Allah tərəfindən insanların əməl və işlərinin hesabı, cəza və mükafat məsələsi olmasaydı, Allahın fərman, əmr və nəhylər məcmuəsindən ibarət olan dini də`vət heç bir tə`sirə malik olmazdı; tə`sir baxımından təbliğ və nübuvvətin olub-olmaması eyni səviyyədə olacaq, hətta onun olmaması olmasından daha üstün sayılacaqdı. Çünki dini qəbul edib, şəriət qayda-qanunlarına tabe olmaq hökmən özü ilə müəyyən mükəlləfiyyətlər gətirir və azadlığın alınmasına səbəb olur. Halbuki, əgər dinə tabe olmağın heç bir nəticəsi olmasaydı, camaat onu heç vaxt qəbul etməz və öz təbii azadlıqlarından əl çəkməzdi.

Buradan aydın olur ki, Qiyamət gününün xatırladılmasının əhəmiyyəti dini də`vətin öz əhəmiyyətinə bərabərdir.

Eləcə də aydın olur ki, Qiyamət gününə iman insanın təqvalı olub çirkin və bəyənilməz əxlaqdan, böyük günahlardan çəkinməsinin ən mühüm amilidir. Belə ki, ona imanlı olmamaq və yaxud unutmaq da hər növ günahın mənşəyi sayılır. Allah-taala Öz kitabında belə buyurur:

"Həqiqətən Allah yolundan çıxaraq azğınlığa düşənlər üçün ağır bir əzab vardır, çünki onlar Qiyamət gününü unutmuşlar."[1]

Aydın olduğu kimi, bu şərif ayədə Qiyamət gününün unudulması azğınçılıq hesab olunur. İnsan və dünyanın yaradılışında, eləcə də asimani şəriətlərin hədəf və məqsədində dərindən diqqət yetirilməsi ilə belə bir günün (Qiyamət gününün) irəlidə olduğu tamamilə aşkar olur.

Biz yaradılış aləmində gerçəkləşən işlərə diqqətlə yanaşsaq mə`lum olar ki, heç bir iş (belə ki, zəruri olaraq müəyyən qədər hərəkətə də şamil olur) sabit bir hədəf olmadan yerinə yetirilmir; heç vaxt bir işin özü müstəqil şəkildə insanın məqsədi və istədiyi şey deyil, əksinə bunların hamısı müəyyən bir hədəfin müqəddiməsidir və məhz ona görə istənilir. Hətta səthi nəzərlə yanaşdıqda məqsədsiz sayılan müəyyən işlərə, o cümlədən təbii işlərə, uşaq oyunlarına və s. diqqətlə nəzər saldıqda onun növünə uyğun olan məqsəd və hədəflərin olduğu aydınlaşır. Belə ki, ümumi halda hərəkət qəbilindən olan təbii işlərdə hərəkət hansı istiqamətə gedirsə, həmin istiqamət onun məqsədi və hədəfidir. Uşaqlara xas olan oyunlarda isə oyunun növünə münasib olan xəyali bir

1 "Sad" surəsi, ayə-26.

hədəf vardır ki, oyunda istənilən şey həmin xəyali məqsədə çatmaqdan ibarətdir.

İnsanın və dünyanın yaradılışı Allahın işidir və Allah heç vaxt əbəs və hədəfsiz bir iş görməz. O, yaradılışda sabit bir məqsəd güdmədən və sabit bir hədəfi izləmədən daim yaradıb ruzi verdikdən sonra öldürməsi və yenidən dirildib ruzi verib sonra yenidən öldürməsi, həmçinin bir şeyi düzəldib sonra bir-birinə qarşıdırması və s. işlərdən çox-çox pak və münəzzəhdir.

Deməli, insan və dünyanın yaradılışı üçün hökmən sabit bir hədəf və məqsəd vardır. Əlbəttə, onun faydası hər şeydən ehtiyacsız olan Allaha deyil, yaranmışlara qayıdır. Deməli, insan və dünya sabit bir yaradılışa, daha kamil vücuda doğru irəliləyir ki, onda heç bir fanilik və puçluq yoxdur. Həmçinin dini tərbiyə baxımından camaatın vəziyyətinə diqqətlə yanaşsaq görərik ki, insanlar bu tərbiyə və ilahi hidayət nəticəsində yaxşı və pis əməl sahibləri olaraq iki qrupa bölünürlər. Bununla belə, bu həyat nəş`əsində ayrıseçkilik və imtiyaz yoxdur. Əksinə, əksər hallarda müvəffəqiyyət və inkişaf zalımlara və bəd əməl sahiblərinə nəsib olur, yaxşı əməl sahibləri həmişə giriftarçılıqda, çətin məişətdə, ağır həyat şəraitində yaşayır və cürbəcür məhrumiyyətlərə, zülmlərə düçar olurlar.

Belə olan halda ilahi ədalət tələb edir ki, başqa bir həyat da mövcud olsun; onda qeyd olunan iki dəstədən hər biri öz əməlinin cəzasını və əvəzini görsünlər; hər biri öz halına münasib olaraq həyat sürsün. Allah-taala Öz kitabında bu iki höccətə işarə edərək buyurur:

"Biz asimanları, yeri və onların arasında olanları əbəs yerə yaratmamışıq (onları yalnız haqq əsasında hikmət və məsləhətə uyğun xəlq etmişik), lakin camaatın əksəriyyəti agah deyillər." (Ağıldan uzaq olan bu ehtimal Allaha qarşı kafir olan şəxslərin etdiyi gümandır, vay olsun bu kafirlərin halına! Onlara və`də verilən atəş...! Məgər Biz iman gətirib yaxşı iş görənləri yer üzündə fitnə-fəsad törədənlər kimi qiymətləndirərikmi? Yaxud pəhrizkarları günah əhli kimi qərar verərikmi?)

Başqa bir ayədə iki höccəti cəm edərək buyurur:

"Yoxsa cinayət törədib pis iş görənlər güman edirlər ki, Biz onları iman gətirib yaxşı iş görənlər kimi qərar verəcəyik ki, onların ölümləri və həyatları bərabər olsun? Onların etdiyi hökm necə də pis hökmdür! Allah asimanları və yeri haqq olaraq yaratdı (əbəs yerə yaratmadı) ki, hər nəfsə öz əməli ilə kəsb etdiyi şeylər əvəz olaraq verilsin və camaata zülm olunmasın."

## *BAŞQA BİR İZAH*

Bu kitabın ikinci bölməsində Qur`anın zahiri və batini mə`naları izah edilərkən qeyd olundu ki, müqəddəs kitabımızda islami maariflər müxtəlif yollarla bəyan olunmuşdur. Həmin yollar ümumi şəkildə iki qismə - zahir və batinə bölünür.

Zahir yolu ilə bəyan olunanlar sadə olub, ümumi kütlələrin düşüncə səviyyəsi ilə uyğundur. Amma batin yolu ilə çatdırılan izahlar xüsusi şəxslərə aiddir və mə`nəvi həyat ruhu ilə dərk olunur.

Zahir yolundan qaynaqlanan bəyan Allah-taalanı yaradılış dünyasının mütləq rəhbəri və fərman verəni

hesab edib buyurur ki, bütün mülk aləmi Ona məxsusdur, Allah-taala saysız-hesabsız mələklər yaratmışdır. Onlar Allahın əmrlərinə itaət edərək fərmanlarını icra edirlər. Allah dünyanın hər bir tərəfinə, hər bir yerinə əmr verir, dünyanın hər bir qisminin yaradılışı və nizam-intizamı mələklərdən olan xüsusi bir qrupa aiddir ki, onlar həmin hissənin vəkilləri sayılırlar. İnsan növü də Allahın yaratdıqlarından və bəndələrindəndir ki, Onun əmr və fərmanlarına qulaq asmalı, Allaha itaət etməlidir. Peyğəmbərlər də ilahi çağırışları, Allahın qanun və şəriətlərini gətirən insanlardır ki, Allah onları insanlara doğru göndərmiş və bu qanunların icra olunmasını tələb etmişdir.

Allah-taala iman və itaətə savab və mükafat və`dəsi, küfr və günaha isə cəza və əzab və`dəsi verdiyinə, digər tərəfdən də və`dəsinə xilaf çıxmayacağını buyurduğuna və adil olduğuna görə Öz ədalətinin tələbi ilə başqa bir dünyada yaxşı əməl və pis əməl sahiblərinin bu dünyada öz (yaxşı və ya pis) əməllərinə müvafiq yaşamadıqları üçün o dünyada bir-birindən ayırmalı, yaxşılara yaxşı həyat, pis əməl sahiblərinə isə pis və xoşagəlməz həyat əta etməlidir.

Allah Öz ədalətinin tələbi ilə və`də verdiyinə uyğun olaraq, bu dünyada olan insanları istisnasız şəkildə ölümdən sonra yenidən dirildəcək, onların e`tiqad və əməllərini incəliklərinə qədər araşdıracaq, onların arasında haqq əsasında mühakimə edəcək və nəticədə hər bir haqq sahibinin haqı özünə qaytarılacaq, hər bir məzlumun haqqı zalımdan alınacaq, hər kəsin əməlinin

mükafatı (əvəzi) özünə veriləcək, bə`ziləri əbədi behiştə, digər bir qrup isə əbədi cəhənnəmə məhkum olunacaqdır.

Bu, Qur`anın zahiri bəyanıdır və əlbəttə öz yerində doğru və düzgündür; lakin bu anlayışlar insanın ictimai təfəkkürünün məhsulu olan maddədən tənzim olunmuşdur ki, onun faydası daha ümumi və əməlinin hüdudları daha geniş olsun.

Həqiqət vadisində az-çox olan, Qur`anın batini bəyanı ilə müəyyən qədər tanış olan şəxslər bu bəyanlardan adi və sadə camaatın idrakının səviyyəsindən çox-çox yüksəkdə olan müəyyən mətləbləri başa düşürlər. Qur`an da öz əbədi çağırışlarında bə`zən bu bəyanların batini məqsədini çatdıran məsələləri xatırladır.

Qur`an öz müxtəlif bəyanları ilə qısa şəkildə buyurur ki, insan da daxil olmaqla, bütün yaradılış aləmi öz təkvini seyri ilə Allaha doğru hərəkət edir; onlar bir zaman öz hərəkətini sona çatdıraraq ilahi əzəmət müqabilində öz müstəqilliklərini tamamilə əldən verəcəklər. İnsan da dünyanın bir varlığıdır, onun təkamülü isə şüur və elm yolu ilədir. O Allah dərgahına doğru çox sür`ətlə hərəkət edir, öz hərəkətini axıra çatdırdığı bir gün Allahın haqq və yeganə olmasını əyani olaraq müşahidə edəcək və görəcəkdir ki, qüdrət, mülk və hər bir kamal sifəti yalnız Allahın müqəddəs zatına məxsusdur. Məhz bu yolla da əşyalar real varlıqları ilə ona aşkar olunacaqdır.

Bu, əbədiyyət dünyasının ilk mənzilidir. Əgər insan bu dünyada imanlı olub saleh işlər yerinə yetirməklə Allahla, eləcə də Onun dərgahına yaxın olanlarla rabitə, ülfət və ünsiyyət qurarsa, heç vaxt vəsf edilə bilməyən səadət və

xoşbəxtliyə çatar, Allah dərgahında, maddi aləmin fövqündə olan bir aləmin pak şəxsiyyətləri ilə yanaşı olar. Əgər dünya həyatına ürək bağlamaq, onun ötəri ləzzətlərində qərq olmaq nəticəsində maddi aləmin fövqündə olan bir aləmdən əlaqəsini kəssə, pak Allah və Onun dərgahının pak insanları ilə ülfət və ünsiyyət bərqərar etməsə əbədi bədbəxtliyə və əzaba düçar olacaqdır.

Əlbəttə, insanın yaxşı və pis əməlləri bu dünyada baş verir və burada da aradan gedir; lakin yaxşı və pis əməllərinin surəti insanın batinində həmişə qalır, insan hara getsə o surətlər onunla yanaşıdır və bunlar onun gələcəkdəki acı, yaxud şirin həyatının sərmayəsi olur.

Yuxarıda qeyd olunan mətləbləri aşağıdakı Qur`an ayələrindən də anlamaq olar:

Allah-taala buyurur:

"Qayıdış mütləq şəkildə Allaha doğrudur."[1]

"Agah olun ki, bütün işlər Allaha doğru qayıdır."[2]

"Bu gün əmr birbaşa Allaha məxsusdur."[3]

"Ey aramlıq tapan nəfs (Allahı yad et) öz Rəbbinə tərəf qayıt, halbuki sən razısın, səndən də razı qalıblar. Belə isə Mənim bəndələrimin arasına və behiştimə daxil ol."[4]

Qiyamət günü bə`zi insanlara olunan xitabı bəyan edərək buyurur:

---

1 "Ələq" surəsi, ayə-8.

2 "Şura" surəsi, ayə-53.

3 "İnfitar" surəsi, ayə-19.

4 "Fəcr" surəsi, ayə-27-30.

“Sən müşahidə etdiyin bu işlərdən qafil idin, indi pərdəni sənin gözünün qarşısından götürdük və nəticədə sənin gözün bu gün daha iti görür.”[1]

Qur`anın tə`vili barədə belə buyurulur:

“Qur`anı qəbul etməyən şəxslər onun tə`vilindən başqa bir şey gözləyirlərmi?! Onun tə`vili müşahidə olunan bir gündə əvvəllər onu unudan şəxslər belə deyəcəklər: Bizim Rəbbimizin peyğəmbərləri haqq olaraq gəlmişlər, görəsən bizim üçün şəfaət edəcək bir şəxs varmı ki, bizə şəfaət etsin, yaxud arxaya (dünyaya) qayıdaq və yerinə yetirdiyimiz əməllərdən başqa əməllər görək?!” Onlar öz nəfslərinə ziyan vurmuşlar və yaxdıqları iftiranı itirmişlər.”[2]

“Belə bir gündə Allah onların həqiqi mükafatlarını verər və onlar Allahın aşkar bir gerçəklik, pərdəsiz bir varlıq olduğunu görərlər.”[3]

“Ey insan, sən əzab-əziyyətlə öz Rəbbinə tərəf sə`ydəsən. Belə isə Onunla görüşəcəksən.”[4]

“Hər kəs Allahın görüşünə ümidvar olsa (bilsin ki,) Allahın görüş üçün müqəddər etdiyi vaxt gəlib çatacaqdır.”[5]

“Hər kəs öz Rəbbinin görüşünə ümidvar olsa gərək saleh əməl (yaxşı və bəyənilən iş) etsin və öz Allahına pərəstişdə heç kəsi şərik qoşmasın.”[1]

---

1 “Qaf” surəsi, ayə-22.

2 “Ə`raf” surəsi, ayə-53.

3 “Nur” surəsi, ayə-25.

4 “İnşiqaq” surəsi, ayə-6.

5 “Ənkəbut” surəsi, ayə-5.

"Ey xatircəm olmuş nəfs! Sənin Rəbbindən, Rəbbinin də səndən razı olduğun halda öz Rəbbinə doğru qayıt. Mənim bəndələrimin içinə və behiştimə daxil ol."[2]

Başqa bir ayədə buyurulur:

"Ən böyük müsibət gəlib çatdıqda insan özünün hər növ sə`ylərini xatırlayar, əzab üçün işıqlanan atəş aşkar olar (camaat iki qrupa bölünər). Tüğyan edərək dünyanı özlərinə həyat seçənlərə gəldikdə, həmin atəş onun yeridir. Amma hər kəs öz Rəbbinin məqamından qorxaraq nəfsini həvayi-nəfsdən, xoşagəlməz işlərdən çəkindirsə cənnət onun yeridir."[3]

Əməllərin cəzasnın necəliyi barədə isə belə buyurulur:

"Ey kafir olanlar! Üzr və bəhanə gətirməyin. Bu gün (Qiyamət günü) sizə verilən cəzalar yerinə yetirdikləriniz əməllərdir."[4]

## *YARADILIŞIN DAVAMI VƏ ARDICILLIĞI*

Müşahidə olunan bu yaradılış dünyasının ömrü sonsuz deyil və onun sona çatacağı bir gün vardır. Qur`ani-Kərim bu məsələni tə`kid edərək buyurur:

"Yerləri, göyləri və onların arasında olanları yalnız haqq və müəyyən olunmuş əcəl (adı qeyd olunan müəyyən və məhdud bir müddət) əsasında yaratdıq."[1]

---

1 "Kəhf" surəsi, ayə-110.

2 "Fəcr" surəsi, ayə- 27-30.

3 "Naziat" surəsi, ayə-34-41.

4 "Təhrim" surəsi, ayə-7.

Belə bir sual yaranır ki, hazırkı aləmin yaradılışından və insan nəslindən qabaq bir aləm də yaradılmış və onda da insan olmuşdurmu? Eləcə də, Qur`anın xəbər verdiyi kimi bu dünyada və onda olanların vaxtı qurtardıqdan sonra başqa bir dünya meydana gələcəkdirmi və yenə də insan yaradılacaqdırmı? Bu kimi sualların cavabını Qur`anda aşkar şəkilda tapmaq mümkün deyildir. Yalnız bu barədə bə`zi işarələr edilmişdir. Lakin Əhli-beyt imamlarından (ə) nəql olunan rəvayətlərdə bu suallara müsbət cavab verilmişdir.[2]

---

1 "Əhqaf" surəsi, ayə-3.

2 "Biharul-ənvar" (Kompani çapı), 14-cü cild, səh-79.

# 4. İMAMŞÜNASLIQ

## *İMAMIN MƏ`NASI*

İmam və rəhbər xalqın qarşısına düşərək onlara rəhbərlik edən, hər hansı bir ictimai yolda, siyasi məram və məqsəddə elmi və ya dini məslərləri öhdəsinə alan şəxsə deyilir. Əlbəttə, öz zəminəsi ilə mövcud rabitəsinə görə bu sahədə daha geniş və ya kiçik mə`na daşıyacaqdır.

Müqəddəs islam dini bəşəriyyətin ümumi həyatını nəzərə alaraq hər tərəfli göstərişlər vermişdir. Mə`nəvi həyat baxımından da bunları araşdırmış, insanlara yol göstərmiş, zahiri və fərdi həyatlar və onun necə idarə olunması, eləcə də ictimai həyat və ona rəhbərlik məsələsinə dair nəzərlər vermişdir.

Qeyd olunan yönlərə əsasən islam dinində ümmətə rəhbərlik məsələsi üç cəhətdən diqqət mərkəzində saxlanıla bilər: 1-İslami hökumət; 2-İslami hökm və maarifin bəyan olunması; 3-Mə`nəvi həyata doğru rəhbərlik.

Şiələrin inancına görə islam cəmiyyətində qeyd olunan üç cəhət zəruri olduğu kimi, həmin cəhətlərin idarə olunmasını və camaata rəhbərliyi öhdəsinə alan şəxsin varlığı da zəruridir və belə bir şəxs Allah və Onun Peyğəmbəri tərəfindən tə`yin olunmalıdır. Əlbəttə, Peyğəmbəri-Əkrəmin belə bir tə`yinatı də yalnız Allahın əmri ilə həyata keçir.

## *İMAMƏT, PEYĞƏMBƏRİN CANİŞİNLİYİ VƏ İSLAMİ HÖKUMƏT*

İnsan, Allahın ona verdiyi pak fitrətlə heç bir şəkk-şübhə olmadan dərk edir ki, bir ölkə, bir şəhər, bir kənd, bir qəbilə və hətta bir neçə insandan təşkil olunmuş bir evdə belə, mütəşəkkil cəmiyyət olduğu üçün həyat heç vaxt rəhbər və cəmiyyətin idarə işlərini öhdəsinə alan, hakimiyyətlə ayrı-ayrı fərdlərin idarə olunmasına nəzarət edən, cəmiyyətin hər bir üzvünü öz ictimai vəzifəsini yerinə yetirməyə vadar edən bir şəxs olmadan mümkün deyildir. Belə bir şəxs olmadan cəmiyyət öz həyatını davam etdirə bilməz və qısa vaxt ərzində cəmiyyət dağılar, hərc-mərcliyə düçar olar.

Buna görə də cəmiyyətin rəhbəri olan (istər cəmiyyət böyük olsun, istərsə də kiçik), eləcə də öz vəzifəsini yerinə yetirib cəmiyyətə diqqət yetirən şəxs müvəqqəti və ya həmişəlik olaraq işdən kənara çəkilsə, əlbəttə, öz yerinə bir canişin qoyacaq. O, heç vaxt öz hakimiyyətinin hüdudlarını başsız qoyaraq onun tənəzzülə uğramasına göz yuma bilməz.

Bir neçə günlük, yaxud bir neçə aylıq səfərə çıxaraq öz əhl-əyalı ilə vidalaşan bir ailə başçısı onlardan hər hansı birini (yaxud başqa bir şəxsi) öz yerinə canişin tə`yin edir, mənzilin idarə olunması işlərini ona həvalə edir. Öz əlinin altında bir neçə şagirdi, yaxud işçisi olan müəssisə rəisi, məktəb müdiri, yaxud dükan sahibi hətta bir neçə saat olmadıqda belə, onlardan hər hansı birini öz yerinə qoyur ki, başqaları ona müraciət etsinlər.

İslam dini də ilahi kitabın və Peyğəmbər sünnəsinin aşkar buyurduğuna görə fitrət əsasında qurulmuşdur; o ictimai bir dindir. Bunu həm onunla agah olanlar, həm də yad olanlar onun öz simasında müşahidə edib, Allah və Peyğəmbərin bu dinin ictimai yönlərinə yetirdiyi nəzərləri heç vaxt inkar edə bilməz. Həm də bu, başqa heç bir şeylə müqayisə olunası deyildir.

Peyğəmbəri-Əkrəm (s) də ictimai məsələləri islamın nüfuz etdiyi yerlərdə heç vaxt tərk etməmiş, müsəlmanların əlinə keçən hər hansı şəhər və ya kəndə elə ilk vaxtlar vali tə`yin edərək müsəlmanların idarə olunması işini ona həvalə edirdi. Hətta cihad meydanına göndərdiyi ordularda bə`zən müəyyən bir vəziyyətin əhəmiyyətini nəzərə alaraq, birdən artıq rəis və ya sərkərdəni ardıcıl olaraq onlara tə`yin edirdi. Hətta "Mutə" müharibəsində dörd sərkərdə tə`yin etmiş və buyurmuşdu ki, əgər birincisi öldürülsə ikincisi, ikincisi öldürülsə üçüncüsü, üçüncüsü öldürülsə dördüncüsü bu ardıcıllıqla qoşuna rəhbərlik etsinlər.

O həzrət canişinlik məsələsinə də tam diqqət yetirmiş və lazım olan hallarda canişin tə`yin etməyi unutmamışdır. O həzrət hər vaxt Mədinədən çıxsaydı öz yerinə bir vali tə`yin edərdi. Məkkədən Mədinəyə hicrət etdiyi və ondan hələ heç bir xəbər olmadığı vaxt özünün bir neçə günlük işlərini idarə etmək, ona tapşırılan əmanətləri sahiblərinə qaytarmaq üçün Əli (ə)-ı öz canişini seçirdi. Həmçinin vəfatından sonra da öz borclarını qaytarmaq və şəxsi işlərini yerinə yetirməyi bir canişin kimi Əli (ə)-a həvalə edirdi.

**Şiələr deyirlər:** Məhz buna görə də Peyğəmbərin (s), vəfat etdiyi zaman bir kəsi özünə canişin tə`yin etməməsi, müsəlmanların işlərinin idarə olunmasına bir rəhbər və islam cəmiyyətinin idarə olunmasına bir şəxsi müəyyənləşdirməməsi heç vaxt təsəvvür oluna bilməz. Amma cəmiyyətin yaranmasında hökmən bir sıra müştərək qayda-qanunların olması, cəmiyyətin əksəriyyətinin əməldə qəbul etdikləri müştərək qayda-qanunlara tabe olması, cəmiyyətin qalıb davam etməsi və onların icra olunmasının ədalətli bir hökumətə tam bağlı olması məsələsinə gəldikdə isə, heç vaxt insan fitrəti bu məsələlərin əhəmiyyət və dəyərində şəkk etməməlidir; bu iş heç bir şəxsə gizli deyildir. Halbuki nə islam şəriətinin diqqət və genişliyində şəkk etmək olar, nə də Peyğəmbərin (s) bu məsələyə verdiyi əhəmiyyət və dəyər barəsində. Həmçinin Peyğəmbəri-Əkrəmin (s) bu yolda göstərdiyi fədakarlıqları, yorulmaz sə`yləri unutmaq, qüdrətli tədbir və düzgün nəzəri, kamil əqli və dərin fikri barəsində münaqişə etmək olmaz (vəhy və nübuvvətin təsdiqindən əlavə).

Peyğəmbəri-Əkrəm (s) sünnü və şiələrin öz hədis kitablarında ("fitən" və başqa bölmələrdə) nəql etdikləri mütəvatir hədislərə əsasən öz vəfatından qabaq islam cəmiyyətinin düçar olacağı fitnə və çətinlikləri, islamın daxilinə nüfuz edəcək fəsadları, o cümlədən Mərvan övladları və sairlərin hökuməti ələ keçirib müqəddəs dinin napaklıqlara, zülmkarlıqlara çevirəcəyindən aşkar şəkildə xəbər vermişdi. O həzrət öz vəfatından minlərlə il sonra baş verəcək çətinliklərdən qafil olmayıb bu barədə xəbər verdiyi halda necə mümkün olar ki, vəfatından

sonra yaranacaq ilk və ən mühüm vəzifələrə göz yumsun?! Yaxud bu məsələyə səhlənkar yanaşaraq (bir tərəfdən) belə bir sadə, (digər tərəfdən isə) belə bir mühüm işə əhəmiyyət verməsin?! Yemək, içmək, yatmaq və s. kimi ən adi və ən təbii işlər barəsində yüzlərlə göstəriş verdiyi halda necə mümkün ola bilər ki, belə bir mühüm və dəyərli məsələ barəsində ümumiyyətlə sükut edərək öz yerinə heç kəsi tə`yin etməmiş olsun?!

Əgər qeyri-mümkün bir fərziyyəyə əsasən islam şəriətində cəmiyyətə rəhbər tə`yin edilməsi müsəlmanların özlərinə həvalə edilmiş olsaydı, onda yenə də Peyğəmbəri-Əkrəm (s) özünün şəfa bəxş edən bəyanları ilə bu barədə bir söz deməli, kifayət qədər göstəriş verməli idi ki, camaat əsas e`tibarı ilə islam cəmiyyətinin qalıb inkişaf etməsinə, dini şüarların canlı qalmasına səbəb olan bir məsələdə diqqətli olsunlar. Halbuki Peyğəmbərin (s) belə bir bəyanı və dinin göstərişi barədə heç bir xəbər yoxdur və əgər olsaydı belə, Peyğəmbərin (s) vəfatından sonra idarə işlərini öz əllərinə alanlar onunla müxalifət etməzdilər. Birinci xəlifə xilafəti ikinciyə vəsiyyət əsasında verdi, həmçinin dördüncü xəlifə öz övladına vəsiyyət etdi, ikinci xəlifə üzvlərini özü seçdiyi və məramnaməsini özü yazaraq tənzim etdiyi altı nəfərlik şura əsasında üçüncü xəlifəni hakimiyyətə gətirdi. Müaviyə imam Həsən (ə)-ı zorla sülhə vadar etdi və bu yolla da xilafəti ələ keçirdi, sonra da xilafəti irsi bir səltənətə çevirdi; tədricən cihad, əmr be mə`ruf və nəhy əz münkər, ilahi cəza qanunlarının bərqərar edilməsi və sair dini şüarlar biri digərindən sonra cəmiyyətdən götürüldü

və islam şəriət sahibinin göstərdiyi bu qədər sə`ylər qüvvədən düşdü.[1]

Şiələr bəşəriyyətin fitri idrakında və insanın əql əsasında olan ardıcıl davranışında dərin tədqiqat aparmaq və fitrəti dirçəldən islam dininin əsas nəzəriyyəsində, Peyğəmbəri-Əkrəm (s)-in ictimai davranışında təfəkkür etməklə, habelə onun vəfatından sonra baş verən acınacaqlı hadisələri, islam və müsəlmanların qarşılaşdıqları acınacaqlı hadisələri və hicrətin ilk illərində islam hakimlərinin səhlənkarlıqlarını araşdırdıqda bu nəticəyə gəlmişdir ki, Peyğəmbərdən (s) onun canişini və imamın tə`yin olunması barədə kifayət qədər və aşkar bəyanlar gəlmiş, qəti və mütəvatir ayələr və hədislər, o cümlədən "Vilayət" ayəsi və "Qədir-xum"[2]

---

1 İmamət, Peyğəmbərin (s) canişini və islam hökuməti ilə əlaqədar məsələlər barəsində əlavə mə`lumat almaq üçün aşağıdakı mö`təbər mənbələrə müraciət edə bilərsiniz: "Tarixi Yə`qubi", 2-ci cild, səh-26-61; "Sireyi İbni Hişam", 2-ci cild, səh-223-271; "Tarixi Əbil-fida", 1-ci cild, səh-126; "Ğayətul-məram", səh-664; "Müsnədi əhməd ibni Hənbəl" və sair kitablar.

2 Əmirəl-mö`minin Əliyyibni Əbitalib (ə)-ın vilayət və rəhbərliyini isbat etmək üçün çoxlu Qur`an ayələrinə istinad edilmişdir. O cümlədən aşağıdakı ayələri qeyd etmək olar: "Sizin vəli (rəhbər) və ixtiyar sahibiniz yalnız Allah, Onun Rəsulu və iman gətirib namaz qılan və rüku halında zəkat verən mö`minlərdir." ("Maidə" surəsi, ayə- 55.)

Sünnü və şiə müfəssirlərinin müttəfiq rə`ylərinə əsasən, bu ayə Əliyyibni Əbitalib (ə)-ın şə`nində nazil olmuşdur. Sünnü və şiələrdən nəql olunan çoxlu rəvayətlər də bu mətləbi təsdiq edir.

Əbuzər Ğifari deyir: Bir gün zöhr namazını Peyğəmbərlə birlikdə qıldıq. Bir sail (dilənçi) gəlib camaatdan kömək istədi, amma bir kəs ona kömək etmədi. O, əllərini göyə qaldırıb belə dedi: "Pərvərdigara, Sən Özün şahid ol ki, Peyğəmbər məscidində bir kəs mənə kömək etmədi." Bu zaman Əliyyibni Əbitalib rüku halında idi. Əlini dilənçiyə tərəf uzatdı ki, barmağındakı üzüyü çıxarıb aparsın. O da üzüyü çıxarıb getdi.

Bu hadisəni müşahidə edən Peyğəmbər başını göyə qaldırıb ərz etdi: Pərvərdigara, qardaşım Musa Sənə dedi: "İlahi, mənə şərhi-sədr əta et, işlərimi asanlaşdır və səlis danışan bir dil əta et ki, mənim sözlərimi başa düşsünlər, qardaşım Harunu da mənim vəzirim və köməkçim qərar ver." Ona belə bir vəhy nazil oldu: "Biz sənin qolunu qardaşının vasitəsi ilə qüvvətləndirəcəyik, sizə böyük nüfuz və təsəllüt əta edəcəyik." Pərvərdigara, mən də Sənin peyğəmbərinəm, mənə də şərhi-sədr (geniş ürək) əta et, işlərimi asanlaşdır, Əlini mənim vəzirim və arxam qərar ver."

Əbuzər deyir: Hələ Peyğəmbərin sözü sona çatmamışdı ki, ayə nazil oldu. ("Zəxairul-üqba" (Təbəri), Qahirə çapı, 1356-cı h.q. səh-16; Bu hədis azacıq fərqlə "Durrul-mənsur" kitabının 2-ci cildində, səh-293-də də nəql olunmuşdur. Bəhrani "Ğayətul-məram" kitabında, səh-103-də bu ayənin şə᾽ni-nüzulu barəsində sünnülərdən 24 rəvayət, şiələrdən 19 rəvayət nəql etmişdir.

Digər bir ayə- "Bu gün kafirlər İslamın məhv olacağından mə᾽yus oldular, belə isə artıq onlardan qorxmayın, amma Məndən qorxun. Bu gün sizin dininizi kamil etdim, Öz ne᾽mətimi sizə tamamladım, islamı sizin üçün bir din olaraq seçdim." ("Maidə" surəsi, ayə-3.)

Bu ayənin zahiri mə᾽nası budur ki, həmin ayənin nazil olmasından qabaq kafirlər ümidvar idilər ki, bir gün gəlib çatacaq, islam yığışılacaqdır. Lakin Allah müəyyən bir iş

görməklə onları həmişəlik olaraq islamı məhv etməkdən mə`yus etdi. Həmin iş də dinin əsasının möhkəmlənməsinə, kamilləşməsinə səbəb idi. Ona görə də hökmən müəyyən hökmlərin verilməsi kimi cüz`i bir işlərdən olmamalı, əksinə islamın əbədiliyinə zəmanət verən mühüm və diqqət yetirilməsi məsələ olmalı idi.

Zahirən bu ayə bu surənin axırında nazil olan aşağıdakı ayə ilə heç də əlaqəsiz deyildir:

«Ey Peyğəmbər! Sənə göstəriş verdiyimiz məsələni camaata təbliğ et. Əgər təlbiğ etməsən Allahın risalətini yerinə yetirməmisən. Allah səni, sənə gələ biləcək hər bir təhlükədən amanda saxlayacaq.» (Maidə 67).

Bu ayə göstərir ki, Allah-taala son dərəcə mühüm və diqqət yetirilməli bir məsələni çatdırır. Belə ki, əgər onu yetirməsə islamın əsası və risalətin əsası təhlükəyə düşəcəkdir. Lakin bu iş o qədər böyük əhəmiyyət kəsb edirdi ki, Peyğəmbər (s) camaatın müxalifətçilik edib maneçilik törətməsindən qorxurdu və münasib bir şərait yaranacağına qədər onu təxirə salırdı. Nəhayət Allah tərəfindən daha tə`kidli və təcili bir əmr verildi və buyuruldu ki, göstərişin yerinə yetirilməsində heç bir bəhanə gətirilməməli, heç bir kəsdən çəkinilməməlidir. Bu məsələ də ilahi hökmlər və əhkam qəbilindən deyildir. Çünki bir və ya bir neçə qanunun təbliğ olunması o qədər əhəmiyyətə malik deyildir ki, onun təbliğ olunmaması islamı məhv edə bilsin, eləcə də Peyğəmbər (s) həmin qanunlardan qorxsun.

Bu kimi mövcud şahidlər qeyd olunan ayələrin Qədir-xumda Əli (ə)-ın barəsində nazil olmasına dəlalət edən hədisləri dəstəkləyir. Sünni və şiə təfsirçilərindən çoxu da bu məsələni təsdiqləmişlər.

Əbu Səid Xidri deyir: Peyğəmbər (s) Qədir-Xumda camaatı Əliyə tərəf də`vət etdi və onun biləyindən tutub o qədər qaldırdı ki, qolunun altı göründü. Sonra bu ayə nazil oldu:

Sonra Peyğəmbər (s) buyurdu Əllahu Əkbər! Dinin kamil olması, ne`mətin tamamlanması, Allahın razılığı və Əlinin məndən sonrakı vilayəti!

Sonra buyurdu: «Mən hər kəsin mövlası və ixtiyar sahibi və işlərinin öhdədarıyamsa, Əli də onun ixtiyar sahibi və rəhbəridir. Pərvərdigara! Əlinin dostları ilə dost ol, düşmənləri ilə düşmən! Hər kəs Əliyə kömək etsə Sən də ona kömək et, hər kəs onu tərk etsə Sən də onu tərk et.»

Bəhrani «Ğayətul-məram» kitabının 336-cı səhifəsində sünnilərdən 6 hədis, şiələrdən isə 15 hədisi bu ayənin şə`ni-nüzulundan nəql etmişdir.

Bir sözlə islamın məhv olunması yolunda heç nəyi əsirgəməyən və hər bir tərəfdən mə`yus olan islam düşmənləri yalnız bir məsələyə gözlərini dikmişdilər. Onlar fikirləşirdilər ki, islamın qoruğçusu və keşikçisi Peyğəmbər (s) olduğundan, dünyadan getdikdən sonra başsız qalacaq və onun məhv olması labüd olacaqdır. Lakin Qədir-Xumda onların puç düşüncələri batil oldu və Peyğəmbər (s) Əli (ə)-ı islam ümmətinin rəhbəri kimi camaata tə`yin etdi. Əli (ə)-dan sonra da bu ağır və zəruri bir vəzifə Peyğəmbərin (s) Əli (ə)-ın nəslindən vücuda gələn Əhli-beytin öhdəsində olacaqdır. (Əlavə mə`lumat üçün «Əl-mizan» təfsirinin 5-ci cild, 177-214-cü və 6-cı cildin 64-cü səhifələrinə müraciət edin).

Qədir hədisi.

Peyğəmbər (s) həccətul-vidadan qayıdarkən Qədir-Xumda dayandı və müsəlmanları bir yerə topladı və bir xütbə oxuduqdan sonra Əlini müsəlmanların rəhbəri və vilayət məqamına tə`yin etdi.

Bərra deyir: Həccətul-vida səfərində Peyğəmbərin (s) hüzurunda idim. Qədir-Xuma çatdıqdan sonra göstəriş verdi ki, o yeri təmizləsinlər. Sonra Əlinin əlindən tutub onu sağ tərəfində qərar verdi və buyurdu: Mən sizin ixtiyar sahibiniz

deyiləmmi?! Dedilər: Bizim ixtiyarmız sizin əlinizdədir. Sonra buyurdu: «Mən hər kəsin mövlası və ixtiyar sahibiyəmsə, Əli də onun mövlası olacaqdır. Pərvərdigara, Əlinin dostları ilə dost, düşmənləri ilə düşmən ol.»

Sonra Ömər ibni Xəttab Əliyə dedi: Bu məqam sənə mübarək olsun mənim və bütün mö᾽minlərin mövlası oldun. (Əl-vilayətu vən-nihayə, 5-ci cild, səh-208 və 7-ci cild, səh-346; Zəxairul-uqba (Təbəri), Qahirə çapı, 1356-cı il, səh-67; Əl-fusulul mühimmə, 2-ci cild, səh-23; Əl-xəsais, Nəsai; Nəcəf çapı, 1369-cu h.q. səh-31.

Bəhrani «Ğayətul-məramın» 79-cu səhifəsində bu hədisin oxşarını sünnilərin yolu ilə 89 vasitə ilə və şiələrdən 43 vasitə ilə nəql etmişdir.

Səfinə hədisi.

İbni Abbas deyir: Peyğəmbər (s) belə buyurdu: «Mənim Əhli-beytimin məsələsi Nuhun gəmisinin məsələsi kimidir. Hər kəs ona minsə nicat tapar, hər kəs ondan ayrılsa qərq olar.» Zəxairul-uqba, səh-20; Əs-səvaiqul-muqriqə (İbni Həcər) Qahirə çapı, səh 84 və 150; Tarixul-xüləfa (Cəlaləddin Süyuti) səh-307; Nurul-əbsar (Şəblənci) Misir çapı, səh-114; Bəhraninin Ğayətul-məram kitabı, 237-ci səhifədə həmin hədisi sünnilərdən 11 yolla, şiələrdən 7 yolla nəql etmişdir.

Səqəleyn hədisi.

Zeyd ibni Ərqəm Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «Belə nəzərə gəlir ki, Allah məni Öz dərgahına də᾽vət etmişdir və Onun də᾽vətinə cavab verməliyəm. Lakin mən sizin aranızda iki ağır və böyük əmanəti qoyub gedirəm. Allahın kitabı və Əhli-beytim. Ehtiyatlı olun və görün onlarla necə rəftar edəcəksiniz. Bu iki ağır əmanət kövsər hovuzunda mənim yanıma gəlincə bir-birindən ayrılmazlar.» (Əl-bidayəti vən-nihayə, 5-ci cild, səh-209; Zəxairul-uqba, səh-16; Füsulul-mühimmə; səh-22, Xəsais, səh-30; Əs-səvaiqul muqriqə, səh-147;

Ğayətul-məram kitabında bu hədis sünnilərdən 39 və şiələrdən 82 yolla nəql edilmişdir.)

Səqəleyn hədisi çoxlu sənədlərlə və müxtəlif ifadələrlə rəvayət olunan qəti və danılmaz hədislərdəndir ki, sünni və şiələr onu etiraf edərək bu barədə fikir birliyindədirlər. Bu hədisdən və onun kimi hədislərdən bir neçə mühüm məsələ aydın olur:

1. Qur᾽an qiyamətə qədər camaatın arasında qaldığı kimi, Peyğəmbərin (s) Əhli-beyti də qiyamətə qədər qalacaqlar. Yəni hər bir zamanda imam və həqiqi rəhbər mövcud olmalıdır.

2. İslam Peyğəmbəri (s) bu iki böyük əmanətin vasitəsilə müsəlmanların bütün dini və elmi ehtiyaclarını tə᾽min etmiş, Əhli-beytini müsəlmanların elm və müraciət yeri kimi təqdim etmiş və onların sözlərini və əməllərini mö᾽təbər sanmışdı.

3. Qur᾽an və Əhli-beyt heç vaxt bir-birindən ayrılmamalıdır və heç bir müsəlmanın Əhli-beytin elmindən üz çevirərək özünü onların hidayətindən yayındırmağa haqqı yoxdur.

4. İnsanlar Əhli-beytə itaət edərək onların sözlərinə sarılsalar, heç vaxt yollarını itirməzlər və həmişə haqq yolda olarlar.

5. Camaatın dini ehtiyaclarının və lazım olan elmlərinin hamısı Əhli-beytin yanında mövcuddur və hər kəs onlara tabe olsa heç zəlalətə və azğınlığa düşməz, həqiqi xoşbəxtliyə və səadətə nail olar. Yəni Əhli-beyt xətadan və səhvdən uzaqdırlar. Məhz həmin şahidlərdən mə᾽lum olur ki, Əhli-beyt dedikdə məqsəd Peyğəmbərin (s) bütün qohum-əqrəbaları və övladları deyil, dini elmlər baxımından kamil olan, xəta və səhvdən pak olan müəyyən şəxslərdir ki, rəhbərlik səlahiyyətinə malik olsunlar. Onlar aşağıdakılardan ibarətdir.

Əli ibni Əbi Talib (ə) və onun on bir övladı; Onların hər biri imamət məqamını digərindən təhvil almışdır. Rəvayətlərdə də həmin mə᾽na təfsir olunmuşdur. Misal üçün: İbni Abbas deyir

ki, Peyğəmbərə dedim: Sevilməsi vacib olan qohum-əqrəban hansılardır? Buyurdu: Əli, Fatimə, Həsən və Hüseyn (Yənabiul məvəddət, səh-311).

Cabir deyir: Peyğəmbər (s) belə buyurdu: «Allah hər bir peyğəmbərin zürriyyəsini onun öz sülbündə qərar vermişdir, lakin mənim zürriyyəmi Əlinin sülbündə qərar vermişdir.» (Yənabiul məvəddət, səh-318).

Haqq hədisi.

Ümmi Sələmə deyir: Rəsuli-Əkrəmin belə buyurduğunu eşitdim: «Əli haqq və Qur᾽anladır, haqq və Qur᾽an da Əli ilə olacaqdır. Onlar kövsər hovuzunda gəlib mənə qovuşana qədər heç vaxt bir-birindən ayrılmazlar.» (Ğayətul-məramın 539-cü səhifəsində bu məzmunda 14 hədis sünnilərdən, 10 hədis isə şiələrdən nəql olunmuşdur.)

Mənzilət hədisi.

Sə᾽d ibni Vəqqas deyir: Rəsuli-Əkrəm (s) Əliyə buyurdu: Razı olmazmısanmı ki, səninlə mənim münasibətim Harunla Musanın münasibəti kimi olsun?! Yalnız bu fərqlə ki, məndən sonra peyğəmbər olmayacaq?! (Əl-bidayətu vən-nihayə, 7-ci cild, səh-339; Zəxairul-uqba, səh-63; Fusulil-mühimmə, səh-21; Kifayətu Talib, (Gənci Şafei) səh. 148-154; Xəsais, səh. 19-25; Səvaiq, səh-177; Ğayətul-məramın 109-cu səhifəsində sünnilərdən 100 hədis, şiələrdən isə 70 hədis nəql olunmuşdur.

Qohum əqrəbanın də᾽vət olunması hədisi.

Peyğəmbər (s) öz qohum-əqrəbalarını yeməyə də᾽vət etdi, qonaqlar yeyib qurtardıqdan sonra onlara buyurdu: «Mən elə bir şəxs tanımıram ki, mənim sizin üçün gətirdiyimdən daha yaxşı bir şeyi öz qövmü üçün gətirmiş olsun. Allah mənə göstəriş vermişdir ki, sizi Ona tərəf də᾽vət edim. Kim bu yolda mənə kömək edər və nəticədə mənim sizin aranızda qardaşım, vəsim və xəlifəm olar?

hədisi, “Səfinə” hədisi, “Səqəleyn” hədisi, “Həqq” hədisi, “Mənzilət” hədisi, ən yaxın qohumlarının də`vət olunması hədisi və sairlər bu məsələni tamamilə göstərir; lakin bunlar müəyyən şəxsi məqsədlərə görə başqa mə`naya yozulmuş və onların əsil mə`naları gizlədilmişdir.

---

Hamı sükut etdi, lakin Əli (ə) hələ yeniyetməlik bir dövründə olduğu zamanda ərz etdi: Mən sənin vəzirin və köməkçin olaram. Sonra Peyğəmbər (s) əlini onun çiyininə qoyub buyurdu: Bu mənim qardaşım, vəsim və xəlifəmdir. Ona itaət edin. Bundan sonra camaat gülə-gülə Əbu Talibə deyirdilər: Məhəmməd sənə əmr edir ki, oğluna itaət edəsən. (Tarixi Əbil Fida, 1-ci cild, səh-116).

Bu qəbildən olan hədislər çoxdur. O cümlədən Huzeyfə Peyğəmbərin (s) belə buyurduğunu deyir: «Əgər Əlini mənim xəlifəm və canişinim qərar versəniz – heç də güman etmirəm ki, belə bir işi edəsiniz – onu çox bəsirətli bir rəhbər kimi görəcəksiniz ki, sizi doğru yola vadar edər.» (Hilyətul-övliya, (Əbu Ləim) 1-ci cild, səh-64; Kifayətul Talib, Nəcəf çapı, 1356, səh-67).

İbni Mərdəveyh Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «Hər kəs həyat və ölümünün mənim kimi olmasını, behiştdə sakin olmasını istəyirsə məndən sonra Əlini sevsin və mənim Əhli-beytimə iqtida etsin; çünki onlar mənim itrətimdir... mənim elm və dərrakəm onlara nəsib olmuşdur. Belə isə vay olsun o kəslərin halına ki, onların fəzilətlərini təkzib edər, mənim şəfaətim belə şəxslərə çatmaz.» (Müntəxəbi Kənzül-ümmal (Əhmədin Müsnəd kitabının haşiyəsində çap olunub), 5-ci cild, səh-94)

## *BU SÖZLƏRİN BİR DAHA QÜVVƏTLƏNDİRİLMƏSİ*

Peyğəmbərin (s) xəstəliyinin son günləri idi. Səhabələrdən bir dəstəsi o həzrətin hüzurunda olduğu zaman buyurdu: "Mənim üçün kağız-qələm gətirin, sizin üçün elə bir şey yazım ki, məndən sonra (ona riayət etməklə) heç vaxt yolunuzu azmayasınız." Orada olanlardan bə`zisi dedi: "Bu kişi sayaqlayır, Allahın kitabı bizim üçün kifayətdir!!" Sonra orada səs-küy qopdu. Peyğəmbər (s) buyurdu: "Ayağa qalxın və mənim yanımdan çıxın! Peyğəmbərin (s) hüzurunda səs-küy qoparmaq olmaz."[1]

Keçən fəslin mətləblərini nəzərə almaqla, eləcə də bu hadisə zamanı Peyğəmbərin (s) qərarının əməli olaraq həyata keçməsinə mane olanlara diqqət yetirməklə mə`lum olur ki, elə bu işi törədənlər həmin günün sabahı xilafəti öz əllərinə keçirdilər. Xüsusilə birinci xəlifəni Əli (ə)-ın və onun yaxın adamlarının xəbəri olmadan seçib, onları artıq baş vermiş bir iş qarşısında qərar verdilər. Yuxarıdakı hədisdə Peyğəmbərin (s) həzrət Əlini (ə) özünə canişin tə`yin etməkdən başqa bir məqsədinin olduğunu güman etmək olarmı?

Peyğəmbərin (s) ətrafında olanların hay-küy qoparmaqda məqsədləri onun ciddi mə`nası (yə`ni

---

1 "Əl-bidayətu vən-nihayə", 5-ci cild, səh-277; "Nəhcül-bəlağənin şərhi" (İbni Əbil-hədid), 1-ci cild, səh-133; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh-217; "Tarixur-rusul vəl-muluk", (Təbəri), 2-ci cild, səh-436.

xəstəliyinin şiddətindən sayaqlaması) deyil, o həzrətin fikrini əsas məqsəddən yayındırmaq idi. Çünki **əvvəla:** Peyğəmbər (s) xəstəliyinin bütün dövrlərində hətta bir söz belə, yersiz danışmamış, heç kəs də belə bir şey nəql etməmişdi. Dini me`yarlara əsasən də müsəlmanların Allah tərəfindən günahdan amanda olan ilahi bir şəxsiyyətin sayaqlamasını deməyə haqları yoxdur.

**İkincisi,** əgər bu sözü deməkdə onun ciddi mə`nası nəzərdə alınsaydı, "Allahın kitabı bizə kifayətdir" cümləsi üçün heç bir əsas olmazdı və Peyğəmbərin (s) sözünün yersiz olmasını isbat etmək üçün onun xəstəliyinin şiddətlənməsini dəlil gətirmək əsasında olardı; "Qur`anın varlığı ilə Peyğəmbərin (s) sözünə ehtiyac yoxdur" sözü ilə yox; çünki Allahın kitabının Peyğəmbərə (s) itaət etməyi vacib bilməsi, onun sözlərinin Allah sözü olması və Qur`anın aşkar buyuruğu "camaatın Allahın və Peyğəmbərin hökmü müqabilində heç bir ixtiyarları yoxdur" kimi məsələlər heç bir səhabəyə gizli deyildi.

**Üçüncüsü**, bu hadisə birinci xəlifənin ölüm xəstəliyinə düşdüyü zaman da təkrar olundu və o, xilafəti ikinci xəlifəyə vəsiyyət etdi. Osman xəlifənin əmri ilə vəsiyyətnaməni yazarkən xəlifə huşdan getdi, amma ikinci xəlifə Peyğəmbərin (s) barəsində dediyi sözləri birinci xəlifənin barəsində təkrar etmədi.[1]

---

1 "Əl-kamil" (İbni Əsir), 2-ci cild, səh-292; "Nəhcül-bəlağənin şərhi" (İbni Əbil-hədid), 1-ci cild, səh-54.

Bunlardan əlavə İbni Abbasın nəql etdiyi hədisdə[1] ikinci xəlifə bu həqiqəti e`tiraf edərək deyirmiş: Mən başa düşdüm ki, Peyğəmbər (s) xilafəti yazılı şəkildə Əliyə vermək istəyir, lakin məsləhətə riayət edilməsi üçün bu məclisi qarışdırdım. (O deyir:) xilafət Əliyə məxsus idi.[2] Lakin əgər o xilafətə çatsaydı camaatı haqqa və düz yola də`vət edəcək və Qüreyş də bu işi qəbul etməyəcəkdi. Buna görə də onu xilafətdən kənarlaşdırdım.(!!!)

Dini me`yarlara əsasən haqdan çıxan adamlar haqqa vadar edilməlidir, nəinki qanun pozanın xatirinə haqq aradan aparılmalıdır. Birinci xəlifəyə müsəlman qəbilələrindən bir qrupunun zəkat verməkdən imtina etmək xəbəri verildikdə onlara qarşı müharibə əmri verərək dedi: "Əgər Peyğəmbərə verdikləri iqalı (zəkatı) mənə verməsələr mən onlarla müharibə edəcəyəm!"[3]

Əlbəttə, onun məqsədi bu idi ki, nəyin bahasına olursa-olsun, haqqı öz yerinə qaytarmaq lazımdır. Unutmaq olmaz ki, haqq xilafət məsələsi zəkatı ödəməkdən daha mühüm və daha dəyərli idi.

## *İLAHİ MAARİFİN İZAHINDA İMAMƏT*

Peyğəmbərşünaslıq bölmələrində aydın oldu ki, ümumi hidayətin zəruri və sabit qanunlarına uyğun

---

1 "Nəhcül-bəlağənin şərhi" (İbni Əbil-hədid), 1-ci cild, səh-134.

2 "Tarixi Yə`qubi", 2-ci cild, səh-137.

3 "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh-311.

olaraq, yaradılışın hər bir növü təkvin əsasında öz növünə məxsus olan xoşbəxtlik və kamala doğru hidayət olunub.

Yaradılış aləminin növlərindən biri olan insan da bu ümumi qanundan istisna deyildir; o, həqiqətgörənlik və ictimai təfəkkür yolu ilə öz həyatında xüsusi üslubla hidayət olunmalıdır ki, onun həm dünya, həm də axirət xoşbəxtliyi tə`min olunsun. Başqa sözlə desək, bir sıra əməli vəzifələri yerinə yetirməli və e`tiqadları dərk etməli, öz həyatını onlarla uyğunlaşdırmalıdır ki, özünün insani kamal və xoşbəxtliyini əldə edə bilsin. Deyildiyi kimi, din adlandırılan bu həyat proqramlarının dərk olunması əql yolu ilə deyil, vəhy və nübuvvət adlı başqa bir üsulladır ki, bəşəriyyətin bə`zi pak insanları olan peyğəmbərlərdə zahir olur.

Məhz peyğəmbərlər insani təklif və vəzifələri vəhy vasitəsilə Allah tərəfindən əldə edərək camaata çatdırırlar ki, onların həyatda icra olunması ilə xoşbəxtlikləri tə`min olunsun. Aydındır ki, bu dəlillə bəşər fərdləri arasında belə bir idrakın zəruri olması sübut edildiyi kimi, bu proqramların əsasını təhrifdən qoruyub saxlayan və camaata çatdıran bir şəxsin varlığının zərurəti də sübut olunur.

Allahın mərhəməti ilə müəyyən şəxslərin insani vəzifələri vəhy yolu ilə dərk edərək camaata öyrətmələri, eləcə də bu insani-asimani vəzifələrin həmişəlik olaraq insaniyyət üçün qorunub saxlanılması, lazım olan surətdə camaata öyrədilməsi üçün müəyyən şəxslərin varlığı lazımdır. Yə`ni cəmiyyətdə həmişə elə şəxslər olmalıdır ki, Allahın dini onların yanında qorunub saxlanılsın və lazım olduqda isə tətbiq edilsin.

Asimani dinin qorunub saxlanılmasını öhdəsinə alaraq Allah tərəfindən belə bir xüsusi vəzifəyə seçilən şəxs “imam” adlandırılır. Eləcə də vəhyin ruhunu və nübuvvət məqamını daşıyan, dini hökmləri və asimani şəriətləri Allah tərəfindən əxz etmək məqamında olan şəxs də “peyğəmbər” və “nəbi” adlandırılır. Nübuvvət və imamətin həm bir yerdə və bir şəxsdə, həm də ayrı-ayrı olması mümkündür. Yuxarıda qeyd olunan dəlillər peyğəmbərlərin günahsızlığını, günah qarşısında ismət məqamında olduğunu isbat etdiyi kimi, din rəhbərləri və mə`sum imamların da ismətini isbat edir. Çünki Allah tərəfindən həmişə həqiqi olan, təhrif edilməmiş, camaat arasında təbliğ olunmağa layiq olan bir din olmalıdır və bu məsələ Allah tərəfindən verilən ismət və toxunulmazlıq olmadan mümkün deyildir.

## *NƏBİ İLƏ İMAM ARASINDAKI FƏRQ*

Peyğəmbərlərin vasitəsilə asimani şəriətlər və hökmlərin əldə edilməsi barəsində olan dəlil onun həmişə davam etməsini deyil, yalnız vəhyin əslini, yə`ni asimani hökmlərin əldə edilməsini isbat edir. Amma onun qorunub saxlanması və davam etməsi təbii olaraq həmişə davamlı bir iş olmalıdır. Buradan da aydın olur ki, insanlar arasında peyğəmbərin həmişə mövcud olmasının zərurəti yoxdur, lakin asimani dinləri qoruyub saxlayan imam camaatın arasında həmişə olmalıdır; cəmiyyət heç vaxt imamsız qala bilməz. İstər onu tanısınlar, istərsə də tanımasınlar. Allah-taala Öz kitabında buyurur:

“Əgər kafirlər Bizim (heç vaxt qanun pozuntusu olmayan) hidayətimizə iman gətirməsələr, Biz elə bir qrupu ona vəkil etmişik ki, heç vaxt ona kafir olmazlar.”[1]

Qeyd olunduğu kimi imamət və nübuvvət bə`zən bir yerdə cəm olur və bir şəxs hər iki məqama - həm peyğəmbərlik məqamına, həm də imamlıq məqamına seçilir və bə`zən də bir-birindən ayrılır. Belə ki, peyğəmbərlərin olmadığı hər bir əsrdə haqq olan imam mövcuddur. Aydındır ki, ilahi peyğəmbərlərin sayı məhdud olmuşdur və onlar bütün dövrlərdə yaşamamışlar.

Allah-taala Öz kitabında peyğəmbərlərdən bə`zisinin imamət məqamında olduğunu bəyan edir. Belə ki, İbrahim (ə)-ın barəsində buyurur:

“O zaman ki, Allah İbrahimi kəlmələrlə imtahan etdi, sonra onları tamamladı və axıra çatdırdıqda Allah buyurdu: “Mən səni camaata imam və rəhbər tə`yin etdim.” İbrahim dedi: “Mənim övladlarımdan da?!” Buyurdu: “Mənim əhd və fərmanım zalımlara çatmaz.”[2]

Başqa bir ayədə isə buyurulur:

“Biz onları Bizim əmrimizlə hidayət edən rəhbərlər, imamlar qərar verdik.”[3]

---

1 “Ən`am” surəsi, ayə-89.

2 “Bəqərə” surəsi, ayə-124.

3 “Ənbiya” surəsi, ayə-73.

# *ƏMƏLLƏRİN BATİNİNDƏ İMAMƏT*

İmam insanların zahiri əməlləri ilə əlaqədar rəhbər və yol göstərən olduğu kimi, onların batinində də rəhbərlik məqamına malikdir və o insaniyyət karvanının başında duraraq batin yolu ilə insanları Allaha doğru yüksəldir. Bu həqiqətin aşkar olması üçün iki müqəddiməyə diqqət yetirmək lazımdır:

1. Şübhəsiz, həm islamın, həm də sair dinlərin nəzərinə görə insanın həqiqi və əbədi xoşbəxtliyinin, yaxud bədbəxtliyinin səbəbi və amili onun yaxşı və pis əməlləridir ki, asimani din yolları ona tə\`lim verir. İnsan Allahın ona verdiyi fitrət vasitəsilə də bu işlərin yaxşı və ya pis olduğunu dərk edir.

Allah-taala vəhy və nübuvvət yolu ilə bu əməlləri insanların təfəkkür səviyyəsinə uyğun, həmçinin özümüzün ictimai dilimizlə əmr, nəhy (qadağan), təhsin (tə\`rif) və təqdih (qəbahətli bilmə) yolu ilə bəyan edir; itaət etmək, yaxud itaətsizlik müqabilində yaxşı əməl sahiblərinə və itaət edənlərə bütün insani kamal və istəklərin hamısını əhatə edən şirin və əbədi həyat müjdəsi verir, zalımlar və yaramaz əməl sahibləri üçün hər növ bədbəxtçilik və nakamlıqla yanaşı olan acı əbədi həyatı xəbər vermişdir.

Şübhəsiz, hər bir cəhətdən təsəvvür səviyyəmizdən çox-çox yüksəkdə dayanan Allah-taala bizim kimi ictimai təfəkkürə malik deyil və ağalıq-nökərlik, sahibkar-fəhlə, əmr, nəhy, muzd və mükafat kimi e\`tibari və şərti işlər bizim ictimai həyatımızdan kənarda mövcud deyildir; ilahi nəzm də Onun yaratdıqlarıdır ki, onda hər bir

varlığın yaradılışı həqiqi rabitələr və bağlılıqlar əsasındadır.[1]

Peyğəmbəri-Əkrəmin (s) bəyanlarında qeyd olunduğu kimi din bizim adi düşüncə səviyyəmizdən qat-qat yüksəkdə olan həqiqət və maarifləri əhatə edir. Belə ki, Allah-taala təfəkkür səviyyəmizə uyğun olan bəyan və bizim üçün dərk olunası bir din nazil etmişdir.

Buradan belə bir nəticə alınır ki, yaxşı və pis əməllərin əbədiyyət dünyasında olan həyat və onun xüsusiyyətləri ilə həqiqi bir rabitəsi vardır ki, gələcək həyatın yaxşı və ya xoşagəlməz olması bu əməllərin nəticəsidir.

Başqa sözlə desək, yaxşı və pis əməldən hər biri insanın batinində elə gerçəkliklər yaradır ki, onun gələcək həyatı məhz bunlardan asılıdır.

İnsan başa düşsə də, düşməsə də eynilə tərbiyə olunan uşağa bənzəyir. Belə ki, o müəllimin "bunu et, onu etmə" deyə verdiyi göstərişlərdən başqa bir şey eşitmir, yerinə yetirdiyi işlərin zahirindən başqa bir şey başa düşmür. Lakin böyüdükdən və tə`lim-tərbiyə dövrünü keçirdikdən sonra öz batinində yaratdığı dəyərli ruhi səciyyələr vasitəsilə cəmiyyətdə xoşbəxt həyata malik olacaqdır; müəllimin xoşməramla verdiyi göstərişlərdən imtina edərsə, bədbəxtliklərdən başqa bir şey əldə etməyəcəkdir.

---

[1] Qur`ani-Kərimdən nümunə olaraq aşağıdakı ayəni qeyd edirik:

"Bu aşkar kitaba and olsun! Biz Qur`anı ərəbcə qərar verdik ki, bəlkə ağlınızı işə salasınız və bu Qur`an Bizim yanımızda Ümmül-kitabda ali və hikmətlidir." "Zuxruf" surəsi, ayə-4.

Başqa bir misalla, həkimin göstərişləri ilə müəyyən müddət dava-darman içən, daim idmanla məşğul olan bir xəstəyə bənzəyir; onun, bu halda həkimin göstərişlərini icra etməkdən başqa bir işi yoxdur. Lakin bu göstərişlərin nəticəsində onun orqanizmində xüsusi halət və normallıq meydana gəlir ki, bu da onun sağlamlıq və xoşbəxtliyinin səbəbi və mənşəyi olur.

Bir sözlə, insan bu zahiri həyatın batinində başqa bir batini (mə`nəvi) həyata da malikdir ki, bu da onun əməllərindən qaynaqlanır, inkişaf edir. Axirət aləmində onun bədbəxtlik və ya xoşbəxtliyinin bu əməllərlə tam əlaqəsi vardır.

Qur`an bu əqli bəyanı təsdiq edir və bir çox ayələrdə[1] yaxşı əməl və iman sahibləri üçün bu həyatdan daha yüksəkdə olan bir həyat, bu ruhdan daha aydın olan bir

---

[1] Misal üçün bu ayələri qeyd etmək olar:

"Bütün nəfslər qiyamətdə şahid və mə`murla dirilib gələcəklər. (Və onlara deyiləcək:) Sən bu həyatda qafil idin, Biz qəflət pərdələrini sənin gözündən götürdük, indi sənin gözün daha iti olmuşdur." ("Qaf" surəsi, ayə-21.)

"Hər kəs mö`min olan halda yaxşı bir iş görsə, Biz onu pakizə və yaxşı bir həyatla dirildərik." ("Nəhl" surəsi, ayə-97.)

"Allah və Onun Rəsulu sizi, sizi dirildən bir şeyə də`vət etdiyi zaman ona müsbət cavab verin." ("Ənfal" surəsi, ayə-24.)

"Elə bir gün ki, o gündə hər kəs gördüyü yaxşı və pis işi öz yanında hazır görər." ("Ali-İmran" surəsi, ayə-30.)

"Həqiqətən Biz ölüləri dirildəcəyik, onların əməl və əsərlərini qeyd edəcəyik və hər bir şeyi İmami Mübində saymışıq." ("Yasin" surəsi, ayə-12.)

ruh olduğunu isbat edir və əməllərin batini nəticələrinin daimi olaraq insanla yanaşı olduğunu deyir.

Peyğəmbər hədislərində də bu məsələyə çoxlu işarələr edilmişdir.[1]

2. Bir çox hallarda bizim hər hansı birimiz öz dediyinə əməl etməsə belə, kimi isə yaxşı və ya pis işlərə doğru hidayət edir. Lakin hidayət və rəhbərlikləri Allahın əmri ilə olan peyğəmbərlər və imamlarda belə bir hal heç vaxt müşahidə olunmaz; onlar hidayət etdikləri və rəhbərliyini öhdələrinə aldıqları dinə özləri də əməl edir, camaatı mə`nəvi həyata doğru sövq etdikləri halda özləri də mə`nəvi həyata malikdirlər. Çünki Allah Özü bir kəsi hidayət etməsə başqalarının da hidayətini ona həvalə etməz, Allahın xüsusi hidayətində heç vaxt qanun pozuntusuna imkan verilməz. Bu bəyanlardan aşağıdakı nəticələri almaq olar:

1. Hər bir ümmətin peyğəmbər və imamı mə`nəvi həyat kamalında ən yüksək məqama malikdirlər; onlar insanları həmin həyata doğru də`vət edir və öz də`vətlərinə lazımi və kifayət qədər əməl edib mə`nəvi həyata malik olurlar.

2. Onlar bu yolun ilkin şəxsiyyətləri hesab olunurlar; rəhbər və başçı olduqlarından hamıdan üstün və fəzilətli sayılırlar.

3. Allahın əmri ilə hər hansı bir ümmətin rəhbərliyini əlinə alan şəxs zahiri əməllər mərhələsində rəhbər və yol

---

[1] "Biharul-ənvar", 17-ci cild, səh-9; "Vafi" (Feyz), 3-cü hissə, səh-33.

göstərən olduğu kimi, mə`nəvi həyat mərhələsində də rəhbərdir; əməllərin həqiqəti də onun rəhbərliyi ilədir.[1]

## *İSLAM İMAMLARI VƏ RƏHBƏRLƏRİ*

Keçən bəhslərdən nəticə aldığımız kimi, Peyğəmbərin (s) vəfatından sonra islam ümməti arasında hökmən Allah tərəfindən tə`yin olunan bir imam olmuş və olacaqdır. Peyğəmbərdən (s) nəql olunan bir çox hədislərdə onların xüsusiyyətləri bəyan edilmiş, sayları da göstərilmiş və buyurulmuşdur ki, onların hamısı Qüreyşdən və Peyğəmbərin (s) Əhli-beytindəndir;[2] onların axırıncısı və`dəsi verilən Məhdi Sahibəzzamandır.[1]

---

1 "Biz onları imam qərar verdik ki, Bizim əmrimiz vasitəsilə camaatı hidayət etsinlər; və yaxşı işlər görməyi onlara vəhy etdik." "Ənbiya" surəsi, ayə-73.

"Biz onların bə`zisini səbr etdiklərinə görə imam qərar verdik ki, camaatı Bizim əmrimizlə hidayət edirlər." "Səcdə" surəsi, ayə-34.

Bu kimi ayələrdən mə`lum olur ki, imam zahiri hidayət və yolgöstərməkdən əlavə, bir növ mə`nəvi cazibə və hidayətə də malikdir və bu da əmr və təcərrüd növündəndir. Onlar zatlarının həqiqət, nuraniyyət və batinləri ilə insanlar arasında layiqli olanların qəlblərinə tə`sir edir və onları kamal mərhələsinə doğru hidayət edirlər.

2 Nümunə üçün:

Cabir ibni Səmrət nəql edir ki, Rəsuli-Əkrəmin (s) belə buyurduğunu eşitdim: "Bu din 12 xəlifənin vasitəsi ilə həmişə əziz olacaqdır." Camaat təkbir dedi, sonra Peyğəmbər (s) astadan bir söz dedi mən onu eşdə bilmədim. Atamdan soruşdum ki, həzrət nə buyurdu. Atam cavab verib dedi:

Peyğəmbər (s) birinci imam olan Əli (ə)-ın imamətini aşkar şəkildə buyurmuşdur.

Həmçinin Peyğəmbərdən (s) və Əli (ə)-dan ikinci imamın imamətinə dair aşkar şəkildə göstəriş verilmişdir. Hər bir imam özündən sonrakı imamın imamətinə dair aşkar göstəriş vermişdir.

Bu hədislərin aşkar şəkildə buyurduğuna əsasən islam imamları 12 nəfərdən ibarətdir və onların müqəddəs adları aşağıdakı tərtiblədir:

1. Əli ibni Əbi Talib (əleyhissalam);
2. Həsən ibni Əli (əleyhissalam);

---

"Peyğəmbər (s) buyurur ki, onların hamısı Qüreyşdəndir." "Səhihi Əbi Davud", 2-ci cild, səh-207; "Müsnədi Əhməd", 5-ci cild, səh-92 və bu məzmunda digər hədisləri də qeyd etmək olar.

Salman Farsi deyir ki, Peyğəbərin (s) yanına getmişdim. Hüseyn onun qucağında idi. Peyğəmbər onun gözlərini və ağzını öpür və deyirdi: "Sən seyyid olğu seyyidsən, sən imam oğlu imamsan, sən höccət oğlu höccətsən, sən doqquz höccətin atasısan ki, doqquzuncusu onların qaimidir." "Yənabiul-məvəddət", Süleyman ibni İbrahim Qənduzi, yeddinci çap, səh-308.

[1] Bax: "Əl-qədir" (Əllamə Əmini), "Ğayətul-məram" (Seyyid Haşim Bəhrani), "İsbatul-hudat" (Məhəmməd ibni Həsən Hürr Amili), "Zəxairul-uqba" (Muhibbuddin Əhməd ibni Əbdillah Təbəri), "Mənaqib" (Xarəzmi), "Təzkirətul-xəvass" (Sibt ibni Covzi), "Yənabiul-məvəddət" (Süleyman İbrahim Hənəfi), "Fusulul-muhimmə" (İbni Səbbağ), "Dəlailul-imamət" (Məhəmməd ibni Cərir Təbəri), "Ən-nəssu vəl-ictihad" (Seyyid Şərəfuddin Musəvi), "Üsuli Kafi" (Məhəmməd ibni Yə`qub Kuleyni), "Əl-irşad" (Şeyx Mufid).

3. Hüseyn ibni Əli (əleyhissalam);
4. Əli ibni Hüseyn (əleyhissalam);
5. Məhəmməd ibni Əli (əleyhissalam);
6. Cə`fər ibni Məhəmməd (əleyhissalam);
7. Musa ibni Cə`fər (əleyhissalam);
8. Əli ibni Musa (əleyhissalam);
9. Məhəmməd ibni Əli (əleyhissalam);
10. Əli ibni Məhəmməd (əleyhissalam);
11. Həsən ibni Əli (əleyhissalam);
12. Həzrəti Məhdi (əleyhissalam).

# ON İKİ İMAMIN TƏRCÜMEYİ-HALI

(İxtisarla)

## *BİRİNCİ İMAM*

Birinci imam həzrət **Əmirəl-mö`minin Əliyyibni Əbi Talib (ə)-dır**. O, Bəni-haşimin ağsaqqalı və Peyğəmbərin (s) əmisi Əbu Talibin oğludur; Əbu Talib, Peyğəmbəri (s) öz himayəsinə götürmüş, öz evində saxlayaraq böyütmüş və be`sətdən sonrakı illərdə də o həzrəti himayə edərək ərəb kafirlərinin, xüsusilə Qüreyşin təzyiq və tə`qiblərindən qorumuşdur.

Əli (ə) (məşhur nəzəriyyəyə əsasən) be`sətdən on il qabaq dünyaya gəlmiş və altı aydan sonra Məkkədə və onun ətrafında baş verən qəhətlik nəticəsində Peyğəmbərin (s) xahişi ilə atasının evindən öz evinə gətirərək özü birbaşa onun tə`lim-tərbiyə işi ilə məşğul olmuşdur.[1]

Bir neçə ildən sonra Peyğəmbər (s) nübuvvət məqamına çatdıqdan, ilk dəfə olaraq Həra mağarasında asimani vəhy nazil olduqdan sonra mağaradan çıxıb öz evinə yola düşdükdə başına gələn əhvalatları həzrət Əliyə (ə) danışmış və o da iman gətirmişdir.[2]

---

1 "Fusulul-mühimmə" (ikinci çap), səh-14; "Mənaqib" (Xarəzmi), səh-17

2 "Zəxairul-uqba" (Qahirə çapı, 1356-cı h.q.), səh-58; "Mənaqib" (Xarəzmi, Nəcəf çapı, 1385-ci h.q), səh-16-22; "Yənabiul-məvəddət" (yeddinci çap), səh-68-72.

Peyğəmbər (s) öz qohum-əqrəbalarını öz dininə də`vət ediyi zaman buyurmuşdur: *"Sizdən mənim də`vətimi qəbul edən ilk şəxs mənim xəlifəm, vəsim və vəzirim olacaqdır."* Bu zaman yerindən qalxan yeganə şəxs həzrət Əli oldu. Peyğəmbər (s) də onun imanını qəbul edərək onun barəsində verdiyi və`dələrə əməl etdi.[1]

Buna görə də Əli (ə) islama iman gətirən, heç vaxt Allahdan başqasına sitayiş etməyən ilk şəxsdir.

Əli (ə) həmişə Peyğəmbərin (s) yanında olardı. O həzrət Məkkədən Mədinəyə hicrət edəndə, kafirlərin o həzrətin evini mühasirə aldığı və gecənin axırında qəfildən evinə daxil olaraq onu qətlə yetirməyi, yatağında tikə-tikə doğramağı qərara aldıqları hicrət gecəsində Əli (ə) onun yatağında yatdı və o həzrət evdən çıxıb Mədinəyə yollandı.[2]

O həzrətdən sonra onun vəsiyyətlərinə uyğun olaraq camaatın əmanətlərini sahiblərinə qaytardı, öz anası, Peyğəmbərin (s) qızı və digər iki qadınla birlikdə Mədinəyə hərəkət etdi.[3] Mədinədə də həmişə Peyğəmbərlə (s) yanaşı idi və o həzrət heç bir halda - nə xəlvətdə və nə də aşkarda Əli (ə)-ı gözündən uzağa qoymurdu; öz yeganə və sevimli qızı Fatimeyi-Zəhranı ona ərə verdi.

---

1 "İrşad" (Şeyx Müfid, Tehran çapı, 1377-ci h.q), səh-4; "Yənabiul-məvəddət", səh-122.

2 "Fusulul-mühimmə", səh-28-30; "Təzkirə-tul-xəvass" (Nəcəf çapı, 1383-cü h.q), səh-34; "Yənabiul-məvəddət", səh-105; "Mənaqib" (Xarəzmi), səh-73-74

3 "Fusulul-mühimmə", səh-34.

Peyğəmbər (s) səhabələr arasında qardaşlıq əqdi oxuyan zaman Əli (ə)-ı özünə qardaş seçdi.[1] Əli (ə) Peyğəmbərin (s) iştirak etdiyi bütün müharibələrdə ön cəbhədə vuruşmuşdur. Yalnız Təbuk müharibəsində Peyğəmbər (s) onu Mədinədə öz yerinə canişin tə`yin edib getmişdir.[2]

O həzrət heç bir müharibədə meydandan qaçmamış, heç bir güclü pəhləvanın qarşısında aciz qalmamış və heç bir işdə Peyğəmbərlə (s) müxalifətçilik etməmişdir. Belə ki, həzrət Peyğəmbər (s) onun barəsində belə buyurur: *"Heç vaxt haqq Əlidən, Əli də Haqdan ayrılmaz."*[3]

Peyğəmbər (s) vəfat edərkən Əli (ə)-ın 33 yaşı var idi. O, bütün dini fəzilətlərdə hamıdan üstün, Peyğəmbər (s.ə.v.v) səhabələri arasında ən çox imtiyaza malik olmasına baxmayaraq cavan olduğu, müharibələrdə Peyğəmbər (s.ə.v.v)-in önündə çoxlu kafir qanları axıtması və camaatın onunla düşmən olduğu bəhanə edilərək xilafətdən kənarlaşdırıldı; bununla da o həzrət müsəlmanların ümumi işindən tamamilə kənarda qaldı. Bu müddət ərzində evdə oturub müəyyən şəxslərin tə`lim-tərbiyə işləri və həqiqi islam ruhunda maarifləndirmə məsələsi ilə məşğul oldu. Bu minvalla

---

1 "Fusulul-mühimmə", səh-20; "Təzkirətul-xəvass", səh-20-24; "Yənabiul-məvəd-dət", səh-63-65.

2 "Təzkirətul-xəvass", səh-18; "Fusulul-mühimmə", səh-21; "Mənaqib" (Xarəzmi), səh-74.

3 "Mənaqibu Ali Əbitalib" (Məhəmməd ibni Əli ibni Şəhraşub, Qum çapı), 3-cü cild, səh-62 və 218; "Ğayətul-məram", səh-539; "Yənabiul-məvəddət", səh-104.

Peyğəmbərin (s) vəfatından sonra üç xəlifənin xilafəti dövranını başa vurdu və üçüncü xəlifənin qətlindən sonra camaat o həzrətə bey`ət edərək xilafətə seçdilər.

Həzrət Əli (ə) özünün 4 il 9 ay davam edən xilafəti dövründə Peyğəmbərin (s) sirəsinə, rəftar və davranışlarına əməl etdi, öz xilafətinə inqilabi bir rəng verdi və cəmiyyətdə əsaslı islahat işləri apardı. Əlbəttə, bu islahatlar bə`zi sövdəgərlərin ziyanına tamam olduğuna görə də önlərində Ayişə, Təlhə, Zübeyr və Müaviyə olmaqla, səhabələrdən bir qrupu üçüncü xəlifənin intiqamını bəhanə edərək müxalifətçiliyə başladılar və islam ölkəsində iğtişaş yaratdılar.

O həzrət yaradılan bu fitnəni söndürmək üçün Bəsrə yaxınlığında Ayişə, Təlhə və Zübeyrin başladığı silahlı qiyamı yatızdırdı və bu zaman tarixdə məşhur olan Cəməl müharibəsi baş verdi. Sonrakı müharibə – Siffeyn müharibəsi də İraq, Şam sərhədlərində Müaviyə ilə baş verdi və bir il yarım davam etdi. Digər bir müharibə isə xəvariclə baş verdi və Nəhrəvan adlandırıldı. Buna görə də o həzrətin öz xilafəti dövründəki əsas sə`yləri daxili ixtilafların aradan qaldırılmasına, iğtişaşların yatırılmasına sərf olundu və qısa müddətdən sonra 40-cı hicri ilinin Ramazan ayının 19-da sübh çağı Kufə məscidində namaz üstündə xəvaric firqəsindən olan ibni Mülcəm tərəfindən zərbətlənərək həmin ayın 21-də şəhid oldu.[1]

---

1 "Mənaqibu Ali Əbitalib", 3-cü cild, səh-312; "Fusulul-mühimmə", səh-113-123; "Təzkirətul-xəvass", səh-172-183.

Tarixi mə`lumatlara əsasən, Əmirəl-mö`minin Əliyyibni Əbi Talib (ə) bütün insani kamallara malik idi və heç bir nöqsanı yox idi; islami fəzilətlərdə Peyğəmbərin (s) yetirməsinin kamil nümunəsi idi.

O həzrətin şəxsiyyəti ətrafında aparılan tədqiqatlar, sünnü və şiə alimləri tərəfindən yazılan kitablar tarix boyu heç bir şəxsiyyət barəsində edilməmişdir. Əli (ə) elm və bilikdə Peyğəmbər (s) səhabələrinin və sair islam əhlinin ən biliklisi idi. O, islamda ilk dəfə olaraq öz elmi bəyanları ilə bürhan və istidlal qapısını açdı, ilahi maarifdə fəlsəfi bəhsləri işıqlandırdı, Qur`anın batini mə`nalarından danışdı, Qur`anın zahirinin qorunub saxlanılması üçün ərəb qrammatikasını yaratdı. O, xitabət kürsüsündə ən qüdrətli bəyana malik olan şəxsiyyət idi.

Əli (ə)-ın şücaəti dillər əzbəri idi. Həm Peyğəmbərin (s) dövründə, həm də ondan sonra baş verən müharibələrdə heç vaxt qorxmamış, əsla iztirab hissi keçirməmişdi. Ühüd, Hüneyn, Xeybər və Xəndək müharibələrində Peyğəmbərin (s) dostları və səhabələrinin dəfələrlə qorxuya düşdüyü ağır şəraitlərdə, yaxud qaçıb dağılışdıqları vaxt o, heç vaxt düşmənə arxa çevirməmiş, onunla döyüşməyə gələn ərəb qəhrəmanları və şücaətli pəhləvanlar heç vaxt onun əlindən sağ qurtara bilməmişdir. Bununla yanaşı qüdrətin son nöqtəsində olduğu vaxt zəifləri öldürmür, qaçanları tə`qib etmir, qəfil hücum etmir, suyu düşmənin üzünə bağlamırdı. Tarixdə qeyd olunur ki, o həzrət Xeybər müharibəsində qalaya

hücum edərək onun qapısının halqasından yapışmış və bir təkanla o qapını çıxarıb yerə atmışdı.[1]

Həmçinin Məkkə fəth olunan gün Peyğəmbər (s) bütləri sındırmağı əmr edəndə Əli (ə) Məkkənin ən böyük bütü sayılan və zahiri baxımdan da ən böyük büt olan, Kə`bənin yuxarı başından asılan Hübəli məhz Peyğəmbərin (s) əmri ilə onun çiyninə çıxaraq yerindən çıxarıb yerə saldı.[2]

Əli (ə) dini təqva və haqqa ibadət baxımından da yeganə şəxsiyyət idi. Peyğəmbər (s) onun yanına gələrək Əli (ə)-ın bə`zi xüsusiyyətlərindən gileylənən şəxslərin cavabında buyururdu: *"Əlini məzəmmət etməyin, çünki o Allah aşiqidir!"*[3]

Əbu Dərda adlı bir səhabə gecələrin birində o həzrəti Mədinənin xurma bağlarında necə ah-zar edərək Allah qorxusundan öldüyünü zənn etmişdi; dərhal o həzrətin evinə gəlmiş və Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhraya ərinin vəfatı münasibəti ilə başsağlığı vermişdi. Bu zaman Peyğəmbərin (s) qızı buyurdu: *"Mənim əmioğlum ölməmişdir, o, ibadətdə Allah qorxusundan qəşş etmişdir. Bu hal onun üçün çox baş verir."*

Əli (ə) öz hakimiyyəti altında yaşayan insanlarla mehriban rəftar edir, fəqirlərə nəvaziş edib can yandırır, onlara ehsan və bəxşiş etməyə çox diqqət yetirirdi. Əlinə düşən hər bir şeyi Allah yolunda kasıblara və fəqirlərə

---

1 "Təzkirətul-xəvass", səh-27.

2 "Təzkirətul-xəvass", səh-27; "Mənaqib" (Xarəzmi), səh-71.

3 "Mənaqibu Ali Əbi Talib", 3-cü cild, səh-221; "Mənaqib" (Xarəzmi), səh-92.

verir, özü isə ən çətin şəraitdə və sadə vəziyyətdə yaşayırdı. O həzrət əkinçiliyi sevir, əksər hallarda kəhriz,quyu və bulaqlar qazır, ağac əkir, torpaq sahələrini abadlaşdırırdı. Bu yolla abad etdiyi hər bir mülkü, qazdığı hər bir kəhrizi fəqirlərə vəqf edirdi. "Əlinin sədəqələri" adı ilə məşhur olan vəqfləri ömrünün axırlarında çox böyük məbləğdə qazanca malik idi (24 min dinar qızıl pul dəyərində qeyd olunmuşdur).[1]

## *İKİNCİ İMAM*

**İkinci imam Həsən Müctəba (ə)-dır.** İmam Həsən və imam Hüseyn (ə) Əli (ə)-la Peyğəmbərin (s) qızı Fatimənin övladları idilər. Peyğəmbər (s) dəfələrlə buyurmuşdur: *"Həsən və Hüseyn mənim övladlarımdır."* Buna görə də Əli (ə) özünün başqa övladlarına buyururdu: *"Siz mənim övladlarımsınız, Həsən və Hüseyn isə Peyğəmbərin (s) övladlarıdır."*[2]

Həzrət imam Həsən (ə) hicrətin 2-ci ilində Mədinədə doğulmuşdur.[3] O, 7 ildən bir qədər artıq Peyğəmbəri (s) görmüş və onun mehriban ağuşunda böyümüşdür. Anası da Peyğəmbərin (s) vəfatından sonra üç, yaxud altı aydan

---

1 "Nəhcül-bəlağə", 3-cü hissə.

2 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-21 və 25; "Zəxairul-uqba", səh-67 və 121

3 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-28; "Dəlailul-imamət" (Məhəmməd ibni Cərir Təbəri, Nəcəf çapı, 1369-cu h.q), səh-60; "Fusulul-mühimmə", səh-133; "Təzkirətul-xəvass", səh-193; "Tarixi Yə`qubi" (Nəcəf çapı, 1314-cü h.q.), 2-ci cild, səh-204; "Üsuli Kafi", 1-ci cild, səh-461.

sonra vəfat etmiş və o, atasının tərbiyəsi altında olmuşdur.

İmam Həsən (ə) atasının şəhadətindən sonra Allahın əmri və atasının vəsiyyəti əsasında imamət məqamına nail oldu. O zahirdə də xilafət məqamında idi (bu məqam 6 ay müddətində davam etdi) və o müsəlmanların işlərini idarə edirdi. Bu müddətdə Əli (ə) və onun övladları ilə qatı düşmən olan, uzun illərdən bəri xilafətə göz dikən Müaviyə (əvvəlcə üçüncü xəlifənin intiqamını almaq bəhanəsilə, sonra isə aşkar xilafət iddiası ilə) müharibəyə başlayıb imam Həsən (ə)-ın xilafət mərkəzi olan İraqa qoşun yeritdi. Tərəflər arasında müharibə başlandı. İmam Həsən (ə)-ın ordu başçıları Müaviyə tərəfindən göndərilən yüksək məbləğdə pulla satın alındı və ordu daxilinə təfriqə düşdü;[1] nəhayət o həzrət sülh müqaviləsi imzalamağa məcbur oldu və müəyyən şərtlərlə zahiri xilafəti Müaviyəyə həvalə etdi.[2] Həmin şərtlərdən biri də bu idi ki, Müaviyənin vəfatından sonra xilafət yenidən imam Həsənə qayıtmalı, ailəsinin və şiələrin toxunulmazlığı hər bir cəhətdən tə`min olunmalı idi. Müaviyə bu yolla islam xilafətini ələ keçirdi. Sonra İraqa daxil oldu, rəsmi və ümumi bir çıxışda sülh maddələrini

---

[1] "İrşad" (Şeyx Müfid), səh-172; "Mənaqib (ibni Şəhraşub), 4-cü cild, səh-33; "Fusulul-mühimmə", səh-144.

[2] "İrşad" (Şeyx Müfid), səh-172; "Mənaqib (ibni Şəhraşub), 4-cü cild, səh.33; "Əl-imamətu vəssiyasət", (Əbdüllah ibni Müslim ibni Qüteybə), 1-ci cild, səh-163; "Fusulul-mühimmə", səh-145; "Təzkirətul-xəvass", səh-197.

ləğv etdi[1] və mümkün olan hər bir vasitədən istifadə edərək Əhli-beytə və onun şiələrinə ən ağır işgəncə təzyiqləri rəva gördü.

İmam Həsən (ə) on il davam edən imamətinin bütün dövrünü son dərəcə irticaçı vəziyyətlərdə, ağır və şiddətli hadisələrdə yaşadı. Onun hətta öz evində belə təhlükəsizliyi yox idi. Nəhayət 50-ci hicri ilində Müaviyənin təhriki və öz həyat yoldaşının əli ilə zəhərləndirilərək şəhid edildi.[2]

İmam Həsən (ə) insani kamallarda atasının yadigarı və əziz cəddinin kamil nümunəsi idi. Peyğəmbərin (s) sağlığında qardaşı Hüseynlə birlikdə o həzrətin ağuşunda idi. Bə`zən Peyğəmbər (s) onları çiyninə mindirərdi.

Sünnü və şiələr Peyğəmbərdən (s) rəvayət etmişlər ki, o həzrət Həsən və Hüseyn barəsində belə buyurub: *"Mənim bu iki övladım qiyam etsələr də, etməsələr də imamdırlar."* (Onların zahiri xilafət məqamında olub-olmamalarından asılı olmayaraq, imamət məqamına malik olmalarına işarədir.)[3]

Peyğəmbərdən (s) və həzrət Əlidən (ə) imam Həsənin öz atasından sonra imam olacağı barədə çoxlu hədislər nəql olunmuşdur.

---

[1] "İrşad" (Şeyx Müfid), səh-173; "Minaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-35; "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh-164.

[2] "İrşad" (Şeyx Müfid), səh-174; "Minaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-42; "fusulul-mühimmə", səh-146; "Təzkirətul-xəvass", səh-221.

[3] "İrşad" (Şeyx Müfid), səh-181; "İsbatul-hüdat", 5-ci cild, səh-129 və 134;

# *ÜÇÜNCÜ İMAM*

**Üçüncü imam həzrət Seyyidüş-şühəda İmam Hüseyn (ə)-dır.** O Əli (ə) ilə Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhranın ikinci övladıdır, 4-cü hicri ilində doğulmuşdur. O həzrət əziz qardaşının şəhadətindən sonra Allahın əmri və imam Həsənin vəsiyyətinə əsasən imamət məqamına nail oldu.[1]

İmam Hüseyn (ə) 10 il imamət etmişdir və təqribən 6 ay istisna olmaqla, bütün bu dövrü Müaviyənin xilafəti dövründə keçmişdir. O həzrət bu dövrdə ən ağır və xoşagəlməz şəraitdə, kəskin təzyiqlər altında yaşayırdı. Çünki dini qayda-qanunların və ilahi hökmlərin öz e`tibarını əldən verməsindən, hakimiyyətdə olanların istəklərinin Allah və Peyğəmbərin (s) əmrlərini əvəz etməsindən əlavə, Müaviyə və onun mə`murları Əhli-beyt və onun şiələrini əzib məhv etmək, Əli və onun övladlarının adını tarixdən silmək üçün mümkün olan hər bir imkandan istifadə edirdi. Müaviyə öz oğlu Yezidi xilafətə çatdırıb onun hakimiyyət təməllərini möhkəmləndirmək qərarına gəlmişdi, amma camaatın bir qrupu Yezidin imansızlığı və dinə e`tinasız yanaşmasından razı deyildi. Müaviyə yaranacaq müxalifətin qarşısını almaq üçün daha ciddi tədbirlərə və yeni-yeni hiylələrə əl atdı.

İmam Hüseyn (ə) özündən asılı olmayaraq bu qaranlıq və irticaçı dövrü keçirir, Müaviyə və onun mə`murları

---

[1] "İrşad" (Şeyx Müfid), səh-179; "İsbatul-hüdat", 5-ci cild, səh-168-212 və 134; "İsbatul-vəsiyyət", (Məs`udi) səh-125.

tərəfindən törədilən hər növ ruhi əzab-əziyyətlərə, işgəncələrə dözürdü. Nəhayət 60-cı hicri ilinin ortalarında Müaviyə öldü və oğlu onun yerinə oturdu.[1]

Ərəblərin arasında mövcud olan bey`ət mərasimi hakimlik və hökmranlıq kimi mühüm işlərdə icra olunurdu. Hakimin əlinin altında olanların, xüsusilə məşhur şəxsiyyətlərin hər hansı sultana, yaxud əmirə itaət edib onunla bey`ət etmələrindən sonra müxalifət ar və rüsvayçılıq sayılırdı. Qəti imzanı pozmaq kimi bu iş aşkar cinayət hesab olunurdu. Peyğəmbərin (s) davranışında da müəyyən qədər, yə`ni ixtiyar üzündən, icbar olmadan yerinə yetirildiyi üçün e`tibara malik idi.

Müaviyə öz qövmünün məşhur adamlarından Yezid üçün bey`ət almışdı; lakin imam Hüseynə toxunmamış, ona bey`ət təklifi də irəli sürməmişdi, xüsusilə Yezidə vəsiyyət etmişdi ki, Hüseyn ibni Əli bey`ətdən imtina edərsə onu tə`qib etməsin, sükut edərək görməməzliyə vursun.[2] Çünki o, bu məsələni hərtərəfli araşdıraraq onun acınacaqlı nəticələrini başa düşmüşdü.

Lakin Yezid öz laqeydlik xüsusiyyətinə görə atasının vəsiyyətini unutdu, atası öləndən dərhal sonra Mədinənin valisinə göstəriş verdi ki, imam Hüseyndən onun üçün bey`ət alsın. Əks halda başını kəsib Şama göndərsin.[3]

---

1 "İrşad" (Şeyx Müfid), səh-182; "Tarixi Yə`qubi", 2-ci cild, səh-226-228; "Fusulul-mühimmə", səh-163.

2 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-88.

3 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-88; "İrşad" (Şeyx Müfid), səh-182; "Əl-imamətu vəssiyasət", 1-ci cild, səh-203;

Mədinin valisi Yezidin əmrini imam Hüseynə çatdırdıqda o həzrət bu hadisə ilə əlaqədar bir qədər möhlət istədi və gecə ikən öz əhli-əyalını götürüb Məkkəyə tərəf hərəkət etdi və islamda əmin-amanlıq mərkəzi olan Allah evinə sığındı.

Bu hadisə 60-cı hicri ilinin Rəcəb ayının axırlarında və Şə`ban ayının əvvəllərində baş verdi. İmam Hüseyn (ə) təqribən 4 ay müddətində Məkkədə qaldı. Bu xəbər tədrici olaraq islam ölkələrinin hər tərəfinə yayıldı. Bir tərəfdən Müaviyənin dövründəki zülmlərdən cana doyan, Yezidin xilafətindən daha da narazı olan şəxslərin çoxu o həzrətlə görüşərək eyni dərddə olduqlarını bildirirdilər; digər tərəfdən də İraqdan, xüsusilə Kufə şəhərindən Məkkəyə çoxlu məktublar gəlir və o həzrəti İraqa də`vət edərək öz rəhbərliyi ilə bir cəmiyyət yaratmaq istədiklərini bildirir, zülmün kökünü kəsmək üçün qiyam etmələrini istəyirdilər. Əlbəttə, bu hadisə Yezid üçün çox təhlükəli idi.

İmam Hüseyn (ə) Məkkədə həcc mövsümünə qədər qaldı və dünya müsəlmanları dəst-dəstə Məkkəyə gəlib həcc əməllərini yerinə yetirməyə çalışırdılar. O həzrətə xəbər verildi ki, Yezidin mə`murlarından bir qrupu hacı ünvanı ilə Məkkəyə gəlmiş və ehram paltarının altında saxladıqları silahla o həzrətə həmlə edərək həcc əməlləri əsnasında onu qətlə yetirməyi planlaşdırmışlar.[1]

---

"Tarixi Yə`qubi", 2-ci cild, səh-229; "Fusulul-mühimmə", səh-163; "Təzkirətul-xəvass", səh-235.

[1] "İrşad" (Şeyx Müfid), səh-201; "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-89;

O həzrət Həcc əməllərini bir qədər yüngülləşdirib hərəkət etmək qərarına gəldi və böyük insan kütləsi arasında ayaq üstə dayanaraq qısa bir çıxış etdi. Daha sonra İraqa doğru hərəkət etməyini xəbər verdi. Bu çıxışda həzrət öz şəhadətini bir daha xatırlatdı və müsəlmanlardan bu hədəf yolunda kömək istədi ki, öz qanlarını Allah yolunda hədiyyə etsinlər. O günün sabahı öz əhli-beyti və köməkçilərindən bir qrupu ilə İraqa doğru yola düşdü.

İmam Hüseyn (ə) Yezidə bey`ət etməmək barədə qəti qərara gəlmişdi və yaxşı bilirdi ki, öldürüləcəkdir; Bəni-üməyyə sülaləsinin cəmiyyətdə törətdiyi ümumi fəsad, ideoloji tənəzzül və camaatın, xüsusilə İraq əhalisinin iradəsizliyi ilə qüvvətlənən dəhşətli müharibə onu məhv edəcəkdir.

Məşhur şəxsiyyətlərdən bir dəstəsi xeyirxahlıq məqsədi ilə imamın yolunu kəsərək bu hərəkətin və inqilabın ardınca gələn təhlükələri xatırlatdılar. Lakin o həzrət cavabında buyurdu ki, mən bey`ət etmərəm, zalım hökuməti də təsdiq etmərəm. Mən bilirəm ki, hər yerə getsəm və hər yerdə olsam məni öldürəcəklər. Məkkəni də tərk etməyim Allah evinin hörmətin saxlamağım üçündür ki, qan tökülməklə bu müqəddəsliyə ehtiramsızlıq olmasın.[1]

İmam Hüseyn (ə) Kufəyə tərəf yola düşdü. Hələ oraya bir neçə günlük yol qalarkən yol əsnasında xəbər tutdu ki, Yezidin Kufədəki valisi imamın nümayəndəsini onun

---

1 "İrşad" (Şeyx Müfid), səh-201; "Fusulul-mühimmə", səh-168.

ciddi tərəfdarı olan məşhur bir şəxsiyyətlə birlikdə öldürmüş və ayaqlarına ip bağlayarq Kufənin küçə-bazarında sürümələrini əmr etmişdir;[1] şəhəri və ətraf nahiyələri ciddi nəzarət altına almışdır və düşmənin saysız-hesabsız qoşunu onun gəlişini gözləyir, qarşıda ölümdən başqa heç bir yol yoxdur. Bu zaman imam (ə) şəhid olunması barədə heç bir tərəddüd etmədən öz yoluna davam etdi.[2]

Yezidin qoşunları Kufənin təqribən 70 kilometrliyində Kərbəla adlı bir çöldə o həzrəti köməkçiləri ilə birlikdə mühasirəyə aldı və bu mühasirə səkkiz gün davam etdi. Mühasirə halqası hər gün daralır və düşmən ordusunun sayı artırdı. Nəhayət o həzrət özünün azsaylı qohum və köməkçiləri ilə birlikdə 30 min nəfər cəngavərdən təşkil olunmuş bir qoşunun arasında qaldı.[3]

Bu bir neçə gün ərzində imam öz mövqeyini möhkəmlətdi, köməkçilərini seçdi. Gecə ikən bütün səhabələrini çağırdı və qısa bir çıxış edərək buyurdu: "Qarşıda ölüm və şəhadətdən başqa bir yol yoxdur. Bunların məndən başqa heç kəslə işləri yoxdur. Mən bey`ətimi sizdən götürdüm ki, hər kəs istəsə gecənin qaranlığından istifadə edərək öz canını bu qorxulu mə`rəkədən qurtarsın."

---

1 "İrşad" (Şeyx Müfid), səh-204; "Fusulul-mühimmə", səh-170; "Məqatilit-talibin", (ikinci çap), səh-73.

2 "İrşad" (Şeyx Müfid), səh-205; "Fusulul-mühimmə", səh-171; "Məqatilit-talibin" (ikinci çap), səh-73.

3 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-98.

Daha sonra buyurdu ki, çıraqları söndürsünlər. Maddi məqsədlər üçün o həzrətlə gələn yoldaşlarının çoxu dağılıb getdilər, haqq aşiqləri olan az bir dəstə və Bəni-haşimdən bir neçə nəfərdən başqa heç kəs qalmadı. İmam öz yaxın adamlarından qalan 40 nəfəri bir daha toplayıb imtahan etdi və öz köməkçilərinə və Bəni-haşimdən olanlara xitab edərək buyurdu: "Bu düşmənlərin yalnız mənimlə işləri vardır, sizin hər biriniz gecənin qaranlığından istifadə edərək bu təhlükədən yaxa qurtara bilərsiniz." Lakin bu dəfə imamın vəfalı köməkçilərindən hər biri müxtəlif bəyanlarla cavab verib bildirdilər ki, biz, rəhbərimiz sən olduğun halda haqdan heç vaxt üz döndərməyəcək, sənin ətəyindən əl çəkməyəcəyik. Axır nəfəsimizə kimi, əlimizdə qılınc tuta biləcəyimiz vaxta qədər səni müdafiə edəcəyik.[1]

Məhərrəm ayının 9-da düşmən tərəfindən ya bey`ət, ya müharibə barəsində təklif irəli sürüldü. O həzrət həmin gecəni ibadət etmək üçün möhlət aldı və sabahı müharibə etmək qərarına gəldi.[2]

61-ci hicri ilinin Məhərrəm ayının 10-da imamın azsaylı qoşununda 90 nəfərdən az adam var idi. (Onun 40 nəfəri imamın əvvəlki köməkçilərindən, 30-dan çoxu isə müharibə günündə və gecəsində düşmən qoşunundan qaçıb imama qoşulanlar idi; yerdə qalanlar isə imamın Bəni-haşimdən olan qohumları, övladları, qardaşları,

---

[1] "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-99; "İrşad" (Şeyx Müfid), səh-214.

[2] "İrşad" (Şeyx Müfid), səh-214; "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-98.

qardaşı oğlanları, bacısı oğlanları və əmisi oğlanları idi. Onlar düşmənin saysız-hesabsız qoşunun müqabilində mövqe seçərək müharibəyə başladılar.

O gün sübh tezdən axşamçağına qədər müharibə etdilər. İmam, Bəni-haşim cavanları və onun köməkçiləri son nəfərə kimi şəhid oldular (öldürülənlərin arasında imam Həsən (ə)-ın iki azyaşlı uşağı, bir kiçik yaşlı uşaq və imam Hüseyn (ə)-ın bir südəmər körpəsi də var idi).[1]

Düşmən qoşunu müharibəni qurtardıqdan sonra imamın xeymələrini qarət edib yandırdılar, şəhidlərin başlarını kəsərək bədənlərini soydular, torpağa tapşırmadan yerə atdılar. Sonra hamısı pənahsız qadınlardan və qızlardan ibarət olan imamın əhli-beytini şəhidlərin başları ilə birlikdə Kufəyə apardılar. Əsirlərin arasında imam Hüseyn (ə)-ın Aşura günündə xəstə olan 22 yaşlı oğlu imam Zeynəl-abidindən, onun dörd yaşlı oğlu Məhəmməd ibni Əlidən (beşinci imam) başqa bir kişi yox idi. Həmçinin, imam Həsənin oğlu Həsəni Musəmma da (o, imam Hüseynin kürəkəni idi) müharibədə yaralanmış və öldürülənlərin arasına düşmüşdü. Onu da son nəfəslərində tapıb sərkərdələrin birinin vasitəçiliyi ilə başını kəsmədilər və əsirlərlə birlikdə Kufəyə, oradan da Dəməşqə, Yezidin yanına apardılar.

Kərbəla faciəsi və bundan sonra Peyğəmbər Əhli-beytinin qadın və qızlarının əsir halında şəhərbəşəhər dolandırılması, Əli (ə)-ın qızı və əsirlər içərisində olan dördüncü imamın Kufədə və Şamdakı çıxışları Bəni-

---

[1] "Biharul-ənvar" (Kompani çapı), 10-cu cild, səh-200, 202-203.

üməyyə sülaləsini rüsvay etdi, Müaviyənin bir neçə illik təbliğatlarını tə`sirsizləşdirdi. İş o yerə çatdı ki, Yezid camaat arasında öz mə`murlarının əməlindən xəbərsiz olduğunu bildirdi.

Kərbəla hadisəsi uzun müddətli tə`siri ilə Bəni-üməyyə hökumətini məhv etdi və şiələrin bünövrəsini daha da möhkəmləndirdi. Onun tez bir zamanda göstərdiyi tə`sirlər isə on iki il müddətində davam edən qanlı müharibələrlə yanaşı olan qiyamlar və inqilablar idi. İmam Hüseynin qətlində iştirak edən şəxslərdən heç biri intiqamdan qaçıb qurtara bilmədi.

Hər kəs imam Hüseyn (ə)-ın həyatını, Yezidin və o günlərdə hökmranlıq etdiyi şəraitləri araşdırıb bu barədə tədqiqat nəzəri ilə yanaşsa şübhəsiz görəcəkdir ki, o gün imam Hüseyn (ə)-ın qarşısında birdən artıq yol yox idi və o da şəhid olmaq idi. Nəticə e`tibarı ilə islamın açıq-aşkar məhv edilməsindən ibarət olan Yezidə bey`ət etmək imam Hüseyn üçün mümkün deyildi. Çünki Yezid nəinki islam dinin ayinlərinə və qayda-qanunlarına aşkarda ehtiram qoymurdu və onlara e`tinasız yanaşırdı, həm də islamın qayda-qanunlarının və müqəddəslərinin məhv edilməsi üçün aşkar çalışırdı.

Ondan əvvəlki hakimlər dini qayda-qanunlarla müxalifət etsəydilər də din pərdəsi bu işləri görür və zahirdə dini möhtərəm sayaraq camaatın e`tiqad bəslədiyi məqamlara və Peyğəmbərə (s) kömək etdiklərinə görə iftixar edirdilər.

Buradan aydın olur ki, bə`zi müfəssirlərin bu hadisəni öz rə`yləri ilə təfsir edərək "bu iki rəhbər (imam Həsən və imam Hüseyn) iki müxtəlif nəzərə malik idilər, imam

Həsən sülh yolunu bəyənmişdi, amma imam Hüseyn müharibəni daha üstün sayırdı", eləcə də "o qardaş 40 min nəfərlik qoşunla Müaviyə ilə sülh etdi, bu qardaş isə 40 nəfərlə Yezidə qarşı müharibəyə qalxdı" deyənlərin sözləri əsla düz deyildi. Çünki gördüyümüz kimi Yezidə bir gün olsun belə, bey`ət etməyə razı olmayan imam Hüseyn Müaviyənin hökumətində 10 il qardaşı imam Həsən kimi yaşamış, heç vaxt onunla müxalifətçilik etməmişdi. Əgər imam Həsən (ə), ya imam Hüseyn (ə) Müaviyə ilə vuruşsaydı öldürüləcək və bu işin islam üçün azacıq belə faydası olmayacaq, haqq siyasət müqabilində özünü "səhabə", "vəhy katibi", "mö`minlərin dayısı" kimi təqdim edən və hər bir hiyləgərlikdən istifadə edən Müaviyəyə heç bir tə`siri olmayacaqdı.

O əvvəlcədən qurduğu plan əsasında imam Həsən və imam Hüseyni öz adamlarının vasitəsilə öldürərək özü də bu matəmi saxlaya bilər, sonra da onların intiqamını almaq iddiası edə bilərdi. Necə ki, üçüncü xəlifə ilə belə rəftar etmişdi.

## *İMAM SƏCCAD*

**Zeynəl-abidin və Səccad ləqəbləri ilə məşhur olan Əli ibni Hüseyn, üçüncü imamın sağ qalan yeganə oğlu idi.** Digər üç qardaşı isə Kərbəla hadisəsində şəhid edilmişdi.[1] Onun anası İran şahı Yezdəgirdin qızı idi.

O həzrət də atası ilə birlikdə Kərbəlaya gəlmişdi, lakin çox ağır xəstə olduğundan silah götürüb müharibə

---

[1] "Məqatilut-talibin", səh-52 və 59.

etməyə qüdrəti yox idi; ona görə də cihad edib şəhid olmaqdan məhrum oldu və əsirlərlə birlikdə Şama göndərildi.

Əsirlik dövrünü keçirdikdən sonra Yezidin göstərişi ilə ümumxalq e`tirazlarını yatırlatmaq üçün möhtərəm şəkildə Mədinəyə yola salındı. O həzrəti ikinci dəfə olaraq Əməvi xəlifəsi Əbdül Məlikin əmri ilə zəncirə bağlayaraq Mədinədən Şama apardılar və yenidən oraya qaytardılar.[1]

İmam Mədinəyə qayıtdıqdan sonra evin bir guşəsinə çəkildi və qapını yadların üzünə bağlayaraq ibadətlə məşğul oldu. Əbu Həmzə Somali və Əbu xalid Kabuli kimi xüsusi şiələrdən başqa heç kəslə rabitə bərqərar etmirdi. Əlbəttə, xüsusi şiələrin o həzrətdən əxz etdikləri maarif şiələrin arasında yayılır və bununla da şiəlik genişlənməyə başlayırdı ki, onun nəticələri 5-ci imamın dövründə daha artıq hiss olunmağa başladı.

4-cü imamın əsərlərindən "Səhifeyi-Səccadiyyə" dualarını qeyd etmək olar ki, 57 duadan ibarət olub, ən dəqiq ilahi maarifləri əhatə edir və "Ali-Məhəmmədin Zəburu" adlanır.

4-cü imam 35 il imamət etdikdən sonra bə`zi şiə rəvayətlərinə əsasən əməvi xəlifəsi Hişamın təhriki və Vəlid ibni Əbdülməlikin əli ilə zəhərləndirildi və 95-ci hicri ilində vəfat etdi.[2]

---

1 "Təzkirətul-xəvass", səh-324; "İsbatul-hudat", 5-ci cild, səh-242.

2 "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-176; "Dəlailul-imamət", səh-80; "Fusulul-mühimmə", səh-190.

## *BEŞİNCİ İMAM*

**İmam Məhəmməd ibni Əli (Baqir) (ə)**. Ərəb dilində "baqir" kəlməsi yaran deməkdir və bu da Peyğəmbər tərəfindən o həzrətə verilən ləqəbdir.[1] O, dördüncü imamın oğludur, 57-ci hicri ilində dünyaya gəlmişdir. Kərbəla hadisəsində onun dörd-beş yaşı vardı və özü də orada idi. Atasından sonra Allahın əmri və əvvəlki imamların təqdim etməsi ilə imamətə nail oldu və 114-cü (yaxud 117)-ci ildə vəfat etdi. Bə`zi şiə rəvayətlərinə əsasən əməvi xəlifəsi Hişamın qardaşı oğlu İbrahim ibni Vəlid ibni Əbdül Məlik tərəfindən zəhərləndirildi.[2]

Beşinci imamın dövründə Bəni-üməyyənin zülmləri günbəgün artaraq islam ölkələrinin müxtəlif yerlərində inqilaba və müharibələrə səbəb olurdu. Bəni-üməyyə sülaləsinin içərisində də dərin ixtilaflar yaranmağa başlamışdı. Bu kimi çətinliklər xilafət məqamlarını məşğul etdiyindən onlar Əhli-beytə toxunmurdular.

Digər tərəfdən də Kərbəla faciəsinin baş verməsi və dördüncü imamın təmsil etdiyi Əhli-beytin məzlumiyyəti müsəlmanları Əhli-beytə daha artıq rəğbətləndirirdi. Bu amillər birləşərək camaatın, xüsusilə şiələrin sel kimi axışaraq Mədinəyə gəlmələrinə və beşinci imamın hüzurunda olmalarına səbəb oldu; islami həqiqətlərin və

---

1 "İrşad" (Şeyx Müfid), səh-246; "Fusulul-mühimmə", səh-193; "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-197.

2 "Üsuli Kafi", 1-ci cild, səh-469; "İrşad" (Şeyx Müfid), səh-245; "Fusulul-mühimmə", səh-202-203; "Tarixi Yə`qubi", 3-cü cild, səh-63; "Təzkirətul-xəvass", səh-340. "Dəlailul-imamət", səh-94; "Mənaqib" (İbni Şəhraşub), 4-cü cild, səh-210.

Əhli-beyt maarifinin yayılmasında o həzrət üçün imamlardan heç birinə nəsib olmayan yaxşı imkanlar yarandı. Bu müddəanın şahidi beşinci imamdan nəql olunan saysız-hesabsız hədislər, eləcə də o həzrətin məktəbində müxtəlif islam elmləri sahəsində şiə aləmində yaranan böyük elm şəxsiyyətlərdir; rical kitablarında onların adları qeyd olunmuşdur.[1]

## *ALTINCI İMAM*

Altıncı imam **Cə`fər ibni Məhəmməd Sadiq beşinci imamın oğludur** və 83-cü hicri ilində dünyaya gəlmiş, 148-ci ildə (şiə rəvayətlərinə əsasən) Abbasi xəlifəsi Mənsur tərəfindən hazırlanan sui-qəsd nəticəsində zəhərləndirilərək şəhid edilmişdir.[2]

Altıncı imamın dövründə islam ölkələrində baş verən qiyamlar, xüsusilə "müsvəddə" (qara paltarlılar) qrupunun Bəni-üməyyə sülaləsini xilafətdən salmaq üçün başlanan və bu sülalənin xilafətdən salınması ilə nəticələnən qanlı müharibələr nəticəsində münasib şərait yarandı; beşinci imam bu dövrlərə təsadüf edən 20 illik iməməti dövründə islam həqiqətlərini və Əhli-beyt maarifini inkişaf etdirib yaymaqda yüksək

---

1 "İrşad" (Şeyx Müfid), səh-245-253; "Ricali Kəşşi" (Məhəmməd ibni Ömər ibni Əbdül-əziz Kəşşi); "Ricali Tusi" ((Məhəmməd ibni Həsən ibni Tusi), "Fehrestu Tusi" və sair kitablara baxa bilərsiniz.

2 Üsuli-kafi, 1-ci cild, səh-472; Dəlailul-imamət, səh-111; İrşad (Mufid) səh-254; Tarixi Yəqubi, 3-cü cild, səh-119; Fusulul-mühimmə, səh-212; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-280)

müvəffəqiyyətlər əldə edə bildi. Altıncı imamın dövründə də dini tə`limlərin yayılması üçün daha münasib mühit və imkanlar yarandı.

O həzrət Bəni-üməyyə xilafətinin axırları və Abbasi xilafətinin əvvəllərinə təsadüf edən imaməti dövründə yaranan fürsətdən istifadə edərək dini tə`limləri yaydı, müxtəlif əqli və nəqli elmlərdə Zürarə, Məhəmməd ibni Müslim, Mö`mini Taq, Hişam ibni Həkəm, Əban ibni Təğlib, Hişam ibni Salim, Həriz, Hişam Kəlbi Nəsabə, Cabir ibni Həyyan Sufi kimi bir çox elmi şəxsiyyətlər yetişdirdi. Hətta sünnülərin rical alimlərindən çoxu, o cümlədən Süfyan Suri, Əbu Hənifə (Hənəfi məzhəbinin rəisi), Qazi Səkuni və Qazi Əbul Buxtəri və sairləri o həzrətin şagirdi olması ilə iftixar edirdilər. (Qeyd olunub ki, altıncı imamın tə`lim və dərslərində 4 min nəfər mühəddis və alim iştirak edirdi.)[1]

İmam Baqir və imam Sadiqdən (ə) nəql olunan hədislər Peyğəmbərdən (s) və yerdə qalan on imamdan çatan hədislərin məcmusundan artıqdır.

Lakin o həzrət ömrünün son vaxtlarında Abbasi xəlifəsi Mənsur tərəfindən ciddi nəzarət altında idi. Xəlifə onun üçün bir çox məhdudiyyətlər qoymuşdu. O, Əli (ə)-ın nəslindən olan seyyidlərə vəhşicəsinə işgəncələr verir, dözülməz əzab-əziyyətlər və qətlləri rəva görürdü. Bəni-üməyyənin o qədər daşürəkli və amansız olmasına baxmayaraq, Abbasilərdən baş verən işlər onlarda görünməmişdi. Mənsurun əmri ilə Ələvi şiələrini dəstə-

---

1 İrşad (Mufid) səh-254; Fusulul-mühimmə, səh-204; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-247.

dəstə tutub dərin qaranlıq zindanlarda işgəncə və əzab-əziyyətlə öldürürdülər. Bə`zilərinin boynunu vurur, bə`zilərini diri-diri torpağa basdırır, bə`zilərini isə tikilən binaların divarları arasında qoyaraq üstündən hörgü hörürdülər.[1]

Mənsur imam Sadiq (ə)-ın Mədinədən onun yanına çağırılması barədə əmr verdi (altıncı imam bundan əvvəl də Abbasi xəlifəsi Səffahın əmri ilə İraqa çağırılmışdı və ondan da qabaq əməvi xəlifəsi Hişamın əmri ilə atası ilə birlikdə Dəməşqə aparılmışdı.)

Bir müddət imamı nəzarət altında saxladılar və dəfələrlə onu öldürmək üçün tədbirlər töküb hörmətsizlik göstərdilər. Nəhayət Mənsur onun Mədinəyə qayıtmasına icazə verdi. İmam Mədinəyə qayıdıb ömrünün qalanını da təqiyyə şəraitində və nisbətən guşəneşinliklə keçirdi və nəhayət Mənsurun planı əsasında zəhərləndirilib şəhid edildi.

Mənsur altıncı imamın şəhadət xəbərini eşitdikdə Mədinə valisinə yazdı ki, onun yaxın adamlarına başsağlığı versin, imamın evinə gedib o həzrətin vəsiyyətnaməsini alsın, oxusun və həmin vəsiyyətdə imamın canişini kimi tə`yin olunan adamı elə oradaca boynunu vursun. Əlbəttə, Mənsur bu göstərişi verməklə imamətin kökünü kəsmək və şiəliyin çırağını söndürmək istəyirdi. Lakin onun məkirli planlarının əksinə olaraq, Mədinə valisi vəsiyyətnaməni gördükdə imamın beş nəfəri canişin kimi tə`yin etdiyini gördü: "Xəlifənin özü, Mədinənin valisi, o həzrətin böyük oğlu Əbdüllah Əftəh,

---

[1] Fusulul-mühimmə, səh-212; Dəlailul-imamət, səh-111.

kiçik oğlu Musa və Həmidə. Bununla da Mənsurun tədbiri alt-üst oldu.[1]

## *YEDDİNCİ İMAM*

**İmam Musa ibni Cə`fər (Kazim) (ə)**; O altıncı imamın oğludur, 128-ci hicri ilində doğulmuş və 183-cü ildə zindanda zəhərləndirilərək şəhid edilmişdir.[2]

O həzrət atasının vəfatından sonra Allahın əmri və əvvəlki imamların təqdim etməsi ilə imamət məqamına nail oldu.

Yeddinci imam Abbasi xəlifələrindən olan Mənsur, Hadi, Mehdi və Harunun müasiri idi və öz həyatını çox çətinliklə, ağır təqiyyə şəraitində keçirirdi. Nəhayət Harun həcc səfərində Mədinəyə getdi. Onun əmri ilə o həzrəti Peyğəmbər məscidində namaz qıldığı zaman zəncirə bağlayıb zindana saldılar və Mədinədən Bəsrəyə, Bəsrədən isə Bağdada apardılar. Uzun illər bir zindandan o biri zindana aparıldı.[3] Nəhayət Bağdadda Sindi ibni Şahikin zindanında zəhərləndirilərək şəhid edildi və Kazimeyn şəhərində yerləşən "Qüreyş" qəbiristanlığında dəfn olundu.

---

1 Üsuli-kafi, 1-ci cild, səh-300.

2 Üsuli-kafi, 1-ci cild, səh-476; İrşad (Mufid) səh-270; Fusulul-mühimmə, səh 214-23; Dəlailul-imamət, səh. 146-148; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-324; Tarixi Yəqubi, 3-cü cild, səh-150.

3 İrşad (Mufid) səh-279-383; Dəlailul-imamət, səh. 148 və 154; Fusulul-mühimmə, səh-222; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh. 323-327; Tarixi Yəqubi, 3-cü cild, səh-150.

## *SƏKKİZİNCİ İMAM*

**İmam Əliyyibni Musa (Riza) (ə)**; O yeddinci imamın oğludur, (ən məşhur tarixlərə əsasən) 148-ci hicri ilində doğulmuş və 203-ci ildə vəfat etmişdir.[1]

Səkkizinci imam öz atasının vəfatından sonra Allahın əmri və imamların təqdimi ilə imamətə çatdı. O həzrət öz imamətinin bir müddətini Abbasi xəlifəsi olan Harunun, sonra isə onun oğlu Əminin, daha sonra onun digər bir oğlu olan Mə`munun zamanında keçirdi.

Mə`mun atasının vəfatından sonra qardaşı Əminlə ixtilafa başladı və bu da onların arasında qanlı müharibələrə səbəb oldu, nəhayət Əmin öldürüldü və Mə`mun xilafət kürsüsünə əyləşdi.[2]

O günə qədər Abbasi xilafətinin ələvi seyyidlərinə qarşı siyasəti çox kobud və qəddar xarakter daşıyırdı; bu siyasət daim güclənməkdə idi. Bə`zən ələvilərdən biri qiyam edərək qanlı müharibələr edirdi. Bu da xilafət aparatı üçün böyük bir çətinlik yaradırdı.

Əhli-beyt (ə) imamlarının qiyamçılarla həmkarlıq etməmələrinə baxmayaraq, o dövrdə nəzərə çarpacaq bir cəmiyyət olan şiələr həmişə imamları itaəti vacib olan dini rəhbərlər hesab edir, onları Peyğəmbərin (s) həqiqi xəlifələri kimi qəbul edir, özünə kəsra və qeysər padşahlarının qiyafəsini alan bir dəstə dinsiz adamın

---

[1] Üsuli-kafi, 1-ci cild, səh-486; İrşad (Mufid) səh-284-296; Dəlailul-imamət, səh 175-177; Fusulul-mühimmə, səh 225-246; Tarixi Yəqubi, 3-cü cild, səh-188.

[2] Üsuli-kafi, 1-ci cild, səh-488; Fusulul-mühimmə, səh-237.

əlində idarə olunan xilafət aparatını napak və öz müqəddəslikdən uzaq hesab edirdilər. Bu vəziyyətin davam etməsi xilafət aparatı üçün təhlükəli idi və onu şiddətlə təhdid edirdi.

Mə`mun bu fikrə düşdü ki, özündən əvvəlki ata-babalarının 70 illik dövrdə həll edə bilmədikləri siyasətləri başqa bir siyasətlə sona çatdırsın; yəni səkkizinci imama vəliəhdlik məqamı versin və bu yolda olan hər bir çətinliyi həll etsin. Çünki ələvi seyyidlərinin əlləri xilafət aparatına çatdıqdan sonra artıq xilafətin əleyhinə qiyam etməzdilər və şiələr də öz imamlarının, həmişə murdar və napak əməllərlə ittiham edilən xilafətə çatdığını gördükləri vaxt onlara qarşı batini məhəbbətləri və mə`nəvi e`tiqadlarını əldən verəcək, məzhəbi təşəkkülləri süquta uğrayacaq və artıq bu istiqamətdən xilafət aparatına heç bir təhlükə mövcud olmayacaqdır.[1]

Aydındır ki, bu məsələnin həyata keçməsindən sonra imamı aradan götürmək Mə`mun üçün çox da çətin deyildi. Mə`mun bu qərarı həyata keçirmək üçün imamı Mədinədən Mərvə çağırtdırdı; imam gəldikdən sonra əvvəlcə xilafəti, ondan sonra isə vəliəhdliyi qəbul etməyi ona təklif etdi. İmam isə bəhanə gətirərək onu qəbul etməməyə çalışdı. Nəhayət müəyyən yollarla ona qəbul etdirdi, imam da bu şərtlə qəbul etdi ki, hökumət

---

1 Dəlailul-imamət, səh-197; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-363.

işlərində, dövlət mə`murlarının işə tə`yin edilməsi və ya işdən çıxarılmasında əsla müdaxilə etməsin.[1]

Bu hadisə 200-ci hicri ilində baş verdi. Lakin çox keçmədən Mə`mun şiələrin çox sür`ətlə inkişaf etməsini, imama qarşı məhəbbətlərinin daha da şiddətlənməsini, ümumxalq kütlələrinin, hətta ordu komandirləri və dövlət mə`murlarının çox qəribə şəkildə imama üz gətirməsini gördükdə öz səhvlərini anladı və çarə axtarmaq fikrinə düşdü. Nəhayət imamı zəhərləyib şəhid etdi. Səkkizinci imam şəhid edildikdən sonra hal-hazırda Məşhəd adlandırılan Tus şəhərində dəfn edildi.

Mə`mun əqli elmlərin ərəb dilinə tərcüməsinə çox maraq göstərirdi. Onun təşkil etdiyi böyük bir elmi məclisdə sair din və məzhəb rəhbərləri iştirak edir, dərin elmi mübahisələrə girişirdilər. Səkkizinci imam da o məclisdə iştirak etmiş, sair din və məzhəblərin alimləri ilə elmi mübahisələr aparmışdı. Bu mübahisələrin çoxu şiələrin hədis kitablarında mövcuddur.[2]

## *DOQQUZUNCU İMAM*

**İmam Məhəmməd ibni Əli (ə)**; (Təqi, bə`zən də imam Cavad və ibni Riza ləqəbləri ilə məşhurdur). O, səkkizinci imamın oğludur, 195-ci hicri ilində Mədinədə doğulmuş və şiə rəvayətlərinə əsasən 220-ci ildə Abbasi xəlifəsi Mö`təsimin təhriki və abbasi xəlifəsi Mə`munun qızının

---

1 Üsuli-kafi, 1-ci cild, səh-489; İrşad (Mufid) səh-290; Fusulul-mühimmə, səh-237; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-363;

2 Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-351.

(öz həyat yoldaşının) vasitəsilə zəhərləndirilib şəhid edilmişdir. O həzrət Kazimeyndə öz babası yeddinci imamın yanında dəfn edilmişdir.

Əziz atasından sonra Allahın əmri və əvvəlki imamların təqdim etməsi ilə imamətə çatmışdır. Doqquzuncu imam atası vəfat edən zaman Mədinədə idi. Mə`mun onu xilafətin o dövrdəki mərkəzi olan Bağdada çağırıb zahirdə ona ehtiram göstərdi, öz qızını ona ərə verdi və onu Bağdadda saxladı. Həqiqətdə o, bu vasitə ilə imamı həm daxildən, həm də xaricdən nəzarət altında saxlamaq istəyirdi.

İmam bir müddət Bağdadda qaldıqdan sonra Mə`mundan icazə alaraq Mədinəyə getdi və ömrünün axırına qədər Mədinədə qaldı. Mə`munun vəfatından sonra Mö`təsim xilafəti ələ keçirdi və yenidən imamı Bağdada çağırıb ciddi nəzarət altına aldı. Yuxarıda qeyd olunduğu kimi o həzrət Mö`təsimin təhriki ilə öz həyat yoldaşının vasitəsilə zəhərləndirilib şəhid edildi.[1]

## *ONUNCU İMAM*

**İmam Məhəmməd ibni Əli (ə);** (Nəqi, bə`zən də imam Hadi ləqəbi qeyd olunur). O, doqquzuncu imamın oğludur, 212-ci ildə Mədinədə doğulmuş və şiə

---

1 İrşad (Mufid) səh-297;Üsuli-kafi, 1-ci cild, səh-492-497; Dəlailul-imamət, səh 201-209; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh 377-399; Fusulul-mühimmə, səh 247-258.

rəvayətlərinə əsasən 254-cü ildə Abbasi xəlifəsi Mö`təzzin vasitəsilə zəhərləndirilib şəhid edilmişdir.[1]

Onuncu imam öz həyatında Abbasi xəlifələrindən 7 nəfəri ilə - Mə`mun, Mö`təsim, Vasiq, Mütəvəkkil, Mənsur, Müstəin və Mö`təzz ilə müasir idi. Mö`təsimin dövründə (220-ci ildə) atası Bağdadda şəhid edildi və bu zaman o Mədinədə idi. Allahın əmri və əvvəlki imamların təqdimi ilə imamətə çatıb Mütəvəkkilin dövrünə qədər dini tə`limləri yaymağa başladı.

Mütəvəkkil 207-ci ildə öz mə`murlarından birinə əmr etdi ki, həzrəti Mədinədən Sammirraya (o dövrdə xilafət mərkəzi idi) çağırsın. Mütəvəkkil o həzrətə tam tə`zim və mehr-məhəbbətlə dolu bir məktub yazıb onu də`vət etdi və onunla görüşməsini istədi.[2]

Əlbəttə, o həzrət Sammirraya daxil olduqdan sonra zahirdə heç bir tədbir görülmədi. Lakin eyni halda o həzrətə əzab-əziyyət vermək, hörmətsizlik etmək məqsədilə lazım olan bütün vasitələri hazırlamışdı və dəfələrlə onu qətlə yetirmək, yaxud hörmətsizlik məqsədi ilə imamı çağırmış, onun evində axtarış aparmağı əmr etmişdi.

Abbasi xəlifələri arasında Peyğəmbər (s) ailəsi ilə düşmənçilikdə Mütəvəkkilin misli yox idi; o, xüsusilə Əli

---

1 Üsuli-kafi, 1-ci cild, səh-497-502; İrşad (Mufid) səh-307; Dəlailul-imamət, səh 216-222; Fusulul-mühimmə, səh 259-265; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh 401-420.

2 İrşad (Mufid) səh. 307-313; (Üsuli-kafi, 1-ci cild, səh-501; Fusulul-mühimmə, səh-261; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-417; Tarixi Yəqubi, 3-cü cild, səh-217.

(ə)-ın qatı düşməni idi; o həzrətə qarşı aşkar şəkildə nalayiq sözlər deyirdi. Sarayında saxladığı təlxəyə əmr etmişdi ki, eyş-işrət məclislərində o həzrəti yamsılasın. O, 237-ci hicri ilində əmr etdi ki, Kərbəlada imam Hüseyn (ə)-ın mütəhhər qəbrinin qübbəsini, həmçinin onun ətrafında tikilmiş evləri dağıdıb yerlə yeksan etsinlər! Həmçinin əmr etdi ki, suyu imamın hərəminə döndərsinlər, o müqəddəs məzarın torpağını şumlayıb əkin əksinlər ki, qəbrin adı ümumiyyətlə unudulsun.[1]

Mütəvəkkilin dövründə Hicazda olan ələvi seyyidlərinin şəraiti dözülməz vəziyyətə gəlib çatmışdı. Onların qadınlarının örpəyi yox idi, namaz vaxtı onlardan bir neçəsi bir köhnə çadranı növbə ilə geyib namaz qılırdılar.[2]

Bu kimi təzyiqləri Misirdə yaşayan ələvi seyyidlərinə də rəva görürdülər.

Onuncu imam, Mütəvəkkil tərəfindən həyata keçirilən işgəncələrə, əzab-əziyətlərə səbr edirdi. Ondan sonra Müntəsir, Müstəin və Mö`təzz növbə ilə xilafətə gəldi. Mö`təzzin hiyləsi ilə o həzrətə zəhər verildi və şəhid edildi.

## *ON BİRİNCİ İMAM*

**İmam Həsən ibni Əli (Əsgəri) (ə)**;. O həzrət, onuncu imamın oğludur, 232-ci hicri ilində doğulmuş və bə`zi şiə

---

1 Məqatilut Talibin, səh –395.

2 Məqatilut Talibiyyin, səh 395 və 396.

rəvayətlərinə görə 260-cı ildə Abbasi xəlifəsi Mö`təmidin əli ilə zəhərləndirilərək şəhid edilmişdir.[1]

On birinci imam atasının vəfatından sonra Allahın əmri ilə və əvvəlcədən tə`yin olunmuş əsasda imamətə çatdı və 7 illik imamətini xilafət tərəfindən misli görünməmiş təzyiqlərlə çox şiddətli təqiyyə şəraitində keçirdi. Öz qapısını bütün tərəfdarlarının, hətta şiələrinin üzünə bağlamışdı; lakin bə`zi xüsusi şiələrə görüşmək üçün icazə verirdi. Bununla belə həyatının əksər vaxtını zindanda keçirmişdi.[2]

Bu qədər təzyiq və işgəncələrin səbəbi aşağıdakılar idi:

**Əvvəla,** o dövrlərdə şiələrin sayı nəzərə çarpacaq dərəcədə artmış və qüdrətləri çoxalmışdı. Şiələr də imamətə inandıqlarına görə hamı üçün dillər əzbəri olmuşdu və şiələrin imamları da hamı tərəfindən tanınırdı. Buna görə də xilafət aparatı imamları hər tərəfdən nəzarət altında saxlayır, mümkün olan hər bir yolla və məxfi üsullarla onları aradan götürməyə çalışırdı.

**İkincisi:** Xilafət aparatı anlamışdı ki, xüsusi şiələr on birinci imamın bir oğlunun dünyaya gəldiyinə inanır və on birinci imamın özündən, eləcə də ata-babalarından nəql olunan rəvayətlərə əsasən, onu və`dəsi verilən Məhdi kimi tanıyırdılar. Bu da sünnü və şiələrin müxtəlif yollarla

---

[1] İrşad (Mufid) səh-315; Dəlailul-imamət, səh-223; Fusulul-mühimmə, səh 266-272; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh-522;Üsuli-kafi, 1-ci cild, səh-503.

[2] İrşad (Mufid) səh-324; (Üsuli-kafi, 1-ci cild, səh-512; Mənaqibi ibni Şəhraşub, 4-cü cild, səh 429-430.

Peyğəmbərdən (s) nəql etdikləri mütəvatir hədislərlə onun on ikinci imam olmasına dəlalət edirdi.[1]

Buna görə də on birinci imam sair imamlardan daha artıq və ciddi nəzarət altında saxlanılırdı. Dövrün xəlifəsi qəti şəkildə qərara almışdı ki, hər yolla olursa olsun, şiələrin imamət məsələsinə son qoysun və bu qapını həmişəlik bağlasın. Buna görə də on birinci imamın xəstəlik xəbəri xəlifəyə çatdıqda, o həzrətin yanına bir təbib yolladı; öz e`timad etdiyi şəxsləri və bir neçə qazini onun mənzilinə təhkim etdi ki, onun yanında olsunlar, evin daxilində yaranmış vəziyyətə ciddi şəkildə nəzarət etsinlər. İmam şəhid olduqdan sonra da evi axtarsınlar. Qadın həkimlərin vasitəsilə o həzrətin kənizlərini müayinə etsinlər. İki il müddətində xəlifənin mə`murları o həzrətin canişinini axtarmaq üçün fəaliyyət göstərib axırda naümid oldular.[2]

On birinci imam vəfat etdikdən sonra onu Sammirra şəhərində öz evində atasının yanında torpağa tapşırdılar.

Qeyd etmək lazımdır ki, Əhli-beyt imamları həyatları boyu çoxlu alim və mühəddislər tərbiyə etmişlər ki,

---

[1] Səhihi Termizi, 9-cu cild, Macaətil Məhdi babı, Səhihi Əbu Davud, 2-ci cild, Babul Məhdi; Səhihi ibni Macə, Xurucul Məhdi babı; Nurul-əfsar (Şəblənci); Mişkatul-məsail (Məhəmməd ibni Əbdüllah Xətib; Əs-səvaiqu-muhriqə (ibni Həcər); Əsaful Rağibin (Məhəmməd Səvvam); Fusulul-mühimmə, Səhihi Müslim, Əl-ğeybə (Məhəmməd ibni İbrahim Nö`mani; Kəmalüddin (Şeyx Səduq), İsbatul-hudad (Məhəmməd ibni Həsən Hürra; Biharul-ənvar, (Məclisi), 51-52-ci cild.

[2] Üsuli-kafi, 1-ci cild, səh-505; İrşad (Mufid) səh-319.

onların sayı yüzlərcəyə çatır. İxtisara riayət olunsun deyə, onların adları, yazdıqları kitabları və tərcümeyi-hallarını qeyd etmirik.[1]

## *ON İKİNCİ İMAM*

**Həzrət İmam Məhdi (ə);** (əksər hallarda İmam Əsr və Sahibbəzzəman ləqəbləri ilə qeyd olunur). O həzrət on birinci imamın oğludur və adı Peyğəmbərin adı ilə eynidir. 255, yaxud 256-cı hicri ilində Sammirrada doğulmuş, atasının şəhid olduğu 260-cı ilə qədər onun himayəsində yaşamış və camaatdan gizli saxlanmışdır. İmamın xüsusi şiələrindən bir neçə nəfərindən başqa heç kim onunla görüşə bilməmişdi.

Atasının şəhadətindən sonra o həzrətin imaməti başlandı və Allahın əmri ilə qeybə çəkildi; xüsusi naiblərdən başqa bir kimsə ilə görüşməmişdir; yalnız müstəsna şəraitlərdə bə`zi şəxslər üçün zahir olmuşdur.[2]

## *XÜSUSİ NAİBLƏR*

O həzrət bir müddət atasının və babasının səhabələrindən olan, onların e`tibarlı və əmanətdar şəxs hesab etdikləri Osman ibni Səid Əmrini öz naibi seçdi və onun vasitəsilə şiələrin suallarına cavab verdi. Osman ibni

---

1 Ricali Kəşşi, Ricali Tusi, Fehresti Tusi və s. rical kitablarına müraciət et.

2 Biharul-ənvar, 51-ci cild, səh. 342 və 343-366; Əl-qeybət (Məhəmməd ibni Həsən Tusi, 2-ci çap) səh-214-243; İsbatul-hudad, 6-cı cild, səh 6-7.

Səiddən sonra onun oğlu Məhəmməd ibni Osman imamın naibi seçildi, onun da vəfatından sonra Əbül Qasim Hüseyn ibni Ruh Nobəxti imamın xüsusi naibi oldu. Onun vəfatından sonra da Əli ibni Məhəmməd Səmri imamın tərəfindən naib oldu.

Əli ibni Məhəmməd Səmrinin vəfatına bir neçə gün qalmış (o 329-cu ildə vəfat etmişdi) həzrətin tərəfindən bir imzalı kağız verildi. Onda Əli ibni Məhəmməd Səmriyə çatdırılmışdı ki, altı günə qədər dünyadan gedəcək və ondan sonra xüsusi naiblik qapısı bağlanaraq böyük qeybət dövrü başlanacaqdır. Allahın o həzrətin zühuruna izn verəcəyi günə qədər bu qeybət dövrü davam edəcəkdir.[1]

Bu imzalı kağızın əsasında İmam Zaman (ə)-ın qeybət dövrü iki yerə bölünür:

**1. Kiçik qeybət (qeybəti-suğra);** 260-cı hicri ilindən başlayaraq, 329-cu ildə sona çatmış və təqribən 70 il davam etmişdir.

**2. Böyük qeybət (qeybəti-kubra).** 329-cu ildən başlayaraq, Allahın istədiyi vaxta qədər davam edəcəkdir. Peyğəmbər (s) hamının qəbul etdiyi bir hədisdə buyurur:

*"Əgər dünyanın axırına bir gün qalmış olsa belə, Allah o günü (o qədər) uzadacaqdır ki, mənim övladlarımdan olan Məhdi zühur etsin və dünyanı zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldursun."*

həzrət Məhdinin zühuru barəsində ümumi bəhs:

---

1 Biharul-ənvar, 51-ci cild, səh. 360-361; Əl-qeybət (Şeyx Tusi) səh-242.

Nübuvvət və imamət bəhslərində qeyd etdik ki, bütün yaradılış növlərində mövcud olan ümumi hidayət qanunu əsasında insan növü də zərurətin hökmü ilə (nübüvvət və vəhy qüvvəsindən ibarət olan) bir qüvvəyə malikdir ki, onu, insaniyyətin kamalına və növünə məxsus olan xoşbəxtliyə doğru hidayət edir. Aydındır ki, əgər ictimai varlıq olan bir insan üçün bu kamal və xoşbəxtlik mümkün olmasaydı, bu qüvvə ilə təchiz olunmasının əsli mə`nasız və batil olacaqdı. Halbuki, yaradılışda batil bir şeyə yer yoxdur.[1]

Başqa sözlə desək, insan yer üzündə məskunlaşdığı gündən e`tibarən həmişə (tam mə`nada) səadətlə yanaşı olan ictimai həyatın arzusunda olmuşdur və belə bir günə çatmaq ümidi ilə irəliyir. Əgər bu istəyin xaricdə gerçəkləşməsi mümkün olmasaydı heç vaxt onun daxilində belə bir arzu və ümid qoyulmazdı. Belə ki, əgər xarici aləmdə yemək olmasaydı, insanın batinində aclıq meyli olmazdı; xaricdə su olmasaydı insan susuzluq nə

---

[1] Əbu Cə`fər (ə) buyurur: «Bizim qaimimiz zühur edəndə Allah-taala onun əlini bütün bəndələrin başı üzərinə qoyacaq, onun vasitəsilə onların ağıllarını cəm edəcək, əxlaqları da onun vasitsilə kamala yetəcəkdir.» (Biharul-ənvar 52-ci cild, səh. 328 və 336.

Əbu Əbdillah (ə) buyurur: «Elm 27 hərfdir. Peyğəmbərlərin gətirdikləri hamısı yalnız iki hərfdir. Camaat da indiyə qədər bu iki hərifdən başqa bir şey bilmirlər. Bizim Qaimimiz zühur edən zaman qalan 23 hərfi də çıxaracaqdır, onu camaat arasında yayacaqdır. Onlara iki hərf də əlavə edəcəkdir. (Biharul-ənvar 52-ci cild, səh-336.

olduğunu bilməzdi; nəsil artırmaq mövcud olmasaydı insanın batinində cinsi təmayüllər də olmazdı.

Buna görə də zərurətin (cəbri) hökmü ilə dünyanın gələcəyində elə bir gün olmalıdır ki, o gündə bəşər cəmiyyətində haqq-ədalət bərqərar olunsun, insanlar sülh şəraitində yaşasın, insan fərdləri kamal və fəzilətə qərq olsunlar. Əlbəttə belə bir vəziyyətin bərqərar olunması insanın öz əli ilə baş verəcəkdir və belə bir cəmiyyətin rəhbəri də bəşəriyyətin xilaskarı və rəvayətlərdə deyildiyi həzrət Məhdi olacaqdır. Dünyaya hakim olan məzhəb və dinlərdə, o cümlədən bütpərəstlik, yəhudilik, məsihilik, məcusilik və islamda da bəşəriyyətin xilaskarı olan bir şəxsin barəsində söhbət açılmış və onun zühuruna müjdə verilmişdir. İxtilaf sadəcə olaraq onun xarici nümunəsinin kim olmasındadır. Halbuki hamının qəbul etdiyi hədisə əsasən, Peyğəmbər (s) "Və`dəsi verilən Məhdi mənim övladlarımdandır (mənim nəslimdəndir)" -deyə buyuraraq həmin məsələyə işarə edir.

## *HƏZRƏT MƏHDİNİN ZÜHURU BARƏDƏ XÜSUSİ BƏHS*

Sünnü və şiələrin Peyğəmbərdən (s), eləcə də Əhli-beytdən (ə) həzrət Məhdinin zühur edəcəyi, o həzrətin Peyğəmbərin (s) nəslindən olması və öz zühuru ilə bəşər cəmiyyətlərini həqiqi kamala çatdırıb onlara mə`nəvi həyat verməsi barədə çoxlu hədislər nəql olunmuşdur.

Həzrət Məhdi (ə)-ın imam Həsən Əskəri (ə)-ın övladı olması barədə də çoxlu rəvayətlər nəql olunmuşdur.[1]

Təvəllüddən və uzunmüddətli qeybə çəkildikdən sonra zühur edərək dünyanı züml və haqsızlıqla dolduğu kimi, haqq ədalətlə dolduracaq.

## *BİR NEÇƏ İRAD VƏ ONLARIN CAVABI*

a) Şiələrin müxalifləri e`tiraz edərək deyirlər ki, sizin əqidənizə görə qeybdə olan imamınız indiyə qədər 12 əsrlik bir ömür yaşamalıdır. Halbuki insanın ömrü bu qədər uzun ola bilməz.

**Cavab:** Bu e`tiraz həmin mətləbin qəbul oluna bilməsinin çətin olmasındadır. Əlbəttə, bu qədər və bundan artıq ömür də insan üçün qəribə görünə bilər. Lakin Peyğəmbərdən (s) və Əhli-beyt imamlarından 12-ci imamın qeybə çəkilməsi barədə nəql olunan rəvayətlərə müraciət etməklə aydın olar ki, bu hədislərdə 12-ci imamın həyatı xariqül-adə şəkildə təqdim olunub. Qeyd etmək lazımdır ki, xariqül-adə iş qeyri-mümkün işlərdən tamamilə fərqlənir və onu heç vaxt elm yolu ilə inkar etmək olmaz. Çünki dünyada mövcud olan səbəb və amillərin yalnız bizim gördüyümüz və eşitdiyimiz səbəblərlə məhdudlanmasını və bizim xəbərimiz olmayan, əsər və işlərini görmədiyimiz, yaxud başa düşmədiyimiz səbəblərin mövcud olmadığını heç vaxt isbat etmək olmaz Buna görə də mümkündür ki, bir, yaxud bir neçə nəfərdə müəyyən səbəblər vücuda gəlsin

---

[1] Biharul-ənvar, 51-ci cild, səh 154, 158, 160.

və bu səbəblər də min ildən artıq ömrü onun üçün tə`min etsin. Buna görə də müasir təbabət daha uzun ömürlülüyə yol tapmaq üçün heç vaxt ümidsiz olmamışlar.

Yəhudilər, məsihilər və müsəlmanlar kimi asimani kitablara malik olan, xariqül-adə işləri və peyğəmbərlərin mö`cüzələrini qəbul edən şəxslərin belə e`tiraz etməsi son dərəcə təəccüblüdür.

b) Şiələrin müxalifləri e`tiraz edərək deyirlər ki, şiələr din hökmlərinin bəyan olunması, dini həqiqətləri göstərmək və camaatı düz yola hidayət etmək üçün imamın lazım olduğunu bilirlər; amma imamın qeybə çəkilməsi bu məqsədlə ziddiyyət təşkil edir. Çünki qeybə çəkildiyinə görə heç bir yolla əl tapmaq mümkün olmayan imamın vücudunun heç bir faydası yoxdur. Əgər Allah bəşəriyyəti islah etmək üçün bir imam seçmək istəsə lazım olan vaxtlarda onu yaratmağa qadirdir və bir neçə min il öz vaxtından öncə yaradılan şəxsə heç vaxt ehtiyac olmaz.

**Cavab:** Bu şəxslər imamətin həqiqətini dərk edə bilməmişlər. Çünki imamət bölməsində qeyd olunduğu kimi, imamın vəzifəsi təkcə camaata zahirdə yol göstərib dini maarifin zahirini bəyan etmək deyildir; imam zahirdə yol göstərməyi öhdəsinə almaqdan əlavə, əməllərin batini rəhbərlik və vilayətini də öz üzərinə götürmüşdür. Camaatın mə`nəvi həyatını tənzim edən, əməllərin həqiqətini Allaha tərəf sövq edən də məhz imamdır.

Aydındır ki, imamın bu məsələ ilə əlaqədar cismi cəhətdən hazır və ya qaib olmasının heç bir tə`siri yoxdur. İmam onların cismani gözlərindən qeybdə olmasına baxmayaraq, batin yolu ilə də nəfslərə və camaatın

ruhuna bağlıdır. Onun zühurunun və dünyanı islah etməsinin vaxtı gəlib çatmasa belə, onun varlığı həmişə zəruridir.

## *YEKUN FƏSİL: ŞİƏLİYİN MƏ`NƏVİ ÇAĞIRIŞLARI*

Şiələrin dünya xalqlarına qarşı olan mə`nəvi çağırışları bir cümlədən artıq deyildir. O da "Allahı tanıyın" cümləsidir. Başqa sözlə desək, *"Allahı tanımaq yolunu keçərək xoşbəxt olun və qurtuluşa çatın."* Bu da məhz Peyğəmbərin (s) dünya səviyyəsində olan də`vətini başladığı ilk günlərdə buyurduğu aşağıdakı cümlədir: *"Ey insanlar! Allahı yeganə varlıq kimi tanıyın və e`tiraf edin ki, qurtuluşa çıxa biləsiniz!"*

Bu çağırışın izahında qısa şəkildə deyirik:

Biz insanlar maddi ləzzətlərə və maddi həyatın məqsədlərinə ürək bağlamışıq; o cümlədən ləzzətli yemək-içməklər, gözəl paltarlar, təmtəraqlı saraylar və mənzərələr, gözəl həyat yoldaşı, səmimi dostlar, külli miqdarda sərvət, qüdrət, siyasi məqam, cah-cəlal, rəhbərlik, bizim istəklərimizlə müxalif olan hər bir şeyi məhv etmək.

Biz fitri təbiətimizlə başa düşürük ki, bu qədər ləzzətlər insan üçün yaradılmışdır, amma insan onlar üçün yaradılmamışdır. Onlar insanın ardınca gəlməlidir, nəinki insan onların ardınca getməlidir.

Qarın və ondan aşağıların nəzərdə tutulmasından ibarət olan son hədəf heyvanların, başqalarını yırtıb

dağıtmaq canavarın, bəbrin və tülkünün məntiqidir. İnsan məntiqi isə fitri əql məntiqidir.

Əql məntiqi özünün gerçək nəzəriyyələri ilə bizi müxtəlif növ ürək istəyən şəhvətlərə, xudbinliyə, özünü göstərməyə deyil, məhz haqqa tabe olmağa hidayət edir. Əql məntiqi insanı yaradılış aləminin özündən heç növ istiqlaliyyəti olmayan bir hissəsi hesab edir. İnsanın özünü rəhbər hesab etməsinin, öz gümanına əsasən təbiəti öz inadkar istəkləri qarşısında ram edib onu diz çökürməsinə rəğmən, özü də təbiətin əlində bir alət və onun vasitələrindən biridir. Əql məntiqi insanı də`vət edir ki, bu ötəri dünyadan əldə etdikləri idraka diqqətlə yanaşsın ki, varlıq aləmində olan hər bir şeyin öz-özünə yaranmadığı, dünya və onda olanların hamısının sonsuz bir qüdrət mənbəyindən qaynaqlandığını bilsin; bununla da aydın olsun ki, yerdə və asimanda olan, insanın gözündə gerçəklik kimi cilvələnən bu qədər gözəl və çirkin varlıqlar başqa bir gerçəkliyin sayəsində həqiqətə çevrilir və öz-özünə deyil, məhz onun sayəsində zahir olur. Eləcə də anlasın ki, dünənki əzəmətlər, qüdrət və gerçəkliklər bu gün əfsanədən başqa bir şey deyildir; bu günkü cilvələr də gələcəkdə bu mahiyyəti daşıyacaq. Nəhayət hər bir şey öz nəzərində əfsanədən başqa bir şey deyildir.

Həqiqi gerçəkliyə malik olan yalnız Allahdır ki, heç vaxt fənaya uğramır, hər bir şey Onun varlığında həqiqət rənginə boyanır və Onun müqəddəs zatının ruhu ilə nuraniləşir.

İnsan belə bir idrakla təchiz olunanda bütün varlıq aləmi onun gözləri önündə köpük kimi suyun üzərində

yırğalanır və əyani şəkildə müşahidə edərək görür ki, dünya və onda olanlar qeyri-məhdud həyata, qüdrətə, elmə malik olan bir varlığa arxalanmışlar; insan və dünyanın sair varlıqları sanki müxtəlif qapılara, pəncərələrə bənzəyir ki, hər biri öz tutumu qədərində əbədiyyat dünyasında olan həqiqətləri göstərir.

Məhz belə olan halda insan əsalət və istiqlalı özündən və hər bir şeydən alaraq öz sahibinə qaytarır, ürəyini hər yerdən çəkərək yeganə Allaha qovuşur və Onun əzəməti müqabilində heç nəyin qarşısında tə`zim etmir. Belə olan halda insan Pərvərdigarın vilayəti altında qərar tapır, hər bir şeyi Allahla tanıyır və Onun rəhbərlik və hidayəti ilə pak əxlaq və gözəl əməllərlə özünə zinət verir (bu da fitrət ayinindən ibarət olan islam dini və haqqa təslim olmaqdır).

İnsani kamalın son mərhələsi məhz budur. Kamil insan məqamı – yə`ni ilahi ne`mətlər nəticəsində bu məqama çatan imam, kəsb etmə yolu ilə bu kamala nail olanlar malik olduqları dərəcə ixtilafları ilə imamın həqiqi ardıcılları olur.

Buradan aydın olur ki, imamı tanımaqla Allahı tanımaq məsələsi heç vaxt bir-birindən ayrı deyildir. Eləcə də Allahı tanımaqla insanın özünü tanıması da bir-birindən ayrılmazdır.

Çünki öz məcazi varlığını tanıyan bir şəxs ehtiyacsız Allahın həqiqi varlığını da hökmən tanıyacaqdır.